NÜŞABƏ MƏMMƏDOVA

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ QAFQAZ CƏBHƏSİ

QAÇQINLAR VƏ HƏRBİ ƏSİRLƏR

BAKI – 2019



*Azərbaycan-Türkiyə - bir millət iki dövlət*
**Heydər Əliyev**



*Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimiz*

**Mustafa Kamal Atatürk**

**Elmi redaktor:** **Nərgiz Axundova**
Azərbaycan Milli Elmlər Akademiyasının
həqiqi üzvü, akademik,
tarix elmləri doktoru, professor
AMEA İctimai Elmlər Bölməsinin akademik katibi

**Rəyçilər:** **Elman Nəsirov**
Siyasi elmlər doktoru, professor
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
Siyasi Araşdırmalar İnstitutunun direktoru

**Halil Bal**
Tarix elmləri doktoru, professor
Türkiyə Cümhuriyyəti İstanbul Universiteti
Tarix bölümünün rəhbəri

©NÜŞABƏ MƏMMƏDOVA, 2019

**MÜNDƏRİCAT**

REDAKTORDAN........................................................................................10

GİRİŞ ......................................................................................................11

**I FƏSİL**
**BİRİNCİ DÜNYA MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ BLOK DÖVLƏTLƏRİ VƏ QAFQAZ CƏBHƏSİNDƏ HƏRBİ ƏMƏLİYYATLARIN BAŞLANMASI**

1.1. Birinci Dünya müharibəsi ərəfəsində blok dövlətləri.........22
1.2. Qafqaz cəbhəsində hərbi əməliyyatların başlanması..........27

**II FƏSİL**
**BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ ERMƏNİ FAKTORU VƏ TÜRK QƏTLİAM FAKTLARI**

2.1. Qafqaz cəbhəsində hərbi əməliyyatlar ərəfəsində erməni faktoru ....................................................................37
2.2. Qafqaz cəbhəsində erməni partizan dəstələri .......................43

**III FƏSİL**
**BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN AZƏRBAYCANIN İCTİMAİ-SİYASİ HƏYATINA TƏSİRİ**

3.1. "Tam məxfi" məktublar ..................................................................47
3.2. Gizli komitələr....................................................................................52
3.3. Senzuranın gücləndirilməsi ............................................................55

**IV FƏSİL**
**QAFQAZ CƏBHƏSİNDƏ HƏRBİ ƏMƏLİYYATLARIN BAŞLANMASI İLƏ BAĞLI HƏYATA KEÇİRİLƏN İLKİN TƏDBİRLƏR. HƏRBİ XƏSTƏXANALAR**

4.1. Müharibənin başlanması ilə bağlı Azərbaycanda həyata keçirilən ilkin tədbirlər ....................................................59
4.2. Hərbi xəstəxanaların təşkili ..........................................................67
4.3. "İsmailiyyə" hərbi xəstəxanası ......................................................71

## V FƏSİL
## RUSİYA İMPERİYASINDA QAÇQINLIQ PROBLEMİ VƏ BAŞ QAFQAZ KOMİTƏSİ


5.1. Baş Qafqaz Komitəsinin yaradılması və fəaliyyət proqramı ........ 81
5.2. Baş Qafqaz Komitəsinin əhalinin kömək işinə cəlb olunması ilə bağlı təşkilatçılıq fəaliyyəti ........ 90


## VI FƏSİL
## BAŞ QAFQAZ KOMİTƏSİNİN YELİZAVETPOL QUBERNİYASINDA FƏALİYYƏTİ. YELİZAVETPOL QUBERNİYA KOMİTƏSİ


6.1. Yelizavetpol Quberniya Komitəsinin yaranması və strukturu ........ 95
6.2. Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi işinin təşkili ........ 97
6.3. Qaçqınlara yardım işinin təşkili ........ 109
6.4. Türk qaçqın hüquqları ........ 112
6.5. Qaçqınların seçki orqanlarına qəbulu ........ 116
6.6. Qaçqınlar üçün ərzaq yardımı ilə bağlı problemlər və onların həlli ........ 118
6.7. Qaçqınlar üçün lazaretlərin, tibbi məntəqələrin və ambulator xidmətin təşkili ........ 128


## VII FƏSİL
## AZƏRBAYCAN ƏRAZİSİNDƏ TÜRK QAÇQINLARINA YARDIM İŞİNİN TƏŞKİLİ


7.1. Yardım işinin təşkili ........ 141
7.2. Yardım vaqonlarının təşkili ........ 150
7.3. Ərzaq kooperativlərinin təşkili ........ 152
7.4. "Qardaş köməyi" adlı layihənin təşkili (qəzet, nişan və s.) ........ 154
7.5. Azərbaycan ərazisində qaçqınlara yardım üzrə yerli komitələrin təşkili ilə bağlı qaydalar ........ 163
7.6. Yerli komitələrin təşkili. İrəvan Komitəsi ........ 170

Naxçıvan Komitəsi....177
Yelizavetpol Komitəsi....179
Şamaxı Komitəsi....194
Ağdaş Komitəsi....196
Salyan Komitəsi....198
Quba Komitəsi....199
Şuşa Komitəsi....200
Lənkəran Komitəsi....203
Göyçay Komitəsi....203
Dərbənd Komitəsi....204

**VIII FƏSİL**
**AZƏRBAYCANLI NÜMAYƏNDƏ HEYƏTİNİN QARS VİLAYƏTİNDƏ FƏALİYYƏTİ**

8.1. Azərbaycanlı nümayəndə heyətinin
Qars vilayətinə göndərilməsi....206
8.2.Türk qaçqın hüquqlarının müdafiəsi....216
8.3. Qars vilayətinin müxtəlif ərazilərində yardım işinin
təşkili və qaçqınların siyahıya alınması....232
8.4. Qars vilayətində yardım işlərinin təşkili....242
8.5. Sarıqamış ərazisində yardım işinin təşkili....250
8.6. Ərdahan ərazisində yardım işinin təşkili....253
8.7. Posxov ərazisində yardım işinin təşkili....254
8.8. Van ərazisində yardım işinin təşkili....255
8.9. Batum ərazisində yardım işinin təşkili....256

**IX FƏSİL**
**QARS VİLAYƏTİNDƏ MƏNTƏQƏLƏRİN TƏŞKİLİ: TİBBİ VƏ ƏRZAQ MƏNTƏQƏLƏRİ**

9.1. Tibbi məntəqələrin təşkili....263
9.2. Ərzaq məntəqələrinin təşkili....273
9.3. Ərzaq kooperativləri....280

9.4. Əhalinin iqtisadi durumunun yaxşılaşdırılması
sahəsində görülən tədbirlər ........................................................281
9.5. Aya-Sofi məscidinin bərpası ........................................................284

## X FƏSİL
## TÜRK QAÇQIN UŞAQLARI İLƏ BAĞLI TƏDBİRLƏRİN HƏYATA KEÇİRİLMƏSİ

10.1. Müharibə bölgələrindən yığılan türk qaçqın
uşaqlarının yerləşdirilməsi........................................................285
10.2. Uşaq evlərinin təşkili sahəsində həyata
keçirilən tədbirlər........................................................296
10.3. Uşaq evləri haqqında "Qaydalar" ..........................................304
10.4. Uşaq evlərinin saxlanması ........................................................309
*Bakı uşaq evi*........................................................*317*
*Yelizavetpol uşaq evi* ........................................................*324*
*Şuşa uşaq evi*........................................................*329*
*Şamaxı uşaq evi* ........................................................*333*
*Batum–Çakve uşaq evi* ........................................................*334*
*Kağızman uşaq evi* ........................................................*336*
*Oltu uşaq evi* ........................................................*338*
*Küm-Kümə uşaq evi* ........................................................*341*
*Ərdahan uşaq evi* ........................................................*342*
*Ərzurum uşaq evi*........................................................*343*
*Qars uşaq evi*........................................................*343*
*Tiflis uşaq evi* ........................................................*343*

## XI FƏSİL
## RUSİYANIN ALİ TƏHSİL OCAQLARINDA TƏHSİL ALAN AZƏRBAYCANLI TƏLƏBƏLƏRİN TÜRK QAÇQINLARINA YARDIM İŞİNİN TƏŞKİLİNDƏ ROLU

11.1. Tələbə dəstələrinin təşkili və Qars vilayətinə
göndərilməsi ........................................................355
11.2. Tələbələrin təşkil etdiyi mədəni tədbirlər ..........................358

## XII FƏSİL
## TÜRK QAÇQINLARINA YARDIM MƏQSƏDİLƏ MƏDƏNİ TƏDBİRLƏRİN HƏYATA KEÇİRİLMƏSİ

12.1.Yardım məqsədilə teatr tamaşalarının təşkili ......................361
12.2. Yardım məqsədilə tədbirlərin təşkili ......................................368

## XIII FƏSİL
## RUSİYA İMPERİYASI ƏRAZİSİNDƏ QAÇQINLARA VƏ HƏRBÇİLƏRƏ YARDIM ÜZRƏ AZƏRBAYCAN MİLLİ KOMİTƏLƏRİNİN TƏŞKİLİ

13.1. Peterburq Komitəsi ......................................................................371
13.2. Moskva Komitəsi..........................................................................373
13.3. Orenburq Komitəsi .......................................................................376
13.4. Kazan Komitəsi..............................................................................378
13.5. Yekaterinburq Komitəsi..............................................................380
13.6. Xarkov Komitəsi.............................................................................381
13.7. Həştərxan Komitəsi .....................................................................382
13.8. Vladiqafqaz Komitəsi ..................................................................383
13.9. Tiflis Komitəsi ................................................................................384

## XIV FƏSİL
## TÜRK HƏRBİ ƏSİRLƏRİ

14.1. Nargin adasında türk hərbi əsirləri.........................................389
14.2. Türk hərbi əsirlərinə göstərilən yardım..................................404

Nəticə .......................................................................................................410
İstifadə olunan mənbələr ......................................................................412

## REDAKTORDAN

Elmi ictimaiyyətin diqqətinə təqdim olunan tarix üzrə fəlsəfə doktoru Nüsabə Məmmədovanın "Birinci Dünya müharibəsində Qafqaz cəbhəsi, qaçqınlar və hərbi əsirlər" kitabı çox maraqlı və tarixin ağrılı bir probleminə – I Dünya müharibəsi illərində əsasən qaçqınlar və hərbi əsirlər probleminə həsr edilmişdir.

Monoqrafiyada çoxsaylı arxiv materialları əsasında, əsir düşmüş türk əsgərlərinin yerləşdirilməsi, əsirlərə tibbi yardımın təşkili və bir sıra maraqlı məsələlər işıqlandırılmışdır. Əsirlərin və qaçqınların Qafqazın müsəlman əhalisi ilə əlaqələri, bununla yanaşı, yerli müsəlmanların və hətta xristianların onlara mənəvi və maddi yardım etməsi faktları da kitabda yer almışdır. İmkanlı müsəlmanların, onların intellektual elitasının əsirlərə və qaçqınlara hər cür kömək etməsi, bu məqsədlə müxtəlif komitələrin yaranması da nəzərdən qaçmayıb.



Qaçqınlar, əsasən də çətin vəziyyətə düşmüş uşaqlar üçün uşaq evlərinin yaradılması, onların təminatı məsələləri də kitabda əks olunub, ayrı-ayrı regionlarla bu məsələlərin həlli yolları açıqlanıb.

Ümumiyyətlə, qeyd etmək istərdik ki, əsəri oxuyarkən, belə bir qənaətə gəlmək mümkündür ki, Rusiya imperiyasının müsəlman əhalisi hələ I Dünya müharibəsi ərəfəsində islam dünyasında öz yerini və rolunu müəyyənləşdirməyə cəhdlər etmişdir. Müharibə dövründə isə onlar müsəlman identikliyinə bağlılıqlarını tam şəkildə nümayiş edə bilmək imkanı qazandılar, Türkiyə və onun vətəndaşlarına müsbət münasibət göstərdilər. Müharibə zamanı əsirlər, qaçqınlar və yerli müsəlman türklər səviyyəsində ümumi din və etnik mənsubiyyət əsasında müəyyən yaxınlaşma mümkün olmuşdur.

Bütün bu məqamlar kitabın maraqla oxunmasına, onun elmi dəyərinin qiymətləndirilməsinə səbəb olacaq və düşünürəm ki, tariximizin hələ açılmamış səhifələrə aydınlıq gətirilməsinə kömək edəcək.

***AMEA-nın həqiqi üzvü, akademik Nərgiz Axundova***

# GİRİŞ

Birinci Dünya müharibəsi bir çox cəhətlərdən unikaldır. Bu müharibə dünya tarixində ilk total müharibə, XX əsrin ən qanlı müharibəsi idi. 38 dövlətin və yaxud planet əhalisinin 87 %-nin iştirak etdiyi Birinci Dünya müharibəsi dağıntı və fəlakətlərlə yanaşı, əhalinin demoqrafik göstəricisinə, miqrasiya problemlərinin yaranmasına da öz təsirini göstərmişdir. Hərbi əməliyyatların aparıldığı döyüş bölgələrində dinc əhali, o cümlədən böyük əksəriyyət təşkil edən uşaqlar, qadınlar və yaşlı insanlar yeganə çıxış yolunu öz yaşayış yerlərini, təsərrüfatlarını tərk etməkdə görürdülər. Həmin vaxta qədər dünya tarixində qaçqınlıq Birinci Dünya müharibəsində olduğu kimi geniş və kütləvi xarakter almamışdır. Almaniya və Avstriya–Macarıstan tərəfindən işğal olunmuş Rusiya quberniyalarından qaçqınların sayı 7,4 milyon nəfər olaraq qeydə alınmışdır. Bütövlükdə isə Avropada qaçqınların sayı 12 milyon nəfər idi. Qeyd edək ki, həmin dövrdə dünya əhalisinin sayı 1 milyard 500 milyon nəfər idi.[1]

Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində hərbi əməliyyatların aparıldığı ərazilərdən olan qaçqınların milli tərkibi müxtəlif idi və onların böyük əksəriyyətini türk-müsəlman əhalisi təşkil edirdi.

Rusiya və Osmanlı dövlətlərinin qarşı-qarşıya gəldiyi Qafqaz cəbhəsində əsas hərbi əməliyyatlar - Sarıqamış, Van, Alaşkert, Ərzurum, Trapeezud hərbi əməliyyatları idi. Ağır döyüşlərin aparıldığı bu ərazilərə yaxın olan bölgələrdə

---

[1] Pierre Renouvin. Birinci dünya savaşı tarihi (1914-1918), cild II, Ankara, 1969, s. 384

yaşayan əhalinin müəyyən bir hissəsinin dövlət tərərfindən təhlükəsizlik məqsədilə məcburi köçürülməsi həyata keçirilmişdir. Lakin bununla yanaşı, müharibənin gözlənilməz sınaqları ilə qarşılaşan dinc əhalinin kütləvi qaçqına çevrilməsi, qətliamlara məruz qalması faktları daha üstünlük təşkil edirdi. Qeyd edək ki, apardığımız araşdırmalar sübut edir ki, qaçqınlığa və qətliamlara məruz qalan əhali say etibarı ilə, dövlətin təşkilatçılığı ilə aparılan məcburi köçkünlərdən daha çox üstünlük təşkil edirdi. Eyni zamanda faktlar göstərir ki, bütün diqqət hərbi əməliyyatlara yönəldiyindən məcburi köçürülmə siyasəti uğurlu aparılmırdı.

Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində Qafqaz cəbhəsində qaçqınların milli tərkibi müxtəlif olduğu üçün (türk-müsəlman, yunan, macar, yəhudi, erməni və s.) onların say tərkibi də müxtəlif idi. Hər milli mənsubiyyətə malik qaçqın onlarla iş aparan dövlət qurumu və ya milli komitələr tərəfindən siyahıya alınırdı. Tarixi faktlar Qafqaz cəbhəsində türk-müsəlman qaçqınlarının say etibarı ilə üstünlük təşkil etdiyini göstərir.



Birinci Dünya müharibəsində məcburi köçkün və qaçqın türk-müsəlman əhalisinə kömək üzrə yaradılmış Qars Komitəsinin sədri Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə könüllü-yardımçı dəstələr tərəfindən əhalinin siyahıya alınması həyata keçirilmişdir. Türk-müsəlman qaçqınlarının say tərkibi ilə bağlı olaraq Xosrov Paşa bəy Sultanovun məlumatında yazılırdı: "...Dəftərə qeyd etdiyimizə görə, Qars oblastında 220.000, Batum oblastında 20.000, Sürməli uyezdində 900.000, Diyadində 10.000, Ərzurumda 16.000, Tortum ətrafında Yatab komandanlarının verdiyi məlumata görə, 5.000, Milos ətrafında 20.000 qaçqın və hərbzadə

vardır..."[1] Digər bir mənbədə 1915-ci ilin sentyabr ayında Batum vilayəti üzrə qaçqın türk-müsəlman əhalisinin say tərkibi barədə məlumat verilir. Həmin məlumatda qeyd olunur ki, Batumda 40.000-dən çox, Kutaisidə 15.000, Aşağı Acarda 13.000, Axıskada 3.000, Axalkələkdə 4.000 və digər ərazilərdə müxtəlif saylarda türk qaçqını məskunlaşmışdı.[2] Lakin yuxarıda qeyd olunan bütün tarixi faktlar türk-müsəlman qaçqınlarının dəqiq sayını əks etdirmir.

Apardığımız araşdırmalardan məlum olur ki, türk-müsəlman qaçqınlarının müəyyən hissəsi rus ordusunun hərbi hissələri, həmçinin sanitar və qida dəstələri tərəfindən vaqonlara yığılaraq, Rusiyanın müxtəlif şəhərlərinə göndərilirdi. Həmin uşaqların himayəyə alınması, həmçinin türk qaçqınlarına yardım işinin təşkili məqsədilə Azərbaycanın görkəmli ziyalıları, o cümlədən maarifçı xanımları tərəfindən Rusiyanın bir çox şəhərlərində – Peterburq, Moskva, Orenburq, Kazan, Yekaterinburq, Xarkov, Həştərxan, Vladiqafqaz, Tiflis və digər şəhərlərdə müsəlman milli komitələri təşkil olunurdu. Hər bir şəhərdə yaşayan türk-müsəlmanlar, o cümlədən azərbaycanlılar bu komitənin işində iştirak etməyə və yardım göstərməyə çalışırdılar. Bu, müasir dövrümüzdə xaricdə yaşayan azərbaycanlılar, bütövlükdə türk milləti arasında milli birlik, həmrəylik baxımından mühüm əhəmiyyətli nümunə sayıla bilər.

Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində hərbi əməliyyatların aparıldığı bölgələrdən Azərbaycana 325.000 (üç yüz iyirmi beş min) türk qaçqını, o cümlədən 12.000 (on iki min) uşaq gətirilmişdir. Türk qaçqınlarına yardım etmək məqsədilə Azərbaycanın bütün ərazisində – İrəvan,

[1] Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmaları İnstitutunun Elmi Arxivi, "Qardaş köməyi" dərgisi, 1917-ci il

[2] ARDTA, fond 48, siyahı 1, iş 265

Naxçıvan, Gəncə, Şuşa, Şamaxı, Quba, Ağdaş, Salyan, Lənkəran, Göyçay, Dərbənd və digər ərazilərdə yerli komitələr təşkil olunurdu. Azərbaycanda fəaliyyət göstərən bu komitələrin nəzdində, həmçinin Qars vilayətinin müxtəlif bölgələrində – Ərzurum, Oltu, Ərdahan, Ərzincan və digər ərazilərdə, Rusiya imperiyasının müxtəlif şəhərlərində – Peterburq, Moskva, Orenburq, Kazan, Yekaterinburq, Xarkov və digər şəhərlərdə türk qaçqın uşaqları üçün uşaq evləri açılmışdır. Həmin uşaq evlərində saxlanılanların əksəriyyəti körpələr olmaqla 14 yaşa qədər olan uşaqlar idilər. Tam qayğı ilə əhatə olunan bu məkanda ən vacib amil isə, onlara türk dilində ibtidai təhsil verilməsi idi. Qaçqın türk uşaqlar arasında 9-10 yaşdan yuxarı oğlan uşaqları yox idi. Osmanlı dövləti həmin yaşdan yuxarı olan oğlan uşaqlarını orduya səfərbər etmişdi. Kişilər yalnız çox yaşlı, əli əsalı qocalar idi.



Qaçqınlıq problemi tarixin müxtəlif dövrlərində olduğu kimi, müasir dünyamızda da bəşəriyyətin ən aktual problemlərindəndir. Dünyanın bir çox xalqları yaşadığı tarixi faciəsini, o cümlədən qaçqınlıq tarixinin anım gününü qeyd edir. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 20 iyun tarixi Dünya Qaçqınlar Günü olaraq təsdiq olunmuşdur. Bu tarix acı hislərlə yanaşı, bütün dünyada qaçqınlara qarşı hörmətin beynəlxalq səviyyəli təzahürünə çevrilmiş anım günüdür.

Qaçqınlıq problemi Azərbaycan tarixində də böyük iz qoymuşdur. 1905, 1918-1920, 1948-1953-cü illərdə bəzi havadar dövlətlərin dəstəyi ilə Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində yüz minlərlə azərbaycanlı doğma torpaqlarından məcburi deportasiya olunmuşdur. 1988-1993-cü illərdə isə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalı nəticəsində bir milyondan çox dinc əhali qaçqın və məcburi köçkünə çevrilmişdir.

Monoqrafiyada, Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində siyasi faktorlardan biri olan erməni məsələsi araşdırılmış, türklərə qarşı mübarizədə bir çox dövlətlərin, o cümlədən Rusiyanın əlində alətə çevrilən erməni faktorunun Osmanlı dövlətinin müharibəyə qoşulmasından sonra daha da fəallaşması faktları işıqlandırılmışdır. Müharibənin başlanğıcında Türkiyəyə, türklərə qarşı vuruşmaq, Şərqi Anadolu torpaqlarında "erməni vilayəti" yaratmaq məqsədilə Rusiya imperiyasının bir çox şəhərlərindən könüllü erməni dəstələri Cənubi Qafqaza gələrək, burada silahlandırılıb rus qoşunları tərkibinə qatılırdılar. Türkiyə torpaqlarında türk əhalisinin məhv edilməsi üçün silahlı erməni dəstələri təşkil olunurdu. İngilis tarixçisi Jastin Makkarti qeyd edirdi ki, "onlar yalnız türk olduqları üçün öldürülürdülər"[1]. Bu qətliam faktları 1915-ci ildə son həddə çatmışdır. Baş vermiş hadisələrin şahidi olan, həmin dövrdə türk qaçqınlarına yardım üzrə Qars Komitəsinin sədri Xosrov Paşa bəy Sultanov yazırdı: "...müharibə başlanar-başlanmaz Qarsın üzərinə erməni əhalisi (erməni silahlı dəstələri-N.M.) təcavüzkaranə hərəkata başlayaraq mühafizəsiz müsəlmanları qırmışdılar. Bunlar cümləsinə bir çox iranlı çürükçülər vardı... Sərhəd boyundakı Övləti, Tavus, Qars, Ərdahan, Kil, Çaldır, Artvin və Ardanuç uçastoklarında erməni könüllü dəstələrinin müsəlmanları məhv və tələf etdiyinə dair yüzlərcə misal gətirmək olar"[2].

Arxiv sənədlərindən məlum olur ki, Qars vilayəti ərazisində, Sarıqamış ətrafında xəndəklər qazılaraq, bəzi xəndəklərdə 600, digərlərində 800-ə qədər cəsəd basdırıl-

[1] Маккарти Дж. Маккарти К. Тюрки и армяне, Руководство по армянскому вопросу, Б., Азернешр, 1996, с.68

[2] Xosrov Paşa bəy Sultanov, "Bakı müsəlman cəmiyyəti-xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", Qardaş köməyi dərgisi, 1917-ci il

mışdır. Düşünürük ki, müasir dövrdə tədqiqat aparmaqla bu xəndəklərin üzə çıxarılması uydurma “erməni soyqırımı” məsələsinin aradan qaldırılması istiqamətində bir addım olardı.

1915-ci ildə ermənilərin türk müsəlman əhalisinə qarşı törətdikləri qətliamlar sonrakı illərdə də həyata keçirilmişdir. 1918-ci ildə Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan, həmçinin Türkiyə ərazisində, o cümlədən Ərzincan, Ərzurum, Təpəköy, Təkədərəsi və digər ərazilərdə erməni silahlı dəstələri tərəfindən azərbaycanlılara qarşı törədilən qırğınlar nəticəsində minlərlə insan qətliama məruz qalmışdır.



2007-ci ildə Qubada tikinti-qazıntı işləri aparılarkən, kütləvi məzarlıq aşkar olunmuş, yüzlərlə azərbaycanlının erməni quldur dəstələri tərəfindən amansızlıqla, xüsusi



*Erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlardan görüntü. Quba kütləvi məzarlığı. (1918-ci il)*

qəddarlıqla öldürüldüyü faktı üzə çıxarılmışdır. Həmin ərazidə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Quba Soyqırımı Memorial Kompleksi yaradılmışdır.

Monoqrafiyada, Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində hərbi əsirlərlə bağlı araşdırmalar öz əksini tapmışdır. 1914-1917-ci illərdə təkcə rus ordusu tərəfindən iki milyona yaxın əsgər və zabit əsir alınmışdır ki, onlardan əlli-altmış min nəfəri türk ordusu hərbi əsirləri idi.[1] Türk hərbi əsirləri Rusiya imperiyasının müxtəlif ərazilərində, əsirlər üçün nəzərdə tutulmuş düşərgələrdə (Nargin adası, Sibir və s.) saxlanılırdı. Monoqrafiyada, tərkibində bir nəfər azərbaycanlı xanım – Sona xanım Hacıyevanın olduğu bir qrup azərbaycanlı ziyalı və sahibkarlar tərəfindən Nargın adasından türk zabitlərinin qaçırılması faktı, bununla əlaqədar Bakı Jandarm İdarəsinin açdığı cinayət işi, qaçış əməliyyatında iştirak edən şəxslərin, o cümlədən Sona xanım Hacıyevanın məsuliyyətə cəlb olunması və digər tarixi faktlar işıqlandırılmışdır. Nargində saxlanılan türk hərbi əsirlərinə əhalinin olan münasibəti, qayıqlar vasitəsilə onların ziyarət olunması jandarm idarələrinin "tam məxfi" yazışmalarında öz əksini tapırdı.



Monoqrafiyanın yazılmasında zəngin arxiv materiallarından, nəşr olunmuş mənbələrdən, həmçinin həmin dövrdə Azərbaycan və rus dillərində dərc olunan mətbu orqanları materiallarından geniş istifadə olunmuşdur:

**Qafqaz Canişininin Dəftərxanası Fondu (fond 1).** Bu fondda saxlanılan materiallar əsasında Azərbaycana gətirilən türk qaçqınlarının yerləşdirilməsi faktları işıqlandırılmışdır. Yelizavetpol (Gəncə) quberniyası üzrə türk qaçqınlarının ərazi üzrə siyahısı tərtib olunmuş və s. məsələlər araşdırılaraq işıqlandırılmışdır.

---

[1] Пахалюк К.А. Лагер на острове Нарген (1915-1918 гг.)

**Bakı Şəhər İdarəsinin Dəftərxanası Fondu (fond 46).** Bu fondda saxlanılan materiallar əsasında Birinci Dünya müharibəsinin başlanması, Osmanlı dövlətinin müharibəyə qoşulmasından sonra həyata keçirilən tədbirlər, o cümlədən tibbi heyətin, hərbi xəstəxanaların təşkili, Nargin adasından türk hərbi əsirlərinin – zabitlərin qaçırılması faktı və s. işıqlandırılmışdır.

**Zaqafqaziya Şeyxülislamının dəftərxanası Fondu (fond 288).** Bu fondda saxlanılan materiallar əsasında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Bakı şəhərində türk qaçqın uşaqları üçün uşaq evinin tikilməsi barədə dövlət və hökumət orqanlarına müraciətləri, torpaq sahəsinin ayrılması, Bakı Şəhər İdarəsi ilə bağlanan müqavilə və s. məsələlər işıqlandırılmışdır.

**Müharibədən Zərər Çəkənlərə Kömək üzrə Bakı Quberniya Komitəsi Fondu (fond 334).** Bu fondda saxlanılan materiallardan istifadə etməklə Bakı Quberniya Komitəsinin müxtəlif millətdən olan qaçqın və müharibədən zərər çəkənlərə kömək üzrə fəaliyyəti işıqlandırılmışdır.

**Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Müharibədə Zərər Çəkən və Qaçqın Müsəlmanlara Kömək üzrə Müvəkkilinin Fondu (fond 335).** Bu fondda saxlanılan materiallar əsasında Türkiyə vilayətləri üzrə hərbi idarə rəisinin məlumatları, Qars Komitəsinin fəaliyyəti, ermənilər tərəfindən türk qətliam faktları, Türkiyə sərhədlərindən türk qaçqınlarının, o cümlədən uşaqlarının yığılaraq Azərbaycana gətirilməsi faktları, onların Azərbaycanın müxtəlif ərazilərində yerləşdirilməsinə dair yazışmalar, türk qaçqın uşaqları üçün uşaq evlərinin açılması, həmin uşaq evləri üçün qayda və təlimatlar, uşaq evlərində işçi heyəti, uşaqların sayı, uşaq evlərinin saxlanması və s. materiallar işıqlandırılmışdır.

**Bakı Şəhər İdarəsi Fondu (fond 389).** Bu fondda saxlanılan materiallar əsasında Bakı şəhərində türk qaçqın uşaqları üçün uşaq evlərinin tikilməsi barədə Bakı Şəhər İdarəsinin məruzələri əsasında Bakı Şəhər Dumasının qərarı, torpaq sahəsinin ayrılması, tikinti və s. məsələlər tədqiq olunmuşdur.

**Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti Fondu (fond 421).** Bu fondda saxlanılan materiallar əsasında Yelizavetpol Komitəsi tərəfindən türk qaçqınlarının quberniyanın müxtəlif ərazilərində yerləşdirilməsi, onların sayı barədə məlumatlar, türk qaçqınlarına kömək məqsədilə həyata keçirilən tədbirlər, uşaq evlərinin açılması və saxlanması, yardım məqsədilə müxtəlif tədbirlərin, "Qardaş köməyi" layihəsinin və s. tədbirlərin təşkili işıqlandırılmışdır.

**Bakı Polismeysterliyi Fondu (fond 495).** Bu fondda saxlanılan materiallar əsasında türk qaçqınlarına yardım məqsədilə mədəni tədbirlərin keçirilməsi və s. işıqlandırılmışdır.

**Azərbaycanda inqilab əleyhinə müsavat hökumətinin Xarici İşlər Nazirliyi nəzdində müsəlmanlara aid Zaqafqaziyada rus siyasəti üzrə materialların toplanmasına dair xüsusi komissiyanın Fondu (fond 524).** Bu fondda saxlanılan materiallar əsasında Qafqaz canişini xüsusi şöbəsinin "tam məxfi" yazışmaları işıqlandırılmışdır. Yazışmalarda türk emissarlarının (gizli agentlərinin) sərhədləri keçərək Azərbaycanda türkçülüyün yayılması barədə apardığı gizli təbliğat, Türkiyə ərazisində erməni vilayətinin yaradılması və s. əks olunan məsələlər işıqlandırılmışdır.

Monoqrafiyanın yazılmasında tədqiq olunan dövrdə Azərbaycan və rus dillərində nəşr olunan mətbu orqanlarından, o cümlədən "Açıq söz", "Bəsirət, "İqbal, "Yeni iqbal", "Qardaş köməyi", "Baku", "Kaspi" və digər dərgi və qəzetlərdən

geniş istifadə olunmuşdur. Bu mətbu orqanlarında nəşr olunmuş materiallar əsasında türk qaçqınları barədə gündəlik məlumatlar əldə olunmuş, yardım məqsədilə Azərbaycan ərazisində – Bakı, Gəncə, İrəvan quberniyalarının qəzalarında komitələrin təşkili və fəaliyyəti, Rusiya imperiyasının bir çox şəhərlərində türk qaçqın uşaqlarının yığılması məqsədilə həmin şəhərlərdə Azərbaycan komitələrinin fəaliyyəti və s. məsələlər işıqlandırılmışdır.

Monoqrafiyanın yazılmasında istifadə olunan müxtəlif tarixi qaynaqların az bir qismini ayrı-ayrı illərdə nəşr olunmuş məcmuələrdəki sənədlər və materiallar təşkil edir. Bunların sırasında 1920-ci ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Xüsusi Komissiyası tərəfindən nəşr olunmuş "Документы по русской политике в Закавказьи" adlı məxfi sənədlər toplusu da var. Bu topluda jandarm idarələri, xüsusi şöbələr, dövlət rəsmiləri arasında "tam məxfi" yazışmalarda Türkiyə məsələsi, azərbaycanlı ziyalıların, türk emissarlarının (gizli agentlərinin) fəaliyyəti, türkçülüyün təbliği və s. məsələlər əks olunur.



Monoqrafiyada Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmaları İnstitutunun arxivində saxlanılan, 1917-ci ildə nəşr olunmuş "Qardaş köməyi" dərgisində dərc olunan materiallardan istifadə olunmuşdur. Qeyd edək ki, Azərbaycan–Türkiyə arasında dostluq və qardaşlıq simvollarından birinə çevrilmiş bu dərgiyə mühüm əhəmiyyət verilərək, Azərbaycan Respublikası Milli Məclisinin bir qrup millət vəkillərinin təşəbbüsü ilə 2002-ci ildə, Türkiyə Cümhuriyyəti Türk İşbirliği Koordinasyon Ajansı Başkanlığı və Azərbaycan Respublikası Gəncliyə Yardım Fondu tərəfindən 2013-cü ildə təkrar nəşr olunmuşdur.

Mövzu ilə bağlı tarixşünaslıq araşdırılmış və məlum olmuşdur ki, "Birinci Dünya müharibəsində Qafqaz cəbhəsi:

qaçqınlar və hərbi əsirlər" mövzusu müstəqil tədqiqat obyekti olmamışdır. Bununla belə Birinci Dünya müharibəsi ilə bağlı blok dövlətlər arasında mübarizə bir çox ölkələrin tarixşünaslığında öz əksini tapmışdır.

Monoqrafiya giriş, on dörd fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL
# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ BLOK DÖVLƏTLƏRİ VƏ QAFQAZ CƏBHƏSİNDƏ HƏRBİ ƏMƏLİYYATLARIN BAŞLANMASI

## 1.1. Birinci Dünya müharibəsi ərəfəsində blok dövlətləri

XX əsrin əvvəllərndə dünyanın inkişaf etmiş iki rəqib ittifaqı meydana gəldi: Rusiya, İngiltərə və Fransanın daxil olduğu Antanta və İtaliya, Almaniya və Avstriya-Macarıstanın daxil olduğu Üçlər İttifaqı. Birinci Dünya müharibəsi iki blok arasında münaqişənin nəticəsi idi. Bunun əsasında Almaniya və İngiltərə arasında olan münaqişə dayanırdı ki, bu dövlətlərin bir-birlərinə nəinki iqtisadi, həmçinin müstəmləkə iddiaları var idi.



Böyük dövlətlərin qatıldığı Birinci Dünya müharibəsi, bəşəriyyətin analoqu olmayan qanlı Avropa müharibəsi idi. Müharibə başlayarkən dünya siyasi sistemində öz yeri olan böyük dövlətlər, o cümlədən İngiltərə, Almaniya, ABŞ, Rusiya, Yaponiya, Avstriya-Macarıstan, İtaliya, Türkiyə, Çin və digər dövlətlər iştirak edirdilər. Müharibədə iştirak edən hər iki blokun dövlətləri dünya iddialarını reallaşdırmaq üçün əvvəlcədən xüsusi planlar hazırlamışdılar.

Hərbi əməliyyatların başlanmasına səbəbi, 1914-cü ilin iyununda Saroyevada Avstriya-Macarıstan taxtının varisi Frans-Ferdinanda və onun həyat yoldaşına ediən sui-qəsd oldu. Artıq Avstriya və Serbiya arasında münaqişə artıq alovlanmışdır. Müharibədə Rusiya Serbiyanı müdafiə edirdi. Avstriya-Macarıstan isə Almaniyanı dəstəkləyirdi. 1914-cü il avqust ayının 1-də Almaniya Rusiyaya müharibə elan etdi və bundan bir gün sonra, avqustun 2-də İstanbuldakı alman səfiri Baron fon Vanhenheym ilə Türkiyə Xarici İşlər naziri

Səid Həlim Paşa arasında gizli müqavilə imzalandı. Müqavilədə əks olunan əsas müddəalar aşağıdakılardan ibarət idi: [1]

Müqavilə imzalayan hər iki tərəf Avstriya-Macarıstan ilə Serbiya arasındakı münaqişədə neytral olaraq qalacaqdı;

Rusiya Avstriya-Macarıstan əleyhinə hərbi əməliyyatlara başlayardısa və Almaniya müharibəyə girərdisə, Osmanlı dövləti müharibəyə qatılacaqdı;

Türkiyədə yerləşən alman hərbi heyəti müharibə başlandıqdan sonra türk ordusunda hərbi təlim keçmək məqsədilə qalacaq və Osmanlı hərbi qüvvələrinin idarə edilməsində vəzifə alacaqdı;

Osmanlı torpaqlarına hər hansı hücum olardısa, o zaman Almaniya Osmanlı dövlətini qorumaq məqsədilə hərbi qüvvələrindən istifadə etməli idi;

İki dövlət arasında bağlanan bu müqavilə 1918-ci il 31 dekabr tarixinə qədər qüvvədə olmalı idi; Müddətin sonunda tərəflərdən biri ondan imtina etməzdisə, müddət 5 il artırılmalı idi;

Müqavilə imzalandıqdan sonra bir ay müddətində təsdiq olunmalı idi;

Müqavilə məxfi idi və yalnız qarşılıqlı razılıqla çap edilə bilərdi.[2] Müqavilənin imzalanmasında Türkiyə müdafiə naziri Ənvər Paşa, daxili İşlər naziri Tələt Paşa, ədliyyə naziri Xəlil Paşa iştirak edirdilər.[3]

---

[1] Миллер А.Ф. Очерки новейшей истории Турции, М., Л., Наука, 1948, с. 28-29.

[2] Ключников Ю.В., Сабанин А. Международная политика новейщего времени в договлрах, нотах и декларациях. Ч.II, М., 1926, док. № 4, s. 14-15; Şerafettin Turan, Türk Devrim Tarihi, (İmperatorluğun Göksündən Ulusal Direnişe.), Ankara, Bilgi yayım evi, 1991, s.38-39.

[3] Миллер А.Ф. Очерки новейшей истории Турции, М., Л., Наука, 1948, с. 28-29; Musa Qasımlı Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, Bakı, 2000.



*Ənvər Paşa - Osmanlı İmperiyası tarixində əhəmiyyətli rol oynamış Türk hərbçisi və siyasi xadim. Birinci Dünya müharibəsi illərində Türkiyə hərbi naziri.*



1914-cü il avqustun 2-də İstanbuldakı alman səfiri Baron fon Vanhenheym ilə Osmanlı dövlətinin xarici işlər naziri Səid Həlim Paşa arasında "gizli" müqavilə sənədin imzalanmasından Antanta dövlətlərinin xəbəri yox idi. Həmin gün Türkiyə müharibədə özünü tərəfsiz elan etdi.[1]

Almaniya ilə Türkiyə arasında olan danışıqlar yenidən 1914-cü il avqustun 6-da İstanbulda 2 avqust tarixli müqaviləyə əlavə olaraq yekunlaşdı. Son yekun müqaviləsinə uyğun olaraq, Türkiyə Üçlər İttifaqı tərəfindən çıxış etməli idi və Almaniya Türkiyə qarşısında aşağıdakı öhdəlikləri öz üzərinə götürürdü:[2]

Almaniya Türkiyə hökumətinin Rumıniya və Bolqarıstanla aparılan danışıqlarında yardımçı olmalı idi;

Almaniya ilə Türkiyə arasında olan danışıqlar yenidən 1914-cü il avqustun 6-da İstanbulda 2 avqust tarixli

[1] Миллер А.Ф. Очерки новейшей истории Турции, М., Л., Наука, 1948, с. 29; Musa Qasımlı Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, Bakı, 2000.

[2] Ключников Юрий Вениаминович, Сабанин Андрей Владимирович Международная политика новейшего времени в договорах, нотах и декларациях Ч.II, М., 1926, док. № 10, s. 17-18.

Тем не менее, Россия и здесь продолжала свои усилия в пользу мира. На вопрос германского посла указать, на каких условиях мы еще согласились бы приостановить наши вооружения, министр иностранных дел заявил, что таковым условием является признание Австро-Венгриею, что австро-сербский вопрос принял характер европейского вопроса, и заявление ее, что она согласна не настаивать на требованиях, несовместимых с суверенными правами Сербии.

Предложение России было признано Германией неприемлемым для Австро-Венгрии. Вместе с тем, в Петербурге было получено известие об объявлении Австро-Венгрией общей мобилизации.

В то же время продолжались военные действия на сербской территории, и Белград подвергся новой бомбардировке.

Последствием такого неуспеха наших мирных предложений явилась необходимость расширения военных мер предосторожности.

На запрос по этому поводу берлинского кабинета было отвечено, что Россия вынуждена была начать вооружения, дабы предохранить себя от всяких случайностей.

Принимая такую меру предосторожности, Россия вместе с тем продолжала всеми силами изыскивать исход из создавшегося положения и выразила готовность согласиться на всякий способ разрешения спора, при коем были бы соблюдены поставленные нами условия.

Несмотря на такое миролюбивое сообщение, германское правительство 18/31 июля обратилось к российскому правительству с требованием к 12 часам 19 июля (1 августа) приостановить военные меры, угрожая в противном случае приступить к всеобщей мобилизации.

На следующий день, 19 июля, германский посол передал министру иностранных дел от имени своего правительства объявление войны.

---

№ 4

**Секретное германо-турецкое соглашение о союзе, заключенное в Константинополе 2 августа 1914 года.**

(Уполномоченные: Германии — *Вангенгейм*, Турции — *Саид-Галим*).

1. Обе дог. стороны сохранят нейтралитет в существующем между Австро-Венгрией и Сербией конфликте.

2. В том случае, если бы Россия вмешалась при посредстве действительных военных мер в конфликт и сделала бы, таким образом, необходимым для Германии выполнение своего долга и своих обязанностей союзницы по отношению к Австро-Венгрии, то этот долг и эти обязанности подлежали бы выполнению также и для Турции.

3. В случае войны, германская военная миссия останется в распоряжении оттоманского правительства.

*Ключников Юрий Вениаминович, Сабанин Андрей Владимирович Международная политика новейшего времени в договорах, нотах и декларациях Ч.II, М., 1926*

müqaviləyə əlavə olaraq yekunlaşdı. Son yekun müqaviləsinə uyğun olaraq, Türkiyə Üçlər İttifaqı tərəfindən çıxış etməli idi və Almaniya Türkiyə qarşısında aşağıdakı öhdəlikləri öz üzərinə götürürdü: [1]

Almaniya Türkiyə hökumətinin Rumıniya və Bolqarıstanla aparılan danışıqlarında yardımçı olmalı idi;

Almaniya Osmanlı imperiyasının sərhədlərini elə düzəldəcəkdir ki, Türkiyənin Rusiyanın müsəlmanlar yaşayan əraziləri ilə birbaşa əlaqəsi olsun;

Almaniya Türkiyənin itkilərinin yerinin doldurulmasına kömək edəcəkdir.[2]

Türkiyə tarixçisi Halil Bal yazır ki, "...Almaniya ilə imzalanan bu müqavilə Osmanlı dövlətini diplomatik təklikdən qurtarmaqla, onu savaşa sürükləyən bir faktor olmuşdur"[3].

Müharibə ərafəsində Türkiyə ikitərəfli danışıqların aparılmasını vacib dəyərləndirirdi. İstanbulda alman səfiri Baron fon Vanhenheym ilə imzalanan yekun məxfi müqavilədən bir gün öncə, avqustun 5-də hərbi nazir Ənvər paşa İstanbuldakı rus səfirliyinin hərbi atteşesi Leontyevlə danışıqlara başlamışdı. Bu danışıqlara əsasən Türkiyə tərəfi Rusiyaya müsbət münasibətlərini nümayiş etdirərək. Qafqaz sərhədindəki bütün birliklərini geri çəkəcəklərini və bu

---

[1] Ключников Юрий Вениаминович, Сабанин Андрей Владимирович Международная политика новейшего времени в договорах, нотах и декларациях Ч.II, М., 1926, док. № 10, s. 17-18.

[2] Ключников Юрий Вениаминович, Сабанин Андрей Владимирович Международная политика новейшего времени в договорах, нотах и декларациях Ч.II, М., 1926, док. № 10, s. 17-18.

[3] Halil Bal, Azerbaycan Cumhuriyetinin kurtuluş mücadelesi ve Kafkas İslam Ordusu, İstanbul, 2010, s. 29.

qüvvələrin böyük bir qismini Qərb sərhədlərinə göndərəcəklərini bildirirdi.[1]

Almaniya türk ordusunun hərbi-texniki resursları ilə təmin olunmasına yardım edirdi. Qafqaz cəbhəsində hərbi əməliyyatların başlanğıcında Osmanlı ordusuna hərbi nazir Ənvər Paşa komandanlıq edirdi. Həmin vaxtda ordu ştab rəisi alman generalı F.Bronzart fon Şellendorf idi.

## 1.2. Qafqaz cəbhəsində hərbi əməliyyatların başlanması

1914-cü il oktyabrın 22-dən Osmanlı ordusunda hərbi xidmətdə olan alman admiralı Suşonun komandanlığı altında dənizdə yerdəyişmə bəhanəsi ilə hərbi gəmiləri oktyabrın 29 və 30-da Rusiya donanmasına hücumu ilə müharibə başladı. Noyabrın 2-də Rusiya Türkiyəyə müharibə elan etdi. Osmanlı imperatorluğunun müharibəyə qoşulması ilə bütün qüvvələr Baltikdən Qafqaza qədər uzanmış, Rusiya və Türkiyənin qarşılaşa biləcəyi tək cəbhə olan Qafqaz cəbhəsini hərəkətə gətirmişdir. Bu müharibədə əvvəllər Türkiyənin yaxın müttəfiqi olmuş dövlətlər indi Rusiyanın tərəfində idilər. Noyabrın 5-də Böyük Britaniya və Fransa Türkiyəyə müharibə elan etdi.[2]

1914-cü ilin noyabrında Qafqaz cəbhəsində Türk ordu hissələri aşağıda qeyd olunan ərazilərdə mövqe tutmuşdur: 3-cü ordu tərkibinə daxil idi: Ərzurum və İspir əraziləri üzrə 9-cu korpus, Ərzincan və Kerasund əraziləri arasında

[1] Yusif Hikmet Bayur, Türk inqilabi tarihi, cilt III, 1914-1918. Genel savaşı, Savaşın başından1914-1915 kışına kadar, Ankara, Türk Tarih Kurumu Basımevi, 1983, s.137: Musa Qasımlı Birinci Dünya Müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, Bakı, 2000.

[2] Musa Qasımlı Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, Bakı, 2000, s. 72

10-cu korpus, Van, Ərzurum və İrəvana doğru istiqamətin bir hissəsində 11-ci korpus və 2-ci süvari diviziyası. Həmçinin 1-ci, 2-ci və 4-cü süvari diviziyaları Pasin vadisində yerləşirdi, 2-ci və 3-cü ehtiyat süvari diviziyaları Alaşkert vadisindən Persiya (İran-N.M.) sərhədlərinə qədər uzanırdı. Qara dənizdən Bayazitə qədər 15 sərhəd və bir jandarm batalyonu yerləşirdi.[1] Türk ordusuna həmçinin 8-10 min nəfərdən ibarət könüllü süvariləri daxil idi. N.Q.Korsuna görə onlar kürdlər idilər.[2] Lakin türk ordusu tərkibində yuxarıda qeyd olunan sayda azərbaycanlıların olması faktı istisna deyildir.

1914-cü ilin dekabrın əvvəlinə olan məlumata görə, 3-cü türk ordusu 190 min nəfərdən – 160 batalyon, 128 eskadadan və süvarilərdən ibarət idi.[3] Hər türk batalyonu üç rotadan ibarət idi.

Qafqaz cəbhəsində Osmanlı ordusunun əsas məqsədi, ordu komandanı Ənvər Paşanın tapşırığına əsasən plan üzrə müəyyənləşmişdir. Plana əsasən, türk ordu hissələrinin məqsədi Sarıqamış, Batum, Qars, Ərdahanı ələ keçirmək, Xəzərə daxil olmaq, sonra Orta Asiya ərazilərini Osmanlı dövlətinə tabe etməkdən ibarət idi.[4]



---

[1] Масловский Е. В. Мировая война на Кавказском фронте, 1914-1917 г: стратегический очерк.., Москва: Вече, 2015. s. 432 - 433.

[2] Корсун Н.Г. Первая мировая война на Кавказском фронте.. — Москва: Воениздат НКО СССР, 1946. , s. 23.

[3] Айрапетов О.Р. Кавказский фронт: от Аджарии до Персии, зима 1914 – весна 1915 г. Москва, 2014.

[4] Лудшувейт Е. Ф. Турция в годы Первой Мировой войны 1914-1918 гг. Военно-политический очерк.. — Москва: Издательство Московского университета, 1966. s. 63; Масловский Е. В. Мировая война на Кавказском фронте, 1914-1917 г: стратегический очерк.. Москва: Вече, 2015. s. 81.



**İllorion İvanoviç Vorontsov-Daşkov** *– Rusiya çarının Qafqazda canişini, Qafqaz cəbhəsində rus ordu komandanı, general*



***Nikolay Nikolayeviç Yudeniç*** *Qafqaz cəbhəsində rus ordu komandanı, general, ordu ştab rəisi*



Osmanlı və rus ordusunun qarşı-qarşıya gəldiyi Qafqaz cəbhəsi – Birinci dünya müharibəsi dövründə ən vacib cəbhələrdən biri idi. Qafqaz cəbhəsində rus ordusu öz qüvvələrini əsasən iki istiqamətdə –Qars və İrəvan istiqamətində yerləşdirmişdir. Orduya Rusiya çarının Qafqazda canişini general İllorion İvanoviç Vorontsov-Daşkov komandanlıq edirdi.

Qafqaz cəbhəsində faktiki olaraq bütün orduya Nikolay Nikolayeviç Yudeniç rəhbərlik edirdi. Həmin vaxtda N.N. Yudeniç ordu ştab rəisi vəzifəsində çalışırdı.

Rusiya Qafqaz ordusu hissələri dörd operativ istiqamətdə yer almışdır: Trapezund, Oltu, Ərzurum və İrəvan.[1] Ordu iki qalada yerləşirdi: Qars və Batum.[2] Qafqaz cəbhəsində rus ordusunun əsas məqsədi dəmir yolu xətlərinin və asfalt yollarının saxlanılması, Cənubi Qafqazın sənaye mərkəzlərinin müdafiəsi, Osmahlı ordusunun Rusiya imperiyası ərazilərinə daxil olmasına mane olmaq,[3] həmçinin Ərzurum istiqamətində – Sarıqamış və Oltu hərbi hissələrinə hücum etmək, Bayazit, Alaşkert və Karakal ərazilərini ələ keçirmək, digər dəstələr isə sərhəd xəttini qorumalı idi.[4]



*Birinci Dünya müharibəsində rus ordu hissəsi*

[1] Корсун Н.Г. Первая мировая война на Кавказском фронте, Москва, 1946, s. 20, 22, 98.

[2] Широкорад А. Б. Тысячелетняя битва за Царьград, Москва, 2005, s. 550.

[3] Корсун Н.Г. Первая мировая война на Кавказском фронте, Москва, 1946. s. 20, 22, 98.

[4] Зайончковский А. М. Первая мировая война, Москва, 2015. s. 237.

*Müharibənin başlanğıcında diqqəti çəkən əsas məqamlardan biri erməni silahlı dəstələrinin formalaşdırılması idi. Ordu komandanı, general İ.İ.Vorontsov-Daşkov rus ordusunda hərbiləşdirilmiş erməni dəstələrinin yaradılmasını nəzərdə tuturdu. "Daşnakstyun" partiyasının güclü təsiri ilə, Tiflisdə yerləşən erməni milli şurası tərəfindən erməni drujinaları təşkil olunurdu. Erməni milli hərəkatının rəhbərlərinin təşkilatçılığı ilə 25 min nəfər erməni könüllüsü rus ordusuna cəlb olunmuşdur.* [1] *Onlar içərisində görünən fiqurlardan biri Osmanlı bankını qarət edən Qareqin Pastermacan (Armen Qaro) idi.* [2] *Birinci Dünya müharibəsinin başlanması ilə Rusiyanın daşnakların amnistiyası haqqında elandan sonra Armen Qaro rus ordusu tərkibində könüllü erməni drujinalarının yaradılması və formalaşması istiqamətində aktiv fəaliyyətə başladı. Anadoluda yaşayan ermənilər Rusiyadan dəstək alaraq silahlanırdılar.*[3] *1914-cü ilin sonunda 9 min əsgər və zabitdən ibarət 4 drujina yaradılmışdı. Onlar Qafqaz cəbhəsinin müxtəlif sahələrində ordu ilə birgə hərəkət edirdilər. 1916-cı ilin ikinci yarısında könüllü erməni drujinaları buraxıldı və onun yerində xüsusi batalyonlar yaradıldı.*



1914-cü ilin noyabrında Rusiya güclü bir ordu ilə Ərzurum istiqamətində hücuma başladı. Osmanlı ordusu ilə rus qoşunları arasında Körpüköy və Azap yaxınlığında döyüşlərdə türk ordu hissələri qalibiyyət qazanmışdı. Bundan sonra Osmanlıların başladığı Sarıqamış hərəkatı cəbhədə strateji sonluq olması üçün hədəfə alınmışdır. Bu döyüşdə Osmanlı

[1] Donald Bloxham. The great game of genocide, Oxford University, 2005. s. 72-73.

[2] Donald Bloxham. The great game of genocide, Oxford University, 2005. s. 72-73.

[3] Bloxham. The great game of genocide: imperialism, nationalism, and the destruction of the Ottoman Armenians. s. 71-75.

dövlətinin planı geopolitik baxımdan Rusiyanı Qafqaz boyu Xəzər dənizinə qədər hədəfə almışdır. Bunun sayəsində Şimali Qafqaz, Şimali İran və Xəzərdə müsəlman türkləri üzərində təsir yarada bilərdi. Lakin 1915-ci ilin yanvarında Rusiya Qafqaz cəbhəsində hücum əməliyyatını ələ keçirərək Trabzon, Ərzincan, Muş, Bitlis və Van ərazilərini işğal etdi.[1] Beləliklə, döyüşlər artıq Osmanlı torpaqlarında cərəyan edirdi.




***Qafqaz cəbhəsində hərbi əməliyyatların xəritəsi***

[1] Burak Çınar, Birinci Dünya Savaşı'nda Osmanlı Jeopolitiğinin Rolü Role of the Ottoman Geopolitics During the First World War, 2014, s.10-11.

**Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində əsas hərbi əməliyyatlar:[1]**

*Cədvəl 1*

| Əsas hərbi əməliyyatlar | Başlanma tarixi | Yekun tarixi |
|---|---|---|
| Sarıqamış hərbi əməliyyatı | 22 dekabr 1914 | 17 yanvar 1915 |
| Van hərbi əməliyyatı | 19 aprel 1915 | 16 may 1915 |
| Alaşkert hərbi əməliyyatı | 09 iyul 1915 | 03 avqust 1915 |
| Ərzurum hərbi əməliyyatı | 10 yanvar 1916 | 16 fevral 1916 |
| Trapeezud hərbi əməliyyatı | 05 fevral 1916 | 15 aprel 1916 |

Müharibə ərəfəsində Rusiya və Osmanlı dövlətləri arasında ən böyük hərbi döyüş Sarıqamış hərbi əməliyyatı oldu. Sarıqamış hərbi əməliyyatı böyük bir ərazidə – Ərzurum, Batum, Ərdahan, Qars, Kağızman sərhədlərində həyata keçirilirdi.[2] Osmanlı dövlətinin hərbi naziri Ənvər Paşanın hazırladığı plana əsasən, Sarıqamışa iki istiqamətdən–Sarıqamış və Allahuəkbər dağlarından hücum edərək Qafqazda rus qoşunlarına zərbə endirməli idi. 1915-ci il yanvarın ilk günlərində 125 minlik türk ordusu, strateji yüksəkliklərdən aşaraq plana əsasən iki istiqamətdən hücuma keçdi. Vəziyyət elə bir vaxta təsadüf edirdi ki, Osmanlı ordusuna ərzaq, döyüş sursatı və geyim əşyaları gətirən gəmiləri rus ordu hissələri Qara dənizin sularında batırmışdı. Yaranmış tarixi şərait, mövcud imkanlar türk ordusunun inamını sarsıtmadı, lakin məğlubiyyət qaçılmaz idi.

1915-ci il yanvarın 18-də Osmanlı dövlətinin tarixi səhifəsinə Sarıqamış faciəsi yazıldı. Sarıqamış hərbi əməliyyatında

[1] Корсун Н.Г., Кавказский фронт Первой Мировой войны, Москва, 2004.

[2] Корсун Н.Г., Кавказский фронт Первой Мировой войны, Москва, 2004, s. 8.



*Birinci Dünya müharibəsində Osmanlı ordusu*



türk ordusunun bir hisəssi döyüşərək şəhid oldu, digər hissəsi isə əsir alındı. Hərbi əməliyyatların aparıldığı ərazilərdə kəndlər, yaşayış sahələri dağıdıldı, minlərlə insan evsiz-eşiksiz qaldı, didərgin düşdü, bir çoxları qışın sərt soyuğuna dözməyərək məhv oldu.

## Sarıqamış hərbi əməliyyatının nəticələri: (22 dekabr 1914 – 17 yanvar 1915)

*Cədvəl 2*

| **Sarıqamış hərbi əməliyyatının başvermə tarixi** | |
|---|---|
| 22 dekabr 1914 | 17 yanvar 1915 |
| **Ordu başçıları** | |
| ***Rusiya*** | ***Türkiyə*** |
| Vorontsov-Daşkov, Nikolay Yudeniç | Ənvər Paşa, Hafiz Haqqı Paşa |
| **Tərəflərin hərbi qüvvəsi** | |
| ***Rusiya*** | ***Türkiyə*** |
| 100.000 nəfər | 120.000 nəfər |
| **İtkilər** | |
| ***Rusiya*** | ***Türkiyə*** |
| 30.000 nəfər | 90.000 nəfər |

Sarıqamış hərbi əməliyyatının məğlubiyyətindən sonra əsir götürülmüş minlərlə türk əsgəri Rusiya imperiyasının müxtəlif ərazilərinə – əsirlər üçün düşərgələrə göndərildi. Həmin dövrün görkəmli ziyalılarından olan Nağı bəy Şeyxzamanlı öz xatirələrində yazırdı: "...Əsirlər ruslar tərəfindən dərhal vaqonlara doldurularaq Sibirə göndərilirdilər. Yolda ruhlarını Tanrıya təslim edən yaralı və xəstə əsgərlərin cəsədləri yol boyundakı dəmiryolu stansiyalarında qatar dayandırılaraq xalqa verilir və xalqımız da onları göz yaşları içində dəfn edirdi"[1]. Hal-hazırda Bakıda, Gəncədə və digər ərazilərdə qorunub saxlanılan türk şəhid məzarları hər gün onlarla insan tərəfindən ziyarət olunur, onların xatirələri dərin ehtiramla anılır. Türk şəhid məzarları arasında, 1918-ci ildə yeni yaranmış Azərbaycan dövlətinin ərazi bütövlüyü uğrunda şəhid onların məzarları da vardır.

Sarıqamış hərbi əməliyyatında Osmanlı dövlətinin məğlubiyyətə uğraması Qafqaz cəbhəsi döyüşlərində dönüş nöqtəsi yaratdı. Ağır hərbi itki verən türk ordusu Ərzurum, Şərqi Anadolu və Qaradəniz sahilində rus ordusuna qarşı müdafiə gücünü itirirdi. Digər tərəfdən, türk ordusunun qalan bütün qüvvələri Çanaqqala döyüşlərinə yönəldiyindən, Şərqi Anadolu və Qara dəniz sahilı rus işğalına məruz qaldı.[2] Sarıqamış hərbi əməliyyatının məğlubiyyəti türk ordusuna əks-təsir – birləşmə və güclənmə təsiri yaratdı. Bu özünü Çanaqqala hərbi əməliyyatında təsdiqini tapdı.

Çanaqqala hərbi əməliyyatı türk ordusuna dünyaya öz döyüş əzmini sübut etmək imkanını verdi. Birinci Dünya

[1] Nağı Keykurin, Nağı bəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri, B., 2007, s. 27-28.

[2] Rus işğalı haqqında bax: Birinci Dünya harbində türk harbi, Kavkaz cebhesi 3, Ankara, 1993, c. I-II.

müharibəsini qalib şəkildə bitirmək istəyən İngiltərə və Fransa qüvvələrinin öz gəmiləri ilə Çanaqqala boğazını keçib İstanbulu almaq planı uğursuzluqla nəticələndi. Osmanlı ordusu İngilis və Fransız donanmalarına qarşı Çanaqqala boğazında aylarla sürən silsilə dəniz və quru döyüşləri apardı. 250.000 türk əsgərinin şəhid olduğu bu döyüşlər nəticəsində ingilis və fransız donanmaları ağır itkilər verərək geri çəkilmək məcburiyyətində qaldı. Çanaqqala döyüşlərinin dənizlə əlaqədar hissəsi 18 mart 1915-ci il tarixində düşmən gəmilərinin geri çəkilmələri ilə nəticələndi. Türk ordusu Çanaqqala zəfəri ilə tarixdə böyük bir iz  qoydu.

# II FƏSİL
# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ ERMƏNİ FAKTORU VƏ TÜRK QƏTLİAM FAKTLARI

## 2.1. Qafqaz cəbhəsində hərbi əməliyyatlar ərəfəsində erməni faktoru

Birinci Dünya müharibəsi illərində Qafqaz cəbhəsində aparılan hərbi əməliyyatlarda erməni faktoru istisna deyildi. Müharibədə ermənilər öz niyyətlərini həyata keçirmək üçün qüvvələrini səfərbərliyə alaraq, çar Rusiyası qoşunları ilə birlikdə Türkiyəyə qarşı amansız cəbhə tutdular. Onlar türk, hətta rus və İran hakimiyyətindən qurtularaq müstəqil bir Ermənistan yaratmaq üçün hərəkətə keçdilər. İxtilaf dövlətləri həm imperiya daxilində, həm də xaricdəki erməniləri silahlandırıb onlara müstəqillik vəd edərək, Osmanlı dövlətini qısa vaxt ərzində parçalamaq məqsədilə fəaliyyətlərini artırmışdılar.



Türkiyənin müharibəyə qoşulması ermənilərin silahlı dəstələrinin yaradılaraq döyüşlərə göndərilməsini və yerlərdə bu kimi yeni dəstələrin təşkil edilməsi üçün ianə toplanmasını daha da gücləndirdi. Bu tədbirə tək Cənubi Qafqaz ərazisində deyil, bütün Rusiya imperiyasi ərazisində yaşayan ermənilər qoşuldular. 1914-cü il oktyabrın 30-da erməni könüllülərinin ilk dəstəsi türklərə qarşı vuruşmaq üçün Odessadan Qafqaza gəldi. Həmin dəstələrin tərkibində 135 nəfər var idi.[1] İkinci qrupun tərkibinə isə 1000 nəfərə qədər erməni daxil olmuşdu. 1914-cü il noyabrın 5-də Bakıdan 80, noyabrın 6-da isə 120 nəfərlik erməni dəstələri türklərə qarşı

[1] Kaspi qəzeti, 8 noyabr 1914-cü il, № 249.

döyüşmək üçün cəbhəyə yola düşdü. Qısa müddət ərzində Qafqazda 18 yaşdan 40 yaşadək olan ermənilərin səfərbərliyi keçirildi. Yeni-yeni silahlı dəstələr yaradıldı.[1] "Kaspi" qəzeti 1914-cü il saylarının birində yazırdı: "Erməni azadlıq hərəkatının veteranı, az qala Türkiyə ermənilərinin əfsanəvi qəhrəmanı olan Andronik indi türk ordusunun arxasında əməliyyat keçirən bütün erməni könüllü dəstəsinin başçısıdır". Erməni tarixçisi Lalayan etiraf edirdi ki, Daşnaksütyun partiyası 10.000 könüllünü Türkiyəyə qarşı döyüşə göndərmişdi.[2]

Rusiyanın Osmanlı dövlətinə qarşı müharibə elan etməsindən əvvəl, "...Ermənilər ən kiçik tərəddüd göstərmədən ittifaq dövlətlərinin yanında yer almışdılar, ayrıca könüllü alayları təşkil etmişdilər".[3] Bunun səbəbi isə hələ 1914-cü il sentyabrın 17-də Rusiya imperatoru II Nikolayın Osmanlı imperiyası ərazisində yaşayan erməni əhalisinə müraciəti olmuşdu. Müraciətdə qeyd olunurdu ki, onlar (ermənilər) çar hakimiyyəti altında birləşsinlər. Bu müraciət "Böyük Ermənistan" yaratmaq arzusunu həyata keçirməkdən ötrü erməni liderləri arasında böyük ümid yaratdı. İmperator xüsusilə qeyd edirdi ki, "sülh danışıqlarına qədər erməni məsələsi razılaşdırılacaq".[4]

Bu çağırışdan ermənilər faydalandı. Onlar istər rus ordusu tərkibində, istərsə də Türkiyəyə qarşı olan digər



---

1 Kaspi qəzeti, 8 noyabr 1914-cü il, № 249.

2 Musa Qasımov, Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, Bakı, 2009, s. 214.

3 İsmet Binark, Ermenilərin türklere yaptıkları mezalim və soykırımın arşiv belgeleri. Ankara, 2001, s. 16-17.

4 Хаджар Вердиева, Первая мировая война и беженцы–мусульмане Кавказа, "İrs" jurnalı, № 2 (44), 1910.

dövlətlərin tərkibində yer almaqla öz məqsədlərini həyata keçirməyə çalışırdılar.

Cənubi Qafqazda azərbaycanlıların və gürcülərin heç bir etnik hərbi hissələri olmadığı halda 1915-ci ildə Qafqazda rus qoşunları hissələrində 9 erməni alayının yaradılması mümkün olmuşdu. Bununla da Cənubi Qafqazda hərbi-siyasi şəraitə təsir göstərmək üçün erməni millətçiləri çox güclü bir vasitəyə malik olmuşdular.

Səfərbərlik elan edildikdə, hazırlıqlarını tamamlayan erməni komitələri Qafqazdakı könüllü alayları ilə birlikdə rus ordusunun öncül qüvvətləri olaraq hərəkətə keçdilər. Van və Muş komitələri müsəlmanlara qarşı fəaliyyətləri ilə rus ordusunun irəliləməsini asanlaşdırmaq, Osmanlı ordusunu arxadan vurmaq məqsədilə fəaliyyətə başladı.[1] Qafqaz cəbhəsində erməni faktoru öz niyyətlərini tətbiq etmək üçün bir gücə çevrilmişdi ki, törədilən türk qətliam faktları məhz bu güc sayəsində həyata keçirildi.

1915-ci ilin yanvarın əvvəllərində, Sarıqamış döyüşlərində tərkibində erməni alayları olan rus ordusu Qars kəndlərini darmadağın etmiş, buranın türk müsəlman əhalisinə qarşı soyqırımı həyata keçirmişdilər. Bu kəndlərdə sağ qalan 22.000 türk əhalisinə "Bakı müsəlman xeyriyyə cəmiyyəti" tərəfindən yardım olunmuşdur.[2]

1915-ci ilin əvvəllərində itkilərlə bağlı Türkiyə tarixçisi Cem-Ender Arslanoğlu yazırdı: "..1914-cü ilin dekabrı və 1915-ci ilin yanvar aylarında rusların Ərdahan qırğını şəhidləri. 19 yanvar 1915-ci il tarixdə Üçüncü ordumuzun donarak əldən çıxma fəlakətiylə bitən Sarıqamış hərəkatında

---

[1] Azmi Süslü, Ermeniler ve 1915 Tehcir olayı, Ankara, 1990, s. 71.

[2] Cem-Ender Arslanoğlu, Kars şehitliklerimiz ve mehmetgiğimiz, Ankara, Türkiye Anıtlar Derneği, 1986, s. 57.

60 min şəhid, 7 min əsir, 30 mindən çox xəstə və yaralı verdik. Ruslar isə Qars əhalisindən 40 min türkü çoluk- çocuk demədən üç ay boyunca soyqırım ilə yox etdilər. Beləcə ordumuzla yerli əhalidən 1915-ci ilin əvvəllərində 137 min qurban verdik”. [1]

Rus ordusu tərkibində xüsusilə erməni alaylarının fəaliyyəti nəticəsində törədilmiş qətliyamından Goruh vadisinin 52 min əhalisindən, 7 min nəfər qala bilmişdi.[2] “Açıq söz” qəzetinin yazdığına görə, Ərdahan bölgəsində 14, Şevşatda 42 kənd yerlə-yeksan edilmiş, Artvin bölgəsində 30 mindən çox əhali, tərkibində erməni drujinaları olan rus ordusunun etdikləri qətliyama məruz qalmışdır. 100-dən çox kənd tamamilə boşalmış, evlər dağıdılmışdır.[3] Artvin, Ardanuc, Borcka və ətraf ərazilərdə rusların etdikləri qətliyamlar o qədər böyük olmuşdur ki, bölgə əhalisinə yardım etmək istəyən “Bakı müsəlman xeyriyyə cəmiyyəti”nin təmsilçiləri, bölgənin bir çox yerlərində yardım etmək üçün bir nəfər tapmamışdılar.[4] Bu qətliyamlar Çıldır, Oltu və ətraf yerlərdə də davam etmişdir. Oltunun Havdos kəndinin əhalisi tamamilə, Terpinik kəndləri və Tavıskər xalqının böyük hissəsi ermənilər tərəfindən qətliyama məruz qalmışdır.[5]



---

[1] Cem-Ender Arslanoğlu, Kars şehitliklerimiz ve mehmetgiğimiz, Ankara, Türkiye Anıtlar Derneği, 1986, s. 276.

[2] Betül Aslan, Kardaş Kömeği (Yardımı) ve Bakü Müslüman Cemiyet-i Hayriyesi, Ankara, 2000, s., 76.

[3] Açıq söz, 1 dekabr 1915, № 49.

[4] Xosrov Paşa bəy Sultanov, “Bakı müsəlman cəmiyyəti xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti”, Qardaş köməyi, Bakı, 1917.

[5] Betül Aslan, Betül Aslan, Kardaş Kömeği (Yardımı) ve Bakü Müslüman Cemiyet-i Hayriyesi, Ankara, 2000, s. 76.

Ermənilər kişiləri öldürmüş, qadınları əsir almış, uşaqları ailələrinin gözləri önündə parçalamışdılar.

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin Qars vilayəti üzrə təmsilçisi Xosrov Paşa bəy Sultanov Rusiya ilə Türkiyə sərhədləri boyunca Oltu, Kağızman, Tavas, Qars, Ərdahan, Çölə, Çıldır, Artvin və Ardanuç bölgələrində rus ordusundakı erməni könüllü dəstələrinin müsəlmanları qırıb, məhv etmələrinə yüzlərcə milsal gətirə biləcəyini yazmışdır.[1]

Rus ordusu önündə Oltu, Sarıqamış və Kağızman bölgələrinə yerləşdirilən erməni könüllü dəstələri, müharibə başladığı zaman top və tüfənglərlə təchiz edilərək Narman, Kötək, Pasinlər, Qarakilsə, Bəyazid istiqamətində bütün kəndləri yağma və talan etdikləri kimi, beşikdəki uşağa qədər qətlə yetirmişdilər.[2] Ərzurumun işğalında da ermənilər görünməmiş qətliyamlar törətmişdilər. İşğala məruz qalan kəndlərdən qaçan əhalinin III Ordu komandanlığına verdiyi məlumata görə, "Rus əsgərləri və özəlliklə erməni ərləri canicə və vəhşicə işlər törətmişlər: gənc, uşaq və qızları qaçıraraq bilinməyən yerə götürmüşlər, mallarını yağma etdikləri kimi, zaman-zaman soyqırım etmişlər".[3]

Türkiyə sərhədlərində baş verən döyüşlərdə yüz minlərlə bölgə əhalisi zərər görmüş, minlərlə uşaq yetim qalmış, minlərlə insan qətliyam edilmişdir. Bölgə əhalisinin müəyyən bir hissəsinə dağıdılmış xarabalıqlar üzərində yardım

---

[1] Xosrov Paşa bəy Sultanov, "Bakı müsəlman cəmiyyəti xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", Qardaş köməyi, Bakı, 1917, s. 44: Betül Aslan, Kardeş kömeği, s., 77.

[2] Betül Aslan, Betül Aslan, Kardaş Kömeği (Yardımı) ve Bakü Müslüman Cemiyet-i Hayriyesi, Ankara, 2000, s., 77.

[3] Betül Aslan, Betül Aslan, Kardaş Kömeği (Yardımı) ve Bakü Müslüman Cemiyet-i Hayriyesi, Ankara, 2000, s., 77.

olunmuş, müəyyən bir hissəsi Türkiyənin digər ərazilərinə, digər bir hissəsi isə Qafqazın müxtəlif bölgələrinə qaçmaq məcburiyyətində qalmışdılar. Yollara düşən bu insanların bir çoxu aclıq, soyuq və xəstəliklərdən məhv olmuşdular. Qaça bilməyən, işğal edilən bölgələrdə qalan insanlar isə daha böyük fəlakətlərlə qarşı-qarşıya qalmışdılar. Hər işğal edilən bölgədə, türk əhalisi, ermənilərin həyata keçirdikləri qətliyamlarla, vəhşiliklərlə üz-üzə qalmışdılar.[1]

Qars vilayətində yaranmış vəziyyətlə bağlı, həmin ərazilərdə baş verən hadisələrin canlı şahidi olmuş və gördüklərini qələmə alan, görkəmli yazıçı Ömər Faiq Nemanzadə "İqbal" qəzetinin 1915-ci ilə aid saylarının birində yazırdı: "Axalkələkdən Ərdahana, Oltuya gedin. Uzun şose yolu müsibətin başlanğıcı olan Zazola kəndindən Oltuya 150-200 verstdir... Oralarda yüzlərcə müsəlman kəndi uzaqdan birər qaraltı kimi görünəcəkdir. Bir az da qabağa gedin... Kənddə insan qalmadığını, bu xarabaların tütünsüzlüyündən anladınızmı? Köyün aşağı tərəfində beş-on gün əvvəl yandırılan evləri əski xarabamı sandınız? ...Kəndə yaxınlaşdığca orda-burda qarlarla örtülmüş çıxıntılar nəzərinizi cəlb edəcəkdir...təbiət bura müsəlmanlarının minlərcə şəhid ediləcəyini bilib hamısı üçün bu yumuşaq qalın qardan ümumi kəfən hazırlamış, külək ruzigar vasitəsilə onları, o qurbanları bacardığı qədər gömmüş, basdırmışdır".[2] Bütün bunlar – kəndlərin yerləyeksan edilməsi, əhalinin qətliyam edilərək qar altında qalması faktları, türk müsəlman əhalisinin soyqırımına məruz qalmasına bir sübutdur.



---

[1] Betül Aslan, Betül Aslan, Kardaş Kömeği (Yardımı) ve Bakü Müslüman Cemiyet-i Hayriyesi, Ankara, 2000, s., 78.

[2] "İqbal" qəzeti, 21 yanvar 1915, N 844; Ömər Faiq Nemanzadə, Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1992, s. 211.

Erməni komitələri və erməni silahlı dəstələrinin fəaliyyətləri, kəndlərdə və qəsəbələrdə qətliyamlar etmək, evləri yandırmaq, cəbhədən dönən yaralıları, əsgərləri qətlə yetirmək, ictimai yolları ələ keçirmək, erməni könüllülərindən silahlı dəstələr təşkil edərək cəbhə arxasında Osmanlı ordusunu vurmaq kimi cinayətkar fəaliyyətlərini həyata keçirmişdilər.

Rus ordusu tərkibində erməni könüllü dəstələrinin etdikləri qətliyamlar o qədər ağır olmuşdur ki, rus komandanlığı bəzi erməni birliklərini cəbhədən uzaqlaşdıraraq, geri çəkilmək məcburiyyətində qalmışdır. Rus ordusunda qulluq edən bəzi əsgərlərin xatirələri bu zülmü bütün acıqlığıyla tərənnüm etmişlər.

Beləliklə, ilkin mənbələr, əldə olunan məlumatlar son illərdir bütün Avropa və dünya kütləvi informasiya vasitələrini zəbt etmiş qondarma "erməni soyqırımı" iddiasının doğru olmadığını sübut edir.



## 2.2. Qafqaz cəbhəsində erməni partizan dəstələri

Müharibənin başlanğıcında Qafqaz cəbhəsində hərbi əməliyyatların Osmanlı dövləti üçün uğursuz olması, erməni partizan dəstələrinin fəallaşmasına səbəb oldu. 1914-cü ilin noyabrında Van ətrafında silahlandırılmış erməni dəstələri rus qoşun hissələrinə qatılırdı. Onlar rus qoşunlarına Bəyazit və digər şəhərlərin ələ keçirilməsində fəal kömək edirdilər.[1]

Müharibənin başlanğıcında Şərqi Anadoluda yaradılmış erməni silahlı dəstələri dərhal fəaliyyətə başlamışdı. Jastin Makkarti yazırdı ki, digər ermənilərdən ibarət dəstələr isə

[1] Хаджар Вердиева, Первая мировая война и беженцы –мусульмане Кавказа, "İrs" jurnalı, № 2 (44), 1910.

Rusiya imperiyasının ərazisinə keçərək, artıq burada yaradılmış erməni partizan dəstələrinə qoşulurdular. O, Sivas vilayətində 30.000 erməni partizanı cəmləşmişdiyini, Anadolu və rus ermənilərindən ibarət 100.000-dən çox partizan və döyüşçünün Anadoluda türk ordusuna qarşı mübarizə aparması barədə faktlar gətirirdi. [1] Onlar terrorçu fəaliyyət göstərirdi.



***Vanda erməni dəstələrinin səngərlərindən***

Türk əhalisinə, türk dövlərinə qarşı yaranmış tarixi vəziyyət, erməni xəyanəti Türkiyə dövlətini ciddi tədbirlər görmək məcburiyyəti qarşısında qoydu. Şərqi Anadoluda erməni partizan dəstələrini təhlükəsizləşdirmək, erməni üsyanlarının qarşısını almaq məqsədilə Osmanlı hökuməti

[1] Джастин Маккарти, Каролин Маккарти, Тюрки и армяне, Руководство по армянскому вопросу, Перевод с английского, Азербайджанское государственное издательство, Баку, 1996, 68.

həmin ərazidən ermənilərin deportasiya olunması haqqında Qanun qəbul etmək məcburiyyətində qaldı. 27 may 1915-ci ildə ermənilərin köçürülməsi ilə bağlı "Tehcir Qanunu" qəbul olundu.[1] Qanunun tətbiqi bir ay sonra həyata keçirildi. Bu müddət ərzində Osmanlı dövləti rəsmi olaraq ermənilərin həyat və mülkiyyətinin mühafizəsi məqsədilə xüsusi göstəriş vermişdi. Köçürülmələrin əsas prinsipi partizan hərəkatı ilə mübarizə aparmağın bir vasitəsi idi. Partizanlar təchizat, dəstək, yer baxımından yerli əhalidən asılı idilər. Ermənilərin köçürülməsində əsas məqsəd partizan dəstələrinə köməyi uzaqlaşdırmaq idi.[2]


تقويم وقايع

*"Təhcir Qanunu"nun orijinal mətni*

[1] Маккарти, Каролин Маккарти, Тюрки и армяне, Руководство по армянскому вопросу, Перевод с английского, Азербайджанское государственное издательство, Баку, 1996.

[2] Маккарти, Каролин Маккарти, Тюрки и армяне, Руководство по армянскому вопросу, Перевод с английского, Азербайджанское государственное издательство, Баку, 1996.

Ermənilərin köçürülməsi ilə bağlı "Tehcir Qanunu"nun birinci maddəsində ordu komandanlığına, müharibə ərəfəsində hökumətin əmirlərinə, ölkənin müdafiəsinə və sabitliyin qorunmasına qarşı çıxanların, silahlı üsyan və ya hücum edənlərin dərhal hərbi nəzarət altına alınacağı bildirilir, həmçinin casusluq və vətənə xəyanət etdikləri anlaşılan kənd və qəsəbə əhalisini tək-tək və ya toplu halında digər yerlərə köçürülməsini nəzərdə tutulurdu. Həmin Qanuna görə erməni əhalisinin mallarının qoruma altına alınması məqsədilə, "Tərk edilmiş mallar (əmtəə) Komissiyaları" yaradılmışdır. Bu komissiyalar boşaldılan kənd və qəsəbələrdəki ermənilərə aid malları siyahıya alır və bununla bağlı ayrı-ayrı dəftərlər tərtib edilirdi. Dəftərlərdən biri kilsədə, biri rəhbərliyə, üçüncüsü isə komissiyada saxlanılırdı. Satıla biləcək əşya və mal-qara satılır, həmin vəsait sahibinə verilməsi üçün qorunurdu. Komissiya göndərilməyən yerlərdə bu işi vəzifəli şəxslər yerinə yetirirdi.



Göründüyü kimi, türk torpalarında məskən salıb firavan həyat yaşayan, eyni zamanda türk dövlətinə, türk ordusuna və türklərə zərbə endirməyə çalışan erməni terrorçu dəstələrinin zərəsizləşdirilməsi, erməni əhalisinin tək canları deyil, mallarının da Osmanlı dövlətinin qoruması altına alınması böyük bir imperiyanın – Osmanlı imperiyasının sivil, bəşəri ədalətə söykənən qanunları çərçivəsində həyata keçirilirdi.

# III FƏSİL
# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN AZƏRBAYCANIN İCTİMAİ-SİYASİ HƏYATINA TƏSİRİ

## 3.1. "Tam məxfi" məktublar

Birinci Dünya müharibəsində Blok Dövlətlərin apardığı hərbi əməliyyatlar, xüsusilə Qafqaz cəbhəsində Rusiya ilə Türkiyə arasında gedən ağır hərbi döyüşlər Azərbaycanın ictimai-siyasi həyatına da təsir göstərirdi. Bakı mətbuatında müharibədə Türkiyəni dəstəkləyən yazılar dərc olunur, ziyalılar və yerli əhali arasında türkçülük və islamçılıq ideyaları, Rusiya əleyhinə hərəkətlər artırdı. Hökumət orqanları bunun səbəbini Türkiyə sərhədlərindən keçib Azərbaycana gələn türk emissarlarının (gizli agentlərin) apardıqları təbliğatda görürdülər. Bu məsələ rəsmi dövlət orqanları arasında gizli yazışmalarda da əksini tapırdı.

Qafqaz Canişininin Xüsusi Şöbəsinin general-qubernatorunun Bakı qubernatoruna, Qafqazda vilayət və dairə rəislərinə, həmçinin Bakı şəhər rəisinə göndərdiyi 9 oktyabr 1914-cü il tarixli 1920 saylı "məxfi" məktubunda yazılır: "İmperatorun Qafqaz canişini idarəsi məlumat verir ki, bizim sərhədlərimizə türk emissarları göndərilir. Onlar xüsusi tapşırıqlarla Qafqaz müsəlmanları arasında təbliğat aparmaq üçün göndərilmişlər. Türk emissarlarının bizim sərhədlərdə fəaliyyət göstərməsinə qarşı ən ciddi ölçü götürülməsi barədə qərar qəbul olunsun".[1]

[1] Документы по русской политике в Закавказьи, выпуск первый, Издание Особой Комиссии при Министерстве Иностранных Дель Азербайджанской Республики, Баку, 1920, с. 94.

Türkiyənin müharibəyə qoşulmasından sonra yaranmış gərgin ictimai-siyasi durum olmasına baxmayaraq, Azərbaycan xalqı müharibəyə açıq-aydın baxışla baxırdı. Həmin dövr mətbu orqanlarında dərc olunan yazılara nəzər saldıqda, aydın olur ki, xalqın öndə gedən ziyalıları, tərkibinə daxil olduğu, eyni zamanda vətəndaşı olduğu Rusiyanı deyil, eyni millət olduğu Türkiyəni seçməkdə qətiyyətli idi. Həmin dövrdə xalqı öz ətrafında birləşdirəcək güclü bir siyasi partiya olmasa da, xalq özü azad yaşamaq istəyini hiss etdirirdi. Bununla əlaqədar Məhəmmədəmin Rəsulzadə yazırdı: "...Böyük müharibənin (Birinci Dünya müharibəsi-N.M.) Qafqaz türklüyünə doğurduğu ümid belə idi: milliyyət prinsipinin qalib gələcəyinə bağlanmış bir ümid".[1]



Türkiyəyə meyillilik gənclər arasında daha aydın şəkildə görünməkdə idi. Türkiyənin müharibəyə qoşulması ilə bir çox azərbaycanlı gənclər Türkiyə sərhədlərini keçərək rus ordusuna qarşı vuruşurdular. Bu isə hökumət orqanları tərəfindən böyük narahatlıqla qarşılanırdı. Bu məlumat "Bakı qubernatoru dəftərxanası türk emissarları ilə mübarizənin təşkili işi"ndə öz əksini tapırdı. Həmin işdə saxlanılan 09 oktyabr 1914-cü il tarixli 1920 saylı məktubda yazılır ki, "milliyətindən asılı olmayaraq türkmənşəli şəxslər Türkiyəyə keçmək üçün konsulluqlarla görüşürlər".[2] Bu barədə digər bir məlumat İrəvan Quberniyasının Jandarm İdarəsinin rəisinin məktubunda da öz təsdiqini tapmışdır. Həmin məktubda yazılır: "Gənclərin, müsəlman əhalisinin müxtəlif bəhanələrlə getməsi (Türkiyəyə getməsi nəzərdə tutulur-

---

[1] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. B.., Elm, 1990.

[2] Документы по русской политике в Закавказьи, выпуск первый, Издание Особой Комиссии при Министерстве Иностранных Дель Азербайджанской Республики. Баку, 1920, с. 94.

N.M.) həqiqətən də müşahidə edilir".[1] Onlar sərhədləri keçərək türk ordusu tərkibində hərbi əməliyyatlarda fəal iştirak edirdilər. Sarıqamış hərbi əməliyyatında türk ordusunda üç mindən çox azərbaycanlı olması barədə məlumatlar vardır. Lakin arxiv sənədlərində bu məlumatı təsdiq edəcək faktlara hələlik rast gəlinməmişdir. İstisna olaraq qeyd edək ki, arxiv sənədlərində Türkiyəyə keçmək barədə konsulluqlara olan müraciətlər kifayət qədərdir. Bu müraciətlər həm müharibəyə qədər, həm də müharibə dövrünə aiddir. Lakin bununla bağlı konkret, dəqiq rəqəm göstərmək hələlik mümkün deyildir.

Birinci Dünya müharibəsi illərində Azərbaycan ərazisində, həmçinin bütün Qafqazda mövcud ictimai-siyasi durum dövlət və hökumət orqanlarının diqqət mərkəzində idi. Qafqazda müsəlmanların yaşadığı bütün ərazilər xüsusi orqanlar tərəfindən nəzarətə götürülmüşdü. Jandarm idarələrinin məxfi yazışmalarında Azərbaycan ərazisinə Türkiyə tərəfindən çoxlu sayda silah sursat daxil olması barədə məlumatlar öz əksini tapır. Tiflis Quberniyası Jandarm İdarəsi rəisinin Bakı Quberniyası Jandarm İdarəsinə göndərdiyi 11 aprel 1915-ci il tarixli 1032 saylı "gizli" məktubunda yazılır: "Kutaisi Quberniyası Jandarm İdarəsindən aldığımız məlumata görə, Yelizavetpol quberniyası əhalisi arasında kifayət sayda silah vardır. Məlumata görə, Türkiyə hökuməti tərəfindən alınan 50.000-ə yaxın silah müsəlman əhalisinə paylanılmışdır".[2] Həmin məktubda yazılanlardan aydın olur ki, dövlət rəsmilərinin fikrincə, müharibə başlayana qədər bu ərazidə Türkiyəyə meyillilik – güclü panislamist təbliğatı



[1] Musa Qasımov. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. Bakı, 2000, s. 171.

[2] ARDTA, fond 524, siy. 1, iş 38, v. 12, 14.

aparılmış və bu təbliğatın uğurlu nəticəsi olmuşdur. Həmin məktubda həmçinin qeyd olunur ki, "hazırda əhali öz arasında 20 təbliğatçı-fanat gizlədir, onlar öz fəaliyyətlərini səylə davam etdirirlər".[1]

Türkiyənin müharibəyə qoşulmasından sonra fəaliyyət göstərən gizli müsəlman komitələri, həmçinin təbliğatçı fanatların fəaliyyəti daima xüsusi nəzarət orqanları tərəfindən izlənilirdi. Rusiya İmperatorunun Qafqaz Canişinliyinin Xüsusi Nəzarət Bölməsinin Bakı Quberniyası Jandarm İdarəsinə göndərdiyi 02 dekabr 1914-cü il tarixli işi belə adlanır: "Müsəlman Hərəkatı - Panislamizm". Bu işlə bağlı Bakı Quberniyası Jandarm İdarəsi rəisinin 30 noyabr 1914-cü il tarixli 6064 saylı "Gizli" rəyində[2] qeyd olunur ki, "...Türkiyəyə qarşı hərbi əməliyyatlar başlayandan sonra Bakı şəhərində müxtəlif fikirlər cərəyan etməkdədir.[3]



Qafqazda müsəlmanların yaşadığı digər ərazilər kimi, Dağıstan vilayəti müsəlmanları da xüsusi orqanlar tərəfindən tam nəzarətdə saxlanılırdı. Hər bir şübhəli addım qeydə alınır və bu rəsmi yazışmalarda öz əksini tapırdı. Bu yazışmaların birində Dərbənd şəhər sakini Molla Hüseynqulu Həsənov haqqında məlumat diqqəti cəlb edir. Dağıstan Vilayəti Hərbi Qubernatoruna göndərilən həmin məktubda yazılır: "Dərbənd şəhərində yaşayan fars mənşəli Molla Hüseynqulu Həsənov podratçı işləyir. Dərbənd müsəlmanları arasında agentliklə məşğuldur. Bu məqsədlə Bakıdan türk dilində dərc olunmuş elanlar alır. Bu elanlar ona Dərbənd dəmiryolu vasitəsilə sərnişinlər tərəfindən göndərilir. Həmçinin nəzərinizə çatdırmaq istəyirəm ki, türk dilində

---

[1] ARDTA, fond 524, siy.1, iş 38, v. 12, 14.

[2] ARDTA, fond 524, siy.1, iş 38, v. 71.

[3] ARDTA, fond 524, siy.1, iş 38, v. 71.

Türkiyə hökuməti xeyrinə olan bu elanlar Türkiyədən göndərilir".[1] Arxiv sənədlərində ayrı-ayrı şəxslər barədə bu kimi çoxsaylı yazılar saxlanılmaqdadır. Polis departamentinin 14 sentyabr 1914-cü il tarixli 990 saylı "Məhbus.Gizli". məktubunda yazılır: [2] "Bakı qubernatorunun bu ilin 11 sentyabr tarixli 4570 saylı məktubunda xəbər verilmişdir ki, Dağıstan vilayətində yaşayan İsmayıl Əhməd Hacı Vəli oğlu Quba qəzasına gələrək burada qeyri-qanuni pul yığmış və bu pulları Türkiyəyə göndərmişdir. İsmayıl Əfəndinin saxlanması nəticəsində onun üzərindən 230 rubl 55 qəpik pul, poçt qəbzi, iki qeyd kitabçası, türk dilində müxtəlif məktublar və iki pasport tapılmışdır. Pasportlardan biri Dağıstan vilayəti Hərbi Qubernatoru tərəfindən 29 may 1914-cü il tarixində 329 saylı göstərişlə İsmayıl Əfəndinin adına verilmişdir, ikincisi isə Məmməd İsmayıl Davud oğluna məxsus xarici pasportdur".[3] Bununla bağlı Bakı quberniyası Jandarm İdarəsi tərəfindən aşağıda qeyd olunan adda cinayət işi açılmışdır: "Türk mənşəli İsmayıl Əhməd Əfəndi Hacı Vəli oğlunun Quba qəzasında qeyri-qanuni pul yığaraq onu Türkiyəyə göndərməsində günahlandırılması üzrə iş".[4]



Qafqaz cəbhəsində hərbi əməliyyatların gedişi, Azərbaycanın ictimai-siyasi həyatına güclü təsirini göstərirdi. Azərbaycanın öndə olan ziyalıları Rusiya əsarətindən azad olmaq, istiqlaliyyət əldə etmək yolunda Türkiyəyə böyük ümid bəsləyirdilər. Lakin qaçılmaz məğlubiyyətlər xalqın əhvali-ruhiyyəsində də müəyyən iz buraxırdı. Bu isə dövlət və hökumət məmurları arasında yazılarda öz əksini tapırdı.

---

[1] ARDTA, fond 524, siy.1, iş 38, v. 17.

[2] ARDTA, fond 486, siyahı 1, iş 27 a.

[3] ARDTA, fond 486, siy.1, iş 27 a, v. 4.

[4] ARDTA, fond 486, siyahı 1, iş 27 a.

Borçalı qəza rəisi Qavrilovun Tiflis qubernatoruna göndərdiyi 16 yanvar 1915-ci il tarixli "tam məxfi" məktubunda yazılır: "...Bizim Sarıqamış və Karaurqanda parlaq qələbəmizdən sonra onlar (azərbaycanlılar-N.M.) məzlum vəziyyətə düşmüşlər. Hazırda müsəlmanlar Türkiyənin məğlubiyyətindən qorxuya düşüblər. Onlar Türkiyənin dağılmasını eşitsələr, Qafqazın 8 milyon müsəlman əhalisi onu müdafiə etməyə qalxacaq".[1] Məktubda həmçinin qeyd olunur ki, həmin rayon üzrə "...polis və agentliklərdən daxil olan məlumata görə, yerli müsəlman əhalisi arasında Türkiyə mənafeyinə təbliğat aparılması qeydə alınmamışdır".[2]

Məxfi yazışmalardan da göründüyü ki, Rusiya rəsmi orqanları hər an həyəcanla böyük bir partlayış olacağını gözləyirdilər. Qafqaz müsəlmanlarının hər gün artmaqda olan Türkiyə meyilliliyi onların nəzarətini gündən-günə gücləndirirdi.



### 3.2. Gizli komitələr

Birinci dünya müharibəsinə Türkiyənin qoşulmasından sonra Qafqazın mərkəzi şəhərlərində gizli müsəlman komitələri fəaliyyət göstərirdi. Gizli komitələrin fəaliyyətində əsas məqsəd müharibədə Türkiyəyə dəstək vermək idi. Rusiya hökumətinin Ərdəbildə yerləşən vitse-konsulunun Astara agentliyinin göndərdiyi 01 may 1915-ci il tarixli 176 saylı məlumatında yazılıb: "...Bu ilin 5-10 aprel tarixləri arası öyrəndim ki, Bakıda türk-alman siyasətinə xidmət edən gizli komitə mövcuddur".[3] Agentliyin verdiyi məlumatda

[1] ARDTA, fond 524, siy.1, iş 38, v. 53.

[2] ARDTA, fond 524, siy.1, iş 38, v. 52.

[3] ARDTA, fond 524, siy.1, iş 38, v. 56.

bildirilirdi ki, komitə Persiya (İran) inqilabı üçün çalışan müxtəlif adamlardan təşkil olunmuşdu. Burada əsas məqsəd Təbrizdə rus əsgərləinin qəddarlığı haqqında yalan məlumatların çatdırılması idi. Bakıda fəaliyyət göstərən gizli müsəlman komitəsi digər yaşayış yerlərində də müsəlman əhalisinin savadlı təbəqəsinə üzərində "ay-ulduz" olan alman tüfəngləri verirdi. Bu alqı-satqı ilə həyata keçirilirdi. Belə ki, həmin müsəlmanlar komitəyə yardım olaraq 100 rubl ödəyirdilər, əvəzində isə patronla birlikdə tüfəng alırdılar. Rusiya hökumətinin Ərdəbildə yerləşən vitse-konsulunun Astara agentliyinin məlumatında həmçinin qeyd olunur: "Komitə (Bakıda fəaliyyət göstərən güzli müsəlman komitəsi-N.M.) belə bir inam yayır ki, tezliklə türklər müharibədə qələbə qazanacaqlar və Qafqazın yerli əhalisi Türkiyəyə birləşəcək. Onlar Rusiya əleyhinə üsyan hazırlayırlar".[1] Bakıda və eləcə də digər yaşayış yerlərində fəaliyyət göstərən gizli müsəlman komitələri, sözün əsl mənasında, rus hakimiyyəti üçün bir təhlükə mənbəyinə çevrilmişdi. Yerlərdən silahların yığışdırılmasına dair xüsusi göstəriş verilmişdi.

Zəngəzur qəza rəisinin 20 yanvar 1915-ci il tarixli 7 saylı "tam məxfi" məktubunda yazılırdı: "Silah və patronlar hamısı ləvğ olunmuşdur...Türkiyə ilə hərbi əməliyyatlar başladığı vaxtda mən pristava müraciət etdim ki, hər zaman Türkiyəyə böyük simpatiya bəsləyən yerli kürdlərdən və sünnü tatarlardan silahların yığılmasına ciddi diqqət yetirsin".[2]

Bakı quberniyası Jandarm İdarəsi rəisi köməkçisinin 12 may 1915-ci il tarixli 299 saylı "məxfi" məktubunda yazılıb: "...Sizin mənə xüsusi tapşırığınızla bir çox məlumatlar tam

[1] ARDTA, fond 524, siy.1, iş 38, v. 56.

[2] ARDTA, fond 524, siy.1, iş 38, v. 93.

yoxlanılmışdır.[1] Həmin məktubda yoxlanılan məlumatların aşağıdakılardan ibarət olduğu qeyd olunurdu:[2]

**"Fars milli demokratları" gizli dərnəyi**[3]**-** Bu dərnək Cənubi Qafqaz hüdudlarında türk çıxışlarından sonra Astara-farsda (İran Astarasında – N.M.) yaradılmağa başlamış və ruslar tərəfindən Ərdəbil işğal olunduqdan sonra tam formalaşmışdır. "Fars milli demokratları" gizli dərnəyi fars həkimi Seyid Məhəmməd Xan və fars teleqraf məmuru Fərəməz Xan Bəşəratəs Sultanın rəhbərliyi ilə yaradılmışdır. Dərnəyin tərkibinə daxildilər: Mirzə Tağı Xan - Astara fars gömrüyündə kassir, Mirzə Paşa - həmin gömrükdə mühasib (hazırda Maliyyə Müfəttişi Kastorananın sərəncamı ilə Ərdəbilə köçürülmüşdür), Hacı Seyid Mehdi Cəlalov – fars Ərdəbil yollarında nəzarətçi; Şahzadə Hüseyn Mirzə – həmin gömrükdə statist; Seyid Əbdül Həsən – həmin gömrükdə mühasib köməkçisi; Cəlal Xan – Fars poçt kontorunun rəisi; Mirzə Qafur Ələsgər oğlu – "Kretinqer i Qlaz" firmasının nümayəndəsi, Astara-farsda yaşayır.[4] Bakı quberniyası Jandarm İdarəsi rəisi köməkçisinin məktubunda, "Fars milli demokratları" gizli dərnəyi üzvlərinin müsəlman əhalisi arasında güclü təbliğat apardıqları qeyd olunur.[5]



Bu təhlükənin qarşısını almaq məqsədilə hökumət tərəfindən ən ciddi ölçülər götürülür, gizli komitə üzvləri daima təqib olunur və həbs olunurdular. Bir çox hallarda isə onlar panislamist adı ilə cinayət məsuliyyətinə cəlb edilirdilər.

---

[1] ARDTA, fond 524, siy.1, iş 38, v. 63.

[2] ARDTA, fond 524, siy.1, iş 38, v. 63.

[3] ARDTA, fond 524, siy.1, iş 38, v. 63.

[4] ARDTA, fond 524, siy.1, iş 38, v. 63.

[5] ARDTA, fond 524, siy.1, iş 38, v. 63.

### 3.3. Senzuranın gücləndirilməsi

Çarın Qafqazda çanişinin Qafqaz Hərbi Dairə üzrə Xüsusi Bölməsinin Bakı Qradinaçalnikinə yazdığı 29 aprel 1915-ci il tarixli 1913 saylı "Tam məxfi. Təcili" məktubunda Xüsusi Bölmənin agentlikdən aldığı məlumatlar öz əksini tapır.[1] Həmin məlumatda bildirilir ki, Bakı və Yelizavetpol şəhərlərində əhali arasında türkçülük təbliğatı gücləndirilməkdədir. Həmçinin qeyd olunurdu ki, müharibənin başlanğıcında bu təbliğatın heç bir uğurlu əhəmiyyəti olmasa da, hazırda bu böyük bir təhlükəyə çevrilməkdədir. Qafqaz canişininin Hərbi Dairə üzrə Xüsusi Bölməsinin verdiyi məlumatda bildirilirdi ki, "...ordu Ştablarında Cənubi Qafqazdan olan türk tərəfdarları Tehran ilə yazışmalar aparır, türk konsullarına bizim ordunun fəaliyyəti barədə məlumatlar verirlər. Bütün bu məlumatlar poçtla, adi məktublarla alınır və bu ifadələr tatar (Azərbaycan– N.M.) qəzetlərində nəşr olunur... Ümumiyyətlə, Bakı şəhər sakinləri bizim ordunun Qafqazda vəziyyəti barədə məlumatlar toplayır və Biləcəri dayanacağı vasitəsilə ötürürlər".[2] Qafqazın müsəlman əhalisi, o cümlədən azərbaycanlılar müharibədə Türkiyəyə dəstək verməklə, əslində imperiyanın əsarətindən azad olmaq, istiqlaliyyət əldə etmək mübarizəsi həyata keçirir.

Gizli yazışmaların qarşısını almaq üçün hökumət bütün sahələrdə, xüsusilə poçt-teleqraf sahəsində nəzarəti gücləndirirdi.

Bakıda Hərbi senzuranın Bakı qradonaçalnikinə yazdığı may 1915-ci il "Gizli" məktubunda yazılıb: [3] "...1914-cü il

[1]ARDTA, fond 524, siy.1, iş 38, v. 57 (arx.), 58.

[2] ARDTA, fond 524, siy.1, iş 38, v. 57 (arx.), 58.

[3] ARDTA, fond 524, siy.1, iş 38, v. 58, 59.

avqustun 27-dən Bakı poçt-teleqraf kontoruna daxil olan bütün beynəlxalq məktublaşma Bakı hərbi senzurasının nəzarəti altındadır. Persiyadan (İrandan-N.M.) məktublar daxil olduğu kimi, Persiyaya da fars, tatar və türk dillərində poçt göndərilmələri vardır”. [1]

Poçt-teleqraf kontoruna daxil olan bütün beynəlxalq məktublaşmalar seçilmiş senzorlar tərəfindən yoxlanılırdı. Həmin senzorlar seçilir, onların dil bilmələri ilə yanaşı, siyasi kimliyi də yoxlanılırdı. Bakı Hərbi Senzurasının “Gizli” məktubunda qeyd olunur ki, daxil olan və göndərilən bütün məktublara iki hərbi senzor tərəfindən baxılır: “...İmamverdibəyov – təcrübəlidir, tam etibarlı məmurdur, fars, tatar və türk dillərini çox gözəl bilir, İ.A.Məlikov – Persiyada uzun illər xidmət edib, fars dilini çox gözəl bilir”. [2]



Digər mənbələrdə də Azərbaycanda mövcud ictimai-siyasi durum Türkiyə ilə yazışmalarla əlaqələndirilirdi. Hökumət tərəfindən bu sahədə senzura olduqca gücləndirilmişdi. Bununla əlaqədar Bakı şəhər rəisinin 01 iyul 1915-ci il tarixli 3999 saylı Qafqaz canişininin xüsusi idarəsinə göndərildiyi “tam məxfi” məktubunda yazılıb: “Bakı hərbi senzurasına daxil olan fars, tatar (Azərbaycan-N.M.) və türk dilində poçt çox diqqətlə yoxlanılır... İmamverdibəyov kontor rəisinin ərizəsinə görə tam etibarlı məmurdur, fars, tatar və türk dillərini mükəmməl bilir. İ.A.Məlikov İranda uzun müddət xidmət edib. Bütün məktublar onun əlindən keçir...” Həmin məktubda Türkiyəyə meyilliliyin yeganə səbəbi olaraq qerd edilir ki, “...Rusiyaya qarşı təbliğat İrandan alman və türk ağentləri tərəfindən həyata keçirilir”.[3]

---

[1] ARDTA, fond 524, siy. 1, iş 38, v. 58, 59.

[2] ARDTA, fond 524, siy. 1, iş 38, v. 58, 59.

[3] ARDTA, fond  524, siy. 1, iş. 39, v. 68.

Dövlət və hökumət orqanları arsında gizli yazışmalardan aydın olur ki, Persiyada Rusiyaya qarşı təbliğat türk və alman agentləri tərəfindən aparılırdı. Həmin məlumatlarda bildirilir ki, fars qəzetlərindən bir neçəsi alman konsulluğu tərəfindən və yaxud onların vəsaiti ilə dərc olunur. Buna görə də bütün fars qəzetləri baxılması üçün Hərbi Senzuraya daxil edilmişdi. Hərbi Senzura tərəfindən Bakı qradonaçalnikinə göndərilən məktubda yazılıb ki, "...mənim məlumatıma qədər, bu sirkulyasiya (fars qəzetləri-N.M.) Bakı şəhər əhalisi arasında yayılmışdır.[1]

Beynəlxalq yazışmalarda Rusiya əleyhinə olan bütün məlumatlar sonralar yerli müsəlman qəzetlərində dərc olunurdu. Bakıda Azərbaycan dilində nəşr olunan bütün mətbu orqanları Hərbi Senzura tərəfindən yoxlanılırdı. Bu yoxlamalar Senzura tərəfindən seçilmiş, azərbaycanlı olmayıb, ancaq Azərbaycan dilini mükəmməl bilən iki ziyalı şəxs tərəfindən aparılırdı. [2]

Dövlət və hökumət orqanları arasında məxfi yazışmalarda Azərbaycanın görkəmli ziyalılarından olan Dadaş Bünyadzadənin adı çəkilir. Bakı Hərbi Senzurasının məktubunda onun haqqında yazılıb: ."..O, (Dadaş Bünyadzadə-N.M.) çox gənc, ciddidir. Türkiyə uğurlarına kömək məqsədilə, Rusiya əleyhinə məlumatların yayılmasına dəstək olur.[3] Dadaş Bünyadzadənin redaktoru olduğu və həftədə bir dəfə dərc olunan "Tuti" satirik jurnalı Hərbi Senzuranın nəzarəti altında idi. Bu, Azərbaycan ərazisində gizli siyasi təşkilatların təbliğatı ilə əlaqələndirilirdi. Yaranmış vəziyyətlə əlaqəar Rusiyanın İran sərhədləri üzrə komissarının carın Qafqaz

[1] ARDTA, fond 524, siy.1, iş 38, v. 59.

[2] ARDTA, fond 524, siy.1, iş 38, v. 60.

[3] ARDTA, fond 524, siy.1, iş 38, v. 60.

canişinin xüsusi şöbəsinə yazdığı 14 may 1915-ci il tarixli 274 saylı "tam məxfi" məktunda yazılıb ki, "...Ərdəbildə vitse-konsulun məlumatında bildirilir ki, Bakıda gizli müsəlman komitəsi fəaliyyət göstərir və aparılan təbliğatlar bu vasitə ilə təşkil olunur".[1]

Yelizavetpol qubernatoru dəftərxanasının Qafqaz canişininin xüsusi idarəsinə yazdığı 04 may 1915-ci il 1143 saylı "tam məxfi" məktubunda yazılıb: "...türkçülük təbliğatı burada yaşayan əhali arasında aparılır. Bu həm müharibəyə qədər, həm də indi mövcuddur...Türkiyə mənafeyinə uyğun siyasət tərəfdarları Türkiyənin əzəmətinə inanırlar..." Hiddətlə yazılan həmin məktubda ermənilər yaddan çıxarılmır, qeyd olunurdu ki, "...Türkiyə darmadağın olacaq...Dağıdılmış Türkiyə ərazisində ermənilər müvəffəqiyyət qazanacaqlar".[2] Lakin Türkiyənin məğlubiyyətinə bəslənən bütün ümidlər boşa çıxdı. Çanaqqala zəfəri İttifaq Dövlətlərinin Osmanlı dövlətinin paytaxtı İstanbulu alaraq boğazların idarəsini ələ keçirmək, Rusiya ilə etibarlı bir qida və hərbi ticarət yolu açmaq istəyini darmadağın etdi.



[1] ARDTA, f. 524, suy. 1, iş 39, v. 68, 68 (arx.).

[2] ARDTA, f. 524, siy. 1, d. 39, v. 27.

# IV FƏSİL
# QAFQAZ CƏBHƏSİNDƏ HƏRBİ ƏMƏLİYYATLARIN BAŞLANMASI İLƏ BAĞLI HƏYATA KEÇİRİLƏN İLKİN TƏDBİRLƏR. HƏRBİ XƏSTƏXANALAR

## 4.1. Müharibənin başlanması ilə bağlı Azərbaycanda həyata keçirilən ilkin tədbirlər



***Məmməd Yusif Cəfərov (1885–1938)** – hüquqşünas-alim. Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. Rusiya Dovlət Dumasının deputatı, Azərbaycan milli-ictimai təşkilatlarının fəal uzvü, ictimai-siyasi xadim. Rusiya Dövlət Dumasının Qafqaz cəbhəsi üzrə nümayəndə heyətinin rəhbəri*

Qafqaz cəbhəsində baş verən hərbi əməliyyatlar, Sarıqamış döyüşündə türk ordusunun məğlubiyyəti, rus qoşunları tərkibində erməni silahlı dəstələri tərəfindən Şərqi Anadolu torpaqlarına təcavüz və qətliyamlar, on minlərlə türk əhalisinin qaçqın düşməsi, azərbaycanlılar arasında böyük həyəcan yaratmışdı. Batumdan, Qarsdan, Ərdahandan, Oltudan və digər yerlərdən yayılan fəlakət dolu xəbərləri eşidən Azərbaycan ziyalıları müəyyən tədbirlərin görülməsi barədə hökumət qarşısında çıxış edirdilər. Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov Dumadakı çıxışında deyirdi: “Müsəlmanlar üçün zülm, talan gündəlik bir hal oldu...Dağıdılmış

kəndlər, ac, yaralı, möhtac insanlar...İndi müsəlmanların vəziyyətində heç bir dəyişiklik olmadığını və kömək göstərilmədiyini bildirmək istəyirəm".[1]

Rusiya Dövlət Dumasının azərbaycanlı deputatları öz səlahiyyətlərindən istifadə edərək dövlət və hökumət orqanları nümayəndələri ilə görüşür, qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin ağır və dözülməz durumu barədə məlumat verir, kömək olunmasının vacibliyi tələblərini qoyurdular.

1915-ci ilin fevralında Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov Rusiya Dövlət Dumasının başçısı Rodziyanko və digər səlahiyyətli şəxslərlə görüşərək bu istiqamətdə müəyyən tədbirlərin təşkilinin vacibliyini bildirmişdi. Bu danışıqların nəticəsi olaraq, müharibədə evləri dağıdılmış və qaçqın düşmüş türk-müsəlman əhalisinə dövlətin yardım edəcəyi barədə razılıq alınmışdı.[2]



Qars vilayətində yaranmış ağır vəziyyətlə əlaqədar Qars vilayət qubernatoru polkovnik Podqurski "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri Mirzə Əsədullayevə Qars vilayətində müharibə nəticəsində evləri dağıdılmış, qaçqın düşmüş türk-müsəlman əhalisinə yardım olunması ilə bağlı teleqram göndərmişdi. Teleqramda yazılırdı: "Qars vilayətinin müsəlman əhalisi müharibədən çox əziyyət çəkir, həyəcan keçirirlər. Vəziyyət dəhşətdir. Heç yerdən kömək yoxdur. Kömək göstərmək üçün cəmiyyətə ("Bakı Müsəlman Xeyriyyə cəmiyyəti"nə-N.M.) müraciət edirəm. Qubernator Podqurski".[3]

Qars qubernatoru polkovnik Podqurskinin bu müraciəti ilə əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə

---

[1] İqdam, 24 fevral 1915, № 54.

[2] İqdam, 24 fevral 1915, № 54.

[3] Kaspi, 13 ya №var 1915, № 9.

heyətinin fövqəladə iclası çağrıldı. İclasda Qars vilayətində müharibədən zərər çəkən türk-müsəlman əhalisinə təxirəsalınmaz yardım işinin təşkili məsələsi müzakirə olunaraq bəyannamə qəbul olundu. Bu bəyannamədə deyilirdi: "...Qars müsəlmanlarının ağır vəziyyəti Qars qubernatorunun rəsmi çağrışı ilə təsdiqləndi. İndi biz milli borcumuz qarşısındayıq. Əhali türk qaçqınların Bakıya gəlməsinə inanmırdı....Cəmiyyət təxirəsalınmaz bu tədbirlərin görülməsi məşğul olmalıdır".[1]

Həmin iclasda bütün müsəlmanlara xüsusi müraciət qəbul edildi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin bu çağırışı müxtəlif mətbu orqanlarında dərc olundu. Həmin "Çağırış"da deyilirdi: "Məlum olduğu kimi, Qars vilayəti müsəlman əhalisi hərbi hadisələrdən böyük əziyyət çəkir. Hər yerdə soyuq və aclıq hökm sürür. Təcili kömək lazımdır. Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərovun sözlərinə görə, yerlərdə çörək və digər ərzaq məhsulları olmadığından əhali arpa unu bişirərək qidalanırlar, bunun isə ehtiyatı çox azdır. Təcili geyim və pul lazımdır. Bu barədə Qars qubernatoru polkovnik Podqurski cəmiyyətə müraciət edib. Hazırda cəmiyyət yerli əhalidən geyim və pul yığılmasına icazə alıb. Bütün yuxarıda göstərilənləri nəzərə alaraq "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" müharibədən zərər çəkən müsəlmanlara və qaçqınlara kömək üçün hamını bu xeyirxah işdə iştirak etməyə çağırır. Pul yardımları yerli qəzet kontorlarında və Əsədullayevlər şirkətinin kontorunda, əşyalar isə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi kontorlarda qəbul olunur. Xeyirxah insanlar... Köməyə gəlin. Hər qəpik qiymətlidir..."[2] Bu "Çağırış" bütün müsəlmanlara ünvanlanırdı.

---

[1] Baku, 14 ya № var 1915, № 10.

[2] Kaspi, 30 yanvar 1915, № 24.

Bütün bunlarla yanaşı, türk qaçqınlarına yardım yenə də ciddi nəzarət altında saxlanılırdı. Müsəlmanlara ünvanlanan çağırışlar Rusiya dövlət və hökumət orqanları arasında ciddi narahatlığa səbəb olurdu.

Qafqaz canişini Xüsusi Şöbəsinin Bakı qubernatoruna yazdığı 2149 saylı "Tam məxfi" məktubunda, bütün müsəlmanlara ünvanlanan digər bir çağırış barədə məlumat verilir. Həmin məktubda yazılırdı: "Məlumat üçün bildirirəm ki, türk panislamistləri Türkiyə tərəfindən Rusiyaya qarşı düşməncəsinə çıxış edərək, bütün dünya müsəlmanlarına çağırış tərtib etmiş və bu çağırış artıq xarici dillərə tərcümə olunaraq, bütün ölkələrdə müsəlman əhalisi arasında yayılmışdır. "Müqəddəs müharibə mütləqdir" başlığı altında tərtib olunmuş çağırışda müqəddəs müharibədə müsəlmanların xristianların əsarətindən, zülmündən gecikmədən azad olunacağı elan edilirdi. Sizdən xahiş olunur ki, bu məsələnin ciddi qarşısını alasınız və bu cür məsələlərin yaranmasının tam qarşısını almaq üçün tədbirlər həyata keçirəsiniz".[1]



Bütün bunlara baxmayaraq, kömək gözləyən müharibə bölgələrindən "Bakı Müsəlman Xeyriyyə cəmiyyəti"nə müraciətlər daxil olurdu. 1915-ci ilin yanvarında Türkiyə Vilayətləri üzrə Hərbi İdarənin rəisi tərəfindən cəmiyyətin idarə heyətinə olunan müraciətdə, Meloselsk dairəsinin bir çox kəndlərində döyüşlərin getdiyi vaxtda evləri dağıdılmış türk-müsəlman əhalisinə kömək etmək barədə xahiş olunurdu. Türkiyə vilayətləri üzrə hərbi idarəsinin rəisinin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə verdiyi məlumatda bildirilirdi ki, "...dairənin Mələkyankür kəndi müharibə

---

[1] Документы по русской политике в Закавказьи, выпуск первый, Издание Особой Комиссии при Министерстве Иностранных Дель Азербайджанской Республики, Баку, 1920, s. 92.

nəticəsində ağır dəhşətlərə məruz qalmışdır. Həmin kənddə 60 sakini olan 15 ev var idi... bu sakinlər yalnız uşaqlar, qadınlar və qocalardan ibarət idi. Müharibə zamanı kəndə düşən güllələrin, top və mərmilərin törətdikləri dağıntılar nəticəsində sağ qalan insanlar evlərindən çıxmaq məcburiyyətində qalmışlar. Döyüş sakitləşəndən sonra sakinlər kəndə qayıtdıqda artıq buradakı evlər dağıdılaraq xarabalığa çevrilmişdi. Müharibəyə qədər maldarlıqla məşğul olan sakinlərin saxladıqları bütün mal-qara məhv edilmişdi... Kənd sakinləri evlərini yenidən bərpa edərək bu evlərdə qalmaq istəyirlər... Qadınlar qaranlıq, torpaq döşəməsi olan yerlər düzəltmişlər... xahiş edirik ki, bu kəndə kömək edəsiniz".[1]

Türkiyə Vilayətləri üzrə Hərbi İdarə rəisinin cəmiyyətin idarə heyətinə etdiyi müraciətində, həmçinin Meloselsk dairəsinin Mələkyankür kəndi ilə eyni vəziyyətdə olan Şikaşar kənd əhalisinə ilkin olaraq ərzaq, geyim və yataq əşyalarının göndərilməsi də xahiş olunurdu.[2]

Həmin müraciətdən dərhal sonra, 1915-ci ilin yanvarın 3-də "İsmailiyyə" binasında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin və cəmiyyətin "Müharibədən zərər çəkən və qaçqın müsəlmanlara kömək üzrə bölmə"sinin birgə iclası keçirildi. İclasda müharibədə zərər çəkmiş, öz yurd-yuvalarından didərgin düşmüş, həmçinin dağıdılmış kəndlərdə evsiz-eşiksiz, xarabalıqlar üzərində qalmış türk-müsəlman əhalisinə yardım etmək məsələsi müzakirə olundu. Qərara alındı ki, bu işin geniş təşkili və həyata keçirilməsi məqsədilə rəsmi icazə üçün çarın Qafqazdakı canişininə müraciət qəbul olunsun.[3]

---

[1] ARDTA, fond 335, siy.1, iş 2, v. 88, 88 (arx.).

[2] ARDTA, fond. 335, siy.1, iş 2, v. 88, 88 (arx.).

[3] Baku, 24 yanvar 1915, № 19.



***Əlimərdan bəy Topçubaşov (1862- 1931) -*** *Azərbaycanın gör kəmli ziyalısı. Rusiyanın Peterburq Universitetinin hüquq fakültəsinin məzunu, hüquq elmləri namizədi (1888-ci il), "Kaspiy" qəzetinin yaradıcılarından və redaktorlarından biri (1897-1917-ci illər), Bakı şəhər dumasının deputatı, sonralar sədri, Rusiya Dövlət Dumasının deputatı, Rusiya Dövlət Dumasının Musəlman fraksiyasının rəhbəri, Musəlman İctimai Təşkilatları Komitəsinin sədri (1917-ci il), Azərbaycanın ilk parlamentinin sədri (1918-ci il), Azərbaycan Xalq Cümhuriyyətinin II xarici İşlər naziri*



Müraciətin Qafqaz canişininə şəxsən təqdim olunması, həmçinin türk qaçqınlarına və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək məqsədilə bütün Qafqaz ərazisindən yardım yığılması işinin təşkilinə icazə alınması məqsədilə danışıqların aparılması üçün görkəmli ziyalılar və nüfuzlu şəxslərdən ibarət komissiya təşkil olundu. Komissiyanın tərkibinə aşağıdakı şəxslər daxil idi: Əlimərdan bəy Topçubaşov (hüquqşünas), Fətəli Xan Xoyski (həqiqi müşavir), Ağa Hüseyn Tağıyev neft sahibkarı, ("Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin üzvü) və Ağabala Quliyev (Bakı Şəhər Dumasınıın deputatı). Beləliklə, bu tərkibdən ibarət komissiya müəyyən olunmuş danışıqların aparılması üçün Tiflisə yola düşdü.[1]

Tiflisdə Azərbaycan nümayəndə heyəti ilə çarın Qafqazdakı canişini Vorontsov-Daşkov arasında danışıqların nəticəsi olaraq, qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkilinə

[1] Baku, 24 yanvar 1915, № 19.

icazə verildi. Bu barədə Qafqaz canışini tərəfindən 23 yanvar 1915-ci il tarixli 2664 saylı sərəncam imzalandı. Sərəncama görə, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə qaçqın və müharibədən zərər çəkənlərə kömək göstərmək üçün yerli müsəlman əhalisindən ianə olaraq pul və əşyaların yığılmasına icazə verilirdi.[1] Bunun müqabilində "Bakı Müsəlman Xeyriyyə cəmiyyəti" mütəmadi olaraq, yardım yığımı ilə bağlı Bakı şəhər rəisinə ətraflı hesabat verməli idi.[2] Bir müddət sonra "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" ianələrin yalnız Bakı quberniyası hüdudlarından deyil, bütün Qarqaz hüdudlarından yığılması barədə müraciət etdi. Qafqaz canişinin 5 noyabr 1915-ci il tarixli əmrinə əsasən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin istifadəsi üçün Qafqaz hüdudlarından da yardım yığılmasına icazə verildi.[3]

Qaçqın və müharibədə zərər çəkən türk-müsəlman əhalisinə yardım istiqamətində "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin də mühüm əhəmiyyətli fəaliyyəti olmuşdur. Cəmiyyət bu işin təşkilatçılığı sahəsində, eyni zamanda Qars vilayətinə yardım göndərilməsi işinin təşkilinə bütün müsəlmanların cəlb olunması məqsədilə "Çağırış" elan etmişdi. Bu "Çağırış" əhalinin bütün diqqətinin türk qaçqınlarına və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yönəldilməsi və bununla bağlı zəruri tədbirlərin həyata keçirilməsi baxımından mühüm əhəmiyyətə malik idi. "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin "Xeyirxah cənablara!", "Analara!", "Əziz uşaqlara!", "Müsəlmanlara!" olunan "Çağırış"da deyilirdi:

[1] Kaspi, 27 yanvar 1915, № 21.

[2] Kaspi, 27 yanvar 1915, № 21.

[3] Kaspi, 24 noyabr 1915, № 262.

"Xeyirxah cənablar! Siz öz ailənizdə tamamilə sakit və sevinclə yaşadığınız halda düşünün ki, həmin vaxtda ac qalan, atılmış, yetim qalmış ailələr var. Baxın, bu müdafiəsiz qadınlar, taleyin ixtiyarına atılanlar da sizin bacılarınızdır. Onlara dəyən mənəvi və maddi zərbəni siz də hiss etməlisiniz. Siz cəmiyyətdə, həyat yoldaşınızla, dostlarınızla şənləndiyiniz vaxtda belə təsəvvür edin ki, sizin Qarsda bədbəxt bacılarınız var. Ac qalmış, soyuqdan donan bacılarınız. Düşünün ki, onların da ailələri, uşaqları, sevincləri var idi. İndi isə meşələrdə və dağlarda köməksiz qalıblar. İndi öz bacılarınıza kömək əlinizi uzadın!

Analar! Siz öz sevimli övladlarınızı əzizləyərkən düşünün ki, kimsəsiz, yetim qalmış, soyuqdan, acından əziyyət çəkən körpələr atasız, anasız qalıblar. Onlara kömək əlinizi uzadın və onları ölənə qədər buraxmayın!

Əziz uşaqlar! Ataları və anaları tərəfindən əzizlənən uşaqlar! Siz isti, təmiz yataqda uzananda, öz valideynləriniz tərəfindən əzizlənəndə, düşünün ki, sizin bacılarınız və qardaşlarınız həftələrlə aclıqdan və soyuqdan əziyyət çəkirlər. Onların bu vəziyyətinə təəssüflənin, gündəlik xərclərininzdən nə isə kənara qoyun və yazıq uşaqlara bir parça çörək yardımı edin. İndi belə an yarandı ki, bu bizim öz borcumuzdur, insanpərvərlik xatirinə, müsəlmanlıq adına zərərçəkənlərə kömək etməliyik!

Müsəlmanlar! Əsl müsəlman olduğunuzu hiss edin və öz qardaşlarınıza kömək edin.! "[1]

Bu "Çağırış"a demək olar ki, Azərbaycanın hər yerindən, hətta uzaq kənd sakinləri də öz münasibətlərini bildirirdilər. Onların arasında Göyçay qəzası Diyəli kəndinin xanımları – Səyarə xanım, Zeynəb xanım və Səkinə xanım Əfəndi-

[1] Baku, 14 fevral 1915, № 35.

yevalar, "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin sədri Rəhilə xanım Hacıbababəyovaya aşağıdakı məktubu yazmışdılar: "...Qars hadisələrindən biz çox mütəəssir oluruq. Bizim müsəlman bacı və qardaşlarımızın faciəli vəziyyəti bizdə təəssüf hissi oyadır. Qardaşlarımıza olan təəssüf hislərimizi heç nə ilə izah edə bilmirik. Biz öz vəsaitimizi müsəlman bacılarınız adından Sizə göndəririk".[1]

Beləliklə, Türkiyənin müharibəyə qoşulması, Azərbaycanda bütün təbəqələrdən olan insanları ayağa qaldırdı. Azərbaycan milli-ictimai təşkilatları və bu təşkilatlarda birləşən ziyalılar, sahibkarlar, müəllimlər, tələbələr, fəhlələr, bir sözlə, bütün azərbaycanlılar türk-müsəlman əhalisnə yardım etmək məqsədilə bir araya gəldilər. Bu, milli birlik baxımından mühüm əhəmiyyətli tarixi hadisə idi.

### 4.2. Hərbi xəstəxanaların təşkili

Birinci Dünya müharibəsinin başlanması Rusiyanın bütün ərazilərində olduğu kimi, Azərbaycanda da böyük əks-səda doğurdu. Müharibənin başlanması ilə əlaqədar olaraq dövlət və hökumət orqanları tərəfindən həlli vacib olan bir sıra fövqəladə tədbirlər həyata keçirildi. 1914-cü il iyulun 23-də müharibə elan olunandan dərhal sonra müharibəyə çağırış elan etmək üçün Bakı Şəhər Dumasının iclası oldu. Həmin iclasda Şəhər Duması müharibənin başlanması ilə əlaqədar aşağıdakı tədbirlərin həyata keçirilməsi barədə qərar qəbul etdi:

1. Döyüş bölgələrindən, eyni zamanda Rusiya ərazisindən xəstəxanalara gətirilmiş xəstə və yaralılara tibbi yardım göstərilsin. Bu məqsədlə tibb sahəsində təcrübəsi olan qadınlar və kişilər tibbi bölmələrə qəbul edilsinlər;

---

[1] Baku, 3 mart 1915, № 49.

2. Tibbi bölmələrin təşkili işinin həyata keçirilməsi məqsədilə ehtiyat kapitaldan 100.000 rubl ayrılsın;

3. Bakı Şəhər İdarəsi vəkil təyin edilsin;

4. Bakı Şəhər Duması deputatlarından 3 və yaxud 5 nəfərdən ibarət xüsusi komissiya təşkil edilsin;

5. Şəhər Mixaylovski xəstəxanası nəzdində 6 həftəlik pulsuz tibb bacısı və feldşer kursları (nəzəri və təcrübi) təşkil edilsin. Bu məqsədlə ilkin olaraq 2.000 rubl ayrılsın.[1]

Birinci Dünya müharibəsinin başlaması ilə əlaqədar həyata keçirilən ilk fövqəladə tədbirlərdən biri döyüş bölgələrindən gətirilmiş yaralı və xəstə hərbçilərə tibbi yardım göstərmək məqsədilə tibbi kadrların hazırlanması və hərbi xəstəxanaların təşkili idi. Bu tədbirlər yalnız hökumət və dövlət orqanları tərərfindən deyil, həmçinin Rusiya ərazisində fəaliyyət göstərən ictimai təşkilatlar, şirkətlər, təhsil müəssisələri, sahibkarlar və b. tərəfindən həyata keçirilirdi.



1914-cü il oktyabrın 27-də Bakı şəhər başçısının Bakı şəhər rəisinə yazdığı 17374 saylı məktubunda Bakı şəhərində təşkil olunan hərbi xəstəxanaların siyahısı verilmişdi.[2]

[1] ARDTA, fond 46, siy. 4, iş 465, v. 49.

[2] ARDTA, fond 46, siy. 4, iş 465, v. 52, 53, 99-101.

## Xeyriyyə cəmiyyətlərinin, müəssisələrin və xüsusi şəxslərin nəzarətində olan hərbi xəstəxanaların siyahısı:[1]

| Sıra sayı | Xəstəxananın adı | Ünvanı | Çarpayıların sayı | |
|---|---|---|---|---|
| | | | *Açılmış* | *Açılacaq* |
| 1 | "Qırmızı xaç" Bakı idarəsi nəzdində hərbi xəstəxana | Million küçəsi, erməni mədəni ittifaqı binası | 150 çarpayı | |
| 2 | Bakı şəhər rəisliyinin təşkil etdiyi hərbi xəstəxana | Bayılov dəniz zabit iclası binası | 70 çarpayı | |
| 3 | Neft Sənayeçiləri Qurultayı Şurası nəzdində hərbi xəstəxana | Balaxanı | 50 çarpayı | |
| 4 | "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nəzdində hərbi xəstəxana | Nikolayevski küçəsi 10, xüsusi ev | 100 çarpayı | |
| 5 | "Erməni insansevərlər cəmiyyəti"nin nəzdində hərbi xəstəxana | Gimnaziya küçəsi, xüsusi ev | 100 çarpayı | |
| 6 | Xristian ruhanilərinin Bakı icmasının nəzdində hərbi xəstəxana | Bayılov, Kolosnikov qardaşları | | 20 çarpayı |
| 7 | "Bakı Yəhudi Xeyriyyə Cəmiyyəti"nin nəzdində hərbi xəstəxana | Molokan küçəsi, Yəhudi qız məktəbinin binası | 12 çarpayı | |
| 8 | Qırmızı Xaç bayrağı altında Yevangel-lüteran cəmiyyətinin nəzdində hərbi xəstəxana | Suraxanı, kilsə evində | 12 çarpayı | |

[1] ARDTA, fond 46, siy. 4, iş 465, v. 49.

| | | | | |
|---|---|---|---|---|
| **9** | Bakıda fransız koloniyasının nəzdində hərbi xəstəxana | Gimnaziya küçəsi, Hacıyevin evində | 5 çarpayı | |
| **10** | Bakı vəkillər idarəsinin nəzdində hərbi xəstəxana | Qara şəhər, Binəqədi neft cəmiyyəti binası | | 15 çarpayı |
| **11** | Bakı Kommersiya məktəbi nəzdində hərbi xəstəxana | Merkuryevski küçəsi, xüsusi ev | 12 çarpayı | |
| **12** | Bakı real məktəbi nəzdində hərbi xəstəxana | Məktəbin binasında | 8 çarpayı | |
| **13** | III Aleksandr gimnaziyası nəzdində hərbi xəstəxana | Balaxanı küçəsi, gimnaziyanın binası | 6 çarpayı (yüngül yaralılar və xəstə olmayanlar üçün) | |
| **14** | Sabunçuda "Nobel qardaşları cəmiyyəti" nəzdində hərbi xəstəxana | Sabunçu küçəsi 52, Nobel qardaşları cəmiyyətinin keçmiş binası | | 50 çarpayı |
| **15** | Lianozov neft istehsalı cəmiyyəti nəzdində hərbi xəstəxana | Cəmiyyətin Sabunçu kəndindəki binası | | 10 çarpayı (yaralılar üçün) |
| **16** | "İ.K. və A.B. Rılskilər" şirkəti nəzdində hərbi xəstəxana | Balaxanı şosesi, keçmiş "Eternit" binası | | 50 çarpayı |
| **17** | "Bakı Neft cəmiyyəti" nəzdində hərbi xəstəxana | Cəmiyyətin Suraxanıdakı binası | | 10 çarpayı Yüngül yaralı əsgərlər üçün |
| **18** | Həkim Larionovun müalicəxanası nəzdində hərbi xəstəxana | Bazar küçəsi | 8 çarpayı | |
| **19** | "Anna və Yelizavet Lalayevlər" şirkəti nəzdində hərbi xəstəxana | Sadovaya küçəsi, xüsusi ev | | 20 çarpayı |

Tərtib olunmuş cədvəldə müharibənin başlanğıcında Bakı şəhərində fövqəladə vəziyyətdə 19 hərbi xəstəxananın təşkil olunduğu göstərilir. Həmin xəstəxanalardan nümunə olaraq, "İsmailiyyə" hərbi xəstəxanası barədə bəhs etməklə digər xəstəxanalar haqqında da təsəvvür yaratmağa çalışacağıq. Bütün hərbi xəstəxanalara, istər dövlət orqanları tərəfindən yaradılmış, istər xüsusi təşkilat və şirkətlər tərəfindən yaradılmış xəstəxanalara mərkəzi dövlət orqanları tərəfindən nəzarət olunurdu.

### 4.3. "İsmailiyyə" hərbi xəstəxanası

1914-cü il avqustun 13-də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"ndə idarə heyətinin hərbi xəstəxanaların təşkili ilə bağlı iclası keçirildi. İdarə heyəti üzvəri ilə yanaşı, xüsusi dəvət edilən şəxslərin də iştirak etdiyi iclasda müharibədə döyüş bölgələrindən gətirilmiş yaralı və xəstə hərbçilərin yerləşdirilməsi məqsədilə hərbi xəstəxananın açılması məsələsi müzakirə olundu. Həmin iclasda qərara alındı ki, 6 ay müddətində 100 çarpayılıq bir hərbi xəstəxana təşkil edilsin. Hərbi xəstəxananın işlərinin təşkili və fəaliyyətə başladıqdan sonra idarə olunması üçün 17 nəfərdən ibarət komissiya yaradıldı. [1] Komissiyanın tərkibinə aşağıdakı şəxslər seçilmişdilər: Əlimərdan bəy Topçubaşov (sədr), Qasım Qasımov (katib), Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Musa Nağıyev, Mirzə Əsədullayev, İsa bəy Hacınski, İsa bəy Aşurbəyov, İsrafil Hacıyev, Məmmədhəsən Hacınski, Yusif Dadaşov, Ağa Qəni Məmmədov, Fətəli bəy Rüstəmbəyov, İsmayıl bəy Səfərəliyev, Məlik bəy Sultanov, Ağahüseyn

[1] Bəsirət, 16 avqust 1914, № 17.

Tağıyev.[1] Az müddət sonra bu komissiyanı "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nəzdində yaradılan xüsusi bölmə əvəz etdi və bölmənin tərkibində müəyyən dəyişikliklər oldu.

1914-cü ilin sentyabrında Bakı şəhər rəisinin rəsmi icazəsi ilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədə yaralanan xəstə hərbçilərə kömək üzrə bölmə"si təşkil edildi və fəaliyyətə başladı.[2] "Müharibədə yaralanan xəstə hərbçilərə kömək üzrə bölmə"nin üzvləri aşağıdakı tərkibdən ibarət idi:[3] sədr - Mirzə Əsədullayev, katib - Mehdi bəy Hacınski, xəzinədar - Fətulla bəy Rüstəmbəyov. Bölmənin üzvləri:[4] Axund Molla Ağa Əlizadə, Məşədi bəy Əzizbəyov, İbad Əliyev, Nuri Əmiraslanov, Əbdüləli bəy Əmircanov, Əsədulla Əhmədov, Bala bəy Aşurbəyov, İsa bəy Aşurbəyov, Ağa Aşurov, Əliheydər Babayev, İsa bəy Hacınski, Məmmədhəsən Hacınski, Ağa Mirməmməd Kərim Hacı Mircəfərzadə, İsrafil Hacıyev, İbrahim bəy Heydərov, Həsən Ağa Həsənov, Zalı Həsənov, Yusif Dadaşov, Məmməd Yusif Cəfərov, Qasım Qasımov, Ağa Qəni Məmmədov, Həbib bəy Mahmudbəyov, Ağa Murtuza Muxtarov, Ağa Musa Hağıyev, Tağı Nağıyev, Bəxşiş bəy Rüstəmbəyov, İsmayıl bəy Səfərəliyev, Məlik bəy Sultanov, Hacı Zeynalabdin Tağıyev, Əlimərdan bəy Topçubaşov və Zeynal bəy Səlimxanov.[5]



"Müharibədə yaralanan xəstə hərbçilərə kömək üzrə bölmə"nin fəaliyyəti, o cümlədən hərbi xəstəxananın təşkili tədbirləri barədə "Bəsirət" qəzeti yazırdı: "Müsəlman cəmiy-

[1] Bəsirət, 16 avqust 1914, № 17.

[2] ARDTA, fond. 46, siyahı 4, iş 465, v. 30.

[3] ARDTA, fond. 46, siyahı 4, iş 465, v. 31.

[4] ARDTA, fond 46, siyahı 4, iş 465, v. 31 (arx.).

[5] ARDTA, fond 46, siyahı 4, iş 465, v. 31 (arx.).

yəti xeyriyyəsi tərəfindən xəstəxana üçün lazım olan əşyalar alınmaqdadır. Çarpayı və sair şeylər sifariş edilib oktyabrın 1-dək təslim ediləcək. Xəstəxana rəhbərinin bəyanatına nəzərən oktyabrın əvvəllərində xəstəxana mükəmməl hazır ediləcək".[1]

Çox qısa vaxt müddətində hərbi xəstəxana müharibədə yaralanan xəstə hərbçiləri qəbul etmək üçün tam hazır idi. 1914-cü il oktyabr ayının 4-də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədədə yaralanan və xəstə hərbçilərə kömək üzrə bölməsi"nin Bakı şəhər rəisinə yazdığı 4 saylı məktubunda hərbi xəstəxananın təşkili barədə məlumat verilirdi. Məktubda yazılırdı: "...diqqətinizə çatdırırıq ki, Sizin razılığınızla Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin nəzdində müharibədən yaralananlara və xəstələrə kömək üzrə xüsusi bölmə təşkil olunub, həmçinin Nikolayevski 10 ünvanında, "İsmailiyyə" Müsəlman Xey-



***Mirzə Əsədullayev (1875-1936)*** *- ictimai xadim, neft sahibkarı, Şəmsi Əsədullayevin oğlu. Neft satışı ilə bağlı müəyyən vaxtlarda Rusiyanın Moskva, Peterburq şəhərlərində yaşamışdır. Eyni zamanda bu şəhərlərdə maarifçilik fəaliyyəti ilə məşğul olmuşdur. "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin sədri, "Qardaş köməyi" qəzetinin naşiri və redaktoru olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentin üzvü seçilmişdir. Fətəli Xan Xoyskinin təşkil etdiyi üçüncü hökumət kabinəsində ticarət və sənaye naziri olmuşdur. 1920-ci ildə Sovet hakimiyyətinin ilk aylarında rəsmi icazə ilə Fransanın Paris şəhərinə getmiş və ömrünün axırına kimi orada yaşamışdır.*



[1] Bəsirət, 27 sentyabr 1914, № 23.

riyyə Cəmiyyətinin binasında 100 çarpayılıq müsəlman hərbi xəstəxanası yaardılmışdır. Bu xəstəxana cəmiyyətin idarə heyəti tərəfindən olduqca yüksək səviyyədə lazımi tibbi avadanlıqlarla və şəraitlə təchiz edilmişdir".[1] Həmin məktuba bölmə üzvlərinin siyahısı əlavə olunmuşdur.

Qeyd edək ki, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin hərbi xəstəxanası həmin dövrdə təşkil olunan ilk hərbi xəstəxanalardan biri idi. Bununla yanaşı Bakı şəhəri üzrə ictimai təşkilatlar və imkanlı şəxslər tərəfindən təşkil olunan hərbi xəstəxanalar da fəaliyyətə başlamışdı.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin binasında – "İsmailiyyə" binasında yerləşən hərbi xəstəxanaya həkim Bəybala bəy Sultanov rəhbərlik edirdi. Xəstəxananın tibbi heyətində 2 həkim–Həmzə Zeynalov və Kərim bəy Sultanov, həmçinin 6 tibb bacısı var idi.[2]



***İsmayıl bəy Səfərəliyev*** *- görkəmli mesenant. Qafqaz cəbhəsində türk hərbi əsirlərinə yardım üzrə bölmənin rəhbəri. "Nəşri maarif" cəmiyyətinin təsisçilərindən biri*

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti tərəfindən hərbi xəstəxanada yerləşdirilən hərbçilərə olduqca böyük diqqət və qayğı göstərilirdi. İdarə heyəti tərəfindən qəbul olunmuş qaydaya görə, hər gün cəmiyyətin xüsusi bölməsi olan "Müharibədə yaralanan hərbçilərə kömək göstərmək üzrə bölmə"nin bir nəfər üzvü xəstəxanada növbədə dururdu. Növbədə olan şəxs

---

[1] ARDTA, fond 46, siyahı 4, iş 465, v. 29, 29 (arx.), 30.

[2] Kaspi, 6 noyabr 1914, № 249.

palataları yoxlayır, xəstələrin ehtiyacları ilə maraqlanırdı. Bölmənin sədr müavini İsmayıl bəy Səfərəliyev hər gün hərbi xəstəxanaya baş çəkir, hərbçilərin vəziyyəti ilə maraqlanırdı.[1]

1914-cü ili noyabrın 6-na olan məlumata görə, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nın hərbi xəstəxanasına gətirilən 74 yaralı hərbçi 5 palatada yerləşdirilmişdi.[2] Həmin məlumatda həmçinin bildirilirdi ki, təkcə bir gündə cəmiyyətin hərbi xəstəxanasına 18 nəfər yaralı hərbçi yerləşdirilmişdir.[3]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti hərbi xəstəxanada yerləşdirilmiş yaralı və xəstə hərbçilərə hərtərəfli qayğı ilə yanaşırdı. Burada həmçinin xəstəxananın sanitar-gigiyenik qaydalarına xüsusi diqqət yetirilirdi. Bu barədə "Kaspi" qəzeti yazırdı ki, "...yaralı hərbçilər işıqlı və təmiz otaqda yerləşdiriliblər. Təmizlik ideal səviyyədədir. Yaralılar ya uzanıb, ya da dəhlizdə gəzirlər. Onlardan çoxu məktub yazır, öz yerlərinə qayıtmağa tələsir. Yumşaq və təmiz yatağa baxdıqda, ilk baxışdan bilinir ki, bura sevgi ilə hazırlanmışdır".[4]



"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin hərbi xəstəxanasının palataları 2 hissəyə ayrılmışdı. Xəstəxananın bir hissəsi əsgərlər, digər hissəsi isə zabitlər üçün nəzərdə tutulmuşdu. Xəstəxanaya daxil olan xəstə və yaralılar qəbul zamanı yoxlanılırdı. Qaydaya görə üzərlərində silah, o cümlədən soyuq silah olması qadağan idi. Hərbi xəstəxanada olan hərbçilərin milliyyətcə tərkibi müxtəlif idi. Burada Qafqazda yaşayan bütün xalqların nümayəndələri var idi.[5]

---

[1] Kaspi, 7 noyabr 1914, № 250.

[2] Kaspi, 6 noyabr 1914, № 249.

[3] Kaspi, 8 noyabr 1914, № 251.

[4] Kaspi, 6 noyabr 1914, № 249.

[5] Kaspi, 6 noyabr 1914, № 249.

1914-cü ilin noyabrında hərbi xəstəxanada yalnız bir zabit – Fərrux Ağa Qayıbov yaralı olaraq yerləşdirilmişdi.[1] Qeyd edək ki, Fərrux Ağa Qayıbov – ilk azərbaycanlı hərbi pilot, "İlya Muromets №16" adlı bombardımançı heyət üzvü idi.

Birinci Dünya müharibəsi illərində Bakıda fəaliyyət göstərən digər tibbi müəssisələr kimi, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin hərbi xəstəxanası da dövlət və hökumət orqanlarının ciddi nəzarəti altında idi. Həmin orqanlar tərəfindən mütəmadi olaraq xəstəxanaya baxış keçirilirdi. 1915-ci il yanvarın 7-də cəmiyyətin hərbi xəstəxanasına Bakı qarnizon rəisi kontr-admiral E.V.Klyupfelin və digər dövlət məmurlarının müşayiəti ilə Ümumrusiya Sanitar Köçürmə Hissəsinin rəisi A.P.Oldenberq gəlmişdi. Onlar palatalarda müharibədə yaralanan və xəstə hərbçilərlə söhbət etmiş, həmçinin hərbi xəstəxanaya baxış keçirmiş və şəraitin qənaətbəxş olduğunu bildirmişdilər.[2]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti yaralı və xəstə hərbçilərin əhvali-ruhiyyəsinin yüksəldilməsi üçün mütəmadi olaraq tamaşalar təşkil edirdi. 1914-cü ilin dekabrında "Yeni il" bayramı münasibətilə müsəlman dram aktyorlarının iştirakı ilə tamaşa təşkil olunmuşdu. Tamaşada cəmiyyətin "Müharibədə yaralanan hərbçilərə kömək üzrə bölmə"nin sədr müavini İsmayıl bəy Səfərəliyev və bölmə üzvləri, xəstəxananın rəhbəri Bəybala bəy Sultanov, həmçinin hərbi xəstəxananın tibbi heyəti iştirak ediblər. Tamaşadan sonra hərbi xəstəxananın rəhbərliyi tərəfindən ziyafət təşkil olunmuşdu ki, bura cəmiyyətin idarə heyəti tərəfindən

---

[1] Kaspi, 8 noyabr 1914, № 251.

[2] Kaspi, 10 yanvar 1915, № 7.

dəvət olunmuş qonaqlar və hərbçilər qatılıblar.[1] Hərbi xəstəxanalarda bu kimi mədəni tədbirlərin keçirilməsində əsas məqsəd, yaralı və xəstə hərbçilər arasında əhvali-ruhiyyənin artırılması idi.



***"Bakı müsəlman xeyriyyə cəmiyyəti" tərəfindən türk hərbçilərir̈i üçün təşkil olunmuş ziyafət***

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin hərbi xəstəxanasında bayram tədbirləri keçirmək demək olar ki, ənənə halını almışdı. 1915-ci il dekabrında hərbi xəstəxanada olan hərbçilər üçün bayram tədbiri təşkil olunmuşdu. Tədbirdə İsmayıl bəy Səfərəliyev, həmçinin "Xəstə və yaralı həbçilərə kömək üzrə bölmə"nin bütün üzvləri və digər nümayəndələr iştirak etmişdilər. Tədbirdə dram sənəti həvəskarları iki pyes nümayiş etdirmişdilər.[2]

---

[1] Kaspi, 23 dekabr 1914, № 287.

[2] Kaspi, 30 dekabr 1915, № 291.

Müharibə ilə bağlı tədbirlərin təşkilində yerli sahibkarlar həm təşkilati, həm də maddi dəstək göstərirdilər. 1914-cü ilin sentyabrında Hacı Zeynalabdin Tağıyev və Ağa Musa Nağıyev Qafqaz müsəlman diviziyasında xidmət üçün sanitar bölmənin təşkil olunması və saxlanmasından ötrü hər biri 50.000 rubl yardım etmişdilər.[1]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətindən əlavə, həmin dövrdə Bakıda fəaliyyət göstərən digər ictimai təşkilatlar hərbi xəstəxanalara baş çəkir, burada olan hərbçilərə mənəvi dayaq olduqlarını bildirirdilər. 1914-cü ilin noyabrına olan məlumata görə, yaralı hərbçilərə baş çəkmək üçün Sona xanım Tağıyevanın rəhbərliyi ilə "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin üzvləri xəstəxanada olmuşdular.[2]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin hərbi xəstəxanasında yerləşdirilən hərbçilərə ictimaiyyətin demək olar ki, bütün təbəqələrindən yardımlar olunurdu. Təkcə 1914-cü ilin oktyabr-dekabr aylarında cəmiyyətin hərbi xəstəxanasında yerləşdirilən yaralı və xəstə hərbçilərə "Kaspi" tipoqrafiyasının fəhlələri tərəfindən 16 rubl, İsa bəy Hacınskinin Balaxanıdakı fəhlələri tərəfindən 57 rubl, Əlibala Əliyev adlı bir şəxs tərəfindən divar saatı,[3] tütün fabrikinin rəhbəri Hacı Nağı Mehdiyev tərəfindən 10.000 siqaret ,[4] D.Kərbalayı Xocabəyoğlu 5 rubl, A.D.Mehdiyev 50 rubl, Murtuza Muxtarovun səhmdar cəmiyyətinin xidmətçisi 54 rubl, Musa Nağıyevin müəssisəsinin rəhbərləri 67 rubl ianələr etmişlər.[5]

[1] Kaspi, 17 sentyabr 1914, № 207.

[2] Kaspi, 6 noyabr 1914, № 249.

[3] Kaspi, 11 noyabr 1914, № 253.

[4] Kaspi, 26 noyabr 1914, № 265.

[5] Kaspi, 6 yanvar 1915, № 4.

Birinci Dünya müharibəsi başlayandan sonra lazımi tədbirlərin həyata keçirilməsi məqsədilə müvafiq addımlar atılırdı. Həyata keçirilən tədbirlərdən biri də, 1914-cü il dekabrın 6-dan 9-dək Peterburqda Ümumrusiya Maarif və Xeyriyyə Cəmiyyətlərinin Qurultayının təşkili idi. Qurultayın proqramında müharibədə yaralanan hərbçilərə yardım üçün nəzərdə tutulan layihələr öz əksini tapmışdı. Qurultayda iştirak etmək üçün Rusiyada müharibədən zərər çəkənlərə yardım üzrə fəaliyyət göstərən təşkilatlardan, o cümlədən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"ndən nümayəndə dəvət olunmuşdu. [1]

Rusiyanın Peterburq şəhərində keçirililən Ümumrusiya Maarif və Xeyriyyə Cəmiyyətlərinin Qurultayına nümayəndə göndərilməsi ilə əlaqədar olaraq, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədə yaralananlara kömək üzrə bölmə"nin iclası keçirildi. İclasda qərara alındı ki, cəmiyyətin idarə heyətinin və "Müharibədə yaralılara və xəstələrə kömək üzrə bölmə"nin sədri Mirzə Əsədullayev Qurultaya nümayəndə göndərilsin. Bu məqsədlə cəmiyyətin büdcəsindən 5.000 rubl pul ayrıldı.[2]

1914-cü il dekabrın 6-dan 9-dək Peterburqda keçirilən Maarif və Xeyriyyə Cəmiyyətlərinin Ümumrusiya Qurultayında, digər məruzələrlə yanaşı, Mirzə Əsədullayevin "Səyyar hərbi xəstəxanaların təşkili" adlı məruzəsi də dinlənilmişdi.[3]

Birinci Dünya müharibəsi illərində yaralı və xəstə hərbçilərlə aparılan işlər, həyata keçirilən tədbirlər dövlət və hökumət orqanlarının ciddi nəzarəti altında idi. Bəzi

[1] Kaspi, 2 dekabr 1914, № 270.

[2] Kaspi, 2 dekabr 1914, № 270.

[3] Kaspi, 11 yanvar 1915, № 8.

hallarda Bakıda fəaliyyət göstərən hərbi xəstəxana nümayəndələri müəyyən müzakirələrin aparılması məqsədilə bir mərkəzə cəlb olunurdular. 1915-ci ilin əvvəllərində Bakı şəhər rəisliyi nəzdində "Yaralı və xəstə hərbçılərə kömək üzrə qəyyumluq" təşkil olunmuşdu. Həmin qəyyumluğa Bakı şəhərində fəaliyyət göstərən bütün hərbi xəstəxana nümayəndələri, o cümlədən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "İsmailiyyə" hərbi xəstəxanasından nümayəndə dəvət olunmuşdu. Bu barədə məlumat, 1915-ci ilin aprelində Bakı şəhər rəisi tərəfindən cəmiyyətin idarə heyətinə göndərilən teleqramda öz əksini tapmışdır.[1]

Beləliklə, Birinci Dünya müharibəsi illərində döyüş bölgələrindən gətirilmiş yaralı və xəstə hərbçilərin yerləşdirilməsi məqsədilə Bakı şəhərində bir sıra xeyriyyə cəmiyyətləri və imkanlı şəxslər tərəfindən hərbi xəstəxanalar açıldı. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən təşkil olunan xəstəxana fəaliyyət dairəsinin genişliyi, yaralı və xəstə hərbçilərə xeyirxah münasibəti və nizamlı qayda-qanunu ilə bu sahədə yaranmış ehtiyacı nisbətən təmin edirdi.

[1] Kaspi, 30 aprel 1915, № 95.

# V FƏSİL
# RUSİYA İMPERİYASINDA QAÇQINLIQ PROBLEMİ VƏ BAŞ QAFQAZ KOMİTƏSİ

## 5.1. Baş Qafqaz Komitəsinın yaradılması və fəaliyyət proqramı

Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində baş verən hərbi əməliyyatlar nəticəsində Rusiya ərazisini qaçqın dalğası bürümüşdü. Onlardan bir hissəsi hərbi əməliyyatlar başlamazdan əvvəl dövlət tərərfindən məcburi köçürülənlər, digər hissəsi isə Türkiyə sərhədlərində döyüş zamanı dağıdılmış ərazilərdən gələn türk-müsəlman qaçqınları idi. Həmçinin müharibədə Türkiyə əleyhinə üsyan edən, erməni partizan dəstələrnin yerləşdiyi Vanətrafı erməni sakinlərinin ölkədən çıxarılması bu baxımdan vəziyyəti daha da ağırlaşdırmışdı. Belə bir şəraitdə imperatriçə Aleksandra Feodorovnanın himayəsi altında qaçqınların yerləşdirilməsi, onların işlə təmin olunması məqsədilə müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsi yaradıldı.

İmperatriçə Aleksandra Feodorovnanın himayəsi altında fəaliyyət göstərən Baş Qafqaz Komitəsi haqqında xüsusi qaydalar təsdiq olundu. Baş Qafqaz Komitəsinin əsas fəaliyyət proqramı müharibəyə yardım edən bütün növ təşkilatlara, ruhanilərə, vətəndaş sinfi nümayəndələrinə, könüllü şəxslərə, zabitlərə və aşağı rütbəli hərbçilərə, orduda, yaxud hərbi dəniz donanmasında, dəmir yolu idarələrində, hərbi döyüşlərin getdiyi rayonlarda əmək qabliyyətini itirmişlərə, o cümlədən yaralılara və s. kömək göstərməkdən ibarət idi. [1]

[1] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

"Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsi haqqında qaydalar"ın birinci bəndində qeyd olunurdu: Komitə İmperatriça Aleksandra Feodorovnanın himayəsi altında fəaliyyət göstərir və Qafqaz hüdudlarında cinsindən asılı olmayaraq, müharibədən zərər çəkənlərə kömək üzrə ictimai təşkilatları və xeyriyyəçi şəxsləri öz ətrafında birləşdirir.[1] Baş Qafqaz Komitəsi, İmperatorun Qafqazdakı canişininin bilavasitə şəxsi sədrliyi və yaxud onu əvəz edən şəxsin sədrliyi ilə fəaliyyət göstərir.[2]

"Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsi haqqında qaydalar"a əsasən Qafqaz canişininin sərəncamı ilə müharibədə zərər çəkən və qaçqınlara kömək üzrə smeta təkliflərinin hazırlanması və digər tarşırıqların yerinə yetirilməsi üçün komitə üzvlərindən ibarət aşağıdakı vəzifələr təsdiq olunmuşdur: iki nəfər sədr müavini, Təftiş Komissiyasının sədri, komitə bölmələrinin sədrləri, İdarəetmə İşləri Komitəsi və onun köməkçisi, idarə heyəti.[3] Qaydalarda xüsusilə qeyd edilirdi ki, sədrin sərəncamı ilə idarə heyəti üzvləri komitənin digər üzvlərindən təşkil olunur.[4]



Baş Qafqaz Komitəsinin üzvləri aşağıdakı şəxslərdən ibarət idi: Gürcüstanın Ekzarxı, Çarın Qafqazdakı canişinin hərbi və mülki işlər üzrə köməkçisi, ali ruhani nümayəndələri: erməni-qriqoryan və müsəlman, ordu komandanı, Qafqaz Hərbi Dairəsinin baş rəisi, müharibənin getdiyi Türkiyə Vilayətləri general-qubernatoru, fəaliyyət göstərən Ordu və Dairə üzrə ştab rəisi, Cənubi Qafqaz Dəmiryolu rəisi, Qafqaz canişininin dəftərxana rəisi, Maliyyə Nazirliyindən Canişin

---

[1] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

[2] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

[3] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

[4] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

Şurasının üzvü, komitənin idarə heyətinin bütün üzvləri, hüdudlarda olan hökumət təşkilatlarının rəisləri, Tiflis qubernatoru və digər dairə üzrə qubernatorlar, Rusiya Qırmızı Xaç Cəmiyyətinin Dairə İdarəsinin sədri, Qafqaz Ordusu üzrə Qırmızı Xaç Baş müvəkkili, Qafqaz Cəbhəsində Qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkili, Zemski və Şəhərlər İttifaqı Baş müvəkkili, Tiflis Quberniyası ruhani öndərləri, Tiflisdə yerləşəın digər quberniyalar üzrə dini öndərlər, Tiflis şəhər başçısı, quberniya və vilayət şəhərlərinin şəhər başçıları, hüdudlarda olan xeyriyə təşkilatlarının sədrləri.[1]

"Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsi haqqında qaydalar"da qeyd olunurdu ki, Baş Qafqaz Komitəsi, Qafqaz canişininin tapşırıqlarını həyata keçirilməsi ölçüsündə öz vəzifəsini yerinə yetirməkdə sərbəstdir. Komitə ildə iki dəfə – hər altı ayda bir dəfə olmaqla öz fəaliyyəti və xərcləri barədə Ali Şura qarşısında hesabat verir.[2] Ali Şuraya təqdim olunan hesabat yerli komitələr, filiallar tərəfindən Baş Qafqaz Komitəsinə daxil olun hesabatlar əsasında hazırlanırdı.

Baş Qafqaz Komitəsi yerlərdə öz filiallarını açırdı və bu filiallara komitə üzvləri rəhbərlik edirdilər. Xüsusi ştat üzrə hər bir filialköməkçilər və dəftərxanadan ibarət idi.[3]

Baş Qafqaz Komitəsinə və yerli komitələrə ayrılan vəsait Ali Şuranın qərarı ilə həyata keçirilirdi. Ayrılmış məbləğ, ictimai və məhəllə təşkilatlarından, xüsusi şəxslərdən daxil olan pul və digər maddi gəlirlərdən, komitə tərəfindən təşkil olunan konsert və digər mədəni tədbirlərdən daxil olan gəlirlərdən yaranırdı.[4]

---

[1] ARDTA, fond 334, siyahı 1, iş 11, 1-4.

[2] ARDTA, fond 334, siyahı 1, iş 11, 1-4.

[3] ARDTA, fond 334, siyahı 1, iş 11, 1-4.

[4] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

Baş Qafqaz Komitəsinin ümumi iclası daxil olan məsələlərə baxılması üçün, komitə sədri və 10 nəfərdən az olmayaraq Komitə üzvlərinin iştirakı ilə ayda bir dəfədən gec olmayaraq çağırılırdı. Ümumi qəbul olunmuş qaydalara əsasən burada da məsələlərin həlli səs çoxluğu ilə həll olunurdu. Səslər bərabər olduğu zaman sədrin səsi həlledici olurdu. [1]

"Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsi haqqında qaydalar"a əsasən Baş Qafqaz Komitəsinin sədri pul yardımını bilavasitə xüsusi şəxs olaraq etmək səlahiyyətinə malik deyildir. Lazım olan vəsait komitənin idarə heyətinin qərarı ilə ayrılırdı. [2]

Baş Qafqaz Komitəsi, onun filialları və idarə heyətinin fəaliyyətinin daxili qaydaları təlimat və qərarlarla müəyyən olunurdu. [3]



"Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsi haqqında qaydalar"a əsasən Baş Qafqaz Komitəsinə, onun tərkibinə daxil olan quberniya və vilayətlər üzrə komitələrə üzvlər, həmçinin komitə üzvləri inperatorun Qafqazdakı canişini tərəfindən təsdiq edilirdi. [4]

Qafqazda hərbi əməliyyatların aparıldığı bölgələrdə zərər çəkənlərə və həmin ərazilərdən olan qaçqınlara müvəqqəti kömək göstərmək işi böyük knyagina Tatyana Nikolayevnanın tapşırığı ilə təşkil olunur və komitə öz fəaliyyətini imperator əlahəzrətlərinin xüsusi razılığı ilə müəyyən edirdi. [5]

"Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsi haqqında qaydalar"a əsasən yerli komitələr Türkiyə

---

[1] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

[2] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

[3] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

[4] ARDTA, fond 334, siyahı 1, iş 11, 1-4.

[5] ARDTA, fond 334, siyahı 1, iş 11, 1-4.

vilayətlərində, Persiya (İran) vilayətlərində Baş Qafqaz Komitəsinin icazəsi ilə, müharibə qanunlarına uyğun olaraq açıla bilərdi. [1]

Baş Qafqaz Komitəsi və onun tərkibinə daxil olan quberniya və yerli komitələr daşınan və daşınmaz əmlak tapmaq və almaq, müqavilələr bağlamaq, məhkəmədə çıxış etmək və cavab vermək hüququna malik idilər. Yerli komitələrin fəaliyyəti dayandırılardısa, onun əmlakı Baş Qafqaz Komitəsinin mülkiyyətinə keçirdi.[2]

Beləliklə, Baş Qafqaz Komitəsinin yaranması və formalaşması qaçqınların və məcburi köçkünlərin yerləşdirilməsi baxımından olduqca mühüm əhəmiyyətə malik idi.

Müharibədə qaçqın və zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsinin xüsusi fəaliyyət proqramı hazırlanmışdı. Proqram qaçqınların yerləşdirildiyi bütün əraziləri əhatə edirdi.

Baş Qafqaz Komitəsinin fəaliyyət proqramında aşağıdakı müddəalar öz əksini tapmışdır. [3]

a) müharibəyə yardım edən bütün növ təşkilatlara, ruhanilərə, vətəndaş sinfi nümayəndələrinə və könüllü şəxslərə, zabitlərə və aşağı rütbəli hərbçilərə, orduda və ya hərbi dəniz donanmasında, dəmir yolu idarələrində, hərbi döyüşlərin getdiyi rayonlarda əmək qabliyyətini itirmiş, yaxud yaralılara və s. kömək göstərmək;

b) əlillər evində əmək qabliyyətini itirmiş şəxslərə, uşaq evlərinə, xeyriyyə təşkilatlarına və onların nəzdində olan bu kimi müəssisələrə kömək göstərmək;

[1] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

[2] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

[3] ARDTA, fond 334, siyahı 1, iş 11, 1-4.

v) əmək qabliyyətini nisbətən itirmiş şəxslərə emalatxana və sənət təhsilinin verilməsinə yardım etmək;

c) əmək qabliyyətini nisbətən itirmiş şəxslərə və bu kimi ailələrdən olan uşaqların emalatxana və sənət təhsilinin alınmasına, həmçinin tərbiyəsinə qayğı göstərmək;

q) müharibədən zərər çəkənlərə kömək üzrə təşkilatlara, onların fəaliyyətlərinin genişlənməsinə kömək göstərmək;

e) yerli komitələrin nəzdində müharibədən zərər çəkənlər üçün kurortlar, məntəqələr, ambulatoriyalar, xəstəxanalar, emalatxanalar, əməksevərlər evləri, uşaq evləri, əlillər üçün sığınacaqlar, ərzaq, geyim və tibbi anbarlar açmaq;

n) Qafqaz hüdudlarının müxtəlif yerlərində filial şöbələri açmaq;

m) müharibə qurbanları haqqında məlumat öyrənmək üçün mövcud müəssisələrin qeydiyyatını aparmaq;

h) Komitənin qeydiyyatında olan müəssisə və təşkilatlara, həmçninin məntəqələrə yardım göstərmək;

h) daxil olan yardımları qəbul etmək.



Baş Qafqaz Komitəsinin ilk iclası böyük knyagina Tatyana Nikoloyevnanın fəxri sədrliyi ilə 03 dekabr 1914-cü il tarixində keçirilmişdi. Həmin iclasda qərara alınmışdı ki, "...qaçqınlara kömək göstərmək Qafqaz Komitəsinin səlahiyyətlərinə aiddir və müharibədən zərər çəkən bütün kateqoriyalardan olanlara kömək məqsədilə təşkil olunur. Qaçqınlara kömək işi bütün İmperiyanı əhatə edir və bu barədə Qafqaz canişininə məlumat verilir".[1]

Komitənin ilk iclasında senator N.T.Çaplin Qafqazda qaçqınlara kömək göstərilməsi ilə bağlı məruzə etmişdir. [2] Onun məruzəsində qaçqınlara kömək işinin təşkili ilə bağlı bir çox mühüm məsələlər öz əksini tapmışdır.

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1504, v. 1, 1 (arx.).

[2] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 1-2.

İmperatriçə Aleksandra Feodorovnanın himayəsi ilə müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsinin Bakı quberniya Komitəsinə göndərdiyi 14 dekabr 1914-cü il tarixli 953 saylı "təcili" məktubunda yazılırdı:[1] "Bu il Baş Qafqaz Komitəsi tərəfindən senator N.T.Çaplinin məruzəsi əsasında Qafqazda qaçqınlara kömək göstərilməsi ilə bağlı qərara alınmışdır:

1. Qaçqınlara kömək göstərilməsi Baş Qafqaz Komitəsinin səlahiyyətlərinə aiddir və müharibədən zərər çəkən bütün kateqoriyalardan olan şəxslərə kömək göstərmək məqsədilə təşkil olunur;

2. Qafqaz Komitəsi bütün İmperiya üzrə qaçqınlara kömək işini aparır və müharibədən zərər çəkənlərə kömək fəaliyyəti barədə mütəmadi olaraq komitəyə, böyük knyagina Tatyana Nikolayevnaya məlumat verir;

3. Yerlərdə kömək işinin təşkil olunması məqsədilə bütün vilayət və quberniya komitələrinə tapşırılsın ki, qaçqınlara kömək göstərmək işini öz öhdələrinə götürsünlər və lazım olanlar barədə Baş Qafqaz Komitəsinə məlumat versinlər".[2] Baş Qafqaz Komitəsinin Bakı Quberniya Komitəsinə göndərdiyi bu məktub bütün yerli komitələrə də göndərilmişdir.

İmperatriçə Aleksandra Feodorovnanın himayəsi ilə müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsinin nəzdində Qaçqınlara Kömək Göstərmək İşinin Təşkili üzrə Komissiya yaradılmışdır. Komissiyanın tərkibinə aşağıdakı şəxslər daxil idilər: A.A.Pavlov, L.İ.Quliyev və S.S.Arutyunov.[3]

[1] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 1-2.

[2] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 1-2.

[3] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 4.

Baş Qafqaz Komitəsi tərəfindən Qaçqınlara Kömək Göstərmək İşinin Təşkili üzrə Komissiya tərəfindən etdiyi müharibədən zərər çəkənlərə və qaçqınlara kömək işinin düzgün və məqsədyönlü təşkili üzrə qaydalar təsdiq olunmuşdur.[1] Həmin "Qayda"larda aşağıdakı maddələr qeyd olunubdu.

1. Rusmənşəli qaçqınlara kömək göstərildiyi kimi, rus dövlət hakimiyyətinin himayəsi altına qəbul olunmuş türkmənşəli qaçqınlarada kömək edilir;

2. Vilayət, quberniya, şəhər və qəza komitələri müharibədən zərər çəkənlərə və qaçqınlara kömək məqsədilə öz tərkibində xüsusi komissiyalar təşkil edir. Bu komissiyanın tərkibinə yerli ictimai, mədəni və sənət müəssisələrindən olan şəxslər üzv olaraq qəbul olunmalıdırlar;

3. Vilayət, quberniya, qəza komissiyaları öz növbəsində yerli komissiyalar yaratmaq, yaxud qaçqınların müvəqqəti yaşayış yerlərində rayon müvəkkilliklərini təşkil etmək hüququna malikdirlər;

4. Qaçqınlara kömək göstərmək üzrə komissiyanın vəsaiti aşağıdakılardan yaranır:

Baş Qafqaz Komitəsi, yaxud vilayət, quberniya, qəza və şəhər komitələri tərəfindən olunan yardımlardan, həmçinin komitəyə bilavasitə daxil olan yardımlardan o cümlədən pul, geyim və ərzaq ehtiyatı yardımlarından;

5. Qaçqınlara kömək əsas qayda üzrə aparılmalıdır, onlar yaşayış yeri, ərzaq, geyim, həmçinin işlə təmin olunmalıdırlar;

6. Qaçqınlara tibbi kömək göstərilməlidir;

7. Qaçqınların tez və əlverişli yerləşdirilməsi məqsədilə onlar sərhədə yaxın, o cümlədən öz yaşadıqları ərazilərə yaxın yerləşdirilməlidirlər ki, sonralar oradan öz ərazilərinə köçürülsünlər.

---

[1] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 4.

8. Hər bir komissiya borcludur:

a) qaçqınların qeydiyyatı aparmalı, onlar haqqında məlumat toplanılmalıdır;

b) qaçqınlara kömək barədə pul hesabatları hazırlanmalıdır. Bu hesabat yerli komitə qarşısında ayda bir dəfə verilir; qaçqınların sayı və onlara kömək göstərilməsi barədə arayış yerli komitələr tərəfindən ayda bir dəfə Baş Qafqaz Komitəsinə təqdim olunur.[1]

Baş Qafqaz Komitəsinin Bakı Quberniya Komitəsinə yazdığı 25 dekabr 1914-cü il tarixli 1088 saylı məktubunda bildirilirdi ki, Qaçqınlara Kömək Göstərmək İşinin Təşkili üzrə Komissiyanın məruzəsi Baş Qafqaz Komitəsi tərəfindən təsdiq olunmuşdur. Qeyd edək ki, komissiyanın məruzəsi 10 nüsxədən ibarət olaraq, şəhər və qəza komitələrinə paylanması məqsədilə Bakı Quberniya Komitəsinə göndərilmişdir".[2]

Qısa zaman ərzində Qafqaz çanişini, general-adyütant İ.İ.Vorontsov-Daşkovun rəhbərlik etdiyi müharibədən zərər çəkənlərə və qaçqınlara yardım üzrə Baş Qafqaz Komitəsi tərəfindən Qafqaz canişinliyinin bütün quberniya və vilayətlərində yerli komitələr, həmçinin sahə və kənd-ictimai, yaxud dini komissiyalar yaradıldı.[3] Müharibədən zərər çəkənlərə maddi və mənəvi kömək göstərilməsi haqqında məlumatlar Qafqaz üzrə canişinin əhali üzrə köməkçisi general-leytenant Orlov tərəfindən Bakı qubernatoruna yazdığı 30 noyabr 1915-ci il tarixli 14 saylı məktubunda da əksini tapmışdır.[4]

---

[1] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 4.

[2] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 3.

[3] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 19, 19 (arx.).

[4] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 19, 19 (arx.).

Müharibənin birinci ilində ölkə daxilində bütün güc hərbi fəlakət zəminində zərər çəkənlərə kömək göstərilməsinə yönəldilmişdir. Bu işin mütəşəkkil formada həyata keçirilməsi məqsədilə Baş Qafqaz Komitəsi ictimai və milli təşkilatlarla əməkdaşlıq edirdi. Böyük knyagina Tatyana Nikolayevnanın rəhbərlik etdiyi müharibədə zərər çəkənlərə müvəqqəti kömək üzrə komitə tərəfindən Bakı qubernatoruna göndərilən 11 oktyabr 1915-ci il tarixli 11888 saylı məktubda yazılırdı ki, 30 avqust 1915-ci ildə qaçqınların təminatı barədə Qanun qəbul olunmuşdur. Məktubda məlumat olaraq bildirlirdi ki, "...qaçqınlara maddi və mənəvi yardım göstərilməsi üçün Rusiya Daxili İşlər Nazirliyi tərəfindən qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkillik, qubernatorlar və qradonaçalniklər, zemski təşkilatları, ictimai idarələr və yerli komitələr təyin olunmuşdur.[1]



### 5.2. Baş Qafqaz Komitəsinin əhalinin kömək işinə cəlb olunması ilə bağlı təşkilatçılıq fəaliyyəti

Müharibədən zərər çəkənlərə və qaçqınlara yardım göstərilməsi üzrə dövlət tərəfindən həyata keçirilən tədbirlərlə yanaşı, bu sahədə yerli əhalinin də maddi və mənəvi köməyinə ehtiyac hiss olunurdu. Baş Qafqaz Komitəsinin fəxri sədri Tatyana Nikolayevna hərbi əməliyyatların aparıldığı bölgələrdə olan qaçqınlara yardım olması ilə bağlı 1915-ci il noyabrın 9-da geniş əhali dairəsinə "Çağrış" etdi. [2] Bu barədə məlumat Baş Qafqaz Komitəsinin Bakı qubernatoruna yazdığı 13 noyabr 1915-ci il tarixli 5532 saylı məktubunda da öz əksini tapmışdır.

---

[1]ARDTA, fond 1, siyahı 1, iş 1504, v. 8.

[2] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 20, 20 (arx.).

**Baş Qafqaz Komitəsinin fəxri sədri Tatyana Nikolayevnanın hərbi əməliyyatların aparıldığı bölgələrdə olan qaçqınlara köməklə bağlı MÜRACİƏTİ**[1]



*Böyük knyagina Tatyana Nikolayevna – Rusiya imperatoru II Nikolay və imperatriçə Aleksandra Feodorovnanın ikinci qızı, Baş Qafqaz Komitəsinin fəxri sədri*

"Müharibə milyonlarla əhalinin yaşayış yerlərini dağıtdı. Evsiz, qaçqınlar acdırlar, özlərinə sığınacaq axtarırlar. Hökumət, ictimai və milli təşkilatlar, xüsusi xeyriyyəçilər və mənim komitəm qaçqınlara kömək edir, lakin onlara bütün əhali tərəfindən kömək göstərilməlidir. Xeyirxah insanlar, xahiş edirəm, qaçqınlara isti münasibət göstərin, onlara təsəlli verin!" [2] Qeyd edək ki, bu müraciət bütün qaçqınlar üçün nəzərdə tutulurdu.

Yuxarıda qeyd olunanlardan əlavə, Daxili İşlər Naziri Maklakov tərəfindən imzalanmış, knyagina Tatyana Nikolayevnanın fəxri sədr olduğu komitə üzrə "Müharibədən zərər çəkənlərə müvəqqəti kömək göstərmək üzrə Qaydalar" təsdiq olunmuşdur.[3]

Müharibədən zərər çəkənlərə müvəqqəti kömək göstərmək üçün Qaydalara görə, [4] komitə sədr, sədr müavini

---

[1] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 20, 20 (arx.).

[2] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 20, 20 (arx.).

[3] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 25.

[4] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 25.

və üzvlərdən ibarət idi. Komitənin iclaslarında qaçqın və müharibələrdən tərəf çəkənlərlə bağlı məsələlərin müzakirəsində nazirliklərdən olan nümayəndələr cəlb olunurdu. Bu problemlərin məktublaşma olmadan tez həll olunması baxımından vacib amillərdən biri idi. Qaydalarda qeyd olunurdu ki, komitənin iclaslarında aşağıdakı nazirliklərin nümayəndələri iştirak edirlər: Rusiya Daxili İşlər Nazirliyi, Rusiya Hərbi Nazirliyi, Rusiya Dəmiryolu Nazirliyi və Rusiya Maliyyə Nazirliyi.

"Müharibədən zərər çəkənlərə müvəqqəti kömək göstərilməsi üzrə Qaydalar"ın dördüncü bölməsində qeyd olunur ki, komitənin fəaliyyətinə aşağıdakılar aiddir:

a) birdəfəlik maddi kömək göstərilməsi;

b) yaşayış yerlərinə kömək göstərilməsi;

c) əmək qabliyyəti olanların işlə təmin olunmalarına kömək göstərmək;

d) əmək qabliyyətini itirmiş insanların saxlandığı xeyriyyə müəssisələrinə, himayə evlərinə kömək göstərmək;

e) yardımların qəbulu;

f) komitənin vəsaiti yardımlardan və xəzinədən daxil olan yardımlardan yaranır. [1]

Baş Qafqaz Komitəsinin idarə heyətinin iclaslarında yerli komitələrin sədrləri də iştirak edirdi. [2]

Bu komitənin işinə öz müsbət təsirini göstərirdi. Bu həll olunması vacib olan məsələ idi. Qaçqınların işlə təmin olunması, onların iqtisadi durumlarının yaxşılaşması ilə yanaşı, cəmiyyətdə öz yerlərini tutması baxımından əhəmiyyətli idi. 1915-ci ilin mayın 28-də Baş Qafqaz Komitəsinin iclasında komitə sədrinin əmək qabliyyəti olan qaçqınların

[1] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 25.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1504, v. 7, 7 (arx.).



*İmperatriçə Aleksandra Feodorovna – Rusiya imperatoru II Nikolayın həyat yoldaşı, Baş Qafqaz Komitəsinin hamisi*

işə qəbul olunması barədə məruzəsi dinlənilmişdi.[1] Komitə, qaçqınlara kömək işini onların əmək fəaliyyətinə başlamasına kömək prinsipi əsasında həyata keçirir. Bu məqsədlə onlar yerli təşkilatlara uyğun şərtlər əsasında təqdim olunurdular.[2] Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsinin hamisi İmperatriçə Aleksandra Feodorovnanın Qafqaz hüdudlarında müharibədən zərər çəkənlərə kömək üzrə Bakı Quberniya Komitəsinin sədrinə yazdığı 19 iyun 1915-cü il tarixli 1379 saylı məktubunda yazılıb ki, "...qərara alınmışdır ki, Qafqaz hüdudlarında bütün Quberniya və Vilayət Komitələrinə təklif olunsun ki, qaçqınlara kömək göstərmək işini onların işə cəlb olumaaları ilə başlasınlar".[3] Məktubda bununla bağlı müvafiq qərarların qəbul olunması bildirilirdi.[4] Xüsusi göstərişdən sonra yerli orqanlar tərəfindən qaçqınlar sıyahıya alınmasına başlanılmış, əmək qabliyyəti olanların işlə təmin olunmaları həyata keçirilirdi.

1916-cı il aprelin 5-də Bakı Qubrnatorunun Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə Baş Müvəkkil

[1] ARDTA, fond 1, siyahı 1, iş 1504, v. 7, 7 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1504, v. 7, 7 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1504, v. 7, 7 (arx.).

[4] ARDTA, fond 1, siyahı 1, iş 1504, v. 4.

general-mayor Tamamşevə yazdığı 724 saylı məktubunda bildirirdi ki, siyahıda olan və əmək qabiliyytili 23 kişi və 32 qadından 17 kişi və 9 qadın işlə təmin olunmuşdur.

Beləliklə, Cənubi Qafqazda qaçqınların yerləşdirilməsi və onların problemlərinin həlli ilə bağlı olaraq Baş Qafqaz Komitəsinin yaradılması qaçqınlara dövlət qayğısının nümunəsi idi. Ən əsası isə bu qayğıdan rəqib, düşmən ölkədən olan qaçqınlar, türk müsəlman qaçqınları istisna olmurdu.

# VI FƏSİL
# BAŞ QAFQAZ KOMİTƏSİNİN YELİZAVETPOL QUBERNİYASINDA FƏALİYYƏTİ. YELİZAVETPOL QUBERNİYA KOMİTƏSİ

## 6.1. Yelizavetpol Quberniya Komitəsinin yaranması və strukturu

Yelizavetpol quberniyasında qaçqın və müharibədən zərər çəkənlərə yardım işinin təşkili ilə iki komitə məşğul olurdu: 1. Baş Qafqaz Komitəsinin Yelizavetpol Quberniya Komitəsi və 2. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Yelizavetpol komitəsi. Yelizavetpol Quberniya Komitəsi 1915-ci ilin fevralından fəaliyyət göstərirdi. [1] Həmin ilin avqust ayından Komitənin bütün fəaliyyəti Yelizavetpol qubetnatorunun sədrliyi ilə həyata keçirilirdi. [2] Quberniya Komitəsinin strukturu yerlərdə icraedici funksiyanı həyata keçirən qəza komitələrindən ibarət olaraq müəyyənləşdirdi. Bu funksiyanı qaçqınların daha çox yerləşdirildiyi Yelizavetpol və Qazax qəza komitələri həyata keçirirdi. Hər bir yerli komitəyə ərazi üzrə qəza rəisi sədrlik edirdi. [3] Komitənin qaçqınlara himayə üzrə qəyyumluğu müxtəlif olurdu. Bu fərqlilik aşağıdakılardan ibarət idi: Yelizavetpol qəzasında qaçqınların təşkili işinə münsiflər cəlb olunurdu. Qazax qəzasında isə bu fəaliyyətlə qəzanın 3 sahəsində pristav (polis məmuru - N.M.) məşğul olurdu. [4] Yelizavetpol qəzasında

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 115.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 111.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 111 (arx.).

[4] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 111 (arx.).

qaçqınların köçürüldüyü yerlərdə üç alt komitə və 39 kənd qəyyumluğu fəaliyyət göstərirdi.[1] Qazax qəzasında alt komitə yox idi və onun yerində Karavansaray sahə komissiyası yaradılmışdı. Pristavın rəhbərliyi ilə Qazax qəzasında 3 sahə və 14 kənd alt komissiyası fəaliyyət göstərirdi.[2] Qəyyumluq və alt komissiyanın təşkili eyni deyildi: birincilər yerli əhalinin kənd yığıncağından seçilmiş sədrdən və 4-5 üzv-qəyyumdan, ikincilər isə cəmi iki nəfər üzvdən ibarət idi.[3]

Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə baş müvəkkiliyinin keçirdiyi iclasda məruzə edən Yelizavetpol Quberniya Komitəsinin müvəkkili Klenevski təklif etmişdi ki, qəyyumluğun nümayəndələri qaçqınlar özləri olsunlar.[4] Həmçinin o, qeyd edirdi ki, "...bu barədə məsələ bu ilin 5 avqustunda mənim sədrliyimlə Quberniya Komitəsinin iclasında müzakirə olunmuş və razılıq əldə edilmişdir".[5]



Qaçqınların yerləşdirilməsi üzrə Yelizavetpol Quberniya Komitəsi ictimai təşkilatlarla birgə fəaliyyət göstərir və Yelizavetpol quberniyası hüdudlarında qaçqınlara yardım işinin təşkilini həyata keçirirdi.[6]

Yelizavetpol Quberniyasında qaçqınların vəziyyəti barədə məlumat vermək üçün komitə üzvləri ilə yanaşı, dövlət və hökumət orqanlarının nümayəndələri də yerlərə gedir, qaçqın və müharibədən zərər çəkənlərin vəziyyəti barədə

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 111 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 111 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 112.

[4] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 112.

[5] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 112.

[6] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 112.

qeydlər aparırdılar. 1916-cı il fevralın 3-də Yelizavetpol qubernatoru, Baş Qafqaz Komitəsinin Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi üzrə müvəkkili A. Şelkovnikov və Quberniya Komitəsinin bir neçə üzvü qaçqınların yerləşdirildiyi ərazilərə getmişdilər. [1] Bu barədə müvəkkil A. Şelkovnikov 16 fevral 1916-cı il tarixli məruzəsində qeyd edirdi: [2] "... Mən çoxlu qiymətli məlumatlar əldə etdim. Qaçqınlarla bağlı işi necə təşkil etmək və xüsusilə onlara tibbi köməyi necə təşkil etmək barədə qeydlər apardım. Əlbəttə, eyni anda bütün Yelizavetpol rayonu üzrə bu işləri təşkil etmək mümkün olmazdı". [3] Beləliklə, Yelizavetpol Quberniya Komitəsinin yaranması kütləvi və müxtəlif millətdən olan qaçqın dalğasının sakitləşməsi, onlara yardım işinin təşkili baxımından olduqca əhəmiyyətli idi. Eyni zamanda qaçqınların, o cümlədən türk, erməni, aysor və s. qaçqınların daha çox sıxlaşdığı Yelizavetpol quberniyasında bu işin təşkili maddi vəsaitlə yanaşı, müəyyən zaman da tələb edirdi. Hökumətlə yanaşı, milli ictimai təşkilatların fəaliyyəti mühüm əhəmiyyət kəsb edirdi.



### 6.2. Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi işinin təşkili

Qafqaz cəbhəsində qaçqın və müharibədən zərərçəkənlərin böyük əksəriyyəti Yelizavetpol quberniyası ərazisində yerləşirdi. Dövlət və hökumət orqanları bu ərazini qaçqınların yerləşdirilməsi üçün ən uyğun yer hesab edirdi. Bu ilk

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 12.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 12.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 12.

növbədə qaçqınların və müharibədən zərərçəkənlərin gəldiyi əraziyə nisbətən yaxın olması ilə əlaqədar idi. Lakin burada qaçqınların yerləşdirilməsi işinin təşkili sistemi düzgün müəyyən olunmamış, qaçqınlar üçün xüsusi yerlər ayrılmamışdı. Onlar dağınıq formada yerləşdirilmişdi. Bu vəziyyət qaçqınlarla iş aparmaq üçün müəyyən çətinliklər yaradırdı. Yelizavetpol qubernatorunun Qafqaz canişininə göndərdiyi 01 noyabr 1915-ci il tarixli 10354 saylı məktubunda bildirilirdi ki, "Yelizavetpol quberniyasında qaçqınlar müxtəlif ərazilərdə dağınıq bir formada yerləşdirildiyindən ancaq dağətəyi zonalarda olan qaçqınlara ərzaq və tibbi yardım etmək mümkündür..".[1] Yelizavetpol qubernatorunun məlumatında həmçinin qeyd olunurdu ki, quberniyada 11.223 qaçqın yerləşdirilmişdir. Bununla yanaşı hər gün bu əraziyə qaçanlar gətirilirdi və hər gün bu say artırdı. Yelizavetpol qubernatorunun göndərdiyi həmin məktubda quberniyaya 10.000 nəfərdən çox qaçqının gələcəyi təqdirdə, onların yüksək dağ kəndlərində yerləşdiriləcəyi, orada isə onların aclıqdan və xəstəlikdən əziyyət çəkəcəkləri barədə də xəbərdarlıq öz əksini tapmışdı.[2] Məktubda yazılırdı: "Qaçqınların sağlamlığı marağı ilə, xahiş edirəm ki, 10.000 nəfərdən çox qaçqının Yelizavetpol quberniyasına göndərilməsi barədə göstəriş verməyəsiniz. Qaçqınların qalan hissəsini Bakı quberniyasına göndərəsiniz".[3] Lakin edilən bu xəbərdarlığa baxmayaraq, dəmiryolu nəqliyyatı vasitəsilə gətirilən qaçqınlar Yelizavetpol quberniyasının müxtəlif ərazilərində yerləşdirilirdi.

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 12, 12 (arx.), 13.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 12, 12 (arx.), 13.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 12, 12 (arx.), 13.

Yelizavetpol Quberniya Komitəsi tərəfindən quberniya üzrə qaçqınların yerləşdirilməsi işinin təşkili ilk olaraq Dəllər dayanacağından Gədəbəy zavodunadək, Annenfeld koloniyası, Çardaxlı kəndi və Qazaxlı kəndi daxil olmaqla qeyd olunan ərazilərdə həyata keçirildi. [1]

**Yelizavetpol quberniyasında**
**yerləşdirilmiş qaçqınlar barədə**
**MƏLUMAT**
**(15 mart 1916-cı il)[2]**

***Cədvəl 4***

| | Qaçqınların yerləşdirildiyi ərazi | Qaçqınların sayı | | | |
|---|---|---|---|---|---|
| | | *Kişilər* | *Qadınlar* | *Uşaqlar* | *Cəmi* |
| **Yelizavetpol qəzası üzrə** | | | | | |
| | Georgeyev kəndi | 56 | 62 | 83 | 201 |
| | Çardaxlı kəndi | 50 | 73 | 45 | 168 |
| | Cağır kəndi | 50 | 73 | 51 | 174 |
| | Barsum kəndi | 56 | 172 | 65 | 293 |
| | Barum kəndi | 3 | 50 | 33 | 86 |
| | Nüzgar kəndi | 30 | 50 | 47 | 127 |
| | Qazaxlı kəndi | 33 | 57 | 33 | 123 |
| | Gədəbəy kəndi | 74 | 124 | 189 | 387 |
| | Annino kəndi | 36 | 54 | 40 | 130 |

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 12.
[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 53, 53 (arx.), 54.

| | | | | | |
|---|---|---|---|---|---|
| | Badakənd kəndi | 7 | 11 | 6 | 24 |
| | Qaraçinar kəndi | 95 | 95 | 11 | 201 |
| | Yenikənd kəndi | 27 | 31 | 3 | 61 |
| | Qaxtut kəndi | 7 | 13 | -- | 20 |
| | Harhatut kəndi | 10 | 27 | 3 | 40 |
| | Boris-erməni kəndi | 27 | 24 | 3 | 54 |
| | Aşağı Ağcakənd | 64 | 86 | 7 | 157 |
| | Yuxarı Ağcakənd | 83 | 94 | 10 | 187 |
| | Gülüstan kəndi | 87 | 51 | 7 | 145 |
| | Ərkeç kəndi | 162 | 221 | 15 | 398 |
| | Manaşid kəndi | 16 | 8 | -- | 24 |
| | Buzluq kəndi | 20 | 21 | -- | 41 |
| | Ərməvir kəndi | 27 | 13 | 9 | 49 |
| | Qarabulaq kəndi | 31 | 15 | -- | 46 |
| | Çaykənd kəndi | 72 | 95 | 8 | 175 |
| | Azat kəndi | 8 | -- | 3 | 11 |
| | Bəxşik kəndi | 7 | 13 | 5 | 25 |
| | Ablah kəndi | 7 | 6 | 2 | 15 |
| | Zurnabad kəndi | 35 | 51 | 6 | 92 |
| | Nurut kəndi | 19 | 36 | -- | 55 |
| | Qarakeşiş kəndi | 20 | 28 | -- | 48 |
| | Mirzik kəndi | 43 | 42 | 7 | 92 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Bayan kəndi | 92 | 142 | 8 | 242 |
| | Çovdar kəndi | 25 | 32 | 3 | 60 |
| | Zəylik kəndi | 58 | 87 | 5 | 150 |
| | Nuş kəndi | 29 | 27 | 7 | 63 |
| | Seyidkənd kəndi | 11 | 10 | 2 | 23 |
| | Aşağı Daşkəsən kəndi | 7 | 7 | 2 | 16 |
| | Yuxarı Daşkəsən kəndi | 8 | 6 | 1 | 15 |
| | Yelenino kəndi | 267 | 285 | 39 | 591 |
| | Kovalyovka kəndi | 96 | 78 | 17 | 191 |
| | ***CƏMİ*** | 1.855 | 2.376<br>2370 | 453<br>745 | 4.684 |
| **Yelizavetpol şəhərində uşaq evi** | | | | | |
| | I uşaq evi | 70 | 67 | 11 | 148 |
| | II uşaq evi | 49 | 69 | 23 | 141 |
| | Nuxa uşaq evi | 8 | 15 | -- | 23 |
| | ***CƏMİ*** | 127 | 151 | 34 | 312 |
| **Qazax qəzası üzrə** | | | | | |
| | Dəlican kəndi | 243 | 190 | 23 | 456 |
| | Carheç kəndi | 99 | 82 | 6 | 187 |
| | Poqos kilsə kəndi | 129 | 139 | 18 | 286 |
| | Qaradaş kəndi | 234 | 166 | 22 | 422 |
| | Talakənd kəndi | 31 | 36 | 2 | 69 |
| | Həştaran kəndi | 72 | 66 | 8 | 146 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Karvansaray kəndi | 119 | 107 | 12 | 238 |
| | Uzantala kəndi | 78 | 53 | 6 | 137 |
| | Yuxarı Ağdam kəndi | 165 | 147 | 14 | 326 |
| | Açasu kəndi | 86 | 68 | 16 | 170 |
| | Alekseyevka kəndi | 43 | 31 | 9 | 83 |
| | Zelyonaya polyana kəndi | 40 | 32 | 6 | 78 |
| | Vinoqradnoe pole kəndi | 18 | 12 | 1 | 31 |
| | Qazax kəndi | 8 | 15 | 1 | 24 |
| | CƏMİ | 1.365 | | | |



Qeyd etdiyimiz kimi, Yelizavetpol quberniyası ərazisinə göndərilən qaçqınların sayı gündən-günə artmaqda idi. Qarşıda duran ən vacib məsələ onların yerləşdirilməsi ilə yanaşı, ərzaq və geyimlə təmin olunmaları idi. Tiflisdən Yelizavetpol qubernatoruna göndərilən 15 oktyabr 1915-ci il tarixli teleqramda yazılırdı: "Yevlax dayanacağına 1.200 qaçqın göndərilir. Qaçqınlar üçün ərzaq məntəqələri təşkil edin".[1] Digər bir məlumatda – Yelizavetpoldan şəhər başçısı Xatisova verilən məlumatda bildirilirdi ki, Quberniyaya daxil olan 10.000 qaçqının isti geyimə ehtiyacı vardır.[2]

Qars vilayətinin dağıdılmış ərazilərinin xarabalıqlarında qalmış qaçqın və müharibədən zərər çəkənlər dəmiryolu vasitəsilə müxtəlif ərazilərə daşınırdı. 1915-ci

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 6,7.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 11.

il oktyabrın 6-da Yelizavetpol qubernatorunun Qafqaz canişininə göndərdiyi 9128 saylı məktubunda yazılırdı: "Yelizavetpolda türk qaçqınlarına yardım göstərilməsi barədə məlumat olaraq bildirirəm ki, qaçqınlar hissə-hissə bu ilin avqustun 7-dən sentyabrın 3-nə qədər Dəlicandan keçərək "Dəllər" dəmiryol dayanacağına çatdırılmışdır".[1] Həmin ərazilərdə qaçqınlar Yelizavetpol Komitəsinin nümayəndəliyi tərəfindən qeydə alınırdı.

Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi üzrə müvəkkil A.Şelkovnikovun verdiyi məlumatda bildirilirdi ki, müsəlman qaçqınları əsasən Yelizavetpol şəhərində yerləşdirilmişdir. Onlar cəmi 127 nəfərdir. Onlardan 53 nəfəri Ərdahandan (rus mənşəlidirlər), digərləri isə Qars vilayətindəndir. Bu qaçqınlar ümumi əsaslarla müavinət alırlar; türkmənşəlilər – 74 nəfər.[2] Lakin arxiv materialları əsasında aparılan araşdırmalar bu məlumatın düzgün olmadığını sübut edir.

Arxiv sənədlərində 1915-ci ildə Yelizavetpol qəzasının ətraf kəndlərində yerləşdirilən türk qaçqınlarının siyahıya alınması barədə məlumatlar öz əksini tapmışdır. Bu məlumatlara görə, Yelizavetpol qəzasıın ətraf kəndlərində yerləşdirilmiş türk qaçqınlarının sayı 7.392 nəfər idi.[3]



---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 1.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 15.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 46.

## Türk qaçqınlarının Yelizavetpol qəzasının ətraf kəndləri üzrə siyahısı: (1915-ci il)

***Cədvəl 5***

| | Kəndlərin adı | |
|---|---|---|
| 1 | Qazaxlı ərazisində | 220 nəfər |
| 2 | Gədəbəy ərazisində | 510 nəfər |
| 3 | Badakənd ərazisində | 157 nəfər |
| 4 | Çardaxlı ərazisində | 347 nəfər |
| 5 | Bərum ərazisində | 173 nəfər |
| 6 | Bərsum ərazisində | 319 nəfər |
| 7 | Caqir ərazisində | 227 nəfər |
| 8 | Nuzgər ərazisində | 220 nəfər |
| 9 | Zəylik ərazisində | 185 nəfər |
| 10 | Kuşi ərazisində | 94 nəfər |
| 11 | Yuxarı Daşkəsən ərazisində | 85 nəfər |
| 12 | Aşağı Daşkəsən ərazisində | 45 nəfər |
| 13 | Seyidkənd ərazisində | 75 nəfər |
| 14 | Annenfeld ərazisində | 200 nəfər |
| 15 | Georgeyevski ərazisində | 237 nəfər |
| 16 | Bayan ərazisində | 282 nəfər |
| 17 | Çovdar ərazisində | 100 nəfər |
| 18 | Mirzəli ərazisində | 118 nəfər |
| 19 | Zurnabad ərazisində | 145 nəfər |

| | | |
|---|---|---|
| 20 | Murut ərazisində | 94 nəfər |
| 21 | Qarakeşiş ərazisində | 80 nəfər |
| 22 | Yelenendorf ərazisində | 665 nəfər |
| 23 | Kovalyovka ərazisində | 337 nəfər |
| 24 | Çaykənd ərazisində | 335 nəfər |
| 25 | Azat ərazisində | 44 nəfər |
| 26 | Ablah ərazisində | 48 nəfər |
| 27 | Bəxşik ərazisində | 36 nəfər |
| 28 | Ərkeç ərazisində | 233 nəfər |
| 29 | Mənəşid ərazisində | 172 nəfər |
| 30 | Qarabulaq ərazisində | 88 nəfər |
| 31 | Quşi Armavir ərazisində | 94 nəfər |
| 32 | Buzluq ərazisində | 75 nəfər |
| 33 | Aşağı Ağcakənd ərazisində | 230 nəfər |
| 34 | Yuxarı Ağcakənd ərazisində | 245 nəfər |
| 35 | Qaraçinar ərazisində | 286 nəfər |
| 36 | Boris ərazisində | 84 nəfər |
| 37 | Xarxaşut ərazisində | 72 nəfər |
| 38 | Gülüstan ərazisində | 135 nəfər |
| 39 | Qaxtut ərazisində | 53 nəfər |
| 40 | Yenikənd ərazisində | 105 nəfər |
| 41 | Xartut ərazisində | 44 nəfər |
| 42 | Uşaq evlərində | 98 nəfər |
| | CƏMİ: | 7.382 nəfər |

Yuxarıda tərtib olunan cədvəldə yalnız Yelizavetpol qəzasının kəndlərində yerləşdirilmiş türk qaçqınlarının siyahısı verilmişdir. Bütün bu məlumatlar Türkiyə sərhədlərindən vaqonlara yığılaraq Yelizavetpol qəzasına gətirilmiş türk qaçqınlarının ərazi üzrə yerləşdirilməsinə aid faktlardır. Ümumilikdə isə Yelizavetpol quberniyasında olan qaçqınların sayı bundan daha çox idi.

**Yelizavetpol quberniyasında yerləşdirilmiş qaçqınların sayı barədə (15 aprel 1916-cı il) MƏLUMAT[1]**

***Cədvəl 6***



| | Qaçqınların yerləşdirildiyi ərazi | Qaçqınların sayı | | | |
|---|---|---|---|---|---|
| | | *Kişilər* | *Qadınlar* | *Uşaqlar* | *Cəmi* |
| Yelizavetpol qəzası | | | | | |
| | Georgeyev kəndi | 25 | 62 | 83 | 170 |
| | Çardaxlı kəndi | 30 | 73 | 45 | 148 |
| | Cağır kəndi | 46 | 73 | 51 | 170 |
| | Barsum kəndi | 26 | 172 | 65 | 198 |
| | Barum kəndi | 3 | 50 | 33 | 86 |
| | Nüzgar kəndi | 8 | 60 | 47 | 115 |
| | Qazaxlı kəndi | 15 | 57 | 33 | 105 |
| | Gədəbəy kəndi | 26 | 124 | 189 | 339 |
| | Annino kəndi | 36 | 54 | 40 | 130 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Badakənd kəndi | 6 | 11 | 6 | 23 |
| | Qaraçinar kəndi | 52 | 95 | 11 | 158 |
| | Yenikənd kəndi | 15 | 34 | 3 | 52 |
| | Qaxtut kəndi | 7 | 13 | -- | 20 |
| | Harhatut kəndi | 8 | 27 | 3 | 33 |
| | Boris-erməni kəndi | 25 | 24 | 3 | 53 |
| | Aşağı Ağcakənd | 39 | 86 | 7 | 132 |
| | Yuxarı Ağcakənd | 63 | 94 | 10 | 167 |
| | Gülüstan kəndi | 77 | 51 | 7 | 135 |
| | Ərkeç kəndi | 112 | 221 | 15 | 348 |
| | Manaşid kəndi | 7 | 8 | 1 | 16 |
| | Buzluq kəndi | 12 | 21 | -- | 33 |
| | Ərməvir kəndi | 22 | 23 | 9 | 54 |
| | Qarabulaq kəndi | 3 | 15 | -- | 18 |
| | Çaykənd kəndi | 60 | 95 | 8 | 163 |
| | Azat kəndi | 6 | 11 | 3 | 20 |
| | Bəxşik kəndi | 7 | 13 | 5 | 25 |
| | Ablah kəndi | 5 | 6 | 2 | 13 |
| | Zurnabad kəndi | 11 | 51 | 6 | 68 |
| | Murut kəndi | 5 | 35 | 1 | 41 |
| | Qarakeşiş kəndi | 6 | 26 | 2 | 34 |
| | Mirzik kəndi | 27 | 42 | 7 | 76 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Bayan kəndi | 49 | 142 | 8 | 199 |
| | Çovdar kəndi | 25 | 32 | 3 | 60 |
| | Zəylik kəndi | 35 | 87 | 5 | 127 |
| | Nuş kəndi | 17 | 27 | 7 | 51 |
| | Seyidkənd kəndi | 8 | 10 | 2 | 20 |
| | Aşağı Daşkəsən kəndi | 7 | 7 | 2 | 16 |
| | Yuxarı Daşkəsən kəndi | 8 | 6 | 1 | 15 |
| | Yelenino kəndi | 267 | 285 | 39 | 591 |
| | Kovalyovka kəndi | 56 | 78 | 17 | 131 |
| | **CƏMİ** | **1.390** | **2.552** | **313** | **4.755** |
| **Yelizavetpol şəhərində uşaq evi** | | | | | |
| | I uşaq evi | 70 | 67 | 11 | 148 |
| | II uşaq evi | 49 | 69 | 23 | 141 |
| | Nuxa uşaq evi | 8 | 15 | -- | 23 |
| | CƏMİ | 127 | 151 | 34 | 312 |
| **Qazax qəzası** | | | | | |
| | Dəlican kəndi | 243 | 190 | 23 | 456 |
| | Carheç kəndi | 99 | 82 | 6 | 187 |
| | Poqos kilsə kəndi | 129 | 139 | 18 | 286 |
| | Qaradaş kəndi | 234 | 166 | 22 | 422 |
| | Talakənd kəndi | 31 | 36 | 2 | 69 |
| | Həştaran kəndi | 72 | 66 | 8 | 146 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Karvansaray kəndi | 119 | 107 | 12 | 238 |
| | Uzantala kəndi | 78 | 53 | 6 | 137 |
| | Yuxarı Ağdam kəndi | 165 | 147 | 14 | 326 |
| | Açasu kəndi | 86 | 68 | 16 | 170 |
| | Alekseyevka kəndi | 43 | 31 | 9 | 83 |
| | Zelyonaya polyana kəndi | 40 | 32 | 6 | 78 |
| | Vinoqradnoe pole kəndi | 18 | 12 | 1 | 31 |
| | Qazax kəndi | 8 | 15 | 1 | 24 |
| | **CƏMİ** | **1.365** | **1.144** | **144** | **2.653** |
| | Yelizavetpol quberniyası üzrə cəmi: | 2.755 | 3.696 | 957 | 7.418 |



Beləliklə, Yelizavetpol quberniyası ərazisində qaçqınların yerləşdirilməsi işinin təşkili Baş Qafqaz Komitəsinin Yelizavetpol Quberniya Komitəsi tərəfindən həyata keçirilirdi. Komitə tərəfindən həyata keçirilən tədbirlər bütün qaçqınlar üçün nəzərdə tutulurdu. Sonrakı mərhələdə, yardım işinin təşkilində "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin xidmətləri mühüm əhəmiyyət kəsb edirdi.

### 6.3. Qaçqınlara yardım işinin təşkili

Yelizavetpol quberniyasında qaçqınlara yardım işinin təşkili Yelizavetpol Quberniya Komitəsi və "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Yelizavetpol Komitəsi tərəfindən həyata keçirilirdi. Qaçqınlara yardım işinin təşkili ilə bağlı hər iki komitə üzvləri yerlərə gedir, qaçqınların problemləri barədə məlumatlar əldə edirdilər. Baş Qafqaz Komitəsinin

Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi üzrə müvəkkili A. Şelkovnikov yerlərə səfəri barədə yazırdı: "...səfər zamanı mən yerli komitə və qəyyumluq üzvləri ilə, həkimlərlə, din xadimləri ilə tanış oldum. Qaçqınlara kömək işini yoxladım. Onların ehtiyacı barədə sorğu apardım. Səfər nəticəsində məlum oldu ki, qaçqınların məişət şəraiti ilə bağlı çoxlu problemləri var..." [1] Yelizavetpol quberniyasında qaçqınların əsas vacib problemləri aşağıdakılardan ibarət idi: [2]

1. Ərzaq tələbatı;
2. Geyim tələbatı;
3. Pul vəsaiti ehtiyacları;
4. Tibbi yardım;
5. Müxtəlif məsələlər.



**Ərzaq təchizatı.** Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi üzrə müvəkkil A.Şelkovnikovun 1916-cı ilə aid məruzəsində qeyd olunurdu ki, ərzaqla bağlı çatışmazlıqlar 1915-ci ilə nisbətən bir qədər aradan qaldırılıb, ərzaq işləri üzrə vəziyyət qənaətbəxşdir. [3] 1916-cı ilə aid məlumata görə, qaçqınlar hər bir nəfər üçün 1,32 funt un alırdılar. Bu un formasında, yaxud bişmiş çörək ola bilərdi. Məsələn, Gədəbəydə çörəkçi hər nəfər üçün aylıq 1,58 funt çörəyi zavod rəhbərliyindən alırdı. Əvvəllər isə qaçqınların çörəklə təminatında böyük çatışmazlıqlar var idi. 1916-ci ilin başlanğıcında isə mərkəzi məntəqələrdə un ehtiyatları saxlanılırdı. [4]

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 12.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 12.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 12 (arx.).

[4] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 12 (arx.).

1916-ci ilə olan məlumata görə, Yelizavetpol quberniyasında qaçqınların çay təchizatı müəyyən olunmamışdı. Lakin yerlərdə qaynadılmış su üçün kublar alınmışdır. A.Şelkovnikovun məruzəsində qeyd olunurdu ki, bu ərazidə "...tezliklə çayxanalar fəaliyyət göstərəcək və qaçqınlar oradan çay və qənd alacaqlar". [1]

**Geyim təchizatı** qeyd olunan ildə qənaətbəxş deyildi. Məntəqələrə göndərilən geyim bütün qaçqınlara çatmır, daha çox ehtiyacı olanlara verilirdi. Qəyyumluq üzvləri tərəfindən aparılan sorğuda məlum olmuşdu ki, yataq dəstlərinin çatışmazlığı mövcuddur. Belə ki, hər 3-4 nəfərə bir odeyal düşürdü. [2] Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi üzrə müvəkkil A.Şelkovnikov qeyd edirdi ki, "...Mən Gədəbəydə olanda qaçqınların geyimə olan böyük ehtiyaclarını gördüm və yerli komitəyə təklif etdim ki, pristavla (polis məmuru) birgə bütün bağlamaları açıb əşyaları siyahıya alsın, təcili ehtiyacı olanlara paylamaq lazımdır".[3]

**Pul təchizatı ibarət idi:** hər bir nəfərə norma olaraq sutka ərzində 15 qəpik nəzərdə tutulurdu. Bu vəsaitdən 9 qəpik gündəlik xərc olaraq, 6 qəpik un alınması üçün ödənilirdi. Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi üzrə müvəkkil A.Şelkovnikov qeyd edirdi ki, qaçqınlara pul paylanmasında "...vəzifədən sui-istifadə hallarına rast gəlmədim". [4] Bütün bunlarla yanaşı bəzi yerlərdə kənd qəyyumluğunun olmaması bu işə mənfi təsir göstərirdi. Gədəbəydə yerli komitə olmadığı üçün pristav

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 12 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 13, 13 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 13, 13 (arx.).

[4] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 13 (arx.).

bu işi üz üzərinə götürmüşdü. Yelizavetpol quberniyası üzrə müvəkkil A.Şelkovnikovun xahişi ilə Gədəbəydə bu işləri öz əlində cəmləşdirmək üçün Gədəbəy yerli komitəsi bərpa olunmuşdu.[1]

Gədəbəy ərazisi üzrə qaçqınların yerləşdirilməsi işi Gədəbəy zavodunun rəhbərliyi tərəfindən təşkil edilirdi. Zavodun mədən mühəndisi, alman mənşəli A.Q.Ernin zavod binasını qaçqınlara hədiyyə etmişdi. Bu, iki binadan – 410 qaçqının yerləşə biləcəyi binadan və 90 çarpayılıq lazaret (xəstəxana – N.M.) olan böyük binadan ibarət idi. Zavodun rəhbərliyi tərəfindən qaçqınlar həmçinin odun və kerosin ilə təmin edilirdi. Qaçqınlara ilkin olaraq 1.500 rubl verilmişdi. [2]



### 6.4. Türk qaçqın hüquqları

Yelizavetpol quberniyasının hökumət rəsmiləri tərəfindən türk qaçqınlarına olan düşmən münasibət açıq görünürdü. Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi üzrə müvəkkil A.Şelkovnikovun verdiyi digər məlumatda qeyd olunurdu ki, "...başlanğıcda türk mənşəli qaçqınlar digər qaçqınlar kimi normal yardım alırdılar. Lakin qubernator aydınlaşdırdı ki, bu düzgün deyil və türk mənşəli qaçqnlara kömək dayandırıldı".[3] Onlara yardım qaçqın və müharibədən zərər çəkənlərə kömək üzrə Yelizavetpol Quberniya Komitəsi tərəfindən edilirdi. Türk qaçqınlarına yardım olunmasına gəldikdə, dövlət və hökumət orqanlarının bəhanəsi ondan ibarət idi ki, türk-müsəlman qaçqınlarının heç bir sənədi

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 13 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 13 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 15.

yox idi. Türk qaçqınlarının bir hissəsi Türkiyə sərhədlərini keçib gələnlər, digər hissəsi isə Qars vilayətindən olanlar idilər ki, onlar hərbi rəhbərlik tərəfindən köçürülmüşdülər.[1] Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi üzrə müvəkkil A.Şelkovnikov həmçnin qeyd edirdi ki, "Mənim nəzarət etdiyim rayonda qaçqınların ümumi vəziyyəti ərzaq baxımımdan qənaətbəxşdir. Lakin bəzi çatışmazlıqlar var, xüsusilə tibbi köməklə bağlı bu iş düzgün təşkil olunmamışdır". [2]

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə müsəlman vəkillərinin yüksək ali kürsülərdə tələblərinə baxmayaraq, türk qaçqınlarına yardım olunmaması üçün hər bir vasitədən istifadə etməyə çalışırdılar. Yelizavetpol qubernatorunun Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilə göndərdiyi 12 fevral 1916-cı il tarixli 1430 saylı məktubunda yazılırdı:[3] "Qafqaz cəbhəsi müsəlman qaçqınlarına xəzinədən ərzaq paylarının verilməsi tələb olunur. Dövlət xəzinəsindən olunan yardım özünü rus maraqları tərəfində tutanlara aid olunduğu müəyyənləşdirilmişdir". Yelizavetpol qubernatoru həmin məktubda həmçinin türk qaçqınlarına köməklə bağlı məsələni aydınlaşdırmaq üçün məktubla müraciət etmişdir. Məktubda yazılırdı: "..xəzinədən ayrılan ərzaq payları müsəlmanlara Qars vilayətindən olan qaçqınlara, həmçinin hərbi əməliyyatlar zamanı general-leytenant Volskinin əmri ilə Yelizavetpoldan xaric edilmiş Türkiyə ərazisindən olan qaçqın türklərə aiddirmi? " [4]

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 15.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 15.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 21.

[4] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 21.

Yelizavetpol Quberniya Komitəsinin Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilinin iştirakı ilə keçirilən iclasda Baş müvəkkil tərəfindən göstəriş verilmişdir ki, xəzinədən ayrılan ərzaq payı qaçqın müsəlmanlara da aid edilir. [1] Yelizavetpol qubernatorunun Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilə göndərdiyi 02 aprel 1916-cı il tarixli 3368 saylı məktubunda yazılırdı: [2] "Sizin göstərişinizlə müharibədən zərər çəkən müsəlman qaqçqınların siyahısı hazırlanmış və ümumi qayda üzrə onlara həm ərzaq, həm də tibbi yardım göstərilir. Yerlərdə müsəlman qaçqınları yoxlayarkən aydın olmuşdur ki, onların əksəriyyəti Ərzurumdan olan türklərdir. Onlar həqiqətən də qaçqındırlar".[3]



Qafqaz cəbhəsində qaçqın və müharibədən zərər çəkənlərin böyük əksəriyyəti Yelizavetpol quberniyasının müxtəlif ərazilərində yerləşdirilirdi. Qars vilayəti Hərbi Qubernatoru dəftərxanasının 05 avqust 1915-ci il tarixli məlumatında bildirilirdi ki, "Qafqaz Hərbi Dairəsinin baş rəisi general-leytenant Volski bizim ordumuzun (rus ordusunun-N.M.) işğal etdiyi Türkiyə ərazisindən türk mənşəli müsəlmanların Yelizavetpol quberniyasına aparılmasına icazə vermişdir. Bu icazədən sonra bütün qaçqınlara – həm türk mənşəli, həm rus mənşəli qaçqınlara müavinətlər verilir".[4] Lakin buna baxmayaraq türk qaçqınlarına münasibət birmənalı deyildir. Onlar müxtəlif vaxtlarda çar üsul-idarəsinin təqibləri ilə üzləşirdilər.

Qafqaz Ordu Ştabı General-Kvartirmeystr İdarəsindən Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 58, 58 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 58, 58 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 58 (arx.).

[4] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 58 (arx.).

müvəkkilinə yazılan 31 may 1916-cı il 2478 saylı məktubda bildirilirdi ki, Yelizavetpol quberniyası hüdudlarında olan 159 türkmənşəli müsəlmanı Alaşkert vadisinə evakuasiya edirik. Onların etibarlılığı ordu ştabına məlum deyildir. [1] Onlar türk olduqları üçün evakuasiya olunurdular. Onlara müavinətin ayrılması məlum deyildi. Lakin dövlət tərəfindən qəbul olunmuş qaydalara görə, Rusiya ərazisində olan digər qaçqınlar kimi, türk qaçqınları da dövlət xəzinəsindən ayrılmış müavinəti almalı idilər.

Qaçqınlara müavinətlərin ayrılması onların sayına görə müəyyənləşdiyi üçün, hər gün yeni say tərkibi barədə məlumat verilirdi. Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək üzrə Yelizavetpol Komitəsinin sədrinin quberniya rəisinə müraciətində bildirilirdi ki, "müəyyən olunmuş ərzaq payı və geyim yardımı daha yeni gəlmiş 31 nəfər türk qaçqınlarına da aid edilsin".[2] Məktubda həmçinin bildirilirdi ki, "Bizim ordu (rus ordusu-N.M.) tərəfindən Türkiyə ərazisinə daxil olan rayonlar ələ keçirildikdən sonra Qafqaz Hərbi Dairəsi rəisinin 03 mart 1915-ci il tarixli 2030 saylı məktubu ilə həmin torpaqlardan türk qaçqınlarının Yelizavetpol quberniyasına köçürülməsinə icazə verilmişdir".[3]

Yazışmalarda Qafqaz Hərbi Dairəsinin rəisi, general-leytenant Volski öz tərəfindən bildirirdi ki, müharibədən zərər çəkən müsəlmanlara kömək göstərmək üçün maneə görmür. [4] General-leytenant Volski Yelizavetpol quberniyası hüdudlarında olan müsəlmanların qaçqınlıq hüquqlarının

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 77.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 58 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 58 (arx.).

[4] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 58 (arx.).

ləvğ olunması və onların həmişəlik yaşayış yeri ilə təmin edilməsi haqqında da göstəriş vermişdi. [1]

### 6.5. Qaçqınların seçki orqanlarına qəbulu

Qaçqınların yerləşdirilməsi ilə bağlı dövlət və hökumət orqanları tərəfindən yaradılmış qurumlar bu sahədə mütəşəkkil fəaliyyət göstərirdi. Müharibədən zərər çəkənlərə kömək üzrə Yelizavetpol Quberniya komitəsi bu əraziyə köçürülmüş qaçqınların təchizatı barədə müntəzəm hesabat verirdi. Yelizavetpol qubernatorunun sədrliyi ilə komitənin 05 avqust 1916-cı il tarixli iclasının protokolunda qaçqınlarla işin təşkili ilə bağlı bir çox məsələlər öz əksini tapmışdı. Bunlar aşağıdakılardan ibarət idi: [2]

a) qaçqınların kənd qəyyumluğu tərkibinə daxil olması;

b) Qazax qəzasında kənd qəyyumluğunun təsis olunması;

c) Qaçqınlar üçün tərtib olunmuş biletlərin paylanması və onların qeydiyyata alınması;

d) qaçqınların təminatı üzrə hesabatın aparılması;

n) qaçqınların geyim və yataq dəstləri ilə təmin olunması;

j) qaçqınların köçürüldüyü yerlərdə yerləşdirilməsi;

k) təhsilə ehtiyacı olan qaçqınların haqqında məlumat toplanılması.

Qafqaz cəbhəsində qaçqın və müharibədən zərər çəkənlərə kömək işinin təşkili ilə bağlı müəyyən tədbirlər həyata keçirmişdir.[3] Qaçqınlarla aparılan işin intensiv olaraq yoxlanılması məqsədilə aşağıdakı tərkibdən ibarət təftiş komissiyası yaradılmışdır: L.T.Məlik-Mnatsakanov, M.Ə.Rəfiyev

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 58 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 109, 109 (arx).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 109, 109 (arx.).

və V.V.Klenevsk.[1] Bu komissiyanın əsas məqsədi quberniya komitəsi tərəfindən həyata keçirilən tədbirlərin nəzarətə alınması və görülən işlər barədə hesabatların hazırlanmasından ibarət idi. Bu işin təşkili ilə bağlı Yelizavetpol Quberniya Komitəsi tərəfindən qərarlar qəbul edilmişdir. Bu qərarlar aşağıdakılardan ibarətdir:

Qaçqınların köçürüldüyü Yelizavetpol və Qazax qəzaları üzrə kənd qəyyumluğunun tərkibinə seçki yolu ilə 2 nəfərdən az olmayaraq qaçqın daxil edilsin;

Qazax qəza rəisinə tapşırılsın ki, Qazax qəzasında da Yelizavetpol qəzasında olduğu kimi, kənd qəyyumluğu təşkil olunsun;

Yelizavetpol və Qazax qəza rəislərinə tapşırılsın ki, qaçqınların yerləşdirildiyi mənzillərdə sanitar və gigiyenik çatışmazlıqlar aradan qaldırılsın;

Yelizavetpol və Qazax qəzaları rəislərinə tapşırılsın ki, qaçqınlar üçün hazırlanmış biletlər təcili paylansın və qaçqınların sayı barədə məlumatlar müvəkkilə catdırılsın;

Qəza rəislərinə tapşırılsın ki, qaçqınlara paylanılan pul hesabatlarını iki nüsxədə kənd qəyyumluğunun imzası ilə Yelizavetpol Quberniya Komitəsinə təqdim etsinlər. Gələcəkdə qaçqınların pulu aylıq olaraq, hər ayın əvvəlində verilsin;

Qaçqınların geyim və yataqla təchiz edilməsi üçün həmin əşyaların materialları qaçqınlara verilsin, onlar öz əməyi ilə bunu hazırlasınlar;

Qaçqınların məktəblərə qəbul olunması haqqında qaydaya əsasən Qafqaz Təhsil Dairəsi Qəyyumluğu qarşısında məsələ qaldırılsın.[2]

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 109, 109 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 109, 109 (arx.).

Qeyd edək ki, qaçqınların mənzil təminatının yaxşılaşdırılması məqsədilə Qaçqınların Yerləşdirilməsi üzrə Baş Müvəkkillik tərəfindən müəyyən məbləğdə vasait ayrılırdı. Lakin bu yardım, daha çox mənzilə ehtiyacı olan insanlara edilirdi. Baş müvəkkil, general-mayor Tamamşlvin Bakı qubernatoruna yazdığı 31 may 1916-cı il tarixli 2498 saylı məktubda, aprel-may ayları üçün 43 nəfər qaçqına, hər nəfərə 6 rubl olmaqla vəsait ödənildiyi göstərilirdi. [1]

### 6.6. Qaçqınlar üçün ərzaq yardımı ilə bağlı problemlər və onların həlli

Qaçqınların əksəriyyəti xüsusilə say baxımından çoxluq təşkil edən qadınlar rus pullarını tanımır və çəki ölçülərini bilmirdilər. Nəzərə alsaq ki, qaçqınların əksəriyyəti Türkiyə ərazisindən gələnlər – türk, yəhudu, yunan, erməni, aysor və s. idilər, onların rus pulunu tanımaması, rus çəki vahidlərini bilməməsi normal qəbul oluna bilərdi. Lakin bu hal qaçqınların özləri üçün problem yaradırdı. Onlar hansı çəkidə və hansı məbləğdə pul vəsait aldıqları barədə məlumat verə bilmirdilər. [2]

1915-ci ilə aid məlumata görə bütün qaçqınlar ərzaq payı olaraq 20 qəpik alırdılar, ayda hər nəfərə 6 rubl hesablanrdı. Qaçqınlara yardım pul formasında verilirdi. Bu onlar üçün sərfəli deyildi. Kəndlərdə qiymət digər yerlərə nisbətən baha idi. Tək un 4 rubl 50 qəpiyə başa gəlirdi. [3] Buna görə də kəndlərdə ərzaq anbarları açılması, həmçinin bütün qaçqınların isti geyim əşyaları ilə təmin olunması

[1] ARDTA, fond 1, siyahı 1, iş 1502, v. 23.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 116.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 116 (arx.).

vacib amillərdən idi. Bu tədbirlərin təşkili Baş Qafqaz Komitəsi və milli-ictimai təşkilatları tərəfindən həyata keçirilirdi.



47

СПИСОКЪ

населенныхъ пунктовъ Казахскаго уѣзда съ обозначеніемъ въ нихъ числа бѣженцевъ изъ Турціи.

Составленъ "10" ноября 1915 г

| №№ по порядку. | Наименованіе селеній. | Число бѣженцевъ. | Примѣчаніе. |
|---|---|---|---|
| I. | Траубенфельдъ ............... | 31. | |
| 2. | Башкендъ ................ | 434. | |
| 3. | Чамбаракъ -Верхній ....... | I34. | |
| 4. | Чамбаракъ Нижній ......... | I39. | |
| 5. | Гринфельдъ .... ........... | 78. | |
| 6. | Алексѣевка ............... | 84. | |
| 7. | Агданъ Верхній ........... | 337. | |
| 8. | Талакендъ ................. | I00. | |
| 9. | Погосъ Килиса .. .......... | 297. | |
| I0. | Джархечъ ........... ...... | I9I. | |
| II. | Делижанъ Старый ......... | 236. | |
| I2. | Тамъ же на распорядит. пунктѣ | 235. | |
| I3. | ..""..  въ больницѣ ....... | 92. | |
| I4. | Хаштаракъ ................ | I78. | |
| I5. | Караклугъ-Дара ......... ... | 23. | |
| I6. | Кирдеванъ ................ | 50. | |
| I7. | Куненъ .. ................. | 74. | |
| I8. | Амысу ...................... | I79. | |
| | Итого | 2892. | |

И.д. Уѣзднаго Начальника

И.д. Секретаря

***Qazax qəzası üzrə türk qaçqınlarının siyahısı: arxiv sənədi nümunəsi***

Baş Qafqaz Komitəsi tərəfindən yerli komitələrə ayrılan vəsaitin hesabatı komitənin təftiş komissiyası tərəfindən yoxlanılırdı. Bununla bağlı hər bir quberniya komitəsi nəzdində təftiş komissiyası yaradılmışdı.

Yelizavetpol Quberniya Komitəsinin 1916-cı il avqust ayının 5-də qəbul etdiyi qərara əsasən Yelizavetpol və Qazax qəza komitələrinin 01 iyun 1915-ci ildən 01 iyul 1916-cı ilə qədər olan hesabatlarının yoxlanılması həyata keçirilmişdi.[1]

Müharibədən zərər çəkənlərə kömək üzrə Yelizavetpol Quberniya Komitəsi tərəfindən Yelizavetpol və Qazax qəza komitələrinin yoxlanılması məqsədilə Təftiş Komissiyası yaradılmışdı. Komissiyanın tərkibinə aşağıdakı şəxslər daxil idi: V.V.Klenevsk (Qaçqınların Yerləşdirilməsi üzrə Yelizavetpol quberniya müvəkkili), L.T.Məlik-Mnatsakanov (Yelizavetpol Quberniya Komitəsinin üzvü) və Məşədi Əli Rəfiyev (Yelizavetpol Quberniya Komitəsinin üzvü).



### Yelizavetpol və Qazax qəza komitələrinin yoxlanılması üzrə Təftiş Komissiyasının hesabatı (1915-ci il)

***Cədvəl 7***

| Yelizaverpol qubernatoru tərəfindən ayrılan vəsaitin tarixi və qəbz sayı | Ayrılan vəsaitin məbləği |
|---|---|
| 2 iyul 1915-ci il tarixli 5129 saylı | 1.000 rubl |
| 12 sentyabr 1915-ci il tarixli 8170 saylı | 8.000 rubl |
| 13 oktyabr 1915-ci il tarixli 9212 saylı | 6.000 rubl |

[1] ARDTA, fond 1, siyahı 1, iş 1506, v. 2.

Cədvəldən aydın olur ki, qaçqınlar saya görə müavinət alırdılar. Lakin onlar üçün xüsusi siyahı tərtib olunmurdu.

Təftiş Komissiyası tərəfindən materiallara baxış keçirərkən bu faktlar təsdiq olunmuşdur: Yelizavetpol qəzasının Mirzəyi, Murut, Gülüstan, Manaşid, Qaraçinar və Qaxtut kəndlərində qaçqınlara pul vəsaitləri ödənilərkən qaçqınların adları və soy adları qeyd edilməmişdir. [1] Ümumi say və təqvim üzrə ödənilən gündəlik yardım qəyyumluq üzvləri və pristav tərəfindən imzalanırdır.[2] Müavənətdən əlavə olaraq, onlara istilik sistemlərinin təşkili üçün pul verilirdi. [3] Lakin göstərilən müavinətlərə, istilik sistemlərinin təşkili üçün ayrılan vəsaitə baxmayaraq, sənədlərdə qaçqınların ağır vəziyyətini əks etdirən məktublara rast gəlinit.

Arxiv sənədlərində Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkil general Tamamşevə göndərilən teleqram diqqəti cəlb edir. Qazax qəzasının Karavansaray kəndindən göndərilən 14 dekabr 1916-cı il tarixli həmin teleqramda yazılır: "Qazax rayonu qaçqınları adından Sizdən xahiş edirik ki, bizim ağır vəziyyətimizə diqqət yetirəsiniz. Biz bütün ay boyu ərzaq üçün pul almamışıq. Aclıqdan xəstələnib ölürük. Un almaq üçün bizə cəmi 4 rubl verilir, 5 yaşa qədər olan uşaqlara isə 3 rubl verilir. Uşaqların əksəriyyəri 5-6 yaşdan yuxarıdır. Lakin yanlış olaraq 3-4 yaş yazılır..." [4]

Yelizavetpol quberniyasında, xüsusilə Qazax qəzasında qaçqınların ərzaq çatışmazlığından, həmçinin xəstəliklərdən məhv olması ilə əlaqədar ali orqanlara göndərilən teleq-

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1506, v. 2.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1506, v. 2 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1506, v. 2 (arx.).

[4] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 120.

ramlarla əlaqədar Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə İcraedici Komitə Şurası Yelizavetpola, Qazax qəzasına ezam olunmuşdu.[1] Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə müvəkkili Q.A.İritspuxovun 01 sentyabr 1917-ci il tarixli məlumatında bildirilirdi ki, daxil olan ərizələrdən və teleqraf məlumatlarından aydın olur ki, Qazax qəzasının Karavansaray, Delican və digər rayonlarında qaçqınlar neçə aydır ki, hökumət yardımı almırlar, aclıqdan ölürlər".[2] Q.A.İritspuxov Qazax qəzasında qaçqınların saxlanılması üçün ödənilmiş kreditlər barədə arayış təqdim etmişdi.[3] Arayışda bildirilirdi ki, Qazax qəzasında qaçqınlara 1917-ci ilin birinci iki rübü üçün 50.355 rubl yardım olunmuşdur ki, bu yuxarı yaş həddində və 155 qaçqın uşaq üçün nəzərdə tutulurdu. Bu məbləğ Yelizavetpol Quberniya Komissarı vasitəsilə Qazax qəzasına göndərilmişdi. Q.A.İritspuxovun təqdim etdiyi arayışda vəsaitin qəbz sənədləri göstərilirdi: 7.580 rubl, 10 qəpik (14 fevral 1917-ci il, 1560 saylı qəbz); 15.160 rubl 20 qəpik (21mart 1917-ci il, 3113 saylı qəbz); 1040 rubl (30 mart 1917-ci il, 3187 saylı qəbz); - 9.965 rubl (02 may 1917-ci il, 3820 saylı qəbz).[4]



Sənədlərdən aydın olur ki, qaçqınlara ödəniləcək vəsait bir çox hallarda gecikdirilirdi. Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkil general-mayor Tamamşevin Yelizavetpol qubernatoruna göndərildiyi 03 noyabr 1916-cı il tarixli məktubunda yazılırdı ki, bu ilin oktyabr və noyabr ayları üçün qaçqınların ərzaq təminatı üçün 39.414 rubl

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1506, v. 51.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1506, v. 51.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1506, v. 61, 61 (arx.).

[4] ARDTA, fond 1, siyahı 1, iş 1506, v. 51.

ayrılması barədə qərar verilmişdir.[1] Göründüyü kimi, ərzaq təminatı üçün ayrılan vəsait gecikdirilir, oktyabr ayı üçün ayrılan vəsait noyabr ayında hələ də qaçqınlara çatdırılmamışdır. Bu isə aclığa və xəstəliklərin yaranmasına səbəb olurdu.

1915-ci ilin dekabrında knyagina Tatyana Nikolayevna hərbi əməliyyatlarda qaçqın və müharibədən zərər çəkənlərə müvəqqəti yardım olaraq Yelizavetpol qubernatoruna 5.000 rubl vəsait ayrılmışdır. [2] Həmin vəsait qaçqınların çay ehtiyaclarının ödənilməsi məqsədilə Yelizavetpol qəza rəisliyinə daxil edilmişdir. Ayrılan vəsaitlə 42 metal kub, 42 emalirovannı çaynik və 730 stəkan alınmışdır.[3]

**Qazax qəzasının yaşayış məntəqələrində yerləşdirilmiş Türkiyədən olan qaçqınlar (10 noyabr 1915-ci il)**

***Cədvəl 8***

| Sıra sayı | Türkiyədən olan qaçqınların yerləşdirildiyi kəndlər | Qaçqınların sayı |
|---|---|---|
| 1 | Treubenfeld kəndi | 31 nəfər |
| 2 | Başkənd kəndi | 434 nəfər |
| 3 | Yuxarı Çəmbərək kəndi | 134 nəfər |
| 4 | Aşağı Çəmbərək kəndi | 139 nəfər |
| 5 | Qrinfeld kəndi | 78 nəfər |
| 6 | Alekseyeva kəndi | 84 nəfər |

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 140-140 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 117.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 117.

| | | |
|---|---|---|
| 7 | Yuxarı Ağdan kəndi | 337 nəfər |
| 8 | Talakənd kəndi | 100 nəfər |
| 9 | Poqos kilsə kəndi | 297 nəfər |
| 10 | Carheç kəndi | 191 nəfər |
| 11 | Köhnə Dəlican kəndi | 236 nəfər |
| 12 | Yenə orada inzibati məntəqədə | 235 nəfər |
| 13 | Yenə orada xəstəxanada | 92 nəfər |
| 14 | Xaştarak kəndi | 178 nəfər |
| 15 | Qaranlıq Dərə kəndi | 23 nəfər |
| 16 | Kirdivan kəndi | 50 nəfər |
| 17 | Kunan kəndi | 74 nəfər |
| 18 | Acısu kəndi | 179 nəfər |
| | CƏMİ: | 2.892 nəfər |



Qeyd edək ki, 1915-ci ilin siyahıya almasına görə Qazax qəzasında yaşayış məntəqələrində yerləşdirilmiş qaçqınların sayı 2.892 nəfər idi. [1]

Ümumiyyətlə, Qazax qəzası kəndlərində bütün qaçqınların ərzaqla təminatı, yardım işi demək olar ki, eyni səviyyədə idi. Qeyd olunanlardan əlavə, havaların soyuqlaşması ilə bağlı problemlər daha da artırdı. Qaçqınları isti geyim əşyaları ilə yanaşı, yanacaqla, soba ilə təmin etmək ehtiyacı yaranırdı. Yerli əhali öz evini müxtəlif vasitələrlə isidirdi. Əsasən dəmir sobalardan istifadə olunurdu. Qaçqınlərin yerləşdirilməsi üzrə müvəkkil qaçqınlara da sobaların verilməsi barədə müraciət etmişdi.[2]

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 47.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 117.

### Qazax qəzası üzrə qaçqınların və yardım alan qaçqınların sayı (1917-ci ilin aprel ayı üçün):[1]

*Cədvəl 9*

| Sıra sayı | Qazax qəzası üzrə kəndlərin adı | Qaçqınların sayı | Yardım alan qaçqınların sayı (aprel ayı üçün) |
|---|---|---|---|
| 1 | Dəlican kəndi | 491 nəfər | 334 nəfər |
| 2 | Carheç kəndi | 131 nəfər | 131 nəfər |
| 3 | Poqos kilsəsi kəndi | 206 nəfər | 212 nəfər |
| 4 | Qaradaş kəndi | 315 nəfər | 278 nəfər |
| 5 | Talakənd kəndi | 55 nəfər | 51 nəfər |
| 6 | Xoştaran kəndi | 106 nəfər | 118 nəfər |
| | Karavansaray kəndi | 163 nəfər | 174 nəfər |
| | Yuxarı Ağdam kəndi | 234 nəfər | 223 nəfər |
| | Uzuntala kəndi | 82 nəfər | 98 nəfər |
| | Ağasu kəndi | 150 nəfər | 151 nəfər |
| | Kliçkənd kəndi | 47 nəfər | 41 nəfər |
| | CƏMİ: | 1.991 nəfər | 1.881 nəfər |



Qazax qəzasında müxtəlif milliyətdən olan qaçqınlar məskunlaşmışdırlar. Aysor qaçınları Qazax qəzasının Vinoqrad kəndi ərazisində yerləşmişdilər. Qazax qəzasında erməni qaçqınlarının sayı 1.000 nəfərə yaxın idi.[2]

[1] ARDTA, fond 1, siyahı 1, iş 1506, v. 52.
[2] ARDTA, fond 1, siyahı 1, iş 1506, v. 52.

**Yelizavetpol qəzasının kəndlərində yerləşdirilmiş türk qaçqınlarının SİYAHISI** [1]

*Cədvəl 10*

| Sıra sayı | Yelizavetpol qəzası üzrə kəndlərin adı | Türk qaçqınların sayı |
|---|---|---|
| 1. | Qazaxlı kəndi | 220 nəfər |
| 2 | Gədəbəy kəndi | 510 nəfər |
| 3 | Badəkənd kəndi | 157 nəfər |
| 4 | Çardaxlı kəndi | 347 nəfər |
| 5 | Varum kəndi | 173 nəfər |
| 6 | Borsum kəndi | 329 nəfər |
| 7 | Cağır kəndi | 227 nəfər |
| 8 | Nüzgar kəndi | 220 nəfər |
| 9 | Zəylik kəndi | 185 nəfər |
| 10 | Quşu kəndi | 94 nəfər |
| 11 | Yuxarı Daşkəsən kəndi | 85 nəfər |
| 12 | Aşağı Daşkəsən kəndi | 45 nəfər |
| 13 | Seyidlər kəndi | 75 nəfər |
| 14 | Annenfeld kəndi | 200 nəfər |
| 15 | Georgeyevsk kəndi | 237 nəfər |
| 16 | Bayan kəndi | 282 nəfər |
| 17 | Çovdar kəndi | 100 nəfər |
| 18 | Mirzik kəndi | 118 nəfər |
| 19 | Zurnabad kəndi | 145 nəfər |
| 20 | Murut kəndi | 94 nəfər |
| 21 | Qarakeşiş kəndi | 80 nəfər |
| 22 | Yelenendorf kəndi | 665 nəfər |

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 46.

| | | |
|---|---|---|
| 23 | Kovalyov kəndi | 337 nəfər |
| 24 | Çaykənd kəndi | 235 nəfər |
| 25 | Azat kəndi | 44 nəfər |
| 26 | Ablah kəndi | 48 nəfər |
| 27 | Bəxşik kəndi | 36 nəfər |
| 28 | Ərkeç kəndi | 233 nəfər |
| 29 | Manaşid kəndi | 172 nəfər |
| 30 | Qarabulaq kəndi | 88 nəfər |
| 31 | Quşi Armavir kəndi | 94 nəfər |
| 32 | Buzlux kəndi | 75 nəfər |
| 33 | Aşağı Ağcakənd | 220 nəfər |
| 34 | Yuxarı Ağcakənd | 245 nəfər |
| 35 | Qaraçinar kəndi | 286 nəfər |
| 36 | Borislər kəndi | 84 nəfər |
| 37 | Xarxaput kəndi | 72 nəfər |
| 38 | Gülüstan kəndi | 135 nəfər |
| 39 | Qaxtut kəndi | 53 nəfər |
| 40 | Yenikənd kəndi | 105 nəfər |
| 41 | Xartut kəndi | 44 nəfər |
| 42 | Uşaq evlərində uşaqların sayı | 98 nəfər |
| | CƏMİ | 7.382 nəfər |

Beləliklə, Yelizavetpolda yerləşdirilmiş qaçqınlar müharibədən zərər çəkən əhalinin ərzaqla təmin olunması sahəsində böyük çətinliklər mövcud idi. Bu isə bütün tərəfləri ilə yanaşı, müharibə aparan ölkədə yaranmış iqtisadi çətinliklərlə bağlı idi.

## 6.7. Qaçqınlar üçün lazaretlərin, tibbi məntəqələrin və ambulator xidmətin təşkili

Birinci Dünya müharibəsi və ondan əvvəlki dövrdə Rusiya imperiyasının digər ərazilərində olduğu kimi, Azərbaycan ərazisində də sistemli şəkildə böyük xəstəxanalar təşkil olunmuşdu. Həmin xəstəxanalar, əsasən, mərkəzi yerlərdə, qəzalarda yerləşirdi və onların sayı olduqca məhdud idi. Müharibədən zərər çəkən qaçqınların yaşadığı dağ rayonlarında xəstəxanaların kəndlərdən uzaqda olması problemlər yaradırdı. [1] Gədəbəy rayonu ərazisində iki xəstəxana fəaliyyət göstərirdi. Annenfeld koloniyasındakı 80 çarpayılıq xəstəxanada 44 xəstə yerləşdirilmişdi. Gədəbəydəki 90 çarpayılıq digər xəstəxanada isə cəmi 6 xəstə vardı. [2] Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi üzrə müvəkkil A.Şelkovnikov bu ərazidə olduğu zaman tibbi vəziyyət barədə qeyd edirdi ki, mərkəzləşdirilmiş tibbi yardım göstərilməsi düzgün müəyyən edilməmişdir, xüsusilə Gədəbəydə 6 xəstəsi olan xəstəxananın saxlanılmasına Şəhərlər İttifaqı 2.000-3.000 vəsait sərf edir”. [3]



Gədəbəy rayonunda Çardaxlı kənd cəmiyyətinin beş kəndində – Çardaxlı. Borum, Barsum, Nükzar və Cağır kəndlərində 800-ə yaxın qaçqın məskunlaşmışdı. Onlardan 167 nəfər qaçqın Çardaxlı kəndində yerləşmişdi. Onlar öz xəstələrini Annenfeld xəstəxanasına aparmaq üçün at arabası ilə 20 verst yol getməli idilər. Kənd cəmiyyətinin digər

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 14, 14 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 14 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 14 (arx.).

kəndləri isə bu imkandan məhrum idilər.[1] Bayan kənd cəmiyyətinin beş kəndində (600 qaçqın), Qaraçinar kənd cəmiyyətinin 11 kəndində də (200-ə yaxın qaçqın) eyni vəziyyət mövcud idi. Qaraçinar kəndində kiçik yerli xəstəxana var idi ki, həmin xəstəxana qaçqınlara xidmət göstərmirdi. [2]

Qaçqınların məskunlaşdığı rayonlarda bir neçə kiçik xəstəxananın yaradılmasına böyük ehtiyac vardı. Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi üzrə müvəkkil A.Şelkovnikov qeyd edirdi ki, rayonlarda kiçik xəstəxanaların açılması böyük xəstəxanaların çarpayılarının ixtisar olunması hesabına həyata keçirilə bilərdi. 1916-cı ildə Gədəbəy ərazisi üzrə aşağıda qeyd olunan kəndlərdə 20 çarpayılıq yeni xəstəxanalar açılmışdı: 1) Barsum və ya Borum kəndi; 2) Bayan kəndi; 3) Qaraçinar kəndi.[3]

Tibbi yardım məqsədilə təchiz olunmuş feldşer məntəqələri yaradılması vacib şərtlərdən biri idi. Bu məqsədlə Yelizavetpol qubernatorunun göstərişi ilə səyyar tibbi kömək işləri təşkil olunmuşdu. Həkimlər feldşerlərlə birlikdə kiçik tibbi yardım çantası ilə öz nəzarətlərində olan kəndləri gəzib qaçqınları müayinə edir, xəstə olanlar xəstəxanaya yerləşdirilirdi. [4]

Müharibənin törətdiyi fəsadlardan biri də xəstəliklərin, o cümlədən yoluxucu xəstəliklərin durmadan artması idi. Bu sahədə Yelizavetpol Quberniya Komitəsi rəsmi olaraq ictimai təşkilatlarla birgə Yelizavetpol quberniyası hüdudlarında qaçqınlarla iş üzrə fəaliyyət göstərirdi. Qaçqınlara tibbi xidmətlə bağlı Yelizavetpol quberniya Komitəsinin

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 14 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 14 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 15.

[4] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 15 (arx.).

tərkibində qaçqınlar üçün lazaret və dezinfeksiya kamerası var idi.[1] Dezinfeksiya kamerası 1916-cı ilin yanvar ayında təsis olunmuşdu. Kamera böyük bir binada yerləşirdi və orada ştat üzrə həkim, maşinist, iki dezinfektor və iki nəfər mühafizəçi çalışırdı. [2]

1916-cı ilin yanvarından başlayaraq, Yelizavetpol quberniyasında qaçqınların məskunlaşdığı ərazilərdə lazaretlər və tibbi məntəqələr açılmışdı. Yelizavetpol Qəza Komitəsinə aşağıda qeyd olunan tibbi məntəqələr daxil idi: Anino və Klenino kənd lazaretləri, Çaykənd, Kuşax, Qaraçinar və Gədəbəydə həkim-feldşer məntəqələri. [3] Məlumatlardan aydın olur ki, həkim-feldşer məntəqələrinin yerləşdiyi yer qənaətbəxş deyildi. Həmin məntəqədə bütün xəstələr – qadınlar və kişilər eyni palatada yerləşdirilirdi. Tibbi məntəqələrdə qaçqınlardan başqa hərbi xidmətdə olan aşağı rütbəli hərbçilərin ailələrinə də xidmət göstərilirdi.[4]



Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkiliyin iclasında Qaçqınların yerləşdirilməsi üzrə Yelizavetol quberniya müvəkkili V.V.Klenevskinin məruzəsində qeyd olunurdu: "Qaçqınlara kömək işinin təşkili ilə bağlı mən Yelizavetpol qəzasının Azat, Bahşik, Abləh, Çaykənd, Ərkeç, Qaraçinar, Xarxalut, Yenikənd, Qarakeşiş, Bayan, Mərzik, Annino, Yelenino və Gədəbəy kəndlərində oldum.[5] Qaçqınların əksəriyyəti elə yerlərdə yerləşdirilmişdi ki, qışa hazır deyllər. Qaçqınlar böyük toplum halında yaşayırlar, hansı ki gigiyenik və sanitar baxımından tam əlverişsizdir.

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 112.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 112.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 114.

[4] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 114.

[5] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 115.

Annino kəndində 10 kv.arşn ölçüdə otaqda 61 nəfər yaşayır”.[1] Yaranmış vəziyyət xəstəliklərin gündən-günə artmasına səbəb olurdu.

1915-ci ilin sentyabrına olan məlumata görə, Yelizavetpol qəzasının Annenfeld, Çardaxlı və Gədəbəy ərazilərində müvəqqəti məskunlaşan Türkiyədən olan qaçqınlar arasında aparılan müayinələr nəticəsində məlum olmuşdu ki, 29 nəfər qaçqın vəba, malyariya və qarın yatalağı xəstəliklərinə tutulub.[2] Yelizavetpol quberniyasının digər ərazilərində də qaçqınların yaşadıqları yerlərdə bu kimi xəstəliklər aşkar olunmuşdu.

Yelizavetpol quberniyası Baytarlıq-bakterioloji laboratoriyasının Yelizavetpol qubernatoruna göndərdiyi 21 sentyabr 1915-ci il tarixli 59 saylı raportunda yazılırdı ki, Delican kəndində Türkiyədən olan qaçqınlar arasında tibbi araşdırma zamanı 8 nəfərin xəstə olduğu müəyyən olunmuşdur. Onlar vəba xəstəliyinə yoluxmuşdular.[3] Xəstəliklərin qarşısının alınması məsələsi bütün dövlət və hökumət orqanlarının diqqət mərkəzində idi.

Yelizavetpol quberniyasında qaçqınlar arasında yoluxucu xəstəliklərin qarşının alınması məqsədilə Ümumrusiya Şəhərlər İttifaqının nümayəndəliyi bu ərazidə fəaliyyət göstərirdi. Quberniyanın müxtəlif ərazilərində Ümumrusiya Şəhərlər İttifaqına aid qaçqınları yerləşdirməkdən ötrü bir neçə lazeret yaradılmışdı. Bu lazaretlər müalicəyə ehtiyacı olan qaçqınlar üçün nəzərdə tutulurdu.

Ümumrusiya Şəhərlər İttifaqı yaralılar üzrə Qafqaz Komitəsi müvəkkilinin Qafqazda Qaçqınların Yerləşdirilməsi üzrə baş müvəkkil general-mayor Tamamşevə yazdığı 02

[1] ARDTA, fond 1, siyahı 1, iş 1499, v. 116.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 2, 2 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 3.

noyabr 1915-ci il 6753 saylı məktubunda[1] Delicanda tif xəstəliyinin yayılması ilə əlaqədar tədbirlərin görülməsinin vacibliyi bildirilirdi.

Ümumrusiya Şəhərlər İttifaqına tam olaraq qaçqınlara tibbi kömək işinin təşkili həyata keçirilirdi. Şəhərlər İttifaqı həkimləri Delican rayonu müvəkkilləri ilə birgə ərazidə yatalaq xəstəliyi ilə əlaqədar dizinfeksiya dəstələrinin göndərilməsi barədə çağrışına əsasən tibbi dəstələr göndərilmişdir. Bundan əlavə qaçqınlar və əhali arasında yatalaq xəstələrinin sayının öyrənilməsi məqsədilə fəaliyyətə başlamışdılar. Epidemiya ilə mübarizə məqsədilə zəruri tələb dərman və digər tibbi vasitələri Tiflisdən gətirilirdi.[2]

Aclıq və yaşayış imkanlarının çox aşağı olduğu qaçqınların məskunlaşdığı ərazilərdə yoluxucu xəstəliklərin sayı gündən-günə artmaqda idi. Ambulator müayinələr müsbət nəticə vermirdi. Xəstəliklərin qarşısını almaq üçün Delicanda Ümumrusiya Şəhərlər İttifaqının xəstəxanası açılmışdı. Həmin xəstəxanada həkim, 2 feldşer, 4 tibb bacısı, 8 dayə fəaliyyət göstərirdi.[3]



Qaçqınlar arasında xəstəliklərin qarşısının alınması məqsədilə əhalinin tibbi müayinəsi aparılırdı. Yelizavetpol quberniya həkimi A.Qratsanskinin Yelizavetpol qubernatoruna 04 noyabr 1915-ci il tarixli raportunda bildirilirdi ki, Qazax qəzasının Dəlican sahəsində Yelizavetpol quberniyası sanitar-bakterioloji laboratoriyasının rəhbərliyi ilə yerli əhali və qaçqınlar arasında yatalaq xəstəliyinin əlamətlərinin araşdırılması məqsədilə yoxlama aparılmışdır.[4] Aparılan yoxlamalarda həkimlərlə yanaşı, sağlam qaçqınlar da iştirak

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 14.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 14 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 14.

[4] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 28, 28 (arx.).

edirdilər. 1915-ci ilin sentyabr və oktyabr aylarında Ümumrusiya Şəhərlər İttifaqı lazaretinin rəhbəri və sağlam qaçqınların müşayiəti ilə yoluxucu xəstəliklərin daşıyıcısı xəstələr aşkar olunmuşdur. [1] Xəstələrin yerləşdirilməsi üçün yer çatışmazlığı görülən işin nəticəsinin aşağı salırdı. Bəzi hallarda isə xəstələrin müalicəsi ilə məşğul olan tibb işçilərinin özləri bu xəstəliyə tutulurdu.

Yelizavetpol quberniya həkimi A.Qratsanskinin Yelizavetpol verdiyi raportunda xəstəxanalarda yoluxucu xəstələrin digər xəstələrdən ayrı yerləşdirilmədiyi bildirilirdi. Xəstələrlə təmasda olduğu üçün lazaretin baş həkimi iki tibb bacısı, bir neçə sanitar və onların ailələri yatalaq xəstəliyinə tutulmuşdurlar. [2] Məlumatlarda bildirilir ki, xəstəliyə tutulan lazaretin baş həkimi- hərbi həkim Tiflisdən dəvət olunmuşdu. Hazırda isə bu xəstəliyə bir neçə tibb işçisi və onların ailələri tutulmuşdur. Bundan əlavə, yatalaq xəstələrinin böyük əksəriyyəti xüsusi evlərdə yerləşir. Lakin indiyə qədər Delicanda xüsusi xəstə daxmaları yoxdur. 31 oktyabrda Şəhərlər İttifaqı İdarəsinin üzvlərinin iştirakı ilə qaçqınların yerləşdirilməsi üzrə yerli komitənin iclasında qərara alınmışdır ki, xüsusi xəstə evləri təşkil olunaraq xəstələri həmin evdə yerləşdirmək lazımdır. Qaçqınlar arasında yatalaq xəstəliyinin qarşısının alınması, onların sağlamlıqlarının yoxlanılması məqsədilə Qazax qəzasının kəndlərinə İttifaq həkimləri göndərilmişdir. Həmçinin həmin kəndlərə həkim Timofeyev sağlam qaçqınların vəziyyətinin yoxlanılması üçün göndərilmişdir. Beləliklə, 200-ə yaxın qaçqın Delicanda evlərə köçürülmüşdür. [3]



Yelizavetpol quberniyası ərazisində məhdud sayda xəstəxanalarda yer çatışmazlığından yatalaq xəstələrinin

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 28, 28 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 28, 28 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 28, 28 (arx.).

böyük əksəriyyəti xüsusi evlərdə yerləşdirilirdi. Delicanda 200-ə yaxın qaçqın evlərə köçürülmüşdü.[1] Lakin bəzi yaşayış yerlərində isə xəstələr üçün xüsusi yerlər də təşkil etmək mümkün olmurdu. Bu səbəbdən xəstəliklərin yayılması gündən-günə artırdı.

1915-ci il oktyabrın 31-də Yelizavetpolda Şəhərlər İttifaqı İdarəsi üzvlərinin iştirakı ilə qaçqınların yerləşdirilməsi üzrə yerli komitənin iclasında xüsusi xəstə evlərinin təşkil olunması və yoluxucu xəstələrin həmin evlərdə yerləşdirilməsi qərara alındı.[2] Ümumrusiya Şəhərlər İttifaqı tərəfindən qaçqınlar arasında yatalaq xəstəliyinin qarşısının alınması, onların sağlamlıqlarının yoxlanılması məqsədilə Qazax qəzasının kəndlərinə həkimlər göndərilirdi. Kəndlərdə sağlam qaçqınların vəziyyətinin yoxlanılması üçün həkim Timofeyevin rəhbərliyi ilə tibbi heyət fəaliyyət göstərirdi,[3]



Yelizavetpol quberniyasında qaçqınların yerləşdiyi digər yerlərdə də müxtəlif yoluxucu xəstəliklərin yayılması barədə məlumatlara rast gəlinir. Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilin Qafqazda mülki idarənin tibb hissəsinə göndərdiyi 09 noyabr 1915-ci il tarixli telefonoqramasında bilidirilirdi ki, Annenfeld koloniyasında qaçqınlar üçün lazaretdə yatalaq xəstəliyi aşkar olunmuşdur.[4] Xəstəliyin yayılmaması üçün təcili tədbirlərin həyata keçirilməsinə tapşırıq verilmişdir”.[5]

Yelizavetpol quberniyası ərazisində qaçqınların yerləşdirildiyi bölgələrdə yoluxucu xəstəliklərin qarşısının alınması üçün həyata keçirilən tədbirlər barədə Yelizavetpol quberniya

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 28, 28 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 28, 28 (arx.).

[3] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 28, 28 (arx.).

[4] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 19, 20.

[5] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 19, 20.

həkiminin köməkçisi Kuznetsovun Yelizavetpol qubernatoruna göndərdiyi 20 noyabr 1915-ci il tarixli 1 saylı raportunda yazılırdı: "Gədəbəy rayonunda yatalaq xəstəliyinin meydana gəlməsi ilə əlaqədar əraziyə ezam olundum. Epidemiyanın qarşısının alınması barədə ölçü götürülməsi üçün rəhbərliyi öz üzərimə götürdüm". [1] Yelizavetpol quberniya həkiminin köməkçisi Kuznetsovun verdiyi məlumatlardan aydın olur ki, Gədəbəydə Ümumrusiya Şəhərlər İttifaqı lazaretində 29 xəstədən 14 nəfəri yatalaq xəstəsi, qalanları isə həmin xəstəliyə şübhəli olaraq qeydiyyata alınmışlar. Həmin məlumatda həmçinin qeyd olunurdu ki, lazaretin digər bölməsində 22 çiçək xəstəsi vardır. Ümumilikdə isə lazaretdə 51 xəstə yerləşdirilmişdir. [2]

Qaçqınların yerləşdiyi ərazilərdə xəstəliklərin gündən-günə artması səbəbindən xəstənalarada yer çatışmazlığı yaranmışdır. Mövcud ehtiyacı qarşılamaq məqsədilə Ümumrusiya Şəhərlər İttifaqı Gədəbəydə qaçqınlar üçün 50 nəfərlik lazaret açmışdır. Həmin lazaret zavod fəhlələri üçün tikilmiş kazarmanın ikimərtəbəli binasında yerləşirdi. Lazaretdə hər mərtəbə 2 hissəyə ayrılmışdı və cəmi 4 hissədən ibarət idi. Bütün hissələr eyni tipdə idi: dəhliz və hər iki tərəfdə 2 otaq. Ümumilikdə hər bir hissədə 4 otaq var idi. [3] 1915-ci il 13-26 noyabr tarixdə Gədəbəydə ezamiyyətdə olan Yelizavetpol Quberniya həkiminin köməkçisi Kuznetsov öz hesabatında həmin lazaretin antisanitariya şəraitində fəaliyyət göstərdiyi barədə yazırdı: "...Döşəmələr rənglənməmiş, qara, çirkli, şüşələr sınıq idi. Hər yer çirkli idi". [4]

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 36.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 36.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 37.

[4] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 37.

Ümumrusiya Şəhərlər İttifaqının lazaretinin yerləşdiyi zavod fəhlələri üçün tikilmiş kazarma binasının qalan üç hissəsində sağlam qaçqınlar yerləşdirilmişdi. Kazarmanın aşağı mərtəbəsində, lazaretin alt mərtəbəsində 4 otaqda 120-yə yaxın qaçqın yaşayırdı. [1] Xəstələrin yerləşdirildiyi lazaretdə və sağlam insanların yerləşdiyi alt mərtəbədə istilik sistemi yox idi. Dəhlizdə palatalar arasında xəstələr üçün iki stul qoyulmuşdu. [2]

Ümumrusiya Şəhərlər İttifaqı tərəfindən açılmış 50 nəfərlik lazaretdə 30 nəfərlik yataq hazırlanmışdı. Xəstələr lazaretin 4 palatasından üçündə yerləşdirilmişdi. Dördüncü palatada aptek, ambulatoriya, dəftərxana yerləşirdi. [3] Kazarmanın ikinci bölməsinin aşağı və yuxarı mərtəbələrində daha 200 qaçqın yerləşdirilmişdi. 15 noyabr 1915-ci ilə olan məlumata görə, bütün binada lazaretin sakinlərindən əlavə 300 sağlam qaçqın yerləşirdi.[4] Onların xəstəliyə tutulma riski olduqca yüksək idi.

1915-ci ilin noyabrına olan məlumata görə, Ümumrusiya Şəhərlər İttifaqının lazaretinin 3 palatasında 29 xəstə yerləşdirilmişdi. Qalan 22 xəstə (təhlükəli yatalaq xəstələri) birmərtəbəli daş evdə–sağlam insanların yaşadığı evdə yerləşdirilmişdi.[5]Ərazidə digər xəstəliklərlə yanaşı, çiçək xəstəliyi də geniş yayılmışdı. Lazaretdə çiçək xəstəliyinə tutulan 45 nəfər yerləşdirilmişdi.[6]

Ümumrusiya Şəhərlər İttifaqı tərəfindən Gədəbəydə yeni lazaret açılmışdır. 1915-ci ilin lazeretdə yerləşdirilən xəstələr

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 37.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 37.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 37.

[4] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 38.

[5] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 38 (arx.).

[6] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 38 (arx.).

zavodun qadın həkimi, alman mənşəli Brandtın nəzarəti altında idilər. Tibbi heyət çatışmazlığından lazeretə həkim və tibb bacısı göndərmək mümkün olmurdu. Yelizavetpol quberniya həkiminin köməkçisi Kuznetsovun raportunda yazılırdı: "Xəstələrə yerli mollanın həyat yoldaşı və bacısı qulluq edirdilər. Onlar eyni vaxtda yatalaq xəstəliyinə tutuldular və öldülər". [1] Göründüyü kimi, tibbi kadrların olmaması, dərman preparatlarının çatışmazlığı böyük fəlakətə çevrilmişdi. Xəstəliyə yoluxanların sayı durmadan artmaqda idi. Tək bir xəstəxanada – Ümumrusiya Şəhərlər İttifaqının Gədəbəydə yerləşən lazaretində 1915-ci ilin sentyabrın 5-dən noyabrın 11-nə qədər 160 xəstə qeydiyyatdan keçmişdi. [2]

Gədəbəy ərazsində qaçqınlar üçün digər lazaret Simens zavodu fəhlələrinin xəstəxanasında yerləşirdi. Lazaretə həkim Brandt rəhbərlik edirdi. [3] Lakin lazaretdə tbbi heyətin olmaması səbəbindən burada yerləşdirilmiş xəstələrə lazımi kömək göstərilməsi mümkün olmurdu. 1915-ci ilin noyabr ayına olan məlumata görə, Gədəbəydə həkim Brandtın nəzarəti altında 6 yatalaq xəstəsi evlərdə müalicə olunurdu. [4]

1915-ci ilin noyabrın 13-ə olan məlumata görə, Yelizavetpol quberniyasının Annenfeld rayonu ərazisində 93 qaçqın məskunlaşmışdı və onların böyük əksəriyyəti müxtəlif təyinatlarla xəstəxanaya yerləşdirilmişdi. Həmin tarixə olan məlumata görə, Ümumrusiya Şəhərlər İttifaqı lazaretində 61 xəstə var idi. [5] Quberniyanın digər ərazilərindən fərqli olaraq, Annenfeld rayonunda yatalaq və çiçək xəstəsi yox idi. Məlumatlarda bildirilir ki, digər lazaretlərlə müqayisədə

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 38 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 39.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 39.

[4] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 39.

[5] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 39 (arx.).

lazaret yaxşı təçhiz olunmuşdu, təmizdi və qayda-qanuna nəzarəti ilə seçilirdi.[1]

Yelizavetpol quberniya həkimi Kuznetsov Yelizavetpol quberniyası ərazisində qaçqınların yerləşdirildiyi bölgələrdə yoluxucu xəstəliklərin qarşısının alınması üçün həyata keçirilməsi mümkün olan tədbirlər barədə Yelizavetpol qubernatoru qarşısında təkliflər irəli sürmüşdür. Onun raportunda bildirilirdi ki, Gədəbəydəki lazaterdə qaçqınlar arasında yatalaq xəstəliyinin meydana gəlməsi əhali üçün böyük təhlükədir və yatalaq xəstəliyinin qarşısının alınması üçün ölçü götürülməlidir. Kuznetsov  yatalaq xəstəliyinin qarşısının alınması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirdi: [2]



Lazaretin yerləşdiyi kazarmadan sağlam qaçqınlar köçürülməli və onların xəstələrlə ünsiyyəti dayandırılmalıdır. Sağlam qaçqınlar üçün başqa bina ayrılmalıdır. Təklif olaraq bildirilirdi ki, bu fəhlələr üçün ikinci kazarma bina ola bilər;

Qaçqınların köçürülməsindən sonra həmin bina xəstəxana tələblərinə uyğun təmir olunmalıdır. Bununla əlaqədar Ümumrusiya Şəhərlər İttifaqına müraciət edilməlidir;

Ümumrusiya Şəhərlər İttifaqının tibbi heyətinə tapşırılmalıdır ki, Gədəbəydə mütəmadi olaraq, ən az həftədə bir dəfə sağlam qaçqınlar müayinə edilsin, xəstə olanlar onların arasından götürülsün;

Ümumrusiya Şəhərlər İttifaqından xahiş olunsun ki, Gədəbəydə ərzaq məntəqəsi açılsın, qaçqınların xəstəliklərə qarşı mübarizə gücü artırılsın. [3]

Yelizavetpol quberniya həkimi Kuznetsovun quberniya ərazisində qaçqınların yerləşdirildiyi bölgələrdə yoluxucu

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 39 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 39 (arx.), 40.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 39 (arx.), 40.

xəstəliklərin qarşısının alınması üçün həyata keçirilən tədbirlər barədə təkliflərindən sonra bu sahədə müəyyən işlər görülmüşdü. Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkil genereal-mayor Tamamşev tərəfindən Umumrusiya Şəhərlər İttifaqının Qafqaz Komitəsinə xüsusi tapşırıqlar verilmişdi.

Ümumrusiya Şəhərlər İttifaqının Qafqaz Komitəsinin müvəkkilinin Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkili genereal-mayor Tamamşevə göndərdiyi 30 dekabr 1915-ci il tarixli 8346 saylı məktubunda yazılırdı: "Sizin bu ilin 12 dekabr 140 saylı məktubunuza cavab olaraq bildirirəm ki, Yelizavetpol quberniya həkiminin raportunda göstərilən Gədəbəy lazeretində nöqsanlar hazırda aradan qaldırılmaqdadır. Bu ilin 20 dekabrında yatalaq xəstələri yenidən təmir olunmuş binaya köçürülmüşdür. Xəstələrin sayı 19 nəfərdir. Onlardan 14 nəfəri qaçqın, 5 nəfər Gədəbəy zavodunun fəhləsidir. Gədəbəydə bütün binalar zavod rəhbərliyinin sərəncamındadır". [1]

Diqqəti cəlb edən mühüm məsələlərdən biri də ondan ibarət idi ki, xəstəxanalarda uşaqlar da yerləşdirilirdi. Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilin məlumatında Yelizavetpol və Dəlican lazaretlərində xəstələr, o cümlədən xəstəliyə tutulmuş uşaqlar barədə vəziyyət göstərilmişdir. 1916-cı ilin sentyabr ayında Yelizavetpolda Ümumrusiya Şəhərlər İttifaqının lazeretinə xəstə uşaqların daxil olması barədə olan məlumatda bildirilirdi ki, həmin ay ərzində daxil olan xəstə uşaqların sayı 13 nəfər, sağalıb evə göndərilənlərin sayı 19 nəfər, xəstəxanada müalicələrini davam etdirənlərin sayı 15 nəfərdir.[2]

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1496, v. 44, 44 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1504, v. 5.

**Yelizavetpol şəhər lazaretində qaçqın xəstə uşaqlar haqqında MƏLUMAT (1917-ci il 16-31 oktyabr):**[1]

***Cədvəl 11***

| 16 oktyabr 1917-ci il | Daxil olanlar | Evə buraxılan uşaqlar | 1 noyabr 1917-ci il | Cəmi |
|---|---|---|---|---|
| 15 nəfər | 21 nəfər | 8 nəfər | 28 nəfər | 72 nəfər |

**Yelizavetpol qəza komitəsi tərkibində olan qaçqınlara himayə üzrə Ümumrusiya Şəhərlər İttifaqı ambulatoriyalarında ambulator köməkdən istifadə edən xəstə qaçqınların sayı haqqında məlumat: (2-15 noyabr 1917-ci il)**[2]

***Cədvəl 12***

| Kişilər | Qadınlar | Uşaqlar | Evdə xidmət | Cəmi |
|---|---|---|---|---|
| 36 nəfər | 13 nəfər | 29 nəfər | 5 nəfər | 83 nəfər |



Ümumrusiya Şəhərlər İttifaqı Yelizavetpol şəhər lazaretinin Qafqaz cəbhəsində qaçqnların yerləşdirilməsi üzrə baş müvəkkilnə yazdığı 01 noyabr 1917-ci il tarixli 304 saylı məktubunda bildirilirdi ki, lazeret yalnız qaçqınlara xidmət edir. Lazaretə hərbçilər və yerli əhali qəbul olunmurlar.[3]

Beləliklə, Baş Qafqaz Komitəsi Yelizavetpol quberniyasında qaçqınların yerləşdirilməsi, ərzaq və tibbi yardım işinin təşkili bu sahədə yaranmış gərginliyin nisbətən azalması ilə müşahidə olunurdu.

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1504, v. 51.

[2] ARDTA, fond 1, siyahı 1, iş 1504, v. 7.

[3] ARDTA, fond 1, siyahı 1, iş 1504, v. 51.

# VII FƏSİL
# AZƏRBAYCAN ƏRAZİSİNDƏ TÜRK QAÇQINLARINA YARDIM İŞİNİN TƏŞKİLİ

## 7.1. Yardım işinin təşkili

Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili rəsmi icazə əsasında formalaşır və ərazi üzrə aşağıda qeyd olunan ardıcıllıqla həyata keçirilir: Bakı qəzasında, Bakı quberniyası hüdudlarında, Yelizavetpol və İrəvan quberniyaları hüdudlarında, Qafqaz hüdudlarında, Rusiya imperiyası ərazisində.

Qafqaz cəbhəsində hərbi əməliyyatlar nəticəsində qaçqın və müharibədən zərər çəkənlərin müəyyən bir hissəsi Bakı şəhərində yerləşdirilmişdi. 1915-ci ilin dekabr ayında Bakı Quberniyası Jandarm İdarəsinin rayonda vəziyyət barədə məruzəsində[1] həmin vaxtda Bakı şəhərində 5.000-ə yaxın qaçqının olduğu qeyd edilirdi.[2] Qaçqınlar yalnız müsəlmanlar deyildi, digər millətdən olanlar da vardı. Onlara qayğı göstərilməsini müxtəlif komitələr – müsəlman, erməni, polyak, latış və milliyətindən asılı olmayaraq digər ictimai təşkilatlar öz üzərlərinə götürmüşdülər.[3] Bundan əlavə, Bakı şəhərində qaçqınların yerləşdirilməsi üzrə Baş müvəkkillikdən ehtiyacı olanlara kömək göstərilməsi üçün 10.000 rubl vəsait ayrılmışdı.[4]

---

[1] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 26.

[2] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 26.

[3] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 26.

[4] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 26.

Azərbaycan ərazisində yardım işinin təşkili Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk müsəlman əhalisinə, eyni zamanda Cənubi Qafqaza gətirilən türk qaçqınlarına kömək məqsədi daşıyırdı. Qars vilayətinə yardım işinin təşkili məqsədilə lazım olan tədbirlər görülmüş – həmin əraziyə nümayəndə heyəti göndərilmiş, vilayətin müxtəlif bölgələri üzrə qaçqın və müharibədən zərər çəkənlərlə iş aparmaq üçün yardımçı dəstələr təşkil olunmuş, qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin siyahıya alınması həyata keçirilmiş, onların zəruri ehtiyacları barədə məlumatlar əldə edilmişdi. Qars vilayətində fəaliyyət göstərən yardımçı dəstələr tərəfindən toplanan bütün məlumatlar nümayəndələr vasitəsilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərilir və burada müzakirə olunurdu.



***"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin türk-müsəlman qaçqınlarına yardım göstərən bir qrup könüllü heyəti***

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin vəziyyəti bütün azərbaycanlılar, o cümlədən xalqın ziyalıları arasında böyük narahatlıq yaradırdı. Qəzet səhifələrində görkəmli ziyalıların bütün azərbaycanlıların diqqətini qaçqın və müharibədən zərər çəkən müsəlman-türk əhalisinə yönəldən yazıları dərc olunurdu. Ömər Faiq Nemanzadənin xalqa müraciətində yazılırdı: "...onların bütün müsəlmanların köməyinə ehtiyacı var".[1]

1915-ci ilin yanvarında xüsusi dəvət olunmuş şəxslərin iştirakı ilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili ilə əlaqədar iclası çağırıldı. İclasda Bakı şəhər rəisi tərəfindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə yardım işinin təşkili ilə bağlı icazə vəsiqəsi təqdim edildi və həyata keçiriləcək işlər müzakirə olundu.[2] Həmin iclasda Bakı qubernatoruna ikinci dəfə müraciət edildi ki, tək Bakı qəzasında deyil, Bakı quberniyası hüdudlarında da yardım yığılmasına rəsmi icazə versin. 1915-ci il fevralın 11-də "Müharibədən zərər çəkənlərə kömək bölməsi"nin sədri İsmayıl bəy Səfərəliyev Bakı qubernatorunun quberniya hüdudlarında yardım yığılmasına icazə verdiyi barədə məlumatı elan etdi.[3] Qeyd edək ki, az müddətdə qaçqın və müharibədən zərər çəkən türk- müsəlman əhalisinə yardım işinin təşkili məqsədilə İrəvan və Yelizavetpol qubernatorlarından da rəsmi icazə alınmışdı.

Türk qaçqınlarına və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işində Bakıda fəaliyyət göstərən

[1] Kaspi, 21 aprel 1915, № 87.

[2] Baku, 30 yanvar 1915, № 24.

[3] Kaspi, 8 fevral 1915, № 30; 13 fevral 1915, № 34.



***Hənifə xanım Məlikova (1856-1929)*** *- Azərbaycanın ilk maarifçi qadınlarından biri Həsən bəy Məlikovun (Zərdabi) həyat yoldaşı. Tiflisdə Müqəddəs Nina qız məktəbində təhsil almışdır. "Nicat" cəmiyyəti nəzdində ilk qadın təşkilatının və Bakıda ilk qız məktəbinin yaradıcılarından biri olmuşdur. Bakıda ilk müsəlman qız məktəbinin müdiri (1901-1905), Bakı şəhər rus-Azərbaycan məktəbinin müdiri (1909-1919), Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin sədr müavini*



digər milli-ictimai təşkilatlar da iştirak edir, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin bu sahədə həyata keçirdiyi tədbirlərə dəstək olurdular. 1915-ci ilin martında "Nicat" Bakı Müsəlman Maarif Cəmiyyətinin təşkil etdiyi tamaşadan daxil olan 790 rubl, "Səfa" Bakı Müsəlman Maarif Cəmiyyətinin təşkil etdiyi tamaşadan daxil olan 600 rubl bu məqsədlə "Bakı müsəlman xeyriyyə cəmiyyəti"-nin idarə heyətinə təhvil verilmişdir.[1]

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkilində "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nində mühüm xidmətləri olmuşdu. İşin təşkili məqsədilə qadın cəmiyyətinin nəzdində "Müharibədən zərər çəkənlərə kömək bölməsi" fəaliyyət göstərirdi. 1915-ci ilin martında -"Novruz bayramı" ərəfəsində cəmiyyət üzvləri tərəfindən qeydiyyat kitabçaları əsasında yardım yığımı təşkil olunmuşdu.[2] Həmin tədbirlə bağlı cəmiyyətin hesabatını müəyyən ixtisarlarla təqdim edirik.

---

[1] Kaspi, 26 aprel 1915, № 92.

[2] Kaspi, 10 mart 1915, № 55.

1915-ci ilin martında, Bakı şəhəri üzrə Qars vilayətinə yardım yığımı ilə əlaqədar "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin hesabatı: [1]

1. Sürəyya xanım Axundovanın siyahı kitabçası üzrə - Paşa bəy Dəlibozov 25 rubl, M.Hüseyn Səfərəliyev 10 rubl, Məmməd Hüseyn Bünyadov 5 rubl, Mehdi Xanbutayev, Mirzə bəy Quliyev, Əli Məmmədov, Əlizar Abuzər oğlu, Rəfi Həsənov, Məşədi Əli Hüseyn və b. – cəmi 120 rubl, 50 qəpik

2. A.Əhmədbəyovanın siyahı kitabçası üzrə – Fişman, Kadryanskiy, Klark, A.S.Səmədov, M.Abdullayev, Q.K.Hacıyev, D.Ağayev, Əli Bala Zərbəliyev, Balabəy Qocayev, Hüseyn Nadirov, M.D.Dadaşov, İsmayıl Hacıxanov, Şükür Qurbanov, Mirzə Süleymanov və b. – cəmi 99 rubl 50 qəpik.

3. Fatma xanım Cavanşirin siyahı kitabçası üzrə - Nobel qardaşları şirkəti 200 rubl, S.Kaçaurov 25 rubl, Şibayev əməkdaşları, İsa bəy Vəlibəyov, Əhməd Muxtarov, Z.Vəzirov, "Rapid" zavodu işçiləri və b. – cəmi 637 rubl 74 qəpik.

S.Terequlovanın siyahı kitabçası üzrə – Şəfiyev, Qarabəyovlar, S.Dadaşov, Cavad Babayevvə b. cəmi 4 rubl 90 qəpik.[2]

Beləliklə, "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin üzvləri Liza xanım Muxtarovanın, B.Babayevanın, Hənifə xanım Məlikovanın, Pəri xanım Topçubaşovanın, Sürəyya

[1] Kaspi, 10 mart 1915, № 55.

[2] Kaspi, 10 mart 1915, № 55.



***Liza xanım Muxatarova** - Görkəmli mesenant Murtuza Muxtarovun həyat yoldaşı. "Bakı müsəlman qadın xeyriyyə cəmiyyəti"nin sədri*



xanım Axundovanın, M.K.Heydərovanın, S.L.Qoqobidzenin və digərlərinin siyahı kitabçaları əsasında alınan ümumi məbləğ 1.883 rubl olmuşdu.[1]

1915-ci il noyabrın 3-də Liza xanım Muxtarovanın sədrliyi ilə "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin türk qaçqınları və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək göstərmək üzrə bölməsinin iclası keçirilmişdi.

İclasda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin" Batumda fəaliyyət göstərən yardım dəstələrinə geyim əşyalarının göndərilməsi məqsədilə parça materiallarının alınması məsələsi müzakirə olunmuşdu. Bildirilmişdi ki, geyim əşyaları hazırlamaq üçün qadın cəmiyyətinə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən 25.000 rubl daxil edilmişdir. Qadın komitəsi tərəfindən həmin vəsaitlə material alınmış və bu materiallardan əşyaların hazırlanması işinə başlanılmışdı.[2] "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti" tərəfindən hazırlanan 1.000 nəfər üçün yataq dəstləri və isti əşyalar paylanması üçün Batuma, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Batum Komitəsinə göndərilmişdi.[3]

[1] Kaspi, 16 may 1915, № 106.

[2] Kaspi, 5 noyabr 1915, № 247.

[3] Kaspi, 15 oktyabr 1915, № 229.

"Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nın "Müharibədən zərər çəkən müsəlmanlara yardım bölməsi" Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək məqsədilə isti əşyaların toplanması layihəsini də həyata keçirirdi.[1]

Yuxarıda qeyd olunanlarla yanaşı, yardım işinin təşkili ilə əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən Bakıda nəşr olunan milli mətbuat orqanlarının kontorlarında pul yardımlarının yığılması məqsədilə qutular da qoyulmuşdu. "İqbal" qəzeti kontorunda cəmi iki ay ərzində – 1915-ci il yanvar-fevral aylarında 10.000 rubl, "İqdam" qəzeti redaksiyasında isə 300 rubl pul yardımı yığılmışdı. "Baku" qəzetinin yazdığı məlumatda bildirilirdi ki, daxil olan bu yardımları yalnız əhalinin orta və aşağı təbəqəsi etmişdi.[2]

"İqbal" qəzetinin redaktoru Məhəmmədəmin Rəsulzadə Qars vəlayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin istifadəsi üçün daxil olan yardımlar barədə hesabat verərək bildirmişdi ki, cəmi bir neçə ay ərzində – 1915-ci ilin may ayına qədər "İqbal" qəzeti kontoruna 24.954 rubl ianə daxil olmuşdur. Daxil olan bütün vəsait "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkənlərə yardım üzrə bölməsi"nə təhvil verilmişdir.[3]



Yuxarıda qeyd olunanlardan əlavə, "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölmə"yə Bakıda fəaliyyət göstərən ayrı-ayrı müəssisələrdən yardımlar da daxil olurdu. 1915-ci ilin aprel ayında Şəmsi Əsədullayev müəssisəsinin fəhlələrindən 270 rubl, Ağa Musa Nağıyev müəssisəsi fəhlələrindən 712 rubl, həmçinin B.A.Muxtarovun imzalı

[1] Kaspi, 15 oktyabr 1915, № 229.

[2] Baku, 19 fevral 1915, № 39.

[3] Baku, 2 may 1915, № 96.

vərəqlə topladığı 2.881 rubl "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə təhvil verilmişdi. [1]

1915-ci ilin oktyabrında bölməyə Bakı ictimai iclasından 3.000 rubl, Bakı vəkilliyindən 54 rubl 75 qəpik ianə daxil olmuşdu.[2]

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhaliyə yardım işinə digər millətdən olanlar da qoşulurdular. "Kaspi" qəzetinin 1917-ci ilin yanvar saylarının birində "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti Benkendorf ticarət evinə yardım etdiyi 100 rubla, Y.O.Qukasova yardım etdiyi 1.000 rubla görə təşəkkür etmişdi.[3]

Beləliklə, qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin istifadəsi üçün təkcə 1915-ci ilin aprelində müxtəlif mənbələrdən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə 21.131 rubl ianə daxil olmuşdu. [4]



1915-ci ilin may ayında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsinə Yelizavetpol müsəlmanları tərəfindən qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin istifadəsi üçün 4 furqon geyim əşyaları göndərilmişdi. Yardımların daxil olması ilə bağlı məlumat verən Xosrov Paşa bəy Sultanov qeyd edirdi ki, "...Nuxa qadınlarının tikib göndərdikləri qadın və uşaq paltarları xüsusilə seçilir...Lakin bütün bunlara baxmayaraq, yenə də böyük kömək lazımdır. Daha çox ərzaq yardımına böyük ehtiyac var...ac qalanlar çoxdur".[5]

---

[1] Kaspi, 26 aprel 1915, № 92.

[2] Kaspi, 10 oktyabr 1915, № 215.

[3] Kaspi, 25 yanvar 1917, № 20.

[4] Kaspi, 26 aprel 1915, № 92.

[5] Baku, 23 may 1915, № 112.



*Xosrov Paşa bəy Sultanov (1879–1947) – Qafqaz cəbhəsində Qars Vilayət Komitəsinin sədri*

Xosrov Paşa bəy Sultanovun bu məlumatından sonra "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədə zərər çəkən müsəlmanlara kömək üzrə bölməsi" tərəfindən Ərdahana təcili yardım təşkil olunmuşdu. Ərdahana göndərilən 105.000 pud çəkidə ərzaq və geyim əşyaları Ümumrusiya Şəhərlər İttifaqı müvəkkilliyi vasitəsilə aparılmışdı.[1]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin qışın gəlişi ilə əlaqədar həyata keçirdiyi tədbirlər xüsusi önəm daşıyırdı. Cəmiyətin çağırışı ilə Azərbaycanın hər bir bölgəsindən daxil olan yardımlarla yanaşı, "Müharibədən zərər çəkən müsəlmanlara yardım bölməsi" tərəfindən müxtəlif sexlərə geyim əşyalarının hazırlnması məqsədilə də sifarişlər verilirdi. 1915-ci ilin noyabrında xüsusi sexlərə hər biri 5 rubl 50 qəpikdən olan 1.000 ədəd odeyal, bir cütü 38-80 qəpikdən olan 10.000 cüt corab sifariş olunmuşdu.[2]

Lakin Qars vilayətindən daxil olan xəbərlərdə qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin sayının günbəgün artmaqda olduğu qeyd edilirdi. Ayrılan vəsaitlər, daxil olan yardımlar bu qədər axının ehtiyacını ödəmək iqtidarında deyildi.

[1] Kaspi, 23 aprel 1915, № 89.

[2] Baku, 3 noyabr 1915, № 245.

Beləliklə, Birinci Dünya müharibəsi illərində, Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin istifadəsi üçün yardım işinin təşkili Azərbaycan milli-ictimai təşkilatları, o cümlədən qadın təşkilatı vasitəsilə həyata keçirilirdi.

### 7.2. Yardım vaqonlarının təşkili

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım olunmasında bütün təşkilati işlərlə yanaşı, bir sıra çətinliklər də istisna deyildi. Bu ilk növbədə nəqliyyat problemləri ilə əlaqədar idi. Bakıdan və Yelizavetpoldan Qars vilayətinə yardımların göndərilməsinə, həmçinin vilayət daxilində bir ərazidən digər əraziyə yardımların daşınması üçün vaqonların alınmasına günlərlə vaxt sərf edilirdi.

1915-ci ilin fevralında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsinin sədri Xosrov Paşa bəy Sultanovun Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərdiyi teleqramda əhalinin ərzaq və zəruri geyim əşyalarına ehtiyacı barədə müraciət olunurdu. Lakin Qars vilayətinə göndərmək üçün kifayət qədər yardım toplanıldığı halda, dəmiryolu nəqliyyat vasitələrinin olmaması bu işi çətinləşdirirdi.

Qars vilayətinə yardımların daşınması ilə əlaqədar yaranmış çətinliklərin aradan qaldırılması üçün Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov Baş Qafqaz Komitəsinin İşlər İdarəsinin rəhbəri Pavlova müraciət etmişdi. Bu müraciətdən sonra "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" üçün vaqonlar ayrılmış, ərzaq və geyim əşyaları ilə təchiz olunmuş vaqonlar dəmiryol vasitəsilə Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə göndərilmişdir.[1]

[1] Kaspi, 19 fevral 1915, № 86.

Bir çox hallarda yardımların göndərilməsi zamanı vaqonların ayrılması günlərlə gecikdirilirdi. Nəzərə alsaq ki, həmin dövr üçün bir günlük gecikmə minlərlə insanın, o cümlədən uşaqların çörəksiz qalması, soyuqdan əziyyət çəkməsi, donması demək idi, o zaman ərzaq və geyim əşyalarının daşınması üçün ayrılacaq vaqonların günlərlə gecikdirilməsinin böyük fəlakət olduğu aydın olar.

Qars vilayətinə yardımların göndərilməsi üçün vaqonların ayrılması barədə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin səlahiyyətli nümayəndələri mütəmadi olaraq dövlət və hökumət orqanlarına müraciət edirdilər. 1915-ci ilin noyabrında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri Mirzə Əsədullayev vaqonların təşkili ilə bağlı Qafqazda müharibədən zərər çəkənlərə və qaçqınlara yardım üzrə baş müvəkkil, general-mayor Tamamşevə Qars və Batum vilayətlərində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə ərzaq və isti əşyaların göndərilməsi üçün 2 vaqon verilməsi barədə müraciət etmişdi.[1]

Vaqonların ayrılması ilə bağlı digər müraciət cəmiyyətin Qars Komitəsinin nümayəndsəsi Əlixan Kantəmirov tərəfindən olunmuşdu. O, Qars vilayəti general-qubernatorundan xahiş etmişdi ki, Qars vilayətinə əşyaların daşınması üçün Tiflis hərbi qubernatorundan boş vaqonlar alınmasında köməklik göstərsin. Bu müraciətlə əlaqədar olaraq, Tiflis hərbi qubernatoru vaqonların ayrılması barədə Bakı dəmiryol rəisinə göstəriş vermişdi.[2] Bundan əlavə Ümumrusiya Şəhərlər İttifaqı tərəfindən cəmiyyətə bir ədəd vaqon verilmişdi ki, həmin vaqonla Sürməli qəzasında olan türk qaçqınlarına un göndərilmişdir.[3]

[1] Kaspi, 13 noyabr 1915, № 254.

[2] Kaspi, 24 noyabr 1915, № 262; 26 noyabr 1915, № 264.

[3] Kaspi, 11 dekabr 1915, № 277.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" vasitəsilə Qars vilayətinə göndərilən yardımlar, o cümlədən ərzaq, geyim əşyaları, yataq dəstləri Qarsda qəbul olunur, buradan yerlərə paylanılırdı. Yardımların yerlərə çatdırılmasında da nəqliyyat vasitələrinə ehtiyac yaranırdı. Cəmiyyətin Qars vilayətindəki səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanovun eyni zamanda Qars Vilayət Komitəsinin üzvü olması bir çox məsələlərin, o cümlədən nəqliyyat probleminin həll olunmasına da müsbət təsir göstərirdi. Onun, 1915-ci ilin fevralında Qars Vilayət Komitəsinin rəhbərliyinə müraciətindən sonra cəmiyyətin Qars Komitəsinə 5 vaqon ayrılmışdı.[1] Bu vaqonlarla komitəyə daxil olan yardımlar vilayətin müxtəlif ərazilərinə daşınırdı.



### 7.3. Ərzaq kooperativlərinin təşkili

Birinci dünya müharibəsində bütün Rusiya imperiyasını, o cümlədən Cənubi Qafqazı bürüyən iqtisadi böhran, həmçinin qaçqınlar dalğası gündən-günə böyüməkdə idi. Yaranmış vəziyyətlə əlaqədar dövlət və hökumət orqanları müəyyən tədbirlərin görülməsi barədə təşəbbüs göstərirdilər.

1915-1916-ci illərdə bahalaşma ilə əlaqədar yaranmış iqtisadi böhranla bağlı Bakı və Yelizavetpol quberniyalarında yerli idarəetmə orqanları və şəhər idarəsi tərəfindən ərzaq komitələri təşkil olunmuşdu.[2] Lakin həmin komitələrin fəaliyyətə başlaması ilə əlaqədar çarın Qafqazdakı canişininə müraciət olunsa da, Qafqaz canişini bu kimi komitələrin fəaliyyət göstərməsindən imtina etmişdi. [3]

---

[1] Kaspi, 19 fevral 1915, № 86.

[2] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 20.

[3] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 20.

Bakı Quberniyası Jandarm İdarəsinin rayonda vəziyyət barədə 24 oktyabr 1915-ci il tarixli məruzəsində qeyd olunurdu ki, qaçqınların ərzaqla təminatı ilə bağlı heç bir dəyişiklik olmamışdır.[1]

1915-ci ilin oktyabr ayının 10-dan 17-nə qədər olan aralıqda bahalaşmanın aradan qaldırılması üçün tədbirlərin hazırlanması məqsədilə Tiflis şəhərində çarın Qafqazdakı canişininin sədrliyi, şəhər idarəsi və yerli idarəetmə orqanları nümayəndələrinin iştirakı ilə müşavirə keçirilmişdi. Müşavirə üç hissəyə ayrılırdı:

1. Mənzil və mənzil qiymətlərinin tənzimlənməsi;
2. Kooperativlərlə əhalinin ərzaq təminatı;
3. Nəqliyyatın təşkili üzrə – dəniz və dəmiryolu nəqliyyatı.[2]

Müşavirənin hər üç bölməsi qaçqın və müharibədən zərər çəkənlərə yardım göstərilməsi məqsədilə tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu.

Bakı Quberniyası Jandarm İdarəsinin 1916-ci ilin fevral ayı üçün rayonda vəziyyət barədə məruzəsində[3] bildirilirdi ki, qaçqınların yardım, həmçinin ərzaqla təmin olunması məqsədilə Bakı Qradonaçalnikliyi Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə Baş müvəkkilliklə 87.000 rubl yardım haqqında danışıqlar aparmışdır.[4] Bakı Qradonaçalnikliyinə daxil olan bütün yardımların milləyyətindən asılı olmayaraq ərazidəki qaçqın və müharibədən zərər çəkənlərə paylanması nəzərdə tutulurdu.

[1] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 20.

[2] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 20 (arx.).

[3] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 39.

[4] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 42 (arx.), 43.

Dövlət və hökumət orqanları tərəfindən Bakı quberniyası ərazisində qaçqın və müharibədən zərər çəkənlərə yardım göstərilməsi üçün digər bir vasitə qənaət üsulu idi. Bakı Quberniyası Jandarm İdarəsinin 1916-ci ilin mart ayında rayonda vəziyyətlə bağlı məruzəsində [1] bildirilirdi ki, əhalinin ərzaqla təminatı məqsədilə yerli idarəetmə orqanları tərəfindən müəyyən ölçü götürülmüşdür. Bunlar aşağıda qeyd olunanlardan ibarətdir:

1. Şəhər idarəsinə təklif olunur ki, oruc günləri təşkil olunsun;
2. Restoranlara və yeməkxanalara yemək buraxılmasına sərhəd qoyulsun;
3. Lazaretlərə ət normasının miqdarı azaldılsın, yaxud eyni miqdarda günaşırı verilsin. [2]



Yuxarıda qeyd olunan bütün bu qənaətlər hesabına aclıqdan əziyyət çəkən qaçqınların ərzaq təminatını nisbətən qarşılamaq mümkün ola bilərdi. Bu, həmin dövrün rəsmi orqanlarının fikirləri idi. Bu sahədə Azərbaycan milli-ictimai təşkilatlarının da öz fəaliyyət proqramları var idi.

### 7.4. "Qardaş köməyi" adlı layihənin təşkili (qəzet, nişan və s.)

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə həyata keçirilən tədbirlər içərisində milli birlik və həmrəylik baxımından mühüm əhəmiyyət kəsb edən, əhatə dairəsinin genişliyinə görə ən böyük layihə "Qardaş köməyi" adlı layihə idi.

[1] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 52.

[2] ARDTA, fond 524, siyahı 1, iş 5, v. 52.

1915-ci ilin martında Azərbaycan xalqı və ümumilikdə bütün türk dünyası üçün ənənəvi olan "Novruz bayramı", döyüş bölgələrində soyqırıma və qaçqınlığa məruz qalmış türklərin faciəsi ilə bir araya düşdüyündən bayram qeyd olunmadı. Yaranmış vəziyyət və bununla bağlı xalqın milli əhvali-ruhiyyəsi Azərbaycan ziyalılarının "Qardaş köməyi" layihəsi ideyasının həyata keçirilməsini reallaşdırdı.

1915-ci il mart ayının 7-də Azərbaycan milli mətbuat sahibləri və jurnalistlər bir araya gələrək, "Novruz bayramı"nın Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım etmək üçün bir vasitə və Azərbaycan xalqı üçün tarixin ağır sınaqlarından biri olduğunu qeyd etdilər.

"Nicat" Bakı Müsəlman Maarif Cəmiyyətinin idarə heyətində keçirilən toplantıda "Qardaş köməyi" adı altında bir qəzetin nəşr olunması və qəzetdən gələn gəlirin qaçqın və mühariədən zərər çəkən türk-müsəlman əhalisinə sərf edilməsi barədə qərar qəbul olundu.[1] Beləliklə, tarixdə ilk dəfə olaraq, Azərbaycan milli mətbuat təmsilçiləri tərəfindən "Qardaş köməyi" ideyası əsaslı olaraq irəli sürüldü. Rusiya imperiyası tərkibində olmasına baxmayaraq, Azərbaycan ziyalıları tərəfindən atılan bu addım ümummilli birlik, türkçülük ideyasının ortaya qoyulması istiqamətində mühüm əhəmiyyət kəsb edən ən uğurlu, eyni zamanda mübariz bir addım idi.

"Qardaş köməyi" adlı qəzetin nəşrə hazırlanması üçün Azərbaycanın görkəmli ziyalılarından ibarət idarə heyəti təşkil olundu. Bu heyətə "İqbal" qəzetindən Məhəmmədəmin Rəsulzadə, "Səda" qəzetindən Haşım bəy Vəzirov, "İqdam" qəzetindən Mahmud Qaragözov seçildilər. Heyətin keçirdiyi

[1] İqdam, 8 mart 1915, № 64.

toplantıda qərara alındı ki, "Qardaş köməyi" qəzetinin nəşr olunduğu gün heç bir müsəlman qəzeti nəşr olunmasın. Qəzetin nəşrində əsas məqsəd adından göründüyü kimi, qaçqın və müharibədən zərər çəkən türk-müəlman əhalisinə yardım işinin təşkili idi. Qəzetin satışından daxil olan bütün gəlirin bu məqsədə yönəldilməsi nəzərdə tutulurdu.[1]

Qəzet nəşrə başlamazdan əvvəl "Nicat" Bakı Müsəlman Maarif Cəmiyyəti və "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətləri tərəfindən Bakıda nəşr olunan qəzetlərdə "Qardaş köməyi" qəzetinin nəşrində fəaliyyət göstərmək istəyən bütün müsəlman jurnalist və mürəttiblərin işə dəvət edilmələri barədə elanlar dərc olundu.[2]



Beləliklə, 1915-ci il martın 11-də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri Mirzə Əsədullayevin redaktorluğu və naşirliyi ilə bir günlük "Qardaş köməyi" qəzeti çapdan çıxdı.[3] Qəzetin çap olunması işinə Haşım bəy Vəzirov, Orucov qardaşları və "İqdam" qəzetinin naşiri Əli Əkbərov rəhbərlik edirdilər.[4] Qəzetin nəşrində əməyi olan müsəlman jurnalistlər, mürəttiblər və işçi heyət gördükləri işə görə əmək haqqı almamış, təmənnasız xidmət etmişdilər.[5]

"Qardaş köməyi" qəzetinin ön səhifəsində yazılmışdı: "Milli fəlakət qarşısında milli mətbuatımızın ittiatını göstərən bu qəzetin hasilatı qaçqın müsəlmanların nəfinə olmaq üzrə bir günlük nəşr olunur". Qəzet 10.000 nüsxədə çap olundu

---

[1] İqdam, 9 mart 1915, № 65.

[2] Kaspi, 13 mart 1915 № 58.

[3] Kaspi, 8 mart 1915 № 54; Kaspi, 13 mart 1915 № 58.

[4] Kaspi, 8 mart 1915 № 54; Kaspi, 13 mart 1915 № 58.

[5] İqdam, 6, 9 mart 1915, № 63, 65.


قارداش کومکی



və bir qəzetin qiyməti 10 qəpik idi. Qəzetin mətni bütünlükdə qaçqın və müharibədən zərər çəkənlərə həsr olunmuşdu.[1]

"Qardaş köməyi" qəzetinin ilk sayının çap olunduğu gün barədə "Kaspi" qəzeti səhifələrində yazılırdı: "...Bu gün heç bir müsəlman qəzeti çıxmadı və "Qardaş köməyi" qəzeti həvəslə satıldı".[2] Azərbaycan dilində nəşr olunan digər qəzetlərin fəaliyyətlərinin dayandırılmasında əsas məqsəd, həmin gün yalnız "Qardaş köməyi" qəzetinin satışını təşkil etmək, insanların diqqətini bu istiqamətə yönəltməkdən ibarət idi. Bu sahədə atılan məqsədyönlü addım öz müsbət nəticəsini verdi. İlk növbədə bu qəzet Azərbaycan xalqı arasında milli həmrəyliyi, milli birlik istəyini gücləndirdi. Digər tərəfdən qəzetin satışı nəinki bütün əhali tərəfindən

[1] Kaspi, 13 mart 1915, № 58; 8 mart 1915, № 54.

[2] Kaspi, 13 mart 1915, № 58; 8 mart 1915, № 54.

diqqət çəkən bir hadisə oldu, həmçinin qəzet yerli, eyni zamanda xarici iri neft və gəmi kompaniyalarının, müxtəlif firmaların da diqqətini cəlb etdi. Onlar qəzetin redaktorluğuna müraciət edərək öz şirkətlərinə dair elanların dərc edilməsi barədə sifarişlər verdilər.[1] Bütün bunlar cəmiyyətin qarşıya qoyduğu məqsədə çatmaq üçün böyük bir maliyyə dəstəyi olacağını göstərirdi.

"Qardaş köməyi" adlı layihə getdikcə daha geniş forma aldı. Qəzetin uğurlu nəşri, digər eyniadlı və eyniməqsədli bir layihənin həyata keçirilməsinə başlanğıc oldu. 1915-ci ilin aprelində "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara kömək bölməsi"nin iclasında "Qardaş köməyi" adlı nişanın təşkili və satışının həyata keçirilməsi barədə qərar qəbul olundu.



"Qardaş köməyi" nişanının təşkili və satışı layihəsinin həyata keçirilməsi üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti 1915-ci il aprelin 20-də Bakı şəhər rəisinə müraciət etdi. Müraciətdə qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək məqsədilə, həmin il mayın 7-də "Qardaş köməyi" adı altında ianə qutularının təşkili, üzərində qaçqın və müharibədən zərər çəkənlərə köməyi əks etdirən nişanların satışının təşkilinə icazə verilməsi xahiş olunurdu.[2] "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin bu müraciətinə çarın Qafqazdakı canişini tərəfindən baxıldı və "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə mayın 7-də Bakıda və Bakı rəisliyində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək üçün nişan satışının təşkilinə icazə verildi.[3] Az müddət ərzində bu layihə rəsmi

---

[1] Kaspi, 13 mart 1915 № 58.

[2] Kaspi, 21 aprel 1915, № 87.

[3] Kaspi, 3 may 1915, № 97.

icazələr əsasında digər yerlərdə də həyata keçirilir, geniş bir ərazini əhatə edirdi.

1915-ci il aprelin 28-də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölməsi"nin iclasında "Qardaş köməyi" nişanının təşkili və satışı ilə bağlı məsələ müzakirə olundu. Həmin iclasda qərara alındı ki, mayın 7-də üzərində rus və Azərbaycan dillərində "Qardaş köməyi" sözləri yazılmış nişanların satışı təşkil olunsun.[1]

"Qardaş köməyi" nişanının satışı layihəsi "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" və "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin birgə təşkilatçılığı ilə hazırlanmış bir layihə idi.[2] Məhz buna görə də bu layihənin təşkilinin müzakirəsi "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"ndə də keçirilmişdi.

1915-ci il aprelin 30-da "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin sədri Liza xanım Muxtarovanın rəhbərliyi ilə keçirilən iclasında nişanların satışı ilə bağlı qərara alındı ki, 5 nəfər qadından ibarət büro seçilsin. "Qardaş köməyi" nişanının satışı layihəsini, Azərbaycanın xeyriyyəçi xanımlarından ibarət Büronun və "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölmə"sinin birgə həyata keçirməsi qərara alındı.[3]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölmə"si tam tərkibdə "Qardaş köməyi" nişanının satışı layihəsinin təşkilində iştirak edirdi. Həmçinin bölməyə nişanların satışı üzrə işçilər qəbul

[1] Kaspi, 30 aprel 1915, № 95.

[2] Kaspi, 3 may 1915, № 97.

[3] Kaspi, 3 may 1915, № 97.

edilirdi. Bununla əlaqədar qəzet səhifələrində bir-birinin ardınca elanlar dərc olunurdu. Elanda bildirilirdi ki, "...işə qəbul olunmaq istəyənlər "İsmailiyyə" binasında, cəmiyyətin dəftərxanasında qeydiyyata yazıla bilərlər".[1] Bu layihənin təşkili və təbliğatı məqsədilə birmənalı şəkildə həmin gün – 7 may tarixi mətbuatda "Qardaş köməyi" günü elan olunmuşdu. [2]

Qeyd etdiyimiz kimi, "Qardaş köməyi" nişanının satışının təşkili bir günlük ianə toplantısı idi. Bu vəsaitin türk qaçqınlarına və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə sərf olunması nəzərdə tutulurdu.[3]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən tədbir öncəsi bir sıra təşkilati tədbirlər də həyata keçirilirdi. Qeyd edək ki, tədbirdə təkcə üzərində "Qardaş köməyi" sözləri yazılmış nişanın deyil, həmçinin eyni sözlər yazılmış plakatların da satışı təşkil olunmuşdu. Cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölməsi" may ayının 4-də Bakı şəhər rəisinə müraciət edərək, şəhərin bir neçə hissəsində, həmçinin Balaxanı-Sabunçu polismeystrliyində üzərində "Müharibədən zərər çəkən müsəlmanlara qardaş köməyi göstərin!" sözləri yazılmış plakatın asılmasına icazə verilməsi barədə xahiş etmişdi.[4]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti və cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara kömək bölməsi"nin "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti" ilə birgə təşkil etdiyi "Qardaş köməyi" nişanlarının

---

[1] Kaspi, 3 may 1915, № 97; 5 may 1915, № 98; 6 may 1915, № 99.

[2] Kaspi, 6 may 1915, № 99.

[3] Kaspi, 6 may 1915, № 99.

[4] Kaspi, 6 may 1915, № 99.

satışı may ayının 7-də həyata keçirildi. Tədbirin mərkəzi – ştab yeri cəmiyyətin "İsmailiyyə" binası idi. "Baku" qəzeti yazırdı: "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin binası bayraq və xalçalarla bəzədilmişdir. Burada ştab yerləşir. Səhər saat 7-də ştab-mənzildə ... nişan satan qız və oğlanlar yığılmışdılar..." [1]

Həmin gün ştab mənzilə – "İsmailiyyə" binasına "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri Mirzə Əsədullayev başda olmaqla idarə heyətinin və "Müharibədən zərər çəkənlərlə kömək üzrə bölmə"nin bütün üzvləri yığılmışdılar. "Qardaş köməyi" nişanının satışında 400 nəfərdən çox satıcı qız və oğlan iştirak edirdi. Onlar arasında 150-yə yaxın azərbaycanlı qız və oğlan var idi. [2] Əvvəlcə satıcıların Bakının ayrı-ayrı rayonları üzrə müəyyənləşdirilməsi aparıldı, sonra isə onlar şəhərin müxtəlif yerlərinə göndərildilər.[3]

"Qardaş köməyi" nişanlarının satışına Bakı şəhərinin rayonları üzrə aşağıdakı şəxslər rəhbərlik edirdilər: Xədicə xanım Əlibəyova – Xəstəxana rayonu üzrə, Rəhilə xanım Hacıbababəyova və Əlibala Zərbəliyev–Mərkəzi rayon üzrə, Sürəyya xanım Axundova–Bank rayonu üzrə, Axundzadə S. – Bank rayonu üzrə, Pəri xanım Topçubaşova–Dənizkənarı (bulvar) üzrə, Əli İsgəndər Cəfərov–Qala üzrə, M.Muxtarova–Şamaxinka üzrə, xanım Hacıyeva, Muxtarov Bala Əhməd və Süleyman Abdullayev–Bayıl üzrə. Digər qalan rayonlara Məşədi bəy Əzizbəyov rəhbərlik edirdi. [4]

7 may – "Qardaş köməyi günü" barədə "Baku" qəzeti yazırdı: "Səhər saat 9-dan bütün küçələr nişan satan gənc

---

[1] Baku, 8 may 1915, № 101.

[2] Baku, 8 may 1915, № 101.

[3] Baku, 8 may 1915, № 101.

[4] Baku, 8 may 1915, № 101.

satıcılarla dolu idi. Onların çiyinlərindəki yaşıl lent üzərində yazılmışdı: "Qaçqın və müharibədən zərər çəkən müsəlmanlara kömək edin!" Nişanlar millətindən və mənsub olduğu təbəqədən asılı olmayaraq hər kəsə təklif olunurdu. Bu barədə "Baku" qəzeti səhifələrində yazılırdı: "Alıcılar – varlılar və kasıblar, zadəganlar və hamballar. Səhnə belə görünür. Qoca Hacı könüllü olaraq təklif olunan nişanı alır və kassaya rubl qoyur. Sonra soruşur ki, bu pul nə üçün yığılır? Ona izah edilir ki, türk qaçqınlarına və zərər çəkən türk-müsəlman əhalisinə yardım edir. O, gülümsəyərək pul kisəsində olan pulları qutuya atır və satıcılara cansağlığı arzulayır".[1] Qəzet səhifələrində, dərc olunan nişan satışı ilə bağlı digər məlumatda belə qeyd olunur: "Kubinka meydanında hamballar və alverçilər rəngbərəng materiallardan bəzədilmiş köşk gördükdə, köşkü dövrəyə aldılar və düşünürdülər ki, burada nə isə təqdim olunacaq. Onlar eşidəndə ki, burada Qars vilayətindən qaçqın düşən və zərərçəkən türk-müsəlman əhalisinə yardım etmək üçün nişan satılır, sevinclə nişanı aldılar və kassaya öz qəpiklərini atdılar..." [2]



"Qardaş köməyi" nişanının satışı zamanı bütün gün ərzində şəhərin ayrı-ayrı rayonlarına nişanların daşınması üçün 10 avtomobil ayrılmışdı. Həmin gün qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin istifadəsi üçün ümumi toplanan yardım 20.000 rubl olmuşdu.[3]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən təşkil olunan "Qardaş köməyi" gününün əks-sədası az vaxtda Azərbaycanın digər ərazilərinə də yayıldı. Qəza komitələri

---

[1] Baku, 8 may 1915, № 101.

[2] Baku, 8 may 1915, № 101.

[3] Baku, 8 may 1915, № 101.

Bakıda keçirilən nişanların satışı xəbərini eşidən kimi, belə bir satışın qəzalarda da təşkil olunması xahişi ilə idarə heyətinə müraciət ünvanladılar.[1] Azərbaycanın ayrı-ayrı bölgələrində təşkil olunan "Qardaş köməyi" layihəsi barədə monoqrafiyanın digər bölmələrində bəhs olunacaq.

Qeyd edək ki, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Qardaş köməyi" adlı müəssisəsi də fəaliyyət göstərirdi. 1915-ci ilin oktyabrında cəmiyyət də keçirilən iclasın qərarı ilə "İsmailiyyə" binasında "Qardaş köməyi" adlı çayxana açılmışdı.[2] Eyni məqsədlə belə kiçik müəssisələr bölgələrdə də təşkil olunmuşdu.

## 7.5. Azərbaycan ərazisində qaçqınlara yardım üzrə yerli komitələrin təşkili ilə bağlı qaydalar



Qafqaz cəbhəsində hərbi əməliyyatlar zamanı qaçqın və müharibədən zərər çəkənlərə yardım işi dövlət səviyyəsində təşkil olunurdu. Bununla bağlı qaydalar qəbul olunmuşdu. Həmin qaydalara görə, Rusiya imperiyası ərazisini bürümüş qaçqınlarla bağlı problemlərə baxılmasının mütəşəkkil formada təşkil olunması üçün yerli komitələrin yaradılması vacib məsələlərdən biri idi.

Arxiv sənədləri arasında müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsinin layihəsi saxlanılmaqdadır.[3] Həmin layihədə hər bir yerli komitənin idarə heyəti və vəzifələri haqqında qaydalar öz əksini tapır.

Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsinin təşkili ilə bağlı qaydalarda qeyd olunurdu ki,

[1] Kaspi, 5 may 1915, № 98.

[2] Kaspi, 17 oktyabr 1915, № 231.

[3] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

komitənin vəsaiti Dövlət Bankının kontorunda, komitə bölmələrinin vəsaiti isə kredit müəssisələrinin birinin hesabında saxlanılır. Baş Qafqaz Komitəsi və onun şöbələrinin əsas fəaliyyəti iki istiqamətdə – müharibədən zərər çəkənlər və qaçqınlara kömək üzrə müəyyənləşdirilmişdi. Ona görə də komitənin hesabatı da müharibədən zərər çəkənlər və qaçqınlar üzrə aparılan işlər əsasında hazırlanırdı.[1]

Baş Qafqaz Komitəsinin qaydalarına görə, komitə hər il dekabrın 15-dən gec olmayaraq Ali Şuraya və digər Mərkəzi İdarələrə növbəti ilin smetasını, martın 1-dən gec olmayaraq isə Ali Şuraya və digər Mərkəzi İdarələrə təftiş komissiyasının aktı ilə birgə öz hesabatını təqdim edirdi. [2] Hesabata Ali Şura və təftiş komissiyası tərəfindən baxılırdı. [3]

Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsinin qaydalarında qeyd olunurdu ki, quberniya və vilayət komitələrinə quberniya və vilayət rəisləri rəhbərlik edir. Qaydalara görə, quberniya komitələrinin üzvlərindən üç nəfərdən ibarət Təftiş Komissiyası və komitənin xəzinədarı seçilirdi. Qəbul olunmuş qaydalara əsasən, quberniya və vilayət komitələrində sərəncam və arayış xarakterli icraedici fəaliyyətə Komitənin sədri və ya idarə işləri ilə məşğul olan şəxs rəhbərlik edirdi.[4]



Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsinin qaydalarında[5] idarə heyətinin vəzifələri və digər məsələlər üzrə qaydalar əks olunurdu. Qəbul olunmuş qaydalara görə, hər bir yerli komitədə görülən işlər barədə məruzə yerli komitə sədri tərəfindən edilirdi. Komitə sədrinin

---

[1] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

[2] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

[3] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

[4] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

[5] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

sədrlik etmək imkanı olmadığı halda müavinlərdən biri komitənin işlərinə rəhbərlik edirdi. [1]

Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsinin yerli komitələr barədə layihəsinə görə, hər bir yerli komitənin icraedici fəaliyyətinə onun idarə heyəti rəhbərlik edirdi.[2] İdarə heyətinə dəftərxana-kargüzarlıq və mühasibatlıq məmurları daxil idi. [3]

Baş Qafqaz Komitəsinin yerli komitələr barədə qaydalarında qeyd olunurdu ki, dövlət və hökumət orqanları ilə yazışmalar, ümumiyyətlə, məktublaşma işləri idarə heyətinin sədrinin və yaxud onu əvəz edən şəxsin imzası ilə həyata keçirilir. [4]

Hər bir yerli komitədə idarə heyətinin iclası üç nəfər idarə heyəti üzvünün iştirakı ilə keçirilə bilərdi. İdarə heyətində bütün məsələlər səs çoxluğu ilə həyata keçirilirdi. Səslər bərabər olduğu halda sədrin səsi məsələnin həllində əsas olurdu. Müvafiq məsələlərə baxılması üçün həftədə bir dəfə idarə heyətinin iclası keçirilirdi. Ehtiyac yarandığı halda idarə heyətinin sədri fövqəladə iclas cağıra bilərdi. [5]

Müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsinin yerli komitələr barədə qaydalarına görə, 5.000 rubla qədər pul vəsaitinin ayrılması məsələləri idarə heyətinin qərarı ilə həyata keçirilir və bu barədə Baş Qafqaz Komitəsinə məlumat verilirdi. 5.000 rubldan çox pul vəsaitin ayrılması haqqında müraciətlər idarə heyətinin məruzəsi əsasında Baş Qafqaz Komtəsinin icazəsi ilə həyata keçirilirdi. [6] Hər

[1] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

[2] ARDTA, fond 334, siyahı 1, iş 11, v .5.

[3] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

[4] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

[5] ARDTA, fond 334, siyahı 1, iş 11, v .5.

[6] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

bir yerli komitədə pul vəsaitinin verilməsi və ya köçürülməsi mühasibin və xəzinədarın, yaxud onun köməkçisinin imzası ilə qəbz əsasında həyata keçirilirdi. Yerli komitəyə daxil olan bütün pul yardımları həmin komitənin xəzinədarlığına yığılırdı. [1]

Baş Qafqaz Komitəsinin yanında Qafqaz hüdudlarında olan quberniya və vilayətlərdə quberniya, vilayət və dairə rəislərinin sədrliyi ilə quberniya, vilayət və dairə filial şöbələri yaradılırdı. Hər bir filial şöbəsinin üzvləri komitənin sədri tərəfindən təsdiq edilirdi. [2] Komitələr Baş Qafqaz Komitəsinin rəhbərliyi altında müharibədən zərər çəkənlərə kömək üzrə qayda və qanunvericilik əsasında müstəqil fəaliyyət göstərirdilər. Hər bir komitə müəyyən olunmuş müddətdə öz fəaliyyəti və pul hesabatını təqdim edirdi. Qəbul olunmuş qaydalara görə yerli komitələr özü vəsait tapır, vəsait çatışmadığı halda ehtiyacları barədə Baş Qafqaz Komitəsinə müraciət edirdilər. [3] Qaçqın və müharibədən zərər çəkənlərə geniş planda yardım etmək onların vəsaitindən asılı idi. [4]

Baş Qafqaz Komitəsinə daxil olan müəssisələr komitədən aylıq yardım alırdılar. Hesabat ildə dörd dəfə hər rüb üzrə təqdim olunurdu. Quberniya və vilayət komitələri ötən ilin fəaliyyəti haqqında hesabatı təftiş komissiyasının aktı ilə birlikdə fevralın 1-dən gec olmayaraq Baş Qafqaz Komitəsinə təqdim etməli idi. [5]

Baş Qafqaz Komitəsinin yerli komitələri nəzdində fəaliyyət göstərən Təftiş Komissiyasının tərkibinə 5 nəfərdən az



[1] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

[2] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

[3] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

[4] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 1-4.

[5] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

olmayaraq üzv daxil idi. Komissiya komitə tərəfindən verilən xüsusi tapşırıqları yerinə yetirir, müəyyən olunmuş geniş fəaliyyətə nəzarəti həyata keçirirdi. [1]

Bundan əvvəlki bölmələrdə müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsinin yerli komitələrin təşkilinin həyata keçirilməsi barədə bəhs etmişdik (Bax: Baş Qafqaz Komitəsi). Layihəyə görə, qaçqın və müharibədən zərər çəkənlərə kömək üzrə yerli komitələrin təşkil olunması nəzərdə tutulurdu.[2] Digər tərəfdən 1915-ci il fevralın 16-da Rusiya Daxili İşlər Naziri tərəfindən "Hərbçilərə və onların ailələrinə kömək üzrə Müvəqqəti Müsəlman Komitəsi haqqında Qayda" təsdiq edildi. Həmin "Qayda"nın 7-ci maddəsinə əsasən bu sahədə fəaliyyət göstərən hər bir müsəlman xeyriyyə və maarif cəmiyyəti öz yerli komitələrini təşkil edə bilərdi.[3] Yerli komitələrin təşkili, cəmiyyətlərin yerlərdə fəaliyyət göstərən şöbələri tərəfindən müəyyənləşirdi.

"Hərbçilərə və onların ailələrinə kömək üzrə Müvəqqəti Müsəlman Komitəsi haqqında Qayda"nın təsdiqi ilə əlaqədar Peterburqda Müsəlman Maarif və Xeyriyyə Cəmiyyətlərinin Ümumrusiya qurultayı çağrıldı.[4]Qurultayda Rusiya imperiyası ərazisində olan bütün müsəlman maarif və xeyriyyə cəmiyyətlərinə müraciət qəbul olundu.[5] Müraciətdə bildirilirdi ki, Rusiya Daxili İşlər Naziri tərəfindən "Hərbçilərə və onların ailələrinə kömək üzrə Müvəqqəti Müsəlman Komitəsi haqqında Qayda"nın 7-ci maddəsinə uyğun olaraq hər bir təşkilatın öz ümumi iclasında yerli komitələrin təsis olunması

---

[1] ARDTA, fond 334, siyahı 1, iş 11, 1-4.

[2] ARDTA, fond 334, siyahı 1, iş 11, v. 5.

[3] Kaspi, 14 mart 1915 № 59.

[4] Kaspi, 14 mart 1915 № 59.

[5] Kaspi, 14 mart 1915 № 59.

məsələsini müzakirə etmək hüququ vardır. Yerli komitələrin təsis olunması aşağıdakı qayda üzrə həyata keçirilirdi: [1]

1. *Hər bir təşkilatın ümumi iclasının qərarı ilə yerli komitələrin təsis olunması;*
2. *Yerli komitələrə üzvlərin seçkisi;*
3. *Ümumi iclasın qərarından asılı olaraq, yerli komitələrə üç nəfərdən az olmayaraq üzvlər seçilməsi;*
4. *Yerli komitəyə seçilmiş üzvlərin siyahısının və komitənin açılması haqqında müraciətin qubernatora təqdim olunması;*
5. *Bütün bu tədbirlərin yerli qubernatorun rəsmi icazəsi ilə həyata keçirilməsi.*



Azərbaycan milli-ictimai təşkilatları, xüsusilə də bu sahədə böyük xidmətlər göstərən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" bu işin təşkilatçısı kimi Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım etməyə daha çox önəm verirdi. Bu məqsədlə cəmiyyətin nəzdində "Müharibədən zərər çəkən müsəlmanlara kömək göstərmək üzrə bölmə" yaradılmışdı. Bu sahədə həyata keçirilməsi nəzərdə tutulan bütün tədbirlər məhz bu bölmə tərəfindən reallaşırdı.

1915-ci il fevralın 19-da "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara kömək bölmə"si tərəfindən qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili məqsədilə qəzalara – fəxri müsəlmanlara məktub göndərildi. Göndərilən hər bir məktubda bildirilirdi ki, tərkibi 7 nəfərdən az, 9 nəfərdən çox olmayaraq yerli komitə təşkil edilsin. [2] Yardım

[1] Kaspi, 14 mart 1915 № 59.

[2] Kaspi, 20 fevral 1915, № 40.

işinin təşkili üzrə yeni yaradılan yerli komitələrə qəbz kitabçaları təqdim olunurdu.[1]

Yardımların qəbulu üzrə xüsusi qayda müəyyən olunmuşdu. Bu iş təşkilat tərəfindən təyin edilmiş şəxsin imzası ilə qəbz əsasında aparılırdı. Qeyd olunduğu kimi, yeni qəbz kitabı yerli komitələrə "Müharibədən zərər çəkən müsəlmanlara kömək bölmə"si tərəfindən təqdim olunurdu. Tamamlanmış imzalı vərəqlər və kökü qalmış qəbz kitabı yoxlanılmaq üçün "Müharibədən zərər çəkən müsəlmanlara kömək bölmə"sinə göndərilirdi. Bundan əlavə, ianə qutularının açılması zamanı şahid qismində iştirak etmək üçün bölmədən bir nəfər dəvət olunurdu. Qutudan çıxan məbləğ barədə xüsusi akt yazılır və iştirak edən bütün şəxslər bu aktı imzalayırdılar. Akt pul ilə birlikdə Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Komitəsinə göndərilirdi və yaxud ayda bir dəfədən gec olmayaraq, Komitənin Rus-Fransız Kommersiya bankındakı 457 saylı hesaba köçürülürdü. [2] Banka köçürülmə barədə "Müharibədən zərər çəkən müsəlmanlara kömək komitəsi"nə məlumat verilirdi. Yardım qəbul olunarkən, yardım edənlərin hər birinin adı və etdiyi yardımın məbləği göstərilməklə siyahı təqdim olunurdu. Əgər hər hansı bir anlaşılmazlıq baş verərdisə, bu barədə komitəyə məlumat verilirdi.[3]

1915-ci ilin əvvəllərindən başlayaraq, Azərbaycan ərazisində, o cümlədən Bakı, Yelizavetpol və İrəvan quberniyalarında qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə komitələrin təşkilinə başlanılmışdı. Yerli komitələrin təşkili ilə bağlı "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin iclasında aşağıda qeyd olunan qərar qəbul olunmuşdu: [4]

---

[1] Kaspi, 20 fevral 1915, № 40.

[2] Kaspi, 14 mart 1915, № 59.

[3] Kaspi, 14 mart 1915, № 59.

[4] Baku, 30 yanvar 1915, № 24.

1. Yerlərdə 9 nəfər üzvdən ibarət komitələr təşkil olunsun;

2. Yerli komitələr idarə heyətinin nəzarəti altında fəaliyyət göstərsinlər;

3. Yardımlar təkcə pul deyil, həmçinin əşyalardan ibarət olsun.

Beləliklə, qəbul olunan qaydalara və qərarlara əsasən yerli komitələr təşkil olundu. Bəzi komitələr Baş Qafqaz Komitəsinin təşkilatçılığı ilə yaradılmışdı və yerli quberniya, qəza rəislərinin rəhbərliyi ilə fəaliyyət göstərirdilər. Digər komitələr isə ictimai təşkilatların təşəbbüsü ilə yerlərdə fəxri müsəlmanların sədrliyi ilə tədbirlər həyata keçirirdilər. Sonda bütün komitələr eyni məqsəd üçün yaradılmışdı və eyni istqamətdə fəaliyyət göstərirdilər.



## 7.6. Yerli komitələrin təşkili. İrəvan Komitəsi

1915-ci ilin martında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti tərəfindən İrəvan qubernatoruna müraciət olunaraq, qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə İrəvan Komitəsinin təşkilinə və fəaliyyətə başlamasına, o cümlədən ianələr yığılmasına və digər tədbirlərin həyata keçirilməsinə rəsmi icazə alınmışdı.[1]

Ərazi etibarı ilə İrəvan, Qars vilayəti, həmçinin Türkiyə ilə yaxın məsafədə olduğu üçün qaçqın və müharibədən zərər çəkənlərin daha çox sıxlaşdığı ərazilərdən biri idi. İrəvan komitəsi tərəfindən təşkil olunan yardımçı dəstələr xüsusi təlimat əsasında Sürməli, İçmiədzin, Van, Məläzgert və digər ərazilərdə lazımi qeydiyyat aparır, qaçqın və müharibədən

[1] Baku, 20 mart 1915, № 64.

zərər çəkən türk-müsəlman əhalisinə ilkin zəruri yardımlar edirdilər.[1]

İrəvan Komitəsi tərəfindən, yerlərdə iş aparmaq üçün təşkil olunan yardımçı dəstələr həmçinin qaçqın və müharibədən zərər çəkənlərin siyahıya almasını həyata keçirirdilər. Onların apardığı siyahıya almaya əsasən məlum olmuşdu ki, həmin ərazidə 5.000-dən çox türk qaçqını məskunlaşmışdır. [2] Qaçqınlar yalnız qadınlardan və uşaqlardan ibarət idilər. Məlumatlarada qeyd olunurdu ki, türk qaçqınları arasında çox yaşlı kişilər istisna olunmaqla, 8 yaşdan yuxarı kişilərə rast gəlinmir. [3] Bu da onu göstərir ki, türk ordusunda 8 yaşdan yuxarı olan kişilər orduya çağrılırdı.

Sürməli qəzasında cəmi bir neçə ay ərzində qaçqınların sayı xeyli artmışdı. 1916-cı ilin yanvarına olan məlumata görə, Sürməli qəzasında qaçqınların ümumi sayı 9.000 nəfərə yaxın idi.[4]

İrəvan quberniyasının digər ərazilərində olduğu kimi, Eçmiədzin qəzasında da xeyli sayda qaçqın və müharibədən zərər çəkənlər sığınacaq tapmışdılar. 1915-ci ilin noyabrına olan məlumata görə burada olan qaçqınlar hələ ki, qeydiyyata alınmamışdılar.[5]

Qafqaz cəbhəsində qaçqın və müharibədən zərər çəkən türk müsəlman əhalisinin müəyyən bir hissəsi İrəvan quberniyasının müxtəlif ərazilərinə, o cümlədən Sürməli, Eçmiədzin, Mələzgert və digər ərazilərə sığınmışdılar. İrəvan komitəsi bu ərazilərdə qaçqınlar və müharibədən zərər



[1] Kaspi, 21 oktyabr 1915, № 234.

[2] Kaspi, 28 noyabr 1915, № 266.

[3] Baku, 27 noyabr 1915, № 265; Kaspi, 24 noyabr 1915, № 262; 31 dekabr 1915, № 292.

[4] Baku, 9 yanvar 1916, № 6.

[5] Kaspi, 28 noyabr 1915, № 266.

çəkənlərlə iş aparamaq, onların siyahıya alınması və yardım göstərilməsi məqsədilə Sürməli qəzasının qarnizon rəisinə müraciət etmişdi.[1] Qarnizon rəisinin rəsmi icazəsindən sonra komitə tərəfindən İqdırda məskunlaşan qaçqınlara 4.000 rubl pul vəsaiti paylanılmışdı.[2]

Qeyd etdiyimiz kimi, İrəvan Komitəsi tərəfindən təşkil olunan yardımçı dəstələr quberniyanın müxtəlif ərazilərində – Sürməli, Van, Mələzgert və digər yerlərdə fəaliyyət göstərirdi. Bu rayonlarda komitə üzvləri ilə yanaşı "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" idarə heyətinin üzvləri də fəallıq göstərirdilər.[3] 1916-cı ildə Qafqaz cəbhəsində qaçqın və müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə təftiş komissiyasının sədri M.A.Yusifxanov Sürməli qəzasında qaçqınlara kömək üzrə yardımçı dəstələrin işinə nəzarət edirdi.[4]



İrəvan Komitəsi nümayəndələrinin nəzarəti ilə yardımçı dəstələr tərəfindən İqdırda qaçqınlar üzrə araşdırmalar aparılır, onların ehtiyacları barədə məlumatlar əldə olunurdu. Daxil olan məlumatlar əsasında qaçqınların isti əşyalara böyük ehtiyacı olduğu öyrənilmiş, İrəvan Komitəsi isti əşyaların yığımını təşkil etmişdi.[5] İrəvan ərazisində yerləşdirilmiş qaçqın və müharibədən zərər çəkənlərə ilkin zəruri yardım olunması məqsədilə quberniyanın bütün rayonlarından isti geyim əşyalarının və ərzaq məhsullarının yığılması işinin təşkili İrəvan qubernatorunun rəsmi icazəsi ilə həyata keçirilirdi.[6] Lakin görülən bütün tədbirlərlə yanaşı, quberni-

---

[1] Kaspi, 24 noyabr 1915, № 262.

[2] Kaspi, 24 noyabr 1915, № 262.

[3] Kaspi, 21 oktyabr 1915, № 265.

[4] Baku, 9 yanvar 1916, № 6.

[5] Kaspi, 31 dekabr 1915, № 292.

[6] Kaspi, 28 noyabr 1915, № 266.

yanın müxtəlif yerlərindən daxil olan yardımların, o cümlədən ərzaq və isti əşyaların daşınması üçün nəqliyyat çatışmazlığı müəyyən problemlər yaradırdı.

1915-ci ilin noyabrında İrəvan Komitəsi qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə ianələrin yığılması işinin təşkilini, əsasən, məscidlərdə həyata keçirirdi. Bu məqsədlə məscidlərdə ianə qutuları qoyulmuşdu.[1]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin bütün yerli komitələrində olduğu kimi, İrəvan Komitəsində də daxil olan ianələr bank vasitəsilə cəmiyyətin idarə heyətinə göndərilirdi. Daxil olan vəsaitin lazımı yerlər üzrə paylanması cəmiyyətin idarə heyətinin və onun "Müharibədən zərər çəkən və qaçqın müsəlmanlara yardım bölməsi"nin birgə iclasında müəyyənləşdirilirdi.

İrəvan Komitəsi qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım olunması məqsədilə müxtəlif tədbirlər həyata keçirirdi. 1915-ci ilin noyabrında komitənin nəzdində çayxana-yeməkxana açılmışdı. Burada həmçinin kofe, kakao və süd satışı da həyata keçirilirdi.[2] Daxil olan bütün gəlir İrəvan quberniyası ərazisində məskunlaşan türk qaçqınlarının istifadəsinə yönəldilirdi.

Qeyd edək ki, İrəvan Komitəsinin fəaliyyətinə rəsmi icazəyə qədər yerli əhali tərəfindən ianə toplantıları həyata keçirilmişdi. Həmin vaxta qədər toplanan 1.400 rubl,[3] icazədən sonra mart ayında yığılan 500 rubl vəsait isə Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərilmişdi.[4]

---

[1] Kaspi, 28 noyabr 1915, № 266.

[2] Baku, 27 noyabr 1915, № 265.

[3] Kaspi, 9 fevral 1915, № 77.

[4] Baku, 20 mart 1915, № 64.

1915-ci ildə Sürməli qəzasında türk qaçqınlarının ərzaq və zəruri geyim əşyaları ilə təmin olunması probleminin həlli üçün İrəvan komitəsi tərəfindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə müraciət olunmuşdu. Müraciətdə bidirilirdi ki, Sürməli qəzasında olan 5.000-dən çox türk qaçqının saxlanması üçün hər ay ən azı 5.000 pud un (6 vaqon un) və qışın gəlməsi ilə əlaqədar isti geyim əşyalarının göndərilməsi tələb olunur.[1] Komitə dəstələrinin verdiyi məlumatda həmçinin bildirilirdi ki, "...İrəvanda un və digər ərzaq məhsullarını tapmaq çətindir. Əgər tezliklə qaçqınlara kömək olunmasa aclıq baş verəcək".[2]

İrəvan komitəsi qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisini ərzaq və isti geyim əşyaları ilə təmin etmək üçün lazımi tədbirlər həyata keçirirdi. Komitəyə quberniyanın demək olar ki, bütün ərazilərindən könüllü olaraq isti əşyalar və ərzaq məhsulları göndərilirdi.[3] Bütün bunlarla yanaşı Bakıdan – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti tərəfindən yardım edilirdi. Bakıdan isti əşyaların və ərzağın gətirilməsi üçün vaqon olmadığına görə İrəvan qubernatoruna müraciət olunmuşdu.[4]

Birinci Dünya müharibəsi illərində Qafqaz cəbhəsində qaçqınlarla bağlı araşdırılmalar aparılarkən əldə etdiyimiz məlumatlar bir daha təsdiq edir ki, qaçqınlar və müharibədən zərər çəkənlərin istifadəsi üçün daxil olan bütün ianələr cəmiyyətin müxtəlif təbəqələrindən könüllü olaraq daxil olan yardımlar idi. Belə ki, bu işdə ən imkanlı şəxslərlə yanası, ən kasıb ailələr də iştirak edirdilər. Yardımların toplanması işində çətinlik olmasa da, toplanan yardımların,

[1] Baku, 27 noyabr 1915, № 265; Kaspi, 18 dekabr 1915, № 283.

[2] Kaspi, 28 noyabr 1915, № 266.

[3] Kaspi, 28 noyabr 1915, № 266.

[4] Kaspi, 28 noyabr 1915, № 266.

o cümlədən ərzaq və geyim əşyalarının lazımi ərazilərə çatdırılmasında müəyyən çətinliklər yaranırdı. Yardımların bir ərazidən digər əraziyə çatdırılması, əsasən, dəmiryolu nəqliyyatı vasitəsilə həyata keçirilirdi. Əksər hallarda bu nəqliyyat vasitəsindən istifadə etmək mümkün olmurdu. Bununla əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri Mirzə Əsədullayev 1915-ci ilin dekabrında Qafqazda Qaçqınların Yerləşdirilməsi üzrə baş müvəkkil, general-mayor Tamamşevə müraciət etmişdi. Müraciətdə Sürməli qəzasına ərzaq və isti geyim əşyalarının göndərilməsi üçün vaqon verilməsi xahiş olunurdu.[1] Bu müraciətdən sonra cəmiyyətə Sürməli qəzasına və Eçmiədzinə yardım olaraq yalnız un göndərilməsi üçün növbədənkənar bir vaqon verilmişdi.[2]

İrəvan quberniyasında qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım göndərilməsi üçün hökumət tərəfindən vaqonların ayrılması ilə əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi, baş müvəkkil Xosrov Paşa bəy Sultanov tərəfindən müvafiq orqanlara müraciət edilmişdi. Bu müraciətə əsasən Sürməli qəzasında yerləşdirilmiş qaçqınlara yardım olaraq un göndərmək üçün əlavə üç vaqon verilmişdi. 1915-ci il dekabrın 19-da vaqonlar yüklənərək Sürməliyə göndərilmişdi.[3]



1916-cı ilin yanvarına olan məlumata görə, Sürməli qəzasına 6 vaqon un göndərilmişdi ki, bu bir aylıq ərzaq ehtiyatı demək idi. Həmin vaqonlarda ərzaqla yanaşı 300 ədəd dəri kürk göndərilmişdi.[4]

---

[1] Kaspi, 4 dekabr 1915, № 271.

[2] Kaspi, 15 dekabr 1915, № 280.

[3] Kaspi, 20 dekabr 1915, № 285.

[4] Baku, 9 yanvar 1916, № 6.

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək üzrə İrəvan Komitəsi "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Bakı şəhərində reallaşdırdığı "Qardaş köməyi" layihəsinin İrəvanda da təşkilinə çalışırdı. Bu məqsədlə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə İrəvan Komitəsi tərəfindən üzərində "Qardaş köməyi" sözləri yazılmış nişan göndərilməsi barədə müraciət olunmuşdu. Nişanın satışından daxil olan vəsaitin qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin istifadəsinə yönəldilməsi nəzərdə tutulurdu.

1915-ci ilin avqust ayının 25-də İrəvan Komitəsi quberniyanın bir çox ərazilərində "Qardaş köməyi" nişanının satışını təşkil etmişdi. Bunun üçün Bakıdan komitəyə 10.000 ədəd nişan göndərilmişdi. Nişan satışının təşkilində İrəvanın tanınmış ziyalıları, nüfuzlu şəxsləri iştirak edirdilər. Qeyd edək ki, nişanların müəyyən bir hissəsinin satışı Naxçıvanda təşkil olunmuşdu.[1] Nişan satışından Naxçıvandan 1.110 rubl 90 qəpik, Başkoreşen qəzasından 233 rubl vəsait daxil olmuşdu.[2] İrəvan quberniyası üzrə nişan satışından daxil olan 3.150 rubl Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərilmişdi.[3]



İrəvan quberniyası üzrə qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım Komitəsi türk və qaçqın uşaqlarına xüsusi diqqət göstərirdi. 1916-cı ildə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə Komitəsi tərəfindən İrəvan Komitəsinə müharibədə valideynlərini itirmiş 15 məktəbyaşlı türk qaçqın uşağı göndərilmişdi. İrəvan Komitəsi tərəfindən Qars vilayəti üzrə

[1] Kaspi, 28 iyul 1915, № 167; 31 iyul 1915, № 170.

[2] Kaspi, 11 sentyabr 1915, № 202.

[3] Kaspi, 1 sentyabr 1915, № 194.

səlahiyyətli nümayəndə, baş müvəkkil Xosrov Paşa bəy Sultanova verilən məlumatda bildirilirdi ki, həmin uşaqlar İqdırda məktəbin yataqxanasında yerləşdirilmişlər. Məlumatda komitənin əməkdaşları tərəfindən uşaqlara nəzarət olunduğu bildirilirdi.[1]

1916-cı ildə İrəvan Komitəsi müharibədə valideynlərinin itirmiş kimsəsiz türk uşaqları üçün uşaq evinin açılmasını nəzərdə tuturdu.[2]

1916-cı ildə İrəvan Komitəsinin "Qardaş köməyi" adı altında türk qaçqınlarına yardım məqsədilə bir neçə müəssisəsi fəaliyyət göstərirdi.[3]

**Naxçıvan Komitəsi**



Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Naxçıvan Komitəsi 1915-ci ildə təşkil olunmuşdu. Komitənin rəsmi olaraq fəaliyyət göstərməsi üçün 1915-ci ilin mart ayında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti tərəfindən İrəvan qubernatoruna müraciət edilmişdi.[4] Qubernatorun rəsmi icazəsindən sonra Naxçıvan ziyalıları və əhali arasında böyük nüfuz sahibi olan şəxslərdən ibarət Naxçıvan Komitəsi fəaliyyətə başlamışdı.

Naxçıvan Komitəsinə görkəmli ziyalı Cəfərqulu xan Naxçıvanski rəhbərlik edirdi.[5] Komitənin fəxri üzvləri arasında

[1] ARDTA, f.ond 335, siyahı 1, iş 1, v. 50.

[2] Baku, 9 yanvar 1916, № 6.

[3] Baku, 9 yanvar 1916, № 6.

[4] Kaspi, 8 mart 1915, № 54.

[5] Kaspi, 8 mart 1915, № 54.

Naxçıvan şəhər qazısı, müsəlmanlar arasında böyük nüfuzu olan Şeyx Kərim Axundzadə və digər görkəmli şəxslər var idi. [1]

Komitənin fəaliyyətə başladığı bir neçə gün ərzində qaçqın və müharibədən zərər çəkən türk müsəlman əhalisinə yardım məqsədilə 1.500 rubl vəsait toplanmışdı. [2] Qeyd edək ki, komitəyə İrəvandan da ianələr daxil olurdu. 1915-ci ilin martında İrəvandan Naxçıvan Komitəsinə 500 rubl ianə daxil olmuşdu.[3]

Naxçıvan Komitəsinə ərazinin kənd yerlərində də qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili, yardımların yığılması xahişi ilə müraciətlər daxil olurdu. [4] Bu müraciətlər əsasında komitə tərəfindən kənd yerlərində yardım yığılması işi həyata keçirilirdi. Komitə üzvləri kəndlərdə yaşayan əhaliyə müharibə bölgələrində türk-müsəlman əhalisinin ağır vəziyyəti barədə məlumatlar verirdi. Kənd əhalisi arasında söhbətlər aparan komitə üzvlərindən Naxçıvan şəhər qazısı Şeyx Kərim Axundzadənin adına tez-tez rast gəlinir.[5]



Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Naxçıvan Komitəsinin üzvləri müxtəlif bayram və digər mədəni tədbirlərin təşkilini həyata keçirirdilər. 1915-ci ilin martında "Novruz bayramı" münasibətilə komitənin sədri Cəfərqulu xan Naxçıvanskinin rəhbərliyi altında təşkil olunan rautda bir çox tanınmış şəxslər iştirak edirdilər. Rautda komitəyə 1.000 rubl ianə daxil olmuşdu.

---

[1] Kaspi, 8 mart 1915, № 54.

[2] Kaspi, 8 mart 1915, № 54.

[3] Kaspi, 8 mart 1915, № 54.

[4] Kaspi, 1 aprel 1915, № 70.

[5] Kaspi, 1 aprel 1915, № 70.

Daxil olan bütün vəsait qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalinin istifadəsinə yönəldilmişdir.[1]

### Yelizavetpol Komitəsi

Birinci Dünya müharibəsində Yelizavetpol quberniyası üzrə qaçqın və müharibədə zərər çəkənlərin yerləşdirilməsi işinin təşkili dövlət və hökumət orqanları, Baş Qafqaz Komitəsi, müxtəlif milli-ictimai təşkilatlar, kənd icmaları və s. təşkilatlar tərəfindən həyata keçirilirdi. Bu ərazi müxtəlif millətlərdən olan qaçqın və müharibədən zərər çəkən əhalinin ən sıx yerləşdirildiyi ərazilərdən biri idi. Bu ərazidə türk-müsəlman qaçqınları ilə yanaşı erməni, aysor, yəhudi və digər millətdən olan qaçqın və müharibədən zərər çəkənlər yerləşdirilmişdi. Qaçqınlarla bağlı həm dövlət və hökumət orqanları tərəfindən, həm də ictimai təşkilatlar tərəfindən tədbirlər təşkil olunurdu. Tədbirlər yalnız Yelizavetpol quberniyası ərazisindəki qaçqınlar üçün deyil, eyni zamanda Qars vilayətindəki qaçqın və müharibədən zərər çəkənlər üçün nəzərdə tutulurdu.



***Xəlil bəy Xasməmmədov (1875–1947) –*** *Moskva Universitetinin hüquq fakültəsini bitirib. I Dünya Müharibəsi dövründə Yelizavetpol şəhər başçısı, türk qaçqınlarına yardım üzrə Yelizavetpol Komitəsinin rəhbərlərindən biri, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədliyyə naziri və daxili işlər naziri vəzifələrində çalışmışdır.*

[1] Kaspi, 1 aprel 1915, № 70.

1915-ci ilin aprel ayında Qafqaz cəbhəsində hərbi əməliyyatların aparıldığı ərazilərdə qaçqın və müharibədən zərər çəkənlərə kömək işinin təşkili məqsədilə Yelizavetpol Şəhər Dumasının zalında Yelizavetpol şəhər başçısı Xəlil bəy Xasməmmədovun rəhbərliyi ilə ümumi iclas keçirilmişdi. [1]

"Baku" qəzetində dərc olunan məlumata görə, həmin iclasda əhali arasında geniş nüfuza malik şəxslər, ictimaiyyətin nümayəndələri iştirak edirdilər. Azərbaycanın görkəmli ziyalılarından olan Xəlil bəy Xasməmmədov müharibə nəticəsində dağıdılmış müsəlman vilayətlərinin ağır vəziyyəti barədə məruzə etmiş və həmin ərazilərə təcili kömək lazım olduğunu bildirmişdi. [2]

Yelizavetpol Şəhər Dumasının zalında keçirilən iclasda qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili ilə əlaqədar Azərbaycanın görkəmli ziyalılarından ibarət Yelizavetpol Komitəsi təşkil edilmiş, Komitəyə aşağıdakı tərkibdə üzvlər seçilmişdi: Əli Əkbər bəy Rəfibəyov (sədr), İsmayıl Xan Ziyadxanov, Əli Əkbər bəy Xasməmmədov, Aslan bəy Səfikürdski, Hacı Mir Qasım Qəmzəyev, Hacı İsa bəy Şeyxzamanov, Mirzə bəy Qazıyev, Mir Cəlil Məmmədov və Hacı Həsən Rəfiyev.[3] Yelizavetpol Komitəsinin əsas məqsədi qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili idi. Həmin ərazidə eyni istiqamətdə digər ictimai birlik – "Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti" fəaliyyət göstərirdi.

1915-ci ilin aprelində Əli Əkbər bəy Rəfibəyovun rəhbərliyi ilə qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Yelizavetpol Komitəsinin və "Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti"nin birgə iclası

[1] Baku, 7 fevral 1915, № 29.

[2] Baku, 7 fevral 1915, № 29.

[3] Baku, 7 fevral 1915, № 29.

keçirildi. Komitənin sədri Əli Əkbər bəy Rəfibəyov, "Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti" və Yelizavetpol Komitəsi kassalarının birləşdirilməsi təklifi ilə çıxış etdi. [1] Bu birləşmə həm maddi baxımdan, həm də daha geniş miqyasda tədbirlərin həyata keçirilməsi üçün olduqca əhəmiyyətli idi.

"Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti" Komitəyə birləşdiyi zaman cəmiyyətin büdcəsində 6.400 rubl pul vəsaiti var idi. [2] Birgə keçirilən iclasda qərara alınmışdı ki, kassalar birləşdirilməsi üçün Yelizavetpol qubernatorundan icazə alınsın. [3] Bir neçə gün sonra qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Yelizavetpol Komitəsinin iclasında Əli Əkbər bəy Rəfibəyov rəsmi icazə barədə məlumat verdi və beləliklə, Yelizavetpol Komitəsi ilə "Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti"nin kassasının birləşdirildiyini elan etdi.[4]

1915-1916-cı illərə olan məlumata görə, "Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti" idarə heyətinin 65 nəfər üzvü var idi. Digər vəsaitlər kimi üzvlərdən daxil olan üzvlük haqları təşkilati məsələlərə, həmçinin qaçqın və müharibədən zərər çəkənlərin istifadəsinə sərf olunurdu.



---

[1] Kaspi, 17 aprel 1915, № 84.

[2] Kaspi, 17 aprel 1915, № 84.

[3] Kaspi, 17 aprel 1915, № 84.

[4] Baku, 21 aprel 1915, № 87.

## “Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti” üzvlərinin siyahisi və daxil olan üzvlük haqları (1916-cı il)[1]

*Cədvəl 13*

| | Adı, soyadı | Üzvlük haqqı |
|---|---|---|
| Ömürlük fəxri üzvlər | | |
| 1 | Hacı Məmməd Hüseyn Rəfiyev | 200 rubl |
| 2 | Hacı Əli Hüseynov | 200 rubl |
| 3 | Hacı Ələkbər Hacıyev | 200 rubl |
| 4 | Hacı İmamqulu Ağayev | 200 rubl |
| Fəxri üzvlər | | |
| 5 | Məşədi Əli Abbasəliyev | 20 rubl |
| 6 | Hacı Əli Hüseynov | 20 rubl |
| 7 | Hacı Hilal İbrahimov | 20 rubl |
| 8 | Mirzə bəy Qazıyev | 20 rubl |
| 9 | Kərbəlayı Hacı Hacı Hüseyn oğlu | 20 rubl |
| 10 | Hidayət Niyazov | 20 rubl |
| 11 | Məşədi Əli Rəfiyev | 20 rubl |
| 12 | Ağa Tağıyev | 20 rubl |
| 13 | İsfəndiyar bəy Şamxorski | 20 rubl |
| Həqiqi üzvlər | | |
| 14 | Mirzə Abbas Abbaszadə | 5 rubl |
| 15 | Abbasqulu Ağa Hüseynov | 5 rubl |
| 16 | Həsən bəy Ağayev | 5 rubl |
| 17 | Həsən bəy Adıgözəlov | 5 rubl |
| 18 | Cahangir bəy Əliyev | 5 rubl |
| 19 | Məmməd Ağa Əliyev | 5 rubl |

[1] ARDTA, fond 421, siyahı 1, iş 17, v. 26, 27.

| | | |
|---|---|---|
| 20 | Mirzə Cəfər Əsgərzadə | 5 rubl |
| 21 | Mirzə Məmməd Axundzadə | 5 rubl |
| 22 | İsax Hüseynov | 5 rubl |
| 23 | Cavad bəy Cuvarlinski | 5 rubl |
| 24 | Müseyb Zazaliyev | 5 rubl |
| 25 | Həmzə bəy Zeynalov | 5 rubl |
| 26 | Məmmədəli Zeynalov | 5 rubl |
| 27 | Adilxan Ziyadxanov | 5 rubl |
| 28 | İsmayılxan Ziyadxanov | 5 rubl |
| 29 | Adil bəy Zülqədərov | 5 rubl |
| 30 | Abuzər bəy İrzayev | 5 rubl |
| 31 | Axund Musa İsmayılzadə | 5 rubl |
| 32 | Muxtar bəy Qazıyev | 5 rubl |
| 33 | Kərbəlayı Dəmir Kərbəlayı Məmməd oğlu | 5 rubl |
| 34 | Əbdül Həlim Kərimov | 5 rubl |
| 35 | Mehdi Qurbanov | 5 rubl |
| 36 | Məşədi Məmməd Məsumov | 5 rubl |
| 37 | Əliş bəy Məmmədov | 5 rubl |
| 38 | Məşədi Musa Kərbəlayı Allahyar oğlu | 5 rubl |
| 39 | Mir Yusif Mircəfərov | 5 rubl |
| 40 | İlyas Mollayev | 5 rubl |
| 41 | Mehralı bəy Muradov | 5 rubl |
| 42 | Yəhya Nəbiyev | 5 rubl |
| 43 | Məşədi Süleyman Nağıyev | 5 rubl |
| 44 | Axund Hüseyn Pişnamazzadə | 5 rubl |
| 45 | Mirzə Yusif Rəhimzadə | 5 rubl |
| 46 | Əli Əkbər bəy Rəfibəyov | 5 rubl |
| 47 | Bağır bəy Rəfibəyov | 5 rubl |
| 48 | Məşədi Əsgər bəy Rəfibəyov | 5 rubl |

| | | |
|---|---|---|
| 49 | Xudadat bəy Rəfibəyov | 5 rubl |
| 50 | Abbas Rəfiyev | 5 rubl |
| 51 | Mürsəl Rüstəmov | 5 rubl |
| 52 | Ağalar bəy Səfikürdski | 5 rubl |
| 53 | Aslan bəy Səfikürdski | 5 rubl |
| 54 | Məşədi Abdulla Bəy Sultanov | 5 rubl |
| 55 | Sultan bəy Sultanov | 5 rubl |
| 56 | Məşədi İsmayıl Tağıyev | 5 rubl |
| 57 | İsmayıl Ümidov | 5 rubl |
| 58 | Abbas bəy Usubbəyov | 5 rubl |
| 59 | Həsən Fəttahov | 5 rubl |
| 60 | Ələkbər bəy Xasməmmədov | 5 rubl |
| 61 | Həmid Xasməmmədov | 5 rubl |
| 62 | Xəlil bəy Xasməmmədov | 5 rubl |
| 63 | Hüseynquluxan Xoyski | 5 rubl |
| 64 | Mürsəl bəy Şahmalıyev | 5 rubl |
| 65 | Məmmədbağır bəy Şıxzamanov | 5 rubl |
| | | CƏMİ : 1240 rubl |



Qaçqın və müharibədən zərər çəkənlərə kömək üzrə Yelizavetpol Komitəsi yardım işinin təşkili ilə yanaşı, türk qaçqınların yerləşdirilməsi işinin təşkilini də həyata keçirirdi.

1915-ci ilin dekabrında Yelizavetpola gətirilən türk qaçqınlarının komitə tərəfindən yerləşdirilməsi ilə bağlı, "Kaspi" qəzeti səhifələrində dərc olunan məlumatda bildirilirdi ki, "...şəhərdə müvafiq yer olmadığına görə qaçqınlar müxtəlif yerlərdə yerləşdirilmişdir".[1] Yelizavetpol Komitəsinin iclasında

[1] Kaspi, 20 dekabr 1915, № 285.



СПИСОКЪ
селеній Елисаветпольскаго уѣзда, въ коихъ размѣщены турецкіе бѣженцы.

| Названіе селеній | | | Названіе селеній | |
|---|---|---|---|---|
| 1 | Казахлы | 220 | 22 | Еленендорфъ | 665 |
| 2 | Кедабекъ | 510 | 23 | Ковалевка | 337 |
| 3 | Бадакендъ | 157 | 24 | Чайкендъ | 235 |
| 4 | Чардахлы | 347 | 25 | Азатъ | 44 |
| 5 | Варумъ | 173 | 26 | Аблахъ | 48 |
| 6 | Бърсумъ | 329 | 27 | Бахшикъ | 36 |
| 7 | Джагиръ | 227 | 28 | Эркечъ | 233 |
| 8 | Нузгеръ | 220 | 29 | Ман[illegible]шидъ | 172 |
| 9 | Загликъ | 185 | 30 | Карабулахъ | 88 |
| 10 | Кущи | 94 | 31 | Кущи армавиръ | 94 |
| 11 | В.Дашкесанъ | 85 | 32 | Бузлухъ | 75 |
| 12 | Н.Дашкесанъ | 45 | 33 | Н.Агджакендъ | 220 |
| 13 | Сеидкендъ | 75 | 34 | В.Агджакендъ | 245 |
| 14 | Анненфельдъ | 200 | 35 | Карачинаръ | 286 |
| 15 | Георгіевскъ | 237 | 36 | Борисы арм. | 84 |
| 16 | Баянъ | 282 | 37 | Хархапутъ | 72 |
| 17 | Човдаръ | 100 | 38 | Гюлюстанъ | 135 |
| 18 | Мирзикъ | 118 | 39 | Гахтугъ | 53 |
| 19 | Зурнабадъ | 145 | 40 | Енгикендъ | 105 |
| 20 | Мурутъ | 94 | 41 | Хартугъ | 44 |
| 21 | Ча[illegible]кешимъ | 80 | 42 | Дѣтей въ пріютѣ | 98 |
| | | | | Итого | 7382 |

И.д. Уѣзднаго начальника [signature]

*Yelizavetpol qəzası üzrə türk qaçqınlarının siyahısı: arxiv sənədi nümunəsi*

qaçqınların yerləşdirilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi müzakirə olunmuşdu.[1]

***Yardım vaqonlarının təşkili***

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Yelizavetpol Komitəsinin fəaliyyəti "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti üzvləri ilə birgə həyata keçirilirdi. 1915-ci ildə cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölməsi"nin nümayəndələri Yelizavetpol Komitəsinə daxil olan yardımların Qars vilayətinə göndərilməsi işini təşkil etmək məqsədilə Yelizavetpolda olmuşdular. Bölmə nümayəndələri Yelizavetpol Komitəsi üzvlərinin təşkilatçılığı ilə Qars vilayətinə göndərilmək üçün nəzərdə tutulan ərzaq və geyim əşyalarının daşınması üçün furqonlar almışdılar. Məlumatlardan aydın olur ki, Yelizavetpoldan Qars vilayətinə göndərilən bu furqonlar Ağstafa yolu ilə aparılmışdır.[2]



Qars vilayətinə yardımların daşınması üçün vaqonların, furqonların alınması böyük məbləğdə vəsait tələb edirdi. Buna görə də cəmiyyət əksər hallarda furqonların icarəyə götürülməsini daha məqsədəuyğun hesab edirdi. 1915-ci ilin aprelində 4 furqonun hər biri 300 rubldan icarəyə götürülmüşdü. Bu furqonlardan birinin Yevlaxda müxtəlif ərzaq və geyim əşyaları ilə təchiz olunması və "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən Qars vilayətinə göndərilməsi nəzərdə tutulurdu.[3]

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisi üçün toplanan yardım Yelizavetpol quberniyasının müxtəlif bölgələrindən daxil olurdu. 1915-ci il aprelin 16-da Nuxa camaatı tərəfindən ərzaq və geyim əşyaları ilə

[1] Kaspi, 20 dekabr 1915, № 285.

[2] Kaspi, 5 aprel 1915, № 74.

[3] Kaspi, 17 aprel 1915, № 84.

təchiz olunmuş 4 furqon Qarsa göndərilmüş və 10 gün müddətinə Qars Komitəsinə təhvil verilmişdi.[1] Bütün furqonlar Yelizavetpol Komitəsi tərəfindən icarəyə götürülmüşdü.

Yelizavetpol Komitəsi tərəfindən Qars vilayəti üzrə qaçqınların məskunlaşdığı bütün ərazilərə yardımlar göndərilirdi. 1915-ci il mayın 5-də komitə tərəfindən Ərdahan dairəsinə ərzaq və geyim əşyaları ilə təchiz olunmuş 4 furqon göndərilmişdi. "Kaspi" qəzetinin yazdığı məlumata görə, göndərilən bu furqonlar Nuxa və Qazax müsəlmanları tətəfindən daxil olan yardımlar idi". [2]

Yelizavetpol Komitəsi tərəfindən Qars vilayətində qaçqın və müharibədən zərər çəkənlərə yardım işinin təşkili yerli əhali ilə yanaşı, bu ərazidə yaşayan digər millətdən olan nümayəndələrin birgə təşəbbüskarlığı ilə həyata keçirilirdi. 1915-ci ilin mayında azərbaycanlı və gürcü nümayəndələr Yelizavetpol şəhər klubu zalında Qars və Batumda qaçqın və zərər çəkən müsəlmanlar üçün ianə yığılması məqsədilə "Beynəlmiləl axşam" təşkil etmişdilər. Tədbirdən daxil olan 2.300 rubl Yelizavetpol Komitəsinə təqdim edilmişdi.[3]

***Qardaş köməyi. Mədəni tədbirlərin həyata keçirilməsi***

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Yelizavetpol Komitəsi tərəfindən həyata keçirilən tədbirlər arasında "Qardaş köməyi" layihəsi xüsusi əhəmiyyət kəsb edirdi. Bu layihə ilk dəfə 1915-ci ilin may ayında Bakı şəhərində "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" və "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin birgə təşkilatçılığı ilə həyata keçirilmişdi. "Qardaş köməyi" layihəsi sonralar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin

[1] Kaspi, 25 aprel 1915, № 91.

[2] Kaspi, 25 iyun 1915, № 105.

[3] Baku, 5 iyun 1915, № 123.

bütün yerli komitələri, o cümlədən Yelizavetpol Komitəsi tərəfindən də həyata keçirilirdi.

1915-ci il iyunun 1-də Yelizavetpol Komitəsinin keçirdiyi iclasda Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək məqsədilə "Qardaş köməyi" gününün təşkil olunması qərara alındı. Bu məqsədlə Tiflisdən üzərində "Qardaş köməyi" yazılmış 40.000 bayraq gətirilmişdi. "Kaspi" qəzeti səhifələrində "Qardaş köməyi" layihəsinin təşkilində iştirak etmək üçün əhalinin bütün təbəqələrindən olan şəxslərin qəbulu barədə elan dərc olunmuşdu.[1]

1916-cı ilin may ayının 26-da Yelizavetpolda "Qardaş köməyi" layihəsi yenidən təşkil olundu. Tədbirin təşkilatçıları arasında Səməd Əbilov, İlyas Mollayev, Nağı Nağıyevin adları xüsusi qeyd olunurdu. "Qardaş köməyi" layihəsindən Yelizavetpol Komitəsinə 3.337 rubl vəsait daxil olmuşdu.[2]



Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım etmək məqsədilə müxtəlif bayram tədbirləri də təşkil olunurdu. Bakı şəhəri üzrə həyata keçirilən bütün layihələr komitələr tərəfindən müvafiq qaydada ərazilərdə də keçirilirdi. Belə layihələrdən biri "Qurban bayramı" günündə kəsilən qoyun dərilərinin yığılaraq satışının təşkili idi. İlk baxışda bu layihə olduqca sadə görünə bilər. Lakin nəzərə alsaq ki, həmin dövrdə iqtisadi böhran, ərzaq qıtlığı, sənaye məhsullarına olan tələbatın çoxluğu və s. bu kimi tədbirlərin, o cümlədən qoyun dərilərinin yığılaraq satışını da labüd edirdi.

Yelizavetpol Komitəsi tərəfindən "Qurban bayramı" günü münasibətilə 1915-ci ilin oktyabrında həyata keçirilən layihə

---

[1] Kaspi, 28 may 1915, № 116.

[2] ARDTA, Fond 421, siyahı 1, iş 14, v. 5.

çərçivəsində qoyun dərilərinin satılmasından 1.700 rubl vəsait daxil olmuşdu.[1]

1916-cı ildə Yelizavetpol Komitəsinin təşkilatçılığı ilə "Qurban bayramı" günündə bu layihə yenidən təşkil olundu. Qoyun dərilərinin ayrı-ayrı ərazilərdən yığılması işinə komitənin üzvləri rəhbərlik edirdilər. Qəzanın Borsunlu kəndindən Məşədi Əli Rəfiyevin rəhbərliyi ilə 72 qoyun dərisi yığılmışdı. Şəhərin bir çox yerlərindən qoyun dəriləri yığılaraq cəmiyyətə göndərilmişdi. [2]

**"Qurban bayramı" günü münasibətilə kəsilən qoyun dərilərinin yığılması tədbirində iştirak edən şəhər üzrə ərazilərin siyahısı:**

***Cədvəl 14***

| Sıra sayı | Şəhər üzrə ərazilərin adları | Qoyun dərilərinin sayı |
|---|---|---|
| 1 | Ovzan küçəsi | 176 ədəd |
| 2 | Attarlər küçəsi | 166 ədəd |
| 3 | İmamlı küçəsi | 155 ədəd |
| 4 | Touxcı küçəsi | 137 ədəd |
| 5 | Krıxlı küçəsi | 118 ədəd |
| 6 | Zərrabı küçəsi | 116 ədəd |
| 7 | Soflı küçəsi | 116 ədəd |
| 8 | Səfərabad küçəsi | 113 ədəd |
| 9 | Sahsevən küçəsi | 112 ədəd |
| 10 | Qazaxlar küçəsi | 100 ədəd |
| 11 | Noraşen və Şərəfxanlı | 90 ədəd |
| 12 | Molla Callı küçəsi | 77 ədəd |
| 13 | Balabəhmən küçəsi | 73 ədəd |
| 14 | Kizil Hacılı küçəsi | 64 ədəd |

| | | |
|---|---|---|
| 15 | Dörd el küçəsi | 59 ədəd |
| 16 | Hacı Məlikli | 35 ədəd |
| 17 | Əzimbəyli küçəsi | 34 ədəd |
| 18 | Borsunlu kəndi | 72 ədəd |

Ümumilikdə, "Qurban bayramı" günü münasibətilə keçirilən rautlarda 1.813 ədəd qoyun dərisi yığılmışdı ki, bu da komitəyə 2.365 rubl məbləğində gəlir gətirmişdi.[1] Daxil olan bütün vəsait qaçqın və müharibədə zərər çəkən türk-müsəlman əhalisinin istifadəsinə yönəldilmişdi.

### *Kooperativlərin təşkili*

Birinci Dünya müharibəsi illərində Rusiyanın bütün ərazisini bürümüş iqtisadi böhran, ərzaq və sənaye məhsullarının bahalaşması hər yerdə olduğu kimi, Şimali Azərbaycan ərazisində, o cümlədən Yelizavetpol quberniyasında da öz təsirini gösrərirdi. Bu isə əhali arasında narahatlığı gündən-günə artırırdı. Şəhərdə bahalaşma ilə əlaqədar olaraq, 1915-ci ilin aprelində Yelizavetpol Komitəsinin təşəbbüsü ilə Cümə məscidində iclas keçirildi. İclasın keçirilməsində əsas məqsəd təkcə türk qaçqınlarına deyil, eyni zamanda yerli imkansız əhaliyə də kömək etmək yollarının müəyyən olunması idi. İclasda mövcud vəziyyətlə əlaqədar, iqtisadi durumun nisbətən yüngülləşdirilməsi məqsədilə kooperativlərin təşkil olunması barədə qərar qəbul olundu. Həmin iclasda iştirak edən Məşədi Əli Rəfiyev, sonradan geri qaytarmaq şərti ilə, kooperativlərin təşkilinə faizsiz olaraq 30.000 rubl yardım etmişdi. [2] Digər şəxslər tərəfindən də ianələr olunmuşdu. Beləliklə, 60.000 rubl yığılmışdı. Bütün

[1] ARDTA, Fond 421, siyahı 1, iş 17, v. 30.

[2] Kaspi, 15 dekabr 1915, № 280.

bu vəsait Yelizavetpolda kooperativlərin təşkilinə yönəldilirdi.[1] Bu ənənə forması almış, sonrakı illərdə də davam etdirilirdi. Bütün bu tədbirlərlə yanaşı dövlət xəzinəsindən yardım ayrılması olduqca vacib şərt idi. Bununla bağlı Yelizavetpol Kömitəsi, eyni zamanda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən dövlət və hökumət orqanlarına müraciətlər olunurdu. Qaçqınlara yardım işinin təşkili ali kürsülərdə müzakirə edilirdi.

İqtisadi böhranın getdikcə dərinləşdiyi bir dövrdə ərzaq anbarlarının, ərzaq dükanlarının açılması bu sahədə ehtiyacların ödənilməsi baxımından əhəmiyyətli idi.

1916-ci ildə qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə ərzaq dükanının açılması üçün Yelizavetpolun imkanlı şəxsləri Yelizavetpol Komitəsinin büdcəsinə faizsiz pul daxil etmişdilər. Arxiv sənədlərində aşağıda adları qeyd olunan şəxslərin hər birinin faizsiz pul ödədiyi qeyd edilir.



**Ərzaq dükanının açılması üçün faizsiz yardım edən şəxslərin siyahısı:[2]**

*Cədvəl 14*

| Sıra sayı | Adı və soyadı | Məbləğ |
|---|---|---|
| 1 | Hacı İmamqulu Ağayev | 1.000 rubl |
| 2 | Hacı Məmmədəli Ələkbərov | 1.000 rubl |
| 3 | Məmmədəli Əliyev | 1.000 rubl |
| 4 | Zaman və Yaqub Allahverdiyev qardaşları | 1.000 rubl |
| 5 | Hüseynqulu və Məmmədtağı Atakişiyev qardaşları | 1.000 rubl |
| 6 | Hacı Zeynalabdin Verdiyev | 1.000 rubl |

[1] Kaspi, 15 dekabr 1915, № 280.
[2] F.421, op.1, iş 17.

| | | |
|---|---|---|
| 7 | Hacı Əli Həsənov | 1.000 rubl |
| 8 | Hacı Murad Hacı Əsgər oğlu | 1.000 rubl |
| 9 | Hacı Paşa İbrahimov | 1.000 rubl |
| 10 | Mikayıl Hacıyev | 1.000 rubl |
| 11 | Hacı Mirtağı və Hacı Mirxəlil Həmzəyev qardaşları | 1.000 rubl |
| 12 | Hacı Salman Həsənov | 1.000 rubl |
| 13 | Hacı Əli Hüseynov | 1.000 rubl |
| 14 | Hacı Salman İbrahimov | 1.000 rubl |
| 15 | Mirzə bəy Qazıyev | 1.000 rubl |
| 16 | Kərbəlayı Qəmzə Hacı Hüseyn oğlu | 1.000 rubl |
| 17 | Mircəlil Məhəmmədov | 1.000 rubl |
| 18 | Məmmədəli Mollayev | 1.000 rubl |
| 19 | Ağa Məmməd Mustafayev | 1.000 rubl |
| 20 | Hacı Məmmədhüseyn Rəfiyev | 1.000 rubl |
| 21 | Hacı Həsən Rəfiyev | 1.000 rubl |
| 22 | Hacı Əli Səidov | 1.000 rubl |
| 23 | Məşədi İsmayıl Tağıyev | 1.000 rubl |
| 24 | Məşədi İrza və Mirzə Tağıyev qardaşları | 1.000 rubl |
| 25 | "A.A.və Y.Tağıyev qardaşları" ticarət evi | 1.000 rubl |
| 26 | Hacı İsa bəy Şıxzamanov | 1.000 rubl |



Beləliklə, ərzaq dükanının açılması üçün komitəyə cəmi 26.000 rubl pul daxil edilmişdi.[1]

Ərzaq dükanı Yelizavetpolun imkansız ailələrinin və burada məskunlaşan türk qaçqınların ehtiyaclarının ödənilməsi məqsədilə açılmışdı. 1916-cı ildə "Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin qərarı ilə Ərzaq Bölməsi təşkil olunmuşdu. Həsən Fəttahov, Hacı Əli Hüseynov, Hacı Hilal İbrahimov ərzaq bölməsinin üzvləri idilər. Ərzaq dükanına Məşədi Qasım Mehdiyev rəhbərlik

[1] ARDTA, Fond 421, siyahı 1, iş 17, v. 30 (arx.).

edirdi. Ərzaq bölməsinin mühasibi isə Qulam Mirzəyev təyin olunmuşdu. [1]

Yelizavetpolda türk qaçqınlarına kömək məqsədilə, Qaçqınların Yerləşdirilməsi üzrə baş müvəkkillik tərəfindən də Yelizavetpol Komitəsinə yardım olunurdu. Komitənin cəmiyyətin baş müvəkkilinə yazdığı 15 dekabr 1917-ci il tarixli məktubunda həmin ilin 4-cü rübü üçün qaçqınlara 3.582 rubl, həmçinin onların yerləşdiyi himayə ev üçün oktyabrın 1-dən hər ay 95 rubl göndərilməsi xahiş olunurdu. Qeyd olunanlardan əlavə komitə bildirirdi ki, Yelizavetpol şəhərində manufaktura olmadığına görə qaçqınlar üçün hazır geyimlər göndərilməlidir.[2]

Lakin daxil olan bu yardımlarla ehtiyacların tam olaraq ödənilməsi, bir çox hallarda mümkün olmurdu. İqtisadi böhran yerli əhali ilə yanaşı, türk qaçqınlarının da ağır olan vəziyyətini bir qədər də ağırlaşdırırdı.

1918-ci ildə, yeni müstəqillik əldə etmiş Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə də yerli əhali ilə bərabər, türk qaçqınlarının vəziyyəti qənaətbəxş deyildi. 1919-cu il mart ayının 4-də Gəncə dairə müfəttişinin Azərbaycan Hökuməti Ərzaq Nazirliyi müvəkkilinə yazdığı 317 saylı məktubunda bildirilirdi ki, Gəncə dairəsində türk qaçqınlarının vəziyyəti araşdırılarkən, nazirliyin nümayəndəsi Gədəbəy rayonunda baxış keçirmişdir. Aydın olmuşdur ki, "...burada qaçqınlar himayəyə alınmışlar. Qaçqınların dözülməz vəziyyəti ürəkağrıdıcı mənzərə yaradır. Onların böyük bir hissəsi Gədəbəy rayonunun kəndlərində çox sıx yerləşmişlər. Onlar arasında xəstəliklərin yaranması və bütün rayon ərazisinə

[1] ARDTA, Fond 421, siyahı 1, iş 17, v. 30 (arx.).

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 122, 122 (arx.).

yayılması təhlükəsi var. Təcili olaraq Gəncə və Qazax qəzalarında yerləşən 10.000 qaçqına kömək göndərin".[1]

Yuxarıda əks olunan müraciət digər rəsmi məktublarda da əksini tapmışdır. 1919-cu il mart ayının 19-da Azərbaycan Hökuməti Ərzaq Nazirliyi Yelizavetpol quberniyası üzrə müvəkkilinin "Gəncə Müsəlman Xeyriyyə Cəmiyyəti"nə yazdığı 1058 saylı məktubda bildirilirdi ki, Gəncə qəzası dairə müfəttişinin verdiyi məlumatda qeyd olunur ki, Gəncə və Qazax qəzalarında 10.000-ə (on min) yaxın türk qaçqını məskunlaşmışdır. Məktubda həmçinin türk qaçqınlarına geyim əşyalarının göndərilməsi xahiş olunurdu.[2]

**Şamaxı Komitəsi**



1915-ci ildə qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək üzrə Şamaxı Komitəsi fəaliyyət göstərirdi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən təşkil olunan komitənin tərkibinə "Nicat" Bakı Müsəlman Maarif Cəmiyyətinin Şamaxı şöbəsinin bütün üzvləri daxil idilər. Bu sahədə bütün tədbirlər, o cümlədən yardım işinin təşkili "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" və "Nicat" Bakı Müsəlman Maarif Cəmiyyətinin birgə səyi ilə həyata keçirilirdi.[3]

Şamaxı Komitəsinə yerli əhali arasında böyük nüfuzu olan Hacı Əli Mirzə Hüseyn oğlu Əliyev rəhbərlik edirdi.[4] Komitənin üzvləri arasında quberniya qazısı Mustafa Əfəndinin olması bu sahədə aparılan işlərin daha da

[1] ARDTA, Fond 421, siyahı.1, iş 28, v. 317, 318.

[2] ARDTA, Fond 421, siyahı 1, iş. 28, v. 315-316.

[3] Kaspi, 1 mart 1915, № 48; Kaspi, 18 mart 1915, № 62.

[4] Baku, 8 dekabr 1915, № 274.

mütəşəkkil həyata keçirilməsinə öz müsbət təsirini göstərirdi.[1]

1915-ci ilin martında Şamaxı Komitəsi tərkibində olan müəssisələrin, o cümlədən uşaq evinin saxlanması, Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili məqsədilə yardımların qəbul olunması üzrə xüsusi komissiya təşkil edilmişdi. Komissiyaya yerli əhali tərəfindən geyim əşyaları ilə yanaşı, müxtəlif məbləğlərdə pul vəsaiti daxil olurdu. Daxil olan yardımların bir hissəsi Şamaxı uşaq evinin saxlanmasına, qalan hissəsi isə Bakiya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölməsi"nə göndərilir, buradan isə müxtəlif əşyalar alınaraq nəqliyyat vasitələri ilə Qarsa yola salınırdı.[2] 1915-ci ilin aprelində Şamaxı Komitəsi tərəfindən Bakıya ayrı-ayrılıqda 2.300 rubl, daha sonra isə 1.200 rubl pul vəsaiti göndərilmişdi.[3]

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Şamaxı Komitəsi tərəfindən bayram günlərində rautlar təşkil edilir, müxtəlif mədəni tədbirlər həyata keçirilirdi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Qurban bayramı" günündə kəsilən qoyun dərilərinin yığımının təşkili layihəsi digər komitələr kimi, Şamaxı Komitəsi tərəfindən də həyata keçirilirdi. Bu barədə "Kaspi" qəzeti səhifələrində yazılırdı: "Şamaxıda ...müsəlmanlar həvəslə qoyun dəriləri gətirirdilər. Bütün dərilər satılacaq və əldə olunan pul Qars vilayətinə göndmək üçün "Bakı .Müsəlman

[1] Kaspi, 14 mart 1915, № 59.

[2] Kaspi, 14 mart 1915, № 59.

[3] Kaspi, 1 mart 1915, № 48; Kaspi, 18 mart 1915, № 62; Kaspi, 11 aprel 1915, № 79.

Xeyriyyə Cəmiyyəti"nə veriləcək".[1] "Qurban bayramı" münasibətilə təşkil olunan bu layihə sonrakı illərdə də ənənə halını almışdı.

### Şamaxı uşaq evi

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Şamaxı Komitəsi bu əraziyə gətirilən türk qaçqınlarına, o cümlədən döyüş bölgələrində öz valideynlərini itirmiş kimsəsiz uşaqlara xüsusi qayğı göstərirdi. Uşaqlar təkcə ərzaq və geyim əşyaları ilə təmin olunmurdular. Bütün yerli komitələr kimi, Şamaxı Komitəsi də bu uşaqlara valideynlik borcunu öz üzərinə götürmüşdü. Komitə uşaqların düzgün tərbiyə olunanları, onlara təhsil verilməsi, əmək qabliyyətlərinin inkişafı qayğısına qalırdı. Bütün lazımi tədbirlərin həyata keçirilməsi üçün 1915-ci ildə Şamaxıda türk qaçqın uşaqları üçün uşaq evi açılmışdı. Şamaxı uşaq evi komitəyə daxil olan könüllü yardımlar hesabına saxlanılırdı. Uşaq evi 10 uşağın saxlanılması üçün nəzərdə tutulurdu.[2]



### Ağdaş Komitəsi

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Ağdaş Komitəsi tərəfindən qaçqın və müharibədən zərər çəkən türk-müsəlmanların az bir qismi Ağdaşda yerləşdirilmişdi. Komitə Ağdaş ərazisində olan türk qaçqınlarına, həmçinin Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəl-

[1] Kaspi, 17 oktyabr 1915, № 231.

[2] Baku, 24 iyul 1915, № 164.

man əhalisinə kömək məqsədilə yardım yığımı işini həyata keçirirdi. Bu işin təşkilində Ağdaş Komitəsi üzvləri ilə yanaşı, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkənlərə kömək üzrə bölməsi"nin nümayəndələri də iştirak edirdilər. [1]

1915-ci ilin noyabr-dekabr aylarında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkənlərə kömək üzrə bölməsi"nin nümayəndəsi Ağdaşda olmuşdu. Məlumatlarda adı çəkilməyən nümayəndənin rəhbərliyi ilə Qars vilayətinə göndərmək üçün 1.000 ədəddən çox kürk yığımı təşkil olunmuşdu. [2]

Ağdaş Komitəsi tərəfindən yığılan yardımların bir çox hallarda nəqliyyat olmadığına görə Qars vilayətinə çatdırılmasında çətinliklər yaranırdı. "Kaspi" qəzetinin 1915-ci ilin noyabr və dekabr saylarında Ağdaşdan verilən məlumatlarda bildirilirdi ki, "...vaqonlar olmadığından dəmiryol rəhbərliyi yükü qəbul etmir. Buna görə də komitə (Ağdaş Komitəsi-N.M.) Yelizavetpol Quberniya Komitəsinə müraciət edərək, tezliklə bu yığılan əşyaların Qarsa və Batuma çatdırılmasında kömək göstərmələrini xahiş etmişdi".[3]

1915-ci ildə Azərbaycanın görkəmli ziyalılarının və sahibkarlarının birgə təşəbbüsü ilə həyata keçirilən "Qardaş köməyi" layihəsi bütün yerli komitələr tərəfindən, o cümlədən Ağdaş Komitəsi tərəfindən də təşkil olunmuşdu.



---

[1] Kaspi, 28 noyabr 1915, № 266; 4 dekabr 1915, № 271; 13 dekabr 1915, № 279.

[2] Kaspi, 28 noyabr 1915, № 266; 4 dekabr 1915, № 271; 13 dekabr 1915, № 279.

[3] Kaspi, 28 noyabr 1915, № 266; 4 dekabr 1915, № 271; 13 dekabr 1915, № 279.

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Ağdaş Komitəsi tərəfindən 1915-ci ilin iyun ayında keçirilən "Qardaş köməyi günü"ndə "Qardaş köməyi" nişanları satılmış və ianə toplanmışdı. Komitəyə daxil olan pul vəsaiti və geyim əşyaları yığılaraq Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə göndərilmişdi.[1] Bundan əlavə, ianə olaraq daxil olan 1.844 rubl Yelizavetpol qubernatoru vasitəsilə Qars vilayətinə çatdırılmışdı. [2]

**Salyan Komitəsi**



Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Salyan Komitəsi 1915-ci ildən fəaliyyət göstərirdi. Komitəyə yerli əhali arasında böyük nüfuz sahibi olan Nəcəf Əli Yusifov rəhbərlik edirdi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin digər yerli komitələrində olduğu kimi, Salyan Komitəsində də yardım yığımı cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara kömək bölməsi" tərəfindən verilən qəbz kitabçası ilə aparılırdı.[3]

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək etmək üçün yerli əhali tərəfindən müxtəlif yardımlar olunurdu. Komitənin fəaliyyətə başladığı ilk günlərdə yerli əhali tərəfindən müxtəlif geyim əşyaları və pul vəsaiti daxil olmuşdu. 1915-ci ilin martında Salyan Komitəsi, yerli əhali tərəfindən daxil olan

[1] Kaspi, 17 iyun 1915, № 133.

[2] Kaspi, 17 iyun 1915, № 133.

[3] Kaspi, 7 mart 1915, № 53.

700 rubl vəsaiti "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölməsi"nə göndərmişdi.[1]

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Salyan Komitəsi digər yerli komitələr kimi "Qardaş köməyi" layihəsini həyata keçirirdi. Bu məqsədlə, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti tərəfindən komitəyə satış üçün üzərində "Qardaş köməyi" sözləri yazılmış 300 ədəd nişan göndərilmişdi.[2]

### Quba Komitəsi



Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Quba Komitəsi 1915-ci ildən fəaliyyət göstərirdi. Quba Komitəsinin yerli əhali arasında böyük nüfuzu olan, tanınmış 7 nəfər üzvü vardır. Təəssüf ki, bu şəxslərdən bizə yalnız bir nəfərin – komitənin sədri Hacı Molla Abdul Əli Nəcəfovun adı məlumdur.[3]

Quba Komitəsinin fəaliyyətə başladığı cəmi bir neçə gün ərzində Qars vilayətində müharibədən zərər çəkən və qaçqın türk-müsəlman əhalisinə yardım məqsədilə yerli əhali tərəfindən müxtəlif geyim əşyaları və pul vəsaiti toplanmışdı. Daxil olan geyim əşyaları və 800 rubl vəsait Qars vilayətinə göndərilməsi üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara kömək bölməsi"nə çatdırılmışdır.[4]

---

[1] Kaspi, 20 mart 1915, № 64.

[2] Kaspi, 6 may 1915, № 99.

[3] Baku, 5 mart 1915, № 51.

[4] Kaspi, 7 mart, 1915, №53; 8 mart 1915, №54; 11 mart 1915, №56.

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisnə yardım işi üzrə Quba Komitəsinin fəaliyyətində gənclər də xüsusi fəallıq göstərirdilər. 1915-ci ilin iyun ayında, Quba gəncləri Nəriman Nərimanovun "Dilin bəlası" adlı pyesini tamaşaya qoymuşdular. Tamaşadan daxil olan vəsait Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk müsəlman əhalisinin istifadəsi üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərilmişdi.[1]

Quba Komitəsinə yardım işinin təşkilində yerli hökumət orqanları da köməklik edirdilər. "Baku" qəzetinin 1915-ci ilin mart saylarının birində Quba Komitəsi yardım yığılması işində onlara kömək etdiyi üçün qəza rəisi podpolkovnik Leontyevə minnətdarlığını bildirmişdi. [2]





**Kərim bəy Mehmandarov –** *Qafqaz cəbhəsində türk-müsəlman qaçqınlarına yardım üzrə Şuşa Komitəsinin sədri*

### Şuşa Komitəsi

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Şuşa Komitəsi 1915-ci ildə fəaliyyətə başlamışdı. Komitənin məqsədi müharbənin ağır, dəhşətli günlərində Qars vilayətində türk-müsəlman əhalisinə yardım işinin təşkili, onlara zəruri köməyin çatdırılması, həmçinin müharibə bölgələrindən Şuşaya göndərilmiş türk qaçqınla-

[1] Kaspi, 20 iyun 1915, № 136.

[2] Baku, 5 mart 1915, № 51.

rının yerləşdirilməsi və onların zəruri ehtiyaclarının təmin olunmasına kömək etmək idi.

Şuşa Komitəsinə dövrünün görkəmli ziyalılarından olan, xalq arasında böyük nüfuz sahibi sayılan, Azərbaycanın görkəmli ziyalısı Kərim bəy Mehmandarov rəhbərlik edirdi. [1]

1915-ci il avqustun 5-də Yelizavetpol Komitəsinin sədri Ələkbər bəy Rəfibəyov Şuşa Komitəsinin sədri Kərim bəy Mehmandarova teleqramla müraciət etmişdi. Teleqramda bildirilirdi ki, Şuşaya Qars vilayətindən 25 nəfər türk qaçqını göndərilmişdir. [2] Bu müraciətdən sonra türk qaçqınlarının yerləşdirilməsi ilə əlaqədar Şuşa Komitəsi üzvlərinin yerli ziyalılarla birgə iclası keçirildi. İclasda qərara alındı ki, Qars vilayətindən göndərilən türk qaçqınlarını Yevlax dayanacağında qarşılamaq və Şuşaya qədər müşayiət etmək üçün 2 nəfər nümayəndə göndərilsin. Həmin iclasda həmçinin qərara alındı ki, komitə üzvlərindən ibarət müvəqqəti komitə yaradılsın. Bu komitə qaçqınların yerləşdirilməsi və bununla bağlı işlərin təşkili ilə məşğul olsun. İclas iştirakçılarından Məşədi Zeynal Muradov bu işin təşkili üçün 100 rubl ianə etmişdi.[3]

Birinci Dünya müharibəsi illərində Azərbaycan ərazisində fəaliyyət göstərən bütün milli-ictimai təşkilatlar öz fəaliyyətlərini qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək işinə yönəltmişdi. Milli-ictimai təşkilatların Şuşa şöbəsi yardım etmək üçün əşya və pul yığımının təşkili məqsədilə bir sıra mədəni tədbirlər, rautlar həyata keçirirdi. 1915-ci ildə təşkil olunan mədəni tədbirlərdə



[1] Kaspi, 15 avqust 1915, № 182.

[2] Kaspi, 15 avqust 1915, № 182.

[3] Kaspi, 15 avqust 1915, № 182.

16.000 rubl ianə toplanmışdı.[1] Bütün yığılan vəsait Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisiinn istifadısinə yönəldilirdi.[2]

Birinci Dünya müharibəsi illərində Azərbaycan milli-ictimai təşkilatlarının Şuşa şöbələri əsas məqsədi imkansız ailələrdən olan kimsəsiz uşaqlara təhsil vermək, onların zəruri ehtiyaclarını ödəmək məqsədilə yaradılmışdı. Buna baxmayaraq, həmin dövrdə şagirdlərin istər həyat tərzində, istər təhsilində çətinliklər olsa da, yığılan vəsaitin hətta az faizi belə onlar üçün ayrılmamış, bütün vəsait Qars vilayətinə göndərilmişdi. Bu məsələ ilə bağlı "Kaspi" qəzeti yazırdı: "...təəssüf ki, bu ianələrə nə ibtidai, nə də orta təhsil müəssisələrinin şagirdləri aid edilməmişdi. Yoxsul Şuşa şagirdləri bu ağır günlərdə kömək üçün heç yerə müraciət edə bilmirdilər".[3] Müharibədə olduqca ağır vəziyyətdə olan insanlara yardım təhsildən önə çıxmışdı. Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım olunması daha vacib sayılırdı.



Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım olunması məqsədilə milli-ictimai təşkilatların Şuşa şöbəsinin keçirdiyi digər mədəni tədbir şöbənin idarə heyəti üzvləri ilə şuşalı tələbələrin birgə təşkil etdikləri iclasda müzakirə olunmuşdu. 1915-ci ilin avqustunda keçirilən həmin iclasda qərara alınmışdı ki, həmin ildən başlayaraq hər il yay aylarında "Tələbə axşamları" təşkil edilsin və bu "axşamlar" ənənəvi hal alsın. Toplanan maddi vəsaitlə Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə və imkansız şuşalı

---

[1] Kaspi, 13 sentyabr 1915, № 204.

[2] Kaspi, 13 sentyabr 1915, № 204.

[3] Kaspi, 13 sentyabr 1915, № 204.

tələbələrə kömək edilsin. Beləliklə, həmin il avqustun 25-də Şuşa gənclərinin iştirakı ilə "Axşam" təşkil olundu. "Axşam"dan gələn gəlirin 25%-i müharibədən zərər çəkən müsəlmanlara, 75%-i imkansız müsəlman tələbələrə ayrılmışdır.[1]

## Lənkəran Komitəsi

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım olunması məqsədilə Azərbaycan ərazisinin bir çox yerlərindən yardım komitələrinin təşkili ilə əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə müraciətlər daxil olurdu. Bu, əhalinin Qars vilayətində müharibədə zərər çəkən və qaçqın türk-müsəlman əhalisinə könüllü yardım etmək istəyindən irəli gəlirdi.



1915-ci ilin martında Lənkəran əhalisi Qars vilayətində qaçqın və müharibədən zərər çəkən müsəlmanlara kömək məqsədilə yardımların yığılması üçün Lənkəran Komitəsinin təşkili ilə əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə müraciət etmişdi.[2] Lakin təəssüf ki, bu komitənin fəaliyyəti barədə hələlik heç bir məlumata rast gəlinmir.

## Göyçay Komitəsi

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Göyçay Komitəsi 1915-ci ildən fəaliyyət göstərirdi. Komitənin fəaliyyətə

[1] Kaspi, 13 sentyabr 1915, № 204.

[2] Kaspi, 11 mart 1915, № 56.

başlaması üçün Bakı qubernatorundan rəsmi icazə alınmışdı.[1] Göyçay Komitəsinə Göyçay qəza qazısı Mahmud Əfəndi Əfəndizadə rəhbərlik edirdi.[2]

## Dərbənd Komitəsi

1915-ci ilin yanvarında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Dərbənd Komitəsi təşkil olunmuşdu. Komitənin açılışı ilə bağlı "Baku" qəzeti səhifələrində qeyd olunurdu ki, açılış günündə, bir neçə saat ərzində 1.000 rubladək yardım və üzvlük haqları yığılımışdır.[3] Daxil olan yardımlar kimsəsiz uşaqlar və qocalar üçün himayə evlərinin, həmçinin məktəbin açılmasına yönəldilmişdir.[4]



1915-ci ildə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Bakı şəhərində təşkil etdiyi "Qardaş köməyi" adlı layihə Dərbənd Komitəsi tərəfindən də həyata keçirilib. Həmin ilin may ayında Dərbənd Komitəsi Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə müraciət edərək bildirmişdi ki, Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üçün nişanların satışının təşkilini planlaşdırırdı. Bu məqsədlə cəmiyyətin idarə heyətindən 15.000 ədəd nişan göndərilməsi xahiş olunurdu.[5] Komitəyə göndərilən 15.000 ədəd nişanın satışı həyata keçirilmiş və daxil olan pul vəsaiti Qars vilayətində

---

[1] Kaspi, 19 aprel 1915, № 86.

[2] Baku, 21 aprel 1915, № 87.

[3] Baku, 15 yanvar 1915, № 11.

[4] Baku, 15 yanvar 1915, № 11.

[5] Kaspi, 19 may 1915, № 108.

qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə Bakıya göndərilmişdi.[1]

Beləliklə, Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində baş verən hərbi əməliyyatlar nəticəsində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə Azərbaycanın bütün ərazilərində yerli komitələr yaradıldı. Bu komitələrin ətrafında bütün xalq səfərbər olunmuşdur. Bu, maddi yardımdan daha çox mənəvi dəstək, heç bir maddiyyatla ölçülməyəcək milli ruh, milli birlik simvolu idi.



[1] Kaspi, 19 may 1915, № 108.

# VIII FƏSİL
# AZƏRBAYCANLI NÜMAYƏNDƏ HEYƏTİNİN QARS VİLAYƏTİNDƏ FƏALİYYƏTİ

## 8.1. Azərbaycanlı nümayəndə heyətinin Qars vilayətinə göndərilməsi

Birinci Dünya müharibəsində hərbi əməliyyatlar nəticəsində Rusiya ərazisini qaçqın dalğası bürümüşdü. Hərbi əməliyyatlar zamanı türk-müsəlman əhalisi ilə yanaşı, aysorlar, yunanlar, yəhudilər və digər xalqların nümayəndələri də bu fəlakətə məruz qalmışdılar.



Qafqaz cəbhəsidə hərbi əməliyyatların aparıldığı ərazilərdə və ona yaxın bölgələrdə əhalinin vəziyyəti ilə tanış olmaq məqsədilə dövlət və hökumət orqanları nümayəndələri, o cümlədən Rusiya Dövlət Dumasının vəkilləri həmin ərazilərə gedir, əhalinin ehtiyacı barədə məlumatlar əldə edərək lazımi tədbirlərin həyata keçirilməsi ilə bağlı rəsmi orqanlar qarşısında hesabat verirdilər.

Hərbi əməliyyatların başlandığı ilk günlərdən etibarən döyüş bölgələrində yaralı və xəstə hərbçilərə, həmçinin mülki şəxslərə yardım etmək məqsədilə səhiyyə dəstələri göndərilirdi. Rusiya Dövlət Duması tərəfindən təşkil olunan üçüncü səhiyyə dəstəsinə azərbaycanlı deputat Məmməd Yusif Cəfərov rəhbərlik edirdi. Üçüncü səhiyyə dəstəsi Ərdahan-Oltu dairəsi istiqamətində fəaliyyət göstərirdi. Bu ərazi hərb meydanı olduğundan, nümayəndə heyətinin orada olduğu vaxt, döyüşdən sonra qalan izlər hələ də yeni idi Məmməd Yusif Cəfərov burada şahidi olduğu mənzərə barədə yazırdı: "..Hər tərəf xarabazara döndərilmiş, bütün mülki mal təxrib edilmişdi. Qışın şiddətli soyuğundan daha da şiddətli bir şəkil almış olan bu

hal içində ac, çılpaq, qorxmuş, köməksiz fəlakətzadələr yaşıyordular.. Dəhşət və fəlakət heç vaxt indiki böyük və aləmşümül müharibələrdə olduğu qədər böyük və geniş olmamışdır”.[1]

Məmməd Yusif Cəfərov Rusiya Dövlət Dumasının səhiyyə dəstəsi tərkibində Qars vilayətində üç ay qalaraq, burada olan qaçqın və müharibədən zərər çəkən əhalinin, o cümlədən türk-müsəlman əhalisinin vəziyyəti, onların zəruri ehtiyacları barədə məlumatlar toplamışdı. Məmməd Yusif Cəfərov qaçqınların vəziyyəti barədə yazırdı: “Taleyin bana müqəddər etməsilə qaçqınlar zühur edən yerlərə düşüb bilaixtiyar onların dəhşətli və fəlakətli hallarını gözümlə görmək məcburiyyətində oldum. Gördüklərimdən hacil etdiyim təəssürat təhəmmül olunmayacaq bir hal idi...Bütün ömrümdə bu ağır və dəhşətli mənzərələr xatirimdən çıxmayacaqdır”. [2]

Rusiya Dövlət Dumasının 3-cü səhiyyə dəstəsinin Qars vilayətində ezamiyyə müddəti 1915-ci ilin yanvarında tamamlanmışdı. Peterburqa dönən Məmməd Yusif Cəfərov Qars vilayətində qaçqınların vəziyyəti barədə Rusiya Dövlət Dumasının iclasında çıxaş edərək məlumat vermişdi. O, həmçinin Qafqaz cəbhəsi müsəlman qaçqınlarının vəziyyəti barədə ali baş komandana müraciət etmış, nazirlərlə görüşmüş, qaçqınlara yardım edilməsi, onların zəruri ehtiyaclarının təmin olunması barədə məsələlər qaldırmışdı.[3]



---

[1] Məmməd Yusif Cəfərov “Müsəlman hərbzadələrinə yardım işi və müsəlman vəkilləri”, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[2] Məmməd Yusif Cəfərov “Müsəlman hərbzadələrinə yardım işi və müsəlman vəkilləri”, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[3] Məmməd Yusif Cəfərov “Müsəlman hərbzadələrinə yardım işi və müsəlman vəkilləri”, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.

Qafqaz cəbhəsində hadisələrin ilk günlərindən müharibənin ağır dəhşətlərinə məruz qalmış, bu dəhşət və fəlakəti öz üzərlərində daşıyaraq qaçqın düşmüş türk- müsəlman əhalisinin vəziyyətinin öyrənilməsi və onlara ilkin yardım göstərilməsi məqsədilə bu ərazilərə Azərbaycandan da nümayəndələr səfərlər edirdilər. Fərq ondan ibarət idi ki, həmin nümayəndələr heç bir xüsusi rəsmi orqan tərəfindən göndərilmirdilər. Milli məfkurə daşıyıcısı olan bu nümayəndələr döyüş bölgələrində müharibədən zərər çəkən və qaçqın türk-müsəlman əhalisinin zəruri ehtiyaclarının təmin olunmasına, onların vəziyyəti barədə məlumatların toplanılmasına və ümumiyyətlə, bu işin tam mütəşəkkil formada təşkilinə nail olmağa çalışırdılar.

Azərbaycan nümayəndə heyətinin Qars vilayətinə göndərilməsi mərkəzi idarəetmə orqanlarının rəsmi icazəsi ilə həyata keçirilirdi. Bununla əlaqədar Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə teleqram göndərmişdi. Həmin teleqramda yazılırdı: "...Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayətinə göndəriləcək nümayəndələrinin soyadları barədə Tiflisə məlumat verin. Həm vilayət, həm də vilayət komitələrinə ezam etməyə razılıq verilsin".[1]



"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayətində komitəsinin təşkil olunması ilə əlaqədar, 1915-ci ilin martında cəmiyyətin idarə heyətinin və "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölməsi"nin iclası keçirildi. İclasda Qars vilayətinə nümayəndələrin göndərilməsi müzakirə olundu. Aparılan müzakirələrdən sonra həkim Xosrov Paşa bəy Sultanov və Yelizavetpoldan Aslan bəy Səfikürdski Qars vilayətinə nümayəndə olaraq ezam olunması

[1] Kaspi, 20 mart 1915, № 64.

qərara alınmışdır. [1] Bu nümayəndələrin əsas vəzifəsi cəmiyyətin müvəkkili olaraq, Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək işini təşkil etməkdən ibarət idi. Ümumi razılaşmaya görə nümayəndələrin yerləşdiyi yer Qars şəhəri idi. Cəmiyyətin nümayəndələri həmçinin qaçqınların yaşadıqları ərazilərə getməli, kömək üçün xüsusi dəstələr təşkil etməli idilər. [2] Öz növbəsində dəstələrin təşkilində əsas məqsəd qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin ümumi vəziyyəti barədə məlumat toplamaq, onların siyahıya alınmasını həyata keçirmək, ərzaq məhsullarının və digər zəruri əşyaların paylanması, həmçinin tibbi yardım göstərilməsindən ibarət idi.[3]




***Türk-müsəlman qaçqınlarına yardım üzrə işçi qruplarından biri***

[1] Kaspi, 17 mart 1915, № 61.

[2] Kaspi, 17 mart 1915, № 61.

[3] Kaspi, 20 mart 1915, № 64.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"n üzvü, Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərovun Qars vilayət qubernatoru polkovnik Podqurski ilə danışıqları zamanı, qubernator cəmiyyətin nümayəndələrinin vilayətdə fəaliyyət göstərməsinə razılığını bildirmişdi.[1]

1915-ci ilin yanvarında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən Qars vilayətinə ilk nümayəndə heyəti göndərildi. Nümayəndə heyətinin əsas vəzifəsi Qars vilayətində ilkin vəziyyətlə tanış olmaq, qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin vəziyyəti barədə məlumatlar toplamaqdan ibarət idi. Qeyd edək ki, nümayəndə heyətinin ezam olunması ilə bağlı Qars vilayəti hərbi qubernatoru, polkovnik Podqurskiyə teleqram göndərilmişdir.[2]



Qars vilayətinə göndərilən ilk nümayəndə heyətinə Məmmədhəsən Həsənov və Ağabala Quliyev rəhbərlik edirdilər.[3] Həmin nümayəndə heyəti tərəfindən Qars vilayətində və daha sonra İrəvan quberniyası ərazisində olan qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin ehtiyacları barədə əldə olunan ilkin məlumatlar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə təqdim olunmuşdu.[4] Həmin məlumatlarda göstərilirdi ki, Qars vilayəti üzrə yardıma daha çox ehtiyacı olan ərazilər – Ərdahan dairəsi üzrə: Ərdahan, Gil və Çaldır sahələri, Oltu

[1] Kaspi, 17 mart 1915, № 61.

[2] Kaspi, 11 fevral 1915, № 32.

[3] Baku, 31 yanvar 1915, № 25.

[4] Baku, 31 yanvar 1915, № 25; Xosrov Paşa bəy Sultanov, Bakı müsəlman cəmiyyəti xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

dairəsi üzrə: Tavus, Qars, Oltu və Kağızman sahələri, Xorasan və Soğanlıq sahələridir.[1]

1915-ci ilin yanvarında Qars vilayətinə göndərilən ilk nümayəndə heyətinin iştirakı ilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin iclası çağrıldı. İclasda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən və qaçqın türk müsəlman əhalisinə yardım üzrə komitəsi"nin Qars vilayətində nümayəndəliyinin təsis olunması barədə qərar qəbul olundu.[2] Qars vilayəti üzrə nümayəndəliyin (Qars Komitəsinin) təşkil olunması işi Xosrov Paşa bəy Sultanova tapşırıldı.[3]

1915-ci ilin martın 16-da Bakıdan Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə Hüseynov, İlyasov, Mahmudov, Məhəmmədov, Mirzəcamalov, Ağabala Quliyev, İbrahim bəy Vəkilov,[4] Gəncədən Aslan bəy Səfikürdskinin rəhbərliyi ilə Axundzadə, Şahsuvarov və Nəzərəliyevdən ibarət nümayəndə heyəti Qars vilayətində müharibədən zərər çəkən və qaçqın türk-müsəlman əhalisinə yardım işinin təşkili ilə bağlı həmin əraziyə göndərildi.[5] Xosrov Paşa bəy Sultanov yazırdı ki, 1915-ci ilin mayında Qars vilayətində nümayəndə heyətinin



---

[1] Xosrov Paşa bəy Sultanov, Bakı müsəlman cəmiyyəti xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[2] Xosrov Paşa bəy Sultanov, Bakı müsəlman cəmiyyəti xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[3] Xosrov Paşa bəy Sultanov, Bakı müsəlman cəmiyyəti xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[4] Kaspiy, 17 mart 1915, № 61.

[5] Xosrov Paşa bəy Sultanov, Bakı müsəlman cəmiyyəti xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.



**Əhməd bəy Pepinov (1893–1938)** – *Azərbaycanın görkəmli ziyalısı. Rusiyanın Moskva Dövlət Universitetinin hüquq fakültəsinin, eyni zamanda iqtisadiyyat fakültəsinin məzunu (1913-cü il), Moskvada "Azərbaycan Həmyerlilər Təşkilatı»nın rəhbərlərindən biri, I Dünya Müharibəsində Qafqaz cəbhəsində türk-müsəlman qaçqınlarına yardım üzrə Moskva Komitəsinin rəhbərlərindən biri. Zaqafqaziya Seyminin Müsəlman Fraksiyasının üzvü (1918-ci il), Azərbaycan Milli Şurasının, sonra Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü və katibi, Azərbaycan Xalq Cümhuriyyətinin beşinci hökumət kabinəsində əmək və əkinçilik naziri (1919–1920). 1938-ci ildə repressiyaya məruz qalmışdır.*



tərkibinə Əhməd bəy Pepinov da daxil olmuşdu. Əhməd bəy Pepinov Diyadin və Bəyaziddə yardım dəstələrinə rəhbərlik edirdi.[1]

Bir neçə ay sonra isə 1915-ci ilin noyabrında Qars Vilayət Komitəsinə daha bir nümayəndə – Rəşid bəy Axundzadə göndərildi. O, cəmiyyətin vilayət komitəsi üzrə müvəkkilinin – Xosrov Paşa bəy Sultanovun ikinci köməkçisi təyin olunmuşdu.[2]

Qafqaz cəbhəsində baş verən döyüşlər nəticəsində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım göstərilməsinə böyük ehtiyac olduğu halda, yerli məmurlar tərəfindən qaçqınlar arasında ayrı-seçkilik qoyulması, fərqli münasibətlərin olması aydın görünürdü. Rusiya imperiyasını rəngarəng qaçqın dalğası bürüdüyü bir vaxtda, hökumət tərəfindən daha çox erməni, aysor qaçqınlarının himayəyə alınmasına və onlara qayğı

[1] Kaspi, 17 mart 1915, № 61; Xosrov Paşa bəy Sultanov, Bakı müsəlman cəmiyyəti xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[2] Kaspi, 17 mart 1915, № 61.

göstərilməsinə üstünlük verilirdi. Mövcud durum barədə Məmməd Yusif Cəfərov yazırdı: "...Müsəlman vəkillərinin yardım və himayəsi son dərəcə lazım və vacib idi. Qaçqın müsəlmanların vəziyyəti, demək olar ki, dövlət və hökumət orqanlarının diqqətindən kənarda, bir növ pərdə arxasında qalaraq, Qafqaziyadan kənarlarda hətta Tiflisdə belə eşidilməyib öz doğma kənd və yurdları xarabələrində qalırdı".[1]

Belə bir şəraitdə azərbaycanlı vəkillərin qarşısında duran əsas məqsəd türk-müsəlman qaçqınların faciəsinə Rusiya Dövlət Dumasının, həmçinin digər dövlət və hökumət orqanlarının, eləcə də mətbuatın diqqətini cəlb etmək, onlara dövlət xəzinəsindən vəsait ayrılmasına nail olmaq idi.

Qafqaz cəbhəsində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nəzdində "Müharibədən zərər çəkən müsəlmanlara yardım üzrə komitə" fəaliyyət göstərirdi.[2] Komitənin idarə heyətinin tərkibinə aşağıdakı şəxslər daxil idi: Mirzə Əsədullayev (sədr), Fətulla bəy Rüstəmbəyov, Həbib bəy Mahmudbəyov, Behbud Ağa Cavanşir və Babayev.[3]



1915-ci ildə müharibədən zərər çəkən və qaçqın türk-müsəlman əhalisinə yardım üzrə Qars Komitəsində aşağıdakı şəxslər çalışırdılar: Xosrov Paşa bəy Sultanov (sədr),

---

[1] Məmməd Yusif Cəfərov, Müsəlman hərbzadələrinə yardım işi və müsəlman vəkilləri, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[2] Kaspi, 17 mart 1915, № 61.

[3] Xosrov Paşa bəy Sultanov, Bakı müsəlman cəmiyyəti xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

X.Axundzadə, Ə.Axundzadə, Ə.Nəzərəliyev, Rəfibəyov, Rza Qaraşəhərov, M.Məhəmmədov, Hüseynov, R.Lətifbəyov, M.İlyasov, R.Əliyev, Əli Qasımov, D.Seyidov, Gülsüm xanım Ordubadskaya (həkim). Qars Komitəsinin vilayətin digər əraziləri üzrə vəkilləri: Aslan bəy Səfikürdski, Əlixan Kantəmirov, Əhməd bəy Pepinov, Əliverdibəyov (həkim), Firuz Ordubadski (həkim). İrəvan quberniyası üzrə vəkil – Cəmo bəy Hacınski, Ərzrum dairəsi üzrə vəkil – general-mayor Talışınski.[1]

Qars vilayətində qaçqın və müharibədə zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili digər Azərbaycan milli-ictimai təşkilatı – "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti" tərəfindən də həyata keçirilirdi.

"Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin 1915-ci il fevralın 8-də keçirdiyi iclasında Qars vilayətində qaçqın və müharibədən zərər çəkən müsəlman-türk əhalisinin vəziyyəti müzakirə olunmuşdu. Qərara alınmışdı ki, Qars vilayətində kimsəsiz uşaqlara nəzarət və himayə etmək üçün nümayəndə göndərilsin. İdarə heyətinin qərarı ilə Liza xanım Muxtarova Qars vilayətinə nümayəndə seçilmişdi. Həmin iclasda həmçinin qərara alınmışdı ki, qışın yaxınlaşması ilə əlaqədar hərbçi olan müsəlmanlar üçün isti geyim əşyaları hazırlansın.[2]



Müharibədən zərər çəkən və qaçqın türk-müsəlman əhalisinə yardım üzrə Qars komitəsi öz fəaliyyəti ilə bağlı yerli dövlət və hökumət orqanlarına, o cümlədən Qars Vilayət Komitəsinə məlumat verirdi. Qars vilayətində olan mərkəzi hakimiyyət orqanları nümayəndələri də vilayətdə

[1] Xosrov Paşa bəy Sultanov, Bakı müsəlman cəmiyyəti xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[2] Yeni İqbal, 25 sentyabr № 127; Kaspi, 10 fevral 1915, № 31.

vəziyyətlə bağlı məsələləri Qars Vilayət Komitəsinin iclaslarında müzakirəyə çıxarırdılar. 1915-ci il martın 16-da Qars Vilayət Komitəsinin iclasında iştirak edən Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsinin vilayətin digər ərazilərində nümayəndəliklərinin fəaliyyət göstərməsi barədə məsələ qaldırdı. Həmin iclasda qərara alındı ki, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə nümayəndəlikləri Ərdahan, Sarıqamış və Kağızman dairələrində də yaradılsın.[1]

Beləliklə, az müddət ərzində Qars vilayətinə göndərilən nümayəndə heyətinin rəhbərliyi ilə Qars Komitəsinin Ərdahan, Ərzurum, Hınıs, Trabzon, Batum və digər ərazilərdə nümayəndəlikləri açıldı. Həmin nümayəndəliklərin açılmasından sonra Azərbaycan ərazisindən Qars vilayətinə yardım dəstələri göndərildi. Müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə azərbaycanlı dəstələrlə yanaşı, yerli əhalidən ibarət dəstələr də təşkil olunurdu.



[1] Kaspi, 20 mart 1915, № 64.

## 8.2. Türk qaçqın hüquqlarının müdafiəsi

1915-ci ildə qaçqın və müharibədən zərər çəkənlərə maddi kömək göstərilməsi məqsədilə "Qaçqınların ehtiyaclarının təmin olunması haqqında Qanun" qəbul olundu. [1] Rusiya Dövlət Şurasının sədri Kulomzinin imzası ilə Rusiya Dövlət Şurası və Rusiya Dövlət Duması tərəfindən təsdiq olunmuş Qanunun II bölməsində qeyd olunurdu ki, Daxili İşlər Nazirinin qərarı ilə Dövlət Xəzinəsindən qaçqınların ehtiyaclarının təmin olunması məqsədilə 25 milyon rubl vəsait ayrılmışdır.[2] Bu vəsait Rusiya imperiyası ərazisində, o cümlədən Qafqaz cəbhəsində bütün qaçqınların istifadəsi üçün ayrılmışdır.

Rusiya imperiyası dövlət və hökumət orqanlarının türk-müsəlman əhalisinə olan münasibətini nəzərə alsaq, ayrılan 25 milyon rubl vəsaitin, həmçinin Baş Qafqaz komitəsinə daxil olan vəsaitin neçə faizinin türk-müsəlman qaçqınlarına sərf olunacağı sual altında idi. Dövlət xəzinəsindən Komitəyə ayrılan vəsaitin müəyyən bir hissəsinin müharibədən zərər çəkən və qaçqın türk-müsəlman əhalisinə sərf olunması üçün Baş Qafqaz Komitəsində onların maraqlarını müdafiə edən nümayəndələrin olması vacib idi. Baş Qafqaz Komitəsinin qəbul olunmuş qaydalarına görə, digər nümayəndələrlə yanaşı, dini öndərlər, o cümlədən müsəlman dini xadimləri Komitəyə üzv qəbul olunurdular. Bu qaydaya uyğun olaraq, Qafqaz Şeyxülislamı Axund Molla Məhəmməd Pişnamazzadə Baş Qafqaz Komitəsinə üzv seçilmişdi. Azərbaycanda türk-müsəlman qaçqınlarına yardım üzrə fəaliyyət göstərən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" öz nümayəndəsinin komitəyə

---

[1] ARDTA, fond 334, siy.1, iş 1, v. 22.

[2] ARDTA, fond 334, siy.1, iş 1, v. 22.

üzv olması istiqamətində səy göstərirdi. Bununla əlaqədar olaraq, 1915-ci ilin fevralında “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”nin sədri Mirzə Əsədullayev Qafqaz Şeyxülislamı Axund Molla Məhəmməd Pişnamazzadənin ünvanına teleqram göndərmişdi. Cəmiyyətin idarə heyəti adından göndərilən həmin teleqramda Şeyxülislamdan Baş Qafqaz Komitəsi qarşısında bu barədə vəsatət qaldırılması xahiş olunurdu. [1] Teleqramda həmçinin bildirilirdi ki, Qars vilayətində müharibədən zərər çəkən türk-müsəlmanlara kömək göstərilməsi vacibdir və Baş Qafqaz Komitəsinin tərkibinə “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”ndən bir nəfər nümayəndə seçilməlidir.[2] Qeyd etdiyimiz kimi, Qaçqınlar və Müharibədən Zərər Çəkənlərə Kömək üzrə Baş Qafqaz Komitəsinə  Qafqaz canişininin həyat yoldaşı qrafina E.A.Vorontsov-Daşkova rəhbərlik edirdi. [3]

“Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”nin idarə heyətinin sədri Mirzə Əsədullayevin müraciətinə cavab olaraq, Qafqaz Şeyxülislamı Axund Molla Məhəmməd Pişnamazzadə Baş Qafqaz Komitəsinin 19 fevral 1915-ci il tarixli iclasının nəticəsi barədə teleqram göndərmişdir. Teleqramda bildirilirdi ki, “...Sizin 17 fevral tarixli teleqramınızdan sonra mən həmin tarixdə 247 saylı vəsadət qaldırdım...öz tərəfimdən bildirdim ki, Qars vilayətində müsəlmanların vəziyyəti olduqca ağırdır. Kütləvi qaçqınlar, kimsəsiz uşaqlar və qadınlar. Bunlar yerli mətbuatda bir qədər işıqlandırılır. Bir tərəfdən müsəlman əhalisi öz qardaşlarına yardım edir, digər tərəfdən isə müsəlman xeyriyyə cəmiyyətinin xəzinəsinə daxil olan yardımlar kifayət etmir. Mən Baş Komitədən xahiş etdim ki,



[1] Kaspi, 22 fevral 1915, № 42.

[2] Kaspi, 22 fevral 1915, № 42.

[3] Kaspi, 1 mart 1915, № 48.

Qars vilayəti müsəlman əhalisinə öz tərəfinizdən kömək etməkdən imtina etməyəsiniz...Baş Qafqaz Komitəsinin üzvü, Zaqafqaziya şeyxülislamı Pişnamazzadə" [1].

Qafqaz Şeyxülislamı Axund Molla Məhəmməd Pişnamazzadənin Baş Qafqaz Komitəsi qarşısında, cəmiyyətin müraciəti əsasında qaldırdığı məsələ cavabsız qalmadı. Qısa vaxt ərzində Qafqaz Şeyxülislamı Komitədə İşlər Bölməsinin rəhbəri A.Pavlovdan aşağıdakı cavab məktubunu aldı: "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin bir nəfər nümayəndəsinin Baş Qafqaz Komitəsinə üzv seçilməsi barədə xahişinə ...Baş Qafqaz Komitəsinin iclasında baxılmışdır. Sədr qrafina E.A.Vorontsov-Daşkova qərara aldı ki, bütün əlaqələr yalnız bu təşkilat ("Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"-N.M.) vasitəsilə qurulmalıdır. Tiflisə bu kimi təşkilatların nümayəndələri dəvət olunacaqlar. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin də iştirak etmək hüququ vardır".[2]



1915-ci ilin aprelində Rusiya Dövlət Dumasının deputatı, eyni zamanda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nümayəndəsi Məmməd Yusif Cəfərov Baş Qafqaz Komitəsinin idarə heyətinə üzv seçildi.[3] Bu, qaçqınlarla bağlı bir çox məsələlərin həll olunması, müavinət və yardım göstərmək baxımından olduqca mühüm əhəmiyyətli addımlardan biri idi. Belə ki, azərbaycanlı nümayəndənin Baş Qafqaz Komitəsinin idarə heyətində olması, buraya həm dövlət xəzinəsindən, həm də müxtəlif mənbələrdən daxil olan yardımların türk-müsəlman əhalisinə də ayrılmasına öz təsirini göstərirdi.

Baş Qafqaz Komitəsinin rəsmi icazəsi ilə 1915-ci ilin martında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" hərbi şəraitdə

---

[1] Kaspi, 22 fevral 1915, № 42.

[2] Kaspi, 1 mart 1915, № 48.

[3] Kaspi, 10 aprel 1915, № 78.

qaçqın və müharibədən zərər çəkənlərə kömək üzrə Qars Vilayəti Komitəsinin tərkibinə 2 nəfər nümayəndəsini göndərmişdir.[1] Baş Qafqaz Komitəsinin İşlər Bölməsinin rəhbəri A.Pavlovun Qafqaz Şeyxülislamına göndərdiyi məktubda bildirilirdi ki, Qars vilayətində müharibədən zərər çəkənlərə kömək göstərmək üzrə Qars Vilayət Komitəsi Qars hərbi qubernatorunun sədrliyi ilə fəaliyyət göstərir. Bu Komitənin tərkibinə üzv olaraq yerli qazı dəvət olunmuşdu.[2] Qeyd edək ki, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nümayəndələri də bu seçkili orqanın üzvü idilər.

Birinci Dünya müharibəsi illərində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkilinə baxmayaraq, Qars Vilayət Komitəsində təmsil olunan digər milli nümayəndələr bu tədbirlərin həyata keşirilməsində ciddi problemlər yaradırdı.



Birinci Dünya müharibəsinin başlamasından sonra hökumət tərəfindən Qars vilayətində olan qaçqın və müharibədə zərər çəkənlərə yardım üzrə Qars Vilayət Komitəsi yaradılmışdı. Qars Vilayət Komitəsi dövlət xəzinəsindən ayrılan vəsaitlə vilayətdə olan bütün qaçqın və müharibədən zərər çəkənlərə yardım işinin təşkilini həyata keçirirdi. Qars Vilayət Komitəsinin sturukturu aşağıdakı qaydada müəyyənləşdirilmişdi: Qars vilayət qubernatoru və üç milli nümayəndə – müsəlman (buraya azərbaycanlı nümayəndələr də daxil idi), erməni və yunan nümayəndələr daxil idilər.[3] Digər qanunverici, hüquqi təşkilatlarda olduğu kimi, Qars Vilayət Komitəsində də

[1] Kaspi, 5 mart 1915, № 51.

[2] Kaspi, 1 mart 1915, № 48.

[3] Baku, 2 dekabr 1915, № 269.

bütün məsələlər səs çoxluğu ilə qəbul olunurdu. Komitədə bir çox məsələlərin, xüsusilə dövlət xəzinəsindən ayrılan yardımın qaçqın və müharibədən zərər çəkənlər arasında bölüşdürülməsi məsələsinin müzakirəsində türk-müsəlman əhalisinə qarşı ermənilərlə yunanların maraqları birləşirdi. Bu zaman Komitədə ədalətsiz qərarlar qəbul olunurdu və xəzinədən ayrılan yardım komitənin qərarı ilə ermənilər və yunanlar arasında bölüşdürülürdü. Bu isə Qars Vilayət Komitəsinin müsəlman üzvlərinin, həmçinin vəziyyətlə tanış olan bütün müsəlman nümayəndələrinin narazılığına səbəb olurdu.

Nəticədə belə bir vəziyyət yaranırdı ki, türk qaçqınları və müharibədən zərər çəkən türk-müsəlman əhalisi Rusiya dövlət xəzinəsindən ayrılan yardımdan məhrum olunurdu. Bu normal görünə bilərdi. Çünki müharibə aparılan düşmən dövlətin-Türkiyənin əhalisinə yardım etmək vəzifə borcu olmaya bilərdi. Lakin türk qaçqınları ilə bağlı Rusiya dövləti tərəfindən müəyyən qanunlar qəbul olunmuşdu: Rusiya himayəsini qəbul edən türk qaçqınlarına yardım olunması bu barədə qəbul olunmuş dövlət qanununun tərkib hissəsi idi. Bu qanuna uyğun olaraq, Qars Vilayət Komitəsində türk qaçqınlarına da yardım edilməsi məsələsi müzakirə olunurdu. Lakin yuxarıda qeyd olunduğu kimi, nəticədə türk-müsəlman əhalisi yenə də yardımdan kənarda qalırdı. Yaranmış bu vəziyyətin şahidi olan Xosrov Paşa bəy Sultanov yazırdı: "Birinci qədəmimiz ağır və müşkül idi. Hər tərəfdən bədxahlığa uğrayırıq. Müharibə ibtidasından bəri fəaliyyətdə bulunan oblast komitəsi (Qars Vilayət Komitəsi-N.M.) ancaq ermənilərə yardım ediyordu. Biz gedənədək ermənilərə 116.000 manat pul paylamışdı. Müsəlmanlara isə ancaq 3.000 manat təxsis etmişdi. Hələ bunun da müsəlmanlara çatıb-çatmadığı məlum

deyildi".[1] Yaranmış bu vəziyyət getdikcə adiləşir və türk qaçqınları yardımdan kənarda qalırdı. Qəbul olunmuş dövlət qanununa uyğun olaraq türklərin qaçqın hüquqlarının müdafiəsinə ehtiyac görünürdü.

1915-ci ilin noyabrında Qars Vilayət Komitəsinin iclasında belə bir qərar qəbul olundu: Türkiyədən olan qaçqınlara, o cümlədən böyük əksəriyyət təşkil edən qadınlara və uşaqlara kömək etməkdən imtina edilsin.[2] Həmin iclasda iştirak edən Qars vilayəti üzrə azərbaycanlı nümayəndələri tərəfindən qəbul olunan qərara yenidən baxılması ilə bağlı vəsadət qaldırıldı. Türkiyədən olan qaçqınlara, o cümlədən qadınlara və uşaqlara kömək etməkdən imtina edilməsi ilə bağlı qərarın ləvğ olunması işinə Əli Xan Kantəmirov rəhbərlik edirdi. O bu məsələnin dövlət tərəfindən qəbul olunmuş qanunlara zidd olması barədə əsaslı faktlarla çıxış edirdi. Əli Xan Kantəmirovun müraciətində bildirilirdi ki, 1915-ci il avqust ayının 30-da qaçqınlar haqqında qəbul olunmuş Qanunun I bölməsində deyilir ki, "Qaçqınlar o şəxslər sayılır ki, hərbi əməliyyatların keçirildiyi bölgələrdən hərbi hakimiyyətin əmri ilə köçürülmüş, öz yerlərini tərk etmiş, Rusiya dövlətinə qarşı düşmənçilikdən çıxarılmış şəxslərdir". Türk qaçqınları da eynilə hərbi əməliyyatlar zamanı öz yerlərini tərk etmiş, Rusiya dövlətinin ərazisinə keçərək dövlətə qarşı düşmənçilik niyyətində olmayan köməksiz insanlar idilər. Həmin bölmənin 6-cı maddəsində göstərilir: "Dövlət tərəfindən qaçqınlara kömək göstərilir. Alman və



---

[1] Xosrov Paşa bəy Sultanov, Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun Arxivi.

[2] Baku, 2 dekabr 1915, № 269.

macarlar istisna olunmaqla".[1] Göründüyü kimi, hökumət tərəfindən Türkiyədən qaçqın gələn türklərə yardım olunması qadağan olunmamışdır. Əli Xan Kantəmirovun bu müraciətindən sonra Qars Vilayət Komitəsi tərəfindən, türk qaçqınlarına yardım olunması məsələsinə baxılması üçün çarın Qafqazdakı canişininə müraciət edilməsi barədə qərar qəbul olundu.[2] Çarın Qafqazdakı canişini bu məsələ ilə bağlı, yəni qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkil edilməsi ilə əlaqədar xüsusi sərəncam imzaladı.[3]

Birinci Dünya müharibəsi illərində də Rusiya hökuməti tərəfindən türk-müsəlman əhalisinə münasibət birmənalı deyildi. Rusiya imperiyasının dövlət və hökumət orqanlarının müsəlmanlara, o cümlədən qaçqın türk-müsəlman əhalisinə düşmən münasibəti aydın görünürdü. Lakin bu münasibət rəsmi xarakter daşımırdı. Rusiya imperiyasının qaçqınlar haqqında qanununa görə, Rusiya himayəçiliyini qəbul edən qaçqınlara kömək olunurdu. Qəbul olunmuş qanunlarla baxmayaraq, dövlət rəsmiləri öz şəxsi münasibətlərini istənilən vaxta qanuna zidd olaraq kəskin formada bildirirdilər. Xosrov Paşa bəy Sultanov Qars vilayətində türk-müsəlman əhalisinə qarşı münasibət barədə yazırdı: "...Komitə (Qars Vilayət Komitəsi-N.M.) iclasında Ərdahan dairəsi müsəlmanlarına yardım göstərilməsi haqqında bir məsələ qaldırıldıqda, qubernator "Nə diyorsunuz, xainlərə yardım etməkmi istiyorsunuz?" deyə qışqırdı. Bən (Xosrov Paşa bəy Sultanov-N.M.) onların xəyanətinin məhkəmə tərəfindən yəqin olub-olmadığını sorduqda, ancaq bu cavab tapıldı ki,

[1] Baku, 2 dekabr 1915, № 269.

[2] Baku, 2 dekabr 1915, № 269.

[3] Baku, 2 dekabr 1915, № 269.

"okruq naçalniki böylə xəbər veriyor".[1] Dövlət və hökumət nümayəndələrinin düşmən münasibətlərinə baxmayaraq, Qars Vilayət Komitəsinin üzvü olan azərbaycanlı nümayəndə heyətinin hüquqi yolla apardığı mübarizə öz müsbət nəticələrini verdi. Nəticədə, Qars Vilayət Komitəsi tərəfindən vilayətin digər ərazilərində olduğu kimi, Ərdahan dairəsində də türk-müsəlman əhalisinə yardım etmək barədə qərar qəbul olundu. Bu ərazidə yardım paylanılması işində Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə köməkçi dəstələr fəaliyyət göstərirdi. [2]

Ərdahan dairəsi üzrə fəaliyyətə başlayan "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsi az müddət ərzində geniş dairədə inkişaf etmişdi. Komitənin sədri Xosrov Paşa bəy Sultanov Ərdahanda Vilayət Komitəsinə nümayəndə seçilmişdi. [3] "Baku" qəzeti səhifələrində Xosrov Paşa bəy Sultanovun Ərdahandan göndərdiyi teleqram öz əksini tapmışdı. Həmin teleqramda komitə əməkdaşlarının Ərdahanda sahə və kənd komitələrinə üzv seçildiyi bildirilirdi.[4]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsi üzvlərinin yerli hökumət orqanlarına üzv seçilmələrinin mühüm əhəmiyyəti var idi. Qars vilayəti üzrə azərbaycanlıların müxtəlif qurumlara nümayəndə seçilmələri müharibədən zərər çəkənlərə yardım işinin hərtərəfli və geniş miqyaslı təşkili, eyni zamanda digər məsələlərin həlli baxımından önəmli idi. Bunlar aşağıdakılardan ibarətdi:

---

[1] Xosrov Paşa bəy Sultanov, Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[2] Baku, 8 aprel 1915, № 76.

[3] Baku, 8 aprel 1915, № 76.

[4] Baku, 8 aprel 1915, № 76.

1. Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili sahəsində müxtəlif dövlət və hökumət orqanlarına müsəlman nümayəndələrinin seçilməsi qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisi haqqında dəqiq məlumat toplanması və onların siyahıya alınması baxımından əhəmiyyətli idi;

2. Qarsa göndərilən yardımların vilayətin müxtəlif yerlərinə çatdırılmasında vacib amillərdən biri olan nəqliyyat vasitələrinin təşkilində bu orqanların mühüm rolu olurdu;

3. Azərbaycanlı nümayəndələrin həmin qurumlara, xüsusilə Qars Vilayət Komitəsinə üzv seçilməsi, iclaslarda iştirakı, türk qaçqınlarının və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin hüquqlarının müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edirdi.



Komitə nümayəndələri tərəfindən qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin problemləri ilə bağlı bir çox məsələlərin həllinə təşəbbüs göstərilir və bu təşəbbüs yerli hökumət orqanların təşkilatçılığı ilə birgə həyata keçirilirdi.

Digər tərəfdən müharibədən zərər çəkən və qaçqın türk-müsəlman əhalisinə yardım işinin təşkilinə Rusiya Dövlət Dumasının azərbaycanlı vəkili Məmməd Yusif Cəfərov nəzarət edir, yaranmış problemlərin həllində mühüm rol oynayırdı. O, 1915-ci ilin aprelində Tiflisdə Baş Qafqaz Komitəsinin keçirdiyi iclasda çıxış edərək, Qars vilayətində "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin yardım dəstələrinin fəaliyyəti haqqında geniş məlumat vermişdi. Onun bu çıxışı diqqətin türk qaçqınlarının problemlərinə yönəldilməsi baxımından mühüm əhəmiyyətə malik idi. Məmməd Yusif Cəfərov və digər azərbaycanlı nümayəndələr Qars vilayətinin qaçqınlar məskunlaşdığı bölgələrində olur, onların problemləri barədə məlumatlar əldə edirdilər. Onların çıxış və tələbləri də məhz bu məlumatlar əsasında yaranırdı.

1915-ci ilin aprelində Məmməd Yusif Cəfərov və Mirzə Əsədullayev Qars və Ərdəhanda qaçqınların yardım işinin təşkili ilə bağlı vilayətin Sarıqamış, Məcingert, Qaraqurd və Başköy sahələrində[1], həmçinin İrəvan və Naxçıvan bölgələrində olmuşdular.[2] Bu ərazilərdə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsinin qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək üzrə dəstələri fəaliyyət göstərirdi.

Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə Qars Komitəsi üzvləri və digər azərbaycanlı ziyalılar tərəfindən atılan hər bir addım türk qaçqınlarının hüquqlarının müdafiəsinə yönəldilirdi. Qaçqınların məskunlaşdığı hər bir yerdə buna böyük ehtiyac var idi. Əks halda, türk qaçqınlarının qula çevrilməsi halı istisna deyildi. Bu bir çox faktlarda öz əksini tapırdı.

Rusiya imperiyası ərazisinə keçən türk qaçqınları və müharibədən zərər çəkənlər dövlət məmurları tərəfindən qul kimi işlədilir, onlara əmək haqları verilmirdi. Qars Komitəsi qarşısında olan mühüm məsələlərdən biri də qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin hüquqlarının dövlət məmurları tərəfindən pozulmasının qarşısının alınması və bu işin nizama salınması idi. Bununla əlaqədar Qars Vilayəti Komisitənin rəhbəri Xosrov Paşa bəy Sultanov bir çox rəsmi orqanlara öz ehirazını bildirmişdi. Bu barədə Xosrov Paşa bəy Sultanov yazırdı: "...böylə biçarə fəhlələrə işlərinin haqqını, muzdunu da vermiyorlardı, bu məsələyi general Paruşin hüzurunda qaldırıb təhdid etdim ki, bu məsələ həll edilməsə, canişinə xəbər verəcəyəm. Ancaq bu surətlə təşəbbüsümə müvəffəq oldum və fəhlə müsəlmanlara 40.000 manatdan ziyadə pul paylandı".

Qafqaz cəbhəsində Qars vilayətində müharibənin ən ağır dəhşətlərinə məruz qalan Ərdahan dairəsi üzrə – Ərdahan, Gil və Çaldır sahələrində; Övləti dairəsi üzrə –

Tavus, Qars, Övləti və Kağızman sahələrində, Qars dairəsi üzrə–Xorasan və Soğanlıq sahələrində "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsinin nümayəndələrinin rəhbərliyi ilə dəstələr fəaliyyət göstərirdi. Bu fəaliyyət türk qaçqınlarının mühafizəsi və müdafiəsi istiqamətində həyata keçirilirdi. Xosrov Paşa bəy Sultanov yazırdı: "...Həmişə gözüm önündə duruyorlar. Onların ümidgahı və pənahı ancaq bir Allah idi. Bizim adamlarımız ürəklərində məhəbbət, gözlərində həmdərdlilik və üzlərində qardaşlıq hissi ilə gəldikdə ilk vaxtlar əhali çəkmiş olduqları müsibət, görmüş olduqları həqarət və təcavüzə baxaraq, eyni zamanda qardaş köməyi uzadan əllərin varlığına şad olaraq deməyə söz tapmıyor, ancaq "Sizi Allah göndərmişdir" diyorlardı".[1] O, xüsusilə qeyd edirdi ki, "...hərbzadələrə yardım komitəsi tərəfindən göndərilmiş olan heyətin müavinəti sərf etmiş olduğu pulların yekunu, yaxud payladığı ərzağın miqdarı ilə ölçüləcək qədər qiymətləndiriləməz".[2]



Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin ağır vəziyyəti ilə bağlı azərbaycanlı vəkillər tərəfindən dövlət rəsmiləri ilə danışıqlar aparılır, mövcud vəziyyət barədə məlumatlar çatdırılırdı. 1915-ci ilin iyul ayında Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov Rusiya Daxili İşlər Naziri ilə apardığı danışıqlar zamanı müharibədən zərər çəkən və qaçqın türk-müsəlman əhalisnin ağır durumu barədə məlumat vermiş və dövlət

---

[1] Xosrov Paşa bəy Sultanov, Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[2] Xosrov Paşa bəy Sultanov, Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, Qardaş köməyi 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

xəzinəsindən vəsait ayrılmasını istəmişdir. [1] Bu danışıqların nəticəsi olaraq, Daxili İşlər Naziri dövlət xəzinəsindən müharibədən zərər çəkənlərə və qaçqınlara yardım olaraq 100.000.000 (yüz milyon) rubl ayrılması üçün Dövlət Dumasında qanun layihəsinin hazırlanması barədə qərar vermişdir.[2]

Rusiya Daxili İşlər Naziri ilə xüsusi müşavirənin qərarı ilə əlaqədar olaraq, Məmməd Yusif Cəfərov "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri Mirzə Əsədullayevə teleqram göndərmişdi. Teleqramda yazılırdı: "...Sizə məlum olan qaçqınların, kimsəsiz uşaqların sayı və onların harada yerləşməsi barədə məlumat verin. Batum və Qarsda qaçqınların ümumi sayı və ayrı-ayrılıqda kişilər, qadınlar və uşaqların sayı müəyyən edilsin". [3] Teleqramda həmçinin qeyd olunurdu ki, dövlət xəzinəsindən ictimai təşkilatlara pul vəsaitinin buraxılması məhz bu məlumatlar əsasında şərtlənir.[4] Bununla əlaqədar, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə Komitəsinin qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin siyahıya alınması məqsədilə bütün dəstələri fəaliyyətə başlamışdı. Siyahyaalmada dəstələr tərəfindən toplanılan məlumatlar Qars vilayəti üzrə Xosrov Paşa bəy Sultanova, Tiflisdə olan qaçqınların sayı barədə məlumatlar İbrahim bəy Vəkilova, Yelizavetpol üzrə məlumatlar Ə.Rəfibəyova verilirdi. Bütün məlumatlar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin sədri Mirzə Əsədullayevə təqdim olunurdu.[5] Sonda



---

[1] Kaspi, 24 iyul 1915, № 164.

[2] Kaspi, 24 iyul 1915, № 164.

[3] Kaspi, 19 sentyabr 1915, № 208.

[4] Kaspi, 19 sentyabr 1915, № 208.

[5] Kaspi, 19 sentyabr 1915, № 208.

bütövlükdə siyahının dövlət və hökumət rəhbərlərinə təqdim olunması üçün Məmməd Yusif Cəfərova göndərilirdi. Qeyd edək ki, Məmməd Yusif Cəfərov Qars vilayətində qaçqınların siyahıya alınmasında iştirak edirdi. O, bu barədə yazırdı: "Vəkillərin bu məqsəd və məramlarını kamalınca yerinə yetirməyə imkan verə biləcək ümdə şəraitdən birisi hərbzadələrlə qaçqınların və onların fəlakət müsibətlərinin halını geniş bir surətdə öyrənib məlumat toplamaq idi. Müharibə ibtidasından bəri Qafqaz cəbhəsində işləməkdə olan Dövlət Dumasının müsəlman əhalisinin nə kibi bir hallar içində yaşadığını bizzat gözümlə görüb şahid oldum: bu isə onların əhvalını öyrənib məlumat toplamaqda böyük kömək oldu".[1] Kimsəsiz uşaqların sayı barədə məlumatların toplanması uşaq evlərinin açılması və saxlanılmasına vəsait ayrılması üçün vacib şərt idi.



1915-ci ilin sentyabrın 10-da Peterburqda, Rusiya daxili işlər naziri Şerbatovun sədrliyi və Rusiya Dövlət Dumasının üzvlərinin xüsusi müşavirəsi keçirilmişdi. Müşavirədə müharibədən zərər çəkənlərə və qaçqınlara kömək göstərmək məsələsi müzakirə olunmuşdu. Həmin müşavirədə iştirak edən deputat Məmməd Yusif Cəfərov Qars və Batum vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin ağır vəziyyəti barədə çıxış etmişdi. Qərara alınmışdı ki, "...qaçqınlara kömək üçün Baş Qafqaz Komitəsinin sərəncamına 500.000 rubl ayrılsın. Bu vəsait Batum və Qarsa Eçmiədzin vasitəsilə göndərilsin. Qafqaz Komitəsinə tapşırılsın ki, bu məbləğ Qars Vilayət Komitəsi və Batum

[1] Məmməd Yusif Cəfərov, Müsəlman hərbzadələrinə yardım işi və müsəlman vəkilləri, Qardaş köməyi, 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

Hərbi Qubernatoru vasitəsilə həyata keçirilsin".[1] Bu vəsait Qafqaz cəbhəsində bütün müharibədən zərər çəkən və qaçqınlar üçün nəzərdə tutulurdu. Həmin iclasda həmçinin teleqram vasitəsilə Qafqaz canişininin köməkçisi Petersona müraciət qəbul olunmuşdu.[2]

Lakin Azərbaycan ziyalıları bu vəsaitin türk qaçqınlarına çatdırılmasını inamsızlıqla qarşılayırdılar. Bu barədə "Yeni iqbal" qəzeti yazırdı: "...qeyd olunan məbləğ Qafqaz Komitəsi vasitəsilə Eçmiədzinə göndərilib məlum yerinə sərf olunacaqdır. Yəni Qafqaz müsəlmanlarının yardıma ehtiyacı yoxdur və ya kömək etmək lüzum deyilmiş".[3]

1915-ci ilin oktyabrında Qafqaz cəbhəsində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə komitəyə ("Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə) xəzinədən pul vəsaiti ayrılmışdır. Hökumət tərəfindən ayrılan bu vəsait 90.000 rubl məbləğində avans olaraq verilmişdir.[4] Bu vəsaitdən 40.000 rubl yataq və isti geyim əşyalarının alınmasına, 50.000 rubl isə ərzaq alınmasına yönəldilmişdir. Bu yardımdan əlavə olaraq, 60.000 rubl cəmiyyətin uşaq evinin açılması üçün ayrılmışdır. Göndərilən məktublarda bildirilirdi ki, ehtiyacı olan müsəlman qaçqınlarının sayı haqqında ətraflı məlumat təqdim olunandan sonra əlavə yardım olunacağı nəzərdə tutulur.[5]



---

[1] Kaspi, 16 sentyabr 1915, № 205.

[2] Kaspi, 16 sentyabr 1915, № 205.

[3] Yeni iqbal, 25 sentyabr 1915, № 127.

[4] Kaspi, 25 oktyabr 1915, № 238.

[5] Kaspi, 25 oktyabr 1915, № 238; Kaspi, 8 fevral 1915, № 30; 13 fevral 1915, № 34.

Rusiyanın dövlət xəzinəsindən türk qaçqınlarına vəsaitin ayrılması mühüm əhəmiyyətli hadisə idi. Bu, azərbaycanlı vəkillərin türk qaçqınlarının hüquqlarının müdafiəsi uğrunda apardıqları mübarizənin nəticəsi idi. Bu vəsaitin ayrılması yerli mətbuat tərəfindən də müsbət qarşılanırdı. "Yeni iqbal" qəzeti yazırdı ki, məhz edilən müraciətlər sayəsində "...adı heç bir yerdə siyahıda görünməyən müsəlmanlara da bir şey verilməsi qərarlaşdırılmışdı. Yetimləri də bir yerə yığıb bir darülyetim açmaq üçün pul almaq mümkün olmuşdur".[1]

Birinci Dünya müharibəsi illərində "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə nümayəndələrinin Qars Vilayət Komitəsinə üzv olmaları qaçqın və müharibədən zərər çəkən qaçqın türk-müsəlman əhalisinə kömək işinin təşkili sahəsində bir vasitə idi. Qars Vilayət Komitəsinin iclaslarında iştirak edən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə nümayəndələri burada türk qaçqınları ilə bağlı bir çox məsələlərin müzakirə olunmasına, eyni zamanda qərarların qəbuluna təsir göstərmək, fikir söyləmək imkanına malik olurdular



1915-ci ilin aprelində Qars Vilayət Komitəsinin iclasında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanov çıxış edərək, qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə lazım olan köməyi faktiki statistik göstəricilərlə komitə üzvlərinə təqdim etmişdir. Məhz təqdim olunan bu göstəricilər əsasında Qars Vilayət Komitəsi qaçqın və müharibədən zərər çəkən türk müsəlman əhalisinə qay-

[1] Yeni iqbal, 25 sentyabr 1915, № 127.

tarılmaz, birdəfəlik suda ayrılması üçün yuxarı dövlət orqanları qarşısında vəsadət qaldırılması barədə qərar qəbul etmişdi.[1]

Lakin dövlət xəzinəsindən ayrılan vəsait yalnız uşaqların yeməklə təmin olunmasına yönəldilirdi ki, bu da çox vaxt ehtiyacı ödəmirdi. Digər xərclər xeyriyyə cəmiyyətinin həyata keçirdiyi layihələrdən daxil olan vəsaitlə, o cümlədən əhalidən yığılan yardımlarla ödənilirdi.

1916-cı ildə cəmiyyətin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanov yaranmış gərgin vəziyyətlə əlaqədar Baş Qafqaz Komitəsinə göndərdiyi məktubda yazırdı: "Bu çətin, ağır böhran dövründə müsəlman Xeyriyyə Cəmiyyəti tərəfindən Qarsa 75-85 min pud un və taxıl, 25-30 min arşın manufaktura malları və s. göndərilmişdir. Hazırda biz Dövlət Xəzinəsindən vəsaitin dayandırılması faktı qarşısında qalmışıq. Qaçqın təşkilatları öz fəaliyyətlərini cəbhədə davam etdirməlidirlər. Hələlik uşaq evlərinin saxlanması üçün vəsait sərf olunur, lakin səpələnmiş əhaliyə köməkdən imtina edilir. Sonda İrandakı qaçqınlar barədə, vəziyyət dəhşətdir. Biz aylıq bir nəfər üçün 6 rubl alırıq. Hazırki kurs ilə rubl 6 qəpikdir. Onlar bu pul ilə özlərinə kifayət qədər çörək ala bilmirlər. Təcili cavab gözləyirəm. Sultanov.[2] Müraciətlərdən sonra ayrılan vəsait də Qafqaz cəbhəsində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin ərzağa olan tələbatını ödəmək üçün kifayət etmirdi. Müqayisədə yenə də ictimai ianələr daha çox üstünlük təşkil edirdi.

Beləliklə, Qars vilayətində Azərbaycan nümayəndələrinin fəaliyyətinin mühüm tarixi əhəmiyyəti ilk növbədə türk qaç-

[1] Kaspi, 17 aprel 1915, № 84.

[2] ARDTA, Fond 421, siyahı 1, iş 19, v. 2.

qınlarının hüquqlarının qorunmasına yönəldilən mübarizədən və bu mübarizənin müsbət nəticələrindən ibarət idi.

### 8.3. Qars vilayətininin müxtəlif ərazilərində yardım işinin təşkili və qaçqınların siyahıya alınması

Birinci dünya müharibəsinin törətdiyi ən böyük dəhşət və fəlakətlərdən biri də qaçqınlıq problemi idi. 1915-ci il – tarixin Sarıqamış məğlubiyyəti qaçqın dalğasının böyük bir şiddət kəsb etməsinə səbəb oldu. 1916-cı ilin aprelində Şərqi Anadolunun böyük bir hissəsi, Trabzon, Ərzurum, Muş, Bitlis, Van rusların nəzarəti altına keçdi. Rusların işğal etdiyi geniş bir ərazidə müsəlmanlar həm yağma və qırğınlara məruz qaldılar, həm də işğal edilmiş əraziləri təcili tərk etmək məcburiyyətində oldular. Osmanlı hesablama komissiyasının məlumatına görə, rusların işğal etdikləri rayonlardan 850.000-dən çox türk-müsəlman qaçqın qeydə alınmışdı. [1] Bu yalnız rəsmi qeydiyyata alınan qaçqınların sayı idi. Apardığımız araşdırmalar türk-müsəlman qaçqınlarının sayının iki milyona yaxın və daha cox olduğunu göstərir. Vəziyyət olduqca ağır idi. Müharibə gedən əraziləri tərk edərək mərkəzə doğru köçüb gəlmiş zərərçəkənlərə Osmanlı hökuməti lazımi kömək göstərə bilmirdi.



Qaçqın və müharibədə zərər çəkənlərin böyük əksəriyyəti Rusiya imperiyası ərazisinə yayılmışdı. 1915-ci il – tarixin Sarıqamış məğlubiyyəti qaçqın dalğasının böyük bir şiddət kəsb etməsinə səbəb oldu və bu vəziyyət fövqəladə bir hal olduğundan bütün Rusiya ərazisində böyük əks-səda doğurdu. Belə bir şəraitdə hökumət qaçqınların qeydə alınması və onlara yardım göstərilməsi ilə bağlı tədbirlər həyata keçirirdi.

---

[1] Джастин Маккарти, Каролин Маккарти, Тюрки и армяне, Руководство по армянскому вопросу, Перевод с английского, Азербайджанское государственное издательство, Баку – 1996, 68.

1915-ci ilin oktyabr ayında imperatriçə Aleksandra Feodorovnanın himayəsi ilə müharibədən zərər çəkənlərə kömək üzrə Baş Qafqaz Komitəsi nəzdində qaçqınların qeydiyyatı üzrə Xüsusi Bölmə yaradılmışdı. Baş Qafqaz Komitəsinin Bakı Qubernatoruna yazdığı 13 oktyabr 1915-ci il tarixli 10597 saylı məktubunda bildirilirdi[1] ki, qaçqınların qeydiyyatı üzrə Xüsusi Bölməyə qaçqınlara kömək üzrə hökumət, ictimai və xüsusi təşkilatlar tərəfindən yaxın vaxt ərzində məlumatlar daxil edilməlidir. Məktubda həmçinin qeyd olunur ki, "... Sizə təqdim olunan bu məlumatı, təcili olaraq öz rayonunuzda olan hər hansı bir formada qaçqınlara kömək göstərən təşkilatlara, cəmiyyətlərə və xüsusi şəxslərə çatdırın. Bütün məlumatlar aşağıdakı ünvana göndərilsin: Petroqrad, Jukovskaya 59, Qaçqınların qeydiyyatı üzrə Ümumrusiya Mərkəzi Bürosu, komitə sədrinin əvəzi, sədrin müavini V.Nikitin".[2] Qaçqınların qeydiyyatı üzrə Xüsusi Bölmənin yaradılmasına baxmayaraq, qeydiyyatın aparılması ilə bağlı problemlər yaranırdı. Bunun üçün yenə də yerli rəsmi orqanlardan icazənin alınması vacib idi. Baxmayaraq ki, bu məsələ yazılı qaydalarda əks olunmurdu.



Rusiya Dövlət Dumasının müsəlman vəkilləri ali kürsülərdən çıxış edərək, yüz minlərlə insanın qurban olduğu böyük dəhşət və fəlakətin aradan qaldırılmasına kömək göstərməyə çağırırdılar. Müsəlman vəkillərinin əsas məqsədi dövlət və hökumət orqanlarının, həmçinin mətbuatın diqqətini qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə cəlb etmək, onların zəruri ehtiyaclarının ödənilməsinə, müharibədə öz valideynlərini itirmiş kimsəsiz uşaqların saxlanılması üçün xəzinədən yardım ayrılmasına nail olmaq idi. Qeyd

[1] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 8.

[2] ARDTA, fond 334, siyahı 1, iş 1, v. 8.

olunan məqsəd və proqramın həyata keçirilməsi istiqamətində əsas şərtlərdən biri qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin sayı və onların vəziyyəti barədə məlumat toplamaq idi. Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin vəziyyəti barədə məlumat toplamaq üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən Qars vilayətinə nümayəndələr göndərilmiş və onların rəhbərliyi altında fəaliyyət göstərən dəstələr yaradılmışdı. Cəmiyyətin nümayəndələri ilə yanaşı, Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov da Qars vilayətində hərbi əməliyyatların getdiyi bölgələrdə olur, vəziyyət barədə məlumat əldə edir, həmçinin xarabalıqlarda qalmış insanların yığılaraq Azərbaycan ərazisinə göndərilməsi işini təşkil edirdi. Məmməd Yusif Cəfərov döyüş bölgələrində şahidi olduğu vəziyyətlə bağlı xatirələrində yazırdı: "Bizim dəstə Ərdahan-Mivədəlaniyəd-Oltu səmtində çalışırdı. Bura hərəkatı-hərbiyyə meydanı olduğundan, hərb fırtınasının nişanələri yeni idi. Hər tərəf xarabazara döndərilmişdi. Qışın bu şiddətli soyuğunda dəhşətli bir şəkil almış bu hal içində ac, çılpaq, qorxmuş, köməksiz fəlakətzadələr yaşayırdılar. Qars oblastının müsəlman əhalisinin nə kibi bir hallar içində yaşadığını gözümlə görüb şahid oldum. Bu onların əhvalını öyrənib məlumat toplamaqda böyük kömək oldu".[1] Rus qoşunları tərkibində erməni silahlı dəstələri tərəfindən törədilən vəhşiliklər əhalidə qorxu yaratmışdı. Bu qorxu onların çəkdiyi aclıqdan, şaxtalı günlərdə çılpaq qalmalarından daha ağır və dəhşətli idi.

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisi, o cümlədən kimsəsiz uşaqlar barədə məlumat

[1] Məmməd Yusif Cəfərov "Müsəlman hərbzadələrinə yardım işi və müsəlman vəkilləri", Qardaş köməyi, 1917-ci il, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Arxivi.

toplamaq, onların siyahıya alınması kömək etmək baxımından vacib şərtlərdən biri idi. Əhalinin siyahıya alınması isə dövlət və hökumət orqanlarının rəsmi icazəsi ilə həyata keçirilirdi.

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin siyahıya alınmasına rəsmi icazə alınmasına dəstək məqsədi ilə 1915-ci il iyulun 24-də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara kömək bölməsi" tərəfindən Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərova teleqram göndərilmişdi. Teleqramda yazılırdı: "...Hazırda Qars vilayətinə qonşu vilayətlərdən zərər çəkənlər gətirilmişdir...Dəqiq qeydiyyat aparmaq üçün hökumətdən rəsmi icazə almaq lazımdır".[1] M.Y.Cəfərov siyahıyaalınma və türk qaçqınları ilə bağlı digər məsələlərin həlli üçün hökumət qarşısında məsələlər qaldırır, müraciətlər edirdi.

1915-ci ilin sentyabrında Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərovun iştirak etdiyi Rusiyadakı qaçqınlara kömək etmək üzrə mərkəzi dövlət və hökumət orqanlarının xüsusi müşavirəsi keçirildi. Müşavirədə Qafqaz bölgəsində vəziyyət müzakirə olundu və qərara alındı ki, bu ərazidə fəaliyyət göstərən, qaçqın və müharibədən zərər çəkənlərlə iş aparan milli təşkilatlara pul vəsaiti ayrılsın. [2] Məmməd Yusif Cəfərov bununla əlaqədar Qars vilayətində əhalinin siyahıya alınması işinin həyata keçirilməsi üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin sədri Mirzə Əsədullayevə teleqram göndərmişdi. Teleqramda deyilirdi: *"...*Rusiyada olan qaçqınlara kömək göstərmək üzrə xüsusi müşavirə mili təşkilatlar arasında paylanması

[1] Kaspi, 25 iyul 1915, № 165.

[2] Kaspi, 19 sentyabr 1915, № 208.

üçün Qafqaz canişininə 500.000 rubl göndərmişdir...Yardımın paylanması qaçqınların say tərkibindən asılıdır. Yardım hər bir nəfər üçün müəyyən məbləğdə ayrılır".[1] Məmməd Yusif Cəfərovun göndərdiyi teleqramda həmçinin bildirilirdi ki, "...xahiş edirəm sizə məlum olan qaçqınların, həmçinin kimsəsiz uşaqların sayı və onların harada yerləşməsi barədə teleqramla məlumat verəsininz. Həmçinin Batumda və Qarsda qaçqınların ümumi sayı və ayrıca olaraq, kişilər, qadınlar və uşaqların sayı barədə məlumat toplanılsın. Milli təşkilatlara pul buraxılması təqdim olunmuş bu məlumatlar əsasında şərtlənir. Kimsəsiz uşaqların sayı barədə məlumatlar uşaq evlərinin açılması və saxlanılması üçün vəsait alınmasına imkan verir".[2]



1915-ci ilin sentyabrında Məmməd Yusif Cəfərovun göndərdiyi teleqramla əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin xüsusi iclası keçirildi. İclasda qərara alındı ki, qaçqınlar və müharibədən zərər çəkənlərə kömək üzrə bütün ərazilərdə fəaliyyət göstərən komitələrə müraciət olunsun. İlk olaraq cəmiyyətin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanovun Bakıya çağırılması və ona lazım olan məlumatların çatdırılması barədə qərar qəbul olundu.[3] Qars Komitəsi ilə yanaşı "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Tiflis Komitəsinin sədri İbrahim bəy Vəkilova və Yelizavetpol Komitəsinin sədri Ələkbər bəy Rəfibəyova da müraciət olundu. Həmin müraciətdə qeyd olunurdu ki, Tiflis, Nuxa, Qazax və Yevlax, həmçinin digər ərazilərdə olan qaçqınların sayı və onların

[1] Kaspi, 19 sentyabr 1915, № 208.

[2] Kaspi, 19 sentyabr 1915, № 208.

[3] Kaspi, 19 sentyabr 1915, № 208.

yaşayış yerləri barədə məlumat Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə çatdırılsın.[1]

Dövlət və hökumət orqanları tərəfindən qaçqınların siyahıya alınmasına icazə verilsə də, bu sahədə bir sıra çətinliklər yaranırdı. Bu, ilk növbədə Qars vilayətinə türk qaçqınlarının durmadan axını ilə əlaqədar idi. Cəmiyyətin dəstələrinin topladıqları məlumata görə, bir gün ərzində Qars vilayətinə 5.000 nəfər türk qaçqını gəlmişdi. [2]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə nümayəndəliyinin verdiyi məlumatda bildirilirdi ki, Ərdahan dairəsi üzrə zərər çəkən türk-müsəlman əhalisinin sayı 67.000 nəfər, xristianların sayı 50.000 nəfər, o cümlədən ermənilərin sayı 1.400 nəfər olub. [3] Bu ərazidə qaçqın və müharibədə zərər çəkənlərin böyük əksəriyyətini türk-müsəlman əhalisi təşkil edirdi.

Qars vilayətinin müxtəilf ərazilərində yerləşdirilməsi mümkün olan qaçqınlar siyahıya alınaraq himayədə saxlanılırdılar. Burada yerləşdirilən qaçqınlar Qars vilayətində fəaliyyət göstərən dəstələr tərəfindən siyahıya alınırdı. Qars vilayəti üzrə səlahiyyətli nümayəndə, Qars Komitəsinin sədri Xosrov Paşa bəy Sultanov yazırdı: "...Dəftərə qeyd etdiyimizə görə, Qars oblastında 220.000, Batum oblastında 20.000, Sürməli uyezdində 900.000, Diyadində 10.000, Ərzrumda 16.000, Tortum ətrafında Yatab komandanlarının verdigi məlumata görə, 5.000, Milos ətrafında 20.000 türk qaçqın və hərbzadə vardır..."[4]



---

[1] Kaspi, 19 sentyabr 1915, № 208.

[2] Kaspi, 25 iyul 1915, № 165.

[3] Baku, 15 aprel 1915, № 82.

[4] Xosrov Paşa bəy Sultanov "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", "Qardaş köməyi" 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.




***Türk-müsəlman qaçqınlarına yardım üzrə Qars Komitəsinin sədri Xosrov Paşa bəy Sultanovun dəftərxanasında iş prosesindən görüntü***



Yuxarıda göstərilən rəqəmlər Qars vilayəti üzrə qaçqınların bütövlükdə sayı deyildir. Belə ki, həmin illərdə vilayətdə Azərbaycan nümayəndəliyi ilə yanaşı, digər təşkilatlar, həmçinin hərbi dəstələr də fəaliyyət göstərirdi. Həmin təşkilatlar və dəstələr tərəfindən qaçqınlar, o cümlədən uşaqlar yığılaraq Rusiyanın müxtəlif şəhərlərinə göndərilirdi. Bununla əlaqədar, Azərbaycan milli-ictimai təşkilatları belə bir bəyanat vermişdi: "...müsəlman uşaqlarının xristian ailəsi tərərfindən himayəyə alınmasına...öz dinindən, xalqından ayrı tərbiyə olunmasına yol verə bilmərik!"[1] Bu və ya digər problemlərlə əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Rusiya imperiyasının bir çox şəhərlərində komitələri təşkil olunmuşdu. Bu barədə monoqrafiyanın digər bölmələrində bəhs edilir.

---

[1] Baku, 15 aprel 1915, № 82.

Rusiya ərazisində fəaliyyət göstərən Azərbaycan komitələri tərəfindən müəyyən sayda uşaqlar yığılaraq Bakıya gətirilsə də, türk qaçqınlarının bizə hələlik məlum olmayan sayda Rusiya ərazisində yerləşdirilməsi də istisna deyildi. Birinci Dünya müharibəsi illərində tək Azərbaycana 325.000 (üç yüz iyirmi beş min) nəfər qaçqın, o cümlədən 12.000 (on iki min) türk qaçqın uşağı gətirilmişdi.[1]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Batum vilayəti üzrə dəstələrin 1915-ci ilin sentyabrında siyahıyaalması zamanı məlum olmuşdu ki, Batumda 40.000-dən çox, Kutaisidə 15.000, Aşağı Acarda 13.000, Şavşed-İmerxev sahəsində 800, Ardanuçda 60, Axıskada 3.000, Ahalkələkdə 4.000 və s. türk qaçqını məskunlaşıbmış.[2]

1915-ci ilin oktyabr ayına olan arxiv sənədlərindəki məlumatda bildirilir ki, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Batum Komitəsi bu vaxta qədər Batum vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin qeydiyyatını aparmaq üçün icazə ala bilməmişdi. Həmin sənədlərdən öyrənirik ki, Tiflisdə Gürcü Xeyriyyə Cəmiyyətinin topladığı məlumatlara görə, Batumda qaçqın və müharibədən zərər çəkən müsəlmanların sayı 25.000 nəfərə yaxın olub. Ümumiyyətlə, qaçqın və müharibədən zərər çəkən müsəlmanların ümumi sayı 74.999 nəfər idi.[3] Bu son rəqəm deyildi. Buraya gələn qaçqınların sayı durmadan artmaqda idi. 1915-ci ilin sentyabrında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Batum vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə dəstələrin vilayət üzrə siyahıyaalınması zamanı məlum olmuşdur ki, burada 40.000-

[1] Azərbaycan tarixi, 7 cildlik, V cild, B., 2000.

[2] Baku, 15 aprel 1915, № 82.

[3] ARDTA, Fond 1, siyahı 1, iş 1497, 3 (arx.).

dən çox qaçqın və zərər çəkmiş türk-müsəlman əhalisi vardır:[1] Kutaisidə 15.000, Aşağı Acarda 13.000, Batumda 2.000, Şavşed-İmerxev sahəsində 800, Ardanuçda 60, Axıskada 3.000, Axalkələkidə 4.000 və s. türk qaçqını məskunlaşmışdı.[2]

Yuxarıda göstərilən faktlar, türk qaçqınları haqqında hələlik bizə məlum olan məlumatlardır. Müharibə zamanı dağıdılmış kəndlərdən qaçqın düşmüş türk-müsəlman əhalisi barədə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsinə mütəmadi məlumatlar daxil olurdu. 1915-ci ilin sentyabrında sərhəd kəndlərinin işğalı ilə əlaqədar vilayətin Qaraqurd sahəsində evləri dağıdılmış sakinlərin, o cümlədən 89 qadın və uşaqların acınacaqlı, aclıq şəraitində qalmaları barədə məlumat verilmişdi: [3] Bununla əlaqədar, Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə Qars Komitəsinin həyata keçirdiyi tədbirlər nəticəsində həmin uşaq və qadınlar ərazidən çıxarılaraq Bakıya göndərilmişdilər. Məlumatlarda bildirilirdi ki, onların gəlişi yerli əhali tərəfindən böyük məhəbbətlə qarşılanmış, Tovuz dayanacağında Yelizavetpol Komitəsi tərəfindən qaçqınlara ilkin yardımlar olunmuşdu.[4]

1915-ci ilin sentyabrında Qars Komitəsinə daxil olan digər məlumata əsasən, Yalsuz Cam kəndindən kimsəsiz uşaqlar, Bozat kəndindən isə 23 türk qaçqın götürülərək Qarsa, oradan isə Bakıya göndərilmişdi.[5]

Qars vilayətində qaçqınların vəziyyəti ilə əlaqədar olaraq, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin vilayət üzrə səlahiy-

---

[1] Kaspi, 14 noyabr 1915, № 255.

[2] Açıq söz, 22 oktyabr, 1915, № 17.

[3] Kaspi, 5 sentyabr 1915, № 198.

[4] Kaspi, 5 sentyabr 1915, № 198.

[5] Kaspi, 5 sentyabr 1915, № 198.

yətli nümayəndəsi Xosrov Paşa bəy Sultanovun cəmiyyətə verdiyi məlumatda bildirilirdi ki, "...demək olar ki, bütün müsəlman kəndlərində adam tapmaq mümkün deyil. Hər kəs müharibənin dəhşətlərindən qaçaraq harasa sığınmışdır. İki məntəqədən 500-600 qadın və uşaq yığılmışdır. Bunlar arasında yalnız bir neçə yaşlı kişi var idi. "[1]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsi dağıdılmış kəndlərdə köməksiz qalmış insanlara ilkin yardım olunması, onların toplanaraq himayəyə alınması sahəsində tədbirlər həyata keçirirdi. 1915-ci ilin sentyabrında Qars vilayətinin türklər yaşadığı dağıdılmış kəndlərindən tapılmış 32 nəfər qadın və kimsəsiz uşaq yığılaraq Qars Komitəsinə gətirilmişdi. Cəmiyyətin müvəkkili Xosrov Paşa bəy Sultanov tərəfindən 12 uşaq "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"-nin Tiflis uşaq evinə, qalan 20 nəfər qadın isə, yerləşdirilməsi üçün Yelizavetpol Komitəsinə göndərilmişdi. Həmin məlumata görə, Tiflis uşaq evində artıq yer olmadığına görə bütün uşaqlar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "İsmailiyyə" uşaq evinə göndərilmişdi. [2] Yaranmış vəziyyətlə əlaqədar cəmiyyətin idarə heyəti Tiflisdə qısa zaman ərzində yeni uşaq evi təşkil etməyi qərara almışdı.[3]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə dəstələri tərəfindən Qarsda və Ərdahanda öz yurd-yuvalarından didərgin düşmüş türk qaçqınları, o cümlədən kimsəsiz uşaqlar toplanaraq Bakıya və Yelizavetpola göndərilirdi. Qaçqınlaın bir yerdən digər yerlərə daşınması rəsmi dövlət orqanlarının icazəsi ilə həyata keçirilirdi. Təkcə 1915-ci ilin mart ayında müharibənin dağıntı törətdiyi

[1] Kaspi, 8 aprel 1915, № 76.

[2] Kaspi, 12 sentyabr 1915, № 203.

[3] Kaspi, 12 sentyabr 1915, № 203.

ərazilərdən 600-ə yaxın qadın və uşağın toplanaraq Bakıya və Yelizavetpola göndərilməsi üçün icazə alınmışdır.[1] Bundan əlavə Sarıqamışdan 60 nəfər qadın və uşaq toplanaraq Bakıya göndərilmişdi. [2] Qeyd edək ki, qaçqınların Bakıya və Yelizavetpola göndərilməsi üçün hökumət tərəfindən pulsuz vaqonlar ayrılırdı.[3]

Qaçqınların Qars vilayətindən Azərbaycan ərazisinə çatdırılmasında bir çox hallarda çətinliklər də yaranırdı. Bu, ilk növbədə nəqliyyatla bağlı olan problem idi. Cəmiyyətin Tiflis Komitəsinin üzvü Əfəndiyevin cəmiyyətin "Müharibədən zərər çəkənlərə və qaçqınlara kömək üzrə bölməsi"nə göndərdiyi məktubda yazılırdı ki, "...Eçmiədzin dayanacağında kimsəsiz uşaqların daşınması üçün heç bir qatar verilmir. Mən qubernatorun yanına gedirəm".[4]



Beləliklə, Qars vilayətində türk-müsəlman qaçqınlarının siyahıya alınması, onların müharibənin baş verdiyi, xarabalıqlara çevrilmiş ərazilərdən yığılaraq Azərbaycana gətirilməsi üçün bütün qüvvələr səfərbər olunmuşdur.

### 8.4. Qars vilayətində yardım işlərinin təşkili

Qafqaz cəbhəsində hərbi əməliyyatlar nəticəsində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisnə yardım vəsaiti aşağıda qeyd olunan mənbələrdən daxil olurdu: ianələrdən və dövlət xəzinəsindən. Daxil olan bütün yardımlar Qafqazda, o cümlədən Azərbaycanda, həmçinin Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman

---

[1] Baku, 15 aprel 1915, № 82.

[2] Baku, 15 aprel 1915, № 82.

[3] Baku, 15 aprel 1915, № 82.

[4] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 72.

əhalisnin istifadəsinə yönəldilirdi. Yardım ehtiyacları barədə məlumatlar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin yerlərdəki nümayəndələrin apardıqları iş nəticəsində, həmçinin yerlərdən cəmiyyətin idarə heyətinə daxil olan müraciətlər əsasında əldə olunurdu.




***Xosrov Paşa bəy Sultanovun Qarsda olan dəftərxanasında gözləmə salonu***

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsinin 1915-ci ilin fevralında verdiyi məlumatda bildirilirdi ki, Ərdahan və Acarda evləri dağıdılmış və didərgin düşmüş türk-müsəlman əhalisinin müəyyən bir hissəsi Axalsıx və Axalkələkiyə sığınmışdır. Cəmiyyətin Qars Komitəsi rəhbərliyi ilə qaçqınlarla iş aparan dəstələrin topladıqları məlumata görə, bu ərazilərdə olan qaçqınlar arasında ərzaq qıtlığı mövcud idi. [1]

[1] Baku, 20 fevral 1915, № 40.

Arxiv sənədlərində Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım göstərilməsi ilə əlaqədar müxtəlif müraciətlər öz əksini tapmışdır. Meloselsk dairəsi rəisinin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə göndərdiyi 1234 saylı məktubunda həmin ərazidəki Mələkyankur kəndinə kömək göndərilməsi xahiş olunurdu. Məktubda yazılırdı: "...mən o kənddə olanda qadınlar göz yaşları içərisində öz acınacaqlı vəziyyətlərindən danışırdılar". [1] Digər bir sənəddə Meloselsk dairə rəisinin Türkiyə vilayətləri üzrə hərbi idarəsinə yazdığı məktub yer alıb. Həmin məktubda, Mələkyankur kəndində 15 ev və 60 nəfərin olduğu bildirilirdi. Kənd sakinlərinin 3 nəfəri yaşlı, qalanları isə qadınlar və uşaqlar idi. Digər ərazilərdə olduğu kimi, Mələkyankur kəndində müharibə vaxtı evlər dağıdılmış, kənd əhalisi öz evlərinə qayıtdıqları zaman qadınlar torpaq döşəmələr üzərində yaşayış üçün yer düzəldirdilər. Meloselsk dairə rəisinin Türkiyə vilayətləri üzrə hərbi idarəyə etdiyi müraciətində yazılırdı: "Soyuqdan qorunmaq üçün nə odeyal, nə də isti geyim var. Müharibəyə qədər onların əsas məşğuliyyəti maldarlıq idi. İndi bir baş da olsa mal-qara yoxdur. Kəndə böyük kömək lazımdır. Ən vacibi isti geyim və yataq əşyalarıdır. Yaxşı olardı ki, kəndə bir neçə baş mal-qara verilsin. Mən müsəlman xeyriyyə cəmiyyətindən xahiş edirəm onlara köməyə gəlsinlər". [2] Məktubda Şikaşar kəndində də eyni vəziyyət hökm sürdüyü qeyd olunurdu. [3] "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayətində geniş fəaliyyət göstərirdi. Dövlət qurumları bu sahədə çətinliklərin aradan qaldırılmasında cəmiyyətin işinə büyük inam bəsləyirdi.



[1] ARDTA, Fond 335, siyahı, 1, iş 2, v. 95, 96, 88, 88 (arx.).

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 95, 96, 88, 88 (arx.).

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 95, 96, 88, 88 (arx.).

1915-ci il aprelin 28-də Bakıda "İsmailiyyə" binasında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə müvəkkilinin köməkçisi Aslan bəy Səfikürdskinin iştirakı ilə "Müharibədən zərər çəkən müsəlmanlara kömək bölməsi"nin iclası keçirilmişdir. İclasda Aslan bəy Səfikürdskinin Qars vilayəti üzrə dəstələrin fəaliyyəti barədə məruzəsində qeyd olunub ki, "...dəstələr kəndlərdə enerji ilə çalışırlar. Əşyaların və ərzaqların yerlərə çatdırılmasına böyük ehtiyac var". [1] Ərzaq və geyim əşyalarının yerlərdə paylanması üçün yardımçı dəstələr təşkil olunmuşdur. Bu işə Azərbaycandan gedən könüllülərlə yanaşı, yerli sakinlər də cəlb olunurdu.




***Qars Komitəsinin qarşısında siyahıya alınmaq üçün toplanmış qaçqın türk-müsəlman əhalisi***

---

[1] Kaspi, 17 may 1915, № 107.

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə mütəşəkkil və sistemli yardım tədbirləri həyata keçirilirdi. Yardımların əhaliyə paylanmasında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkili, Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov da iştirak edirdi. O, xüsusilə müharibədə dağıdılmış kəndlərdə olur, burada kimsəsiz uşaqların, qadınların yığılıb Bakıya göndərilməsi işinin təşkilinə nəzarət edirdi .[1]

1915-ci ilin aprelində Bakıdan Qars vilayətinə ərzaqla təchiz olunmuş 3 furqon göndərilmişdi. Göndərilən bu yardım "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin vilayət üzrə nümayəndəsi Firudin bəy Ordubadskinin rəhbərliyi ilə dəstələr tərəfindən paylanılmışdı. Bu yardımdan 1.055 pud ərzaq Soğanlıq ərazisində, 555 pud ərzaq Ərdəhan ərazisində yerləşən qaçqın türk-müsəlman əhalisinə satdırılmışdır.[2] Bundan əlavə, Ərdəhan dairəsinə ayrılmış 9.000 rubl məbləğdə pul yardımı Firudin bəy Ordubadski və bir nəfər əməkdaşla birlikdə əhaliyə paylanılmışdı.[3] Həmçinin hökumət tərəfindən Ərdahan dairəsi əhalisinə yardım olunmuş 4 aylıq un və taxıl verilmişdi.[4] Daxil olan bütün yardım, Qars Komitəsində toplanır və buradan yerlərə paylanırdı.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə komitəsi, göndərilən yardımların paylanılmasında geniş fəaliyyət göstərirdi. Yardım işinin mütəşəkkil formada təşkil olunması, digər problemlərin aydınlaşdırılması və həlli məqsədilə cəmiyyətin nümayəndələri ərazilər üzrə bölünmüş-

[1] Kaspi, 19 aprel 1915, № 86.

[2] Kaspi, 15 avqust 1915, № 182.

[3] Kaspi, 15 avqust 1915, № 182.

[4] Kaspi, 15 avqust 1915, № 182.

dülər: [1] Xosrov Paşa bəy Sultanov Ərdahan sahəsi üzrə, Aslan bəy Səfikürdski isə Xorasan və Sarıqamış sahələri üzrə fəaliyyət göstərən dəstələrə rəhbərlik edirdilər. Onlarla yanaşı cəmiyyətin dəstələri üzrə baş müvəkkil, Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov mütəmadi olaraq Qars vilayətinə gəlir, qaçqın və müharibədən zərər çəkən kəndlərdə insanların vəziyyəti ilə yaxından tanış olurdu.[2]

1915-ci ilin oktyabrında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars viyaəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanov Qars vilayətinin 4 qəzasında –Qars, Ərdahan, Oltu və Kağızman üzrə dəstələrin fəaliyyəti barədə hesabat vermişdi. [3] Hesabatdan aydın olurdu ki, həmin ilin may-sentyabr aylarında Qars vilayəti üzrə 33.141 nəfərə kömək göstərilmişdi. [4] Onlardan 21.641 nəfəri yuxarı yaşlılar, qalan 11.500 nəfər isə 10 yaşadək olan uşaqlar idilər. Ümumilikdə qeyd olunan bütün türk qaçqınlarına 7.099 pud un, 6.315 pud taxıl, həmçinin 24.252 rubl məbləğində nağd pul paylanılmışdı. [5] Bundan əlavə bütün yerlərə ərzaq – duz, çay, qənd, düyü, həmçinin geyim əşyaları, eyni zamanda sabun, qab-qacaq və müxtəlif ev əşyaları paylanılmışdı. [6] Hesabatda həmçinin qeyd olunurdu ki, Qars vilayətində müharibədən zərər çəkənlər üçün 5 sahədə tibbi yardım dəstələri təşkil olunmuşdur. Ərdahanda saxlanılması 20.000 rubla başa gələn pulsuz yeməkxana açılmışdır.[7]

---

[1] Kaspi, 17 aprel 1915, № 84.

[2] Kaspi, 17 aprel 1915, № 84.

[3] Baku, 17 oktyabr 1915, № 231.

[4] Baku, 17 oktyabr 1915, № 231.

[5] Baku, 17 oktyabr 1915, № 231.

[6] Baku, 17 oktyabr 1915, № 231.

[7] Baku, 17 oktyabr 1915, № 231.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsinin üzvləri dəstələrlə birlikdə yerlərə ezam olunurdular. 1915-ci ilin sentyabrında Qars Komitəsinin sədri Xosrov Paşa bəy Sultanov Komitənin əməkdaşları ilə birlikdə ərzaq və pul yardımlarının paylanması, həmçinin lazım olanları ayınlaşdırmaq üçün Kağızman və Soğanluk sahələrində olmuşdular.[1] Həmin vaxtda Firudin bəy Ordubadskinin rəhbərliyi ilə cəmiyyətin digər dəstələri isə Ərdahan sahəsində olmuş və burada 4 gün ərzində 15 kənd əhalisinə isti əşyalar, daha çox ehtiyacı olan insanlara isə 9.015 rubl pul paylanılmışdı.[2]

1915-ci ilin dekabrında Qars vilayəti üzrə Komitənin sədri Xosrov Paşa bəy Sultanov Ardanuç, Şavşet və İmerxev sahələrində olan qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım paylamışdı. Bu sahələr üzrə 80.000 rubl pul paylanmışdı. Qeyd olunanlardan əlavə Bakıdan – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən əlavə olaraq göndərilən 20.000 rubl pul vəsaiti ilə Batumdan isti əşyalar və ərzaq alınaraq türk qaçqınlarına paylanılmışdı.[3]



Dövlət xəzinəsindən qaçqın və müharibədən zərər çəkənlərə mütəmadi olaraq müxtəlif məbləğlərdə vəsait ayrılırdı. 1915-ci il aprelin 6-da Qars Vilayət Komitəsinin iclasında hökumət tərəfindən müharibədən zərər çəkənlərin və qaçqınların istifadəsi üçün 3.000.000 (üç milyon) rubl ayrılması barədə məlumat verilirdi.[4] Xosrov Paşa bəy Sultanov və Aslan bəy Səfikürdskinin iştirak etdiyi Qars Vilayət Komitəsinin iclasında azərbaycanlı nümayəndələr tərəfindən vəsaitdən müəyyən bir hissənin türk qaçqınlarına ayrılması məsələsi qaldırılmışdı. Müzakirələrdən sonra qərara alınmışdı

---

[1] Kaspi, 5 sentyabr 1915, № 198.

[2] Kaspi, 5 sentyabr 1915, № 198.

[3] Kaspi, 11 dekabr 1915, № 277.

[4] Baku, 15 aprel 1915, № 82.

ki, bu vəsaitin 150.000 rubl məbləği Qars vilayətində müharibədən zərər çəkən və qaçqın türk-müsəlman əhalisinə yardım olaraq paylanılsın.[1] Qars Vilayət Komitəsinin keçirdiyi iclasda hökumət tərəfindən ayrılan vəsait aşağıdakı qaydada bölünmüşdü: Ərdahan bölgəsinə – 60.000 rubl, Soğanluka, Zruşta və Xorasan bölgələrinə – 60.000 rubl, Oltu bölgəsinə – 30.000 rubl .[2] Bu ərazilərdə olan əhalinin yardıma daha çox ehtiyacı var idi. 1915-ci il mart ayının 27-də göndərilən "Hərbi teleqram"ına əsasən Qafqaz Ordu Komandanlığı tərəfindən qaçqınlara Oltu və Ərdahan dairələrində olan kəndlərə qayıtmağa icazə verilmişdir.

Qars Vilayət Komitəsinin iclasında qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardımların paylanması işinə Ərdahan bölgəsi üzrə Xosrov Paşa bəy Sultanovun, Qars bölgəsi üzrə isə Aslan bəy Səfikürdskinin rəhbərlik etməsi qeydə alınmışdı.[3]

Qars Vilayət Komitəsinin Ərdahan bölgəsi üzrə nümayəndəsi Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə təkcə bu ərazidə deyil, eyni zamanda həmin əraziyə yaxın olan digər bölgələrdə, o cümlədən Axalkələki və Posxovda qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım olunması üçün yerli əhali arasından xüsusi dəstələr təşkil olunurdu.[4] Təşkil olunan dəstələr müharibədə zərər çəkən və qaçqın türk-müsəlman əhalisinin vəziyyəti barədə məlumatların toplanılması və yardım paylanması işini həyata keçirmək üçün Qars vilayətinin bütün ərazilərində, o cümlədən Oltu, Kağızman və Ərdahan dairələrində fəaliyyət

[1] Baku, 15 aprel 1915, № 82.

[2] Baku, 15 aprel 1915, № 82.

[3] Baku, 15 aprel 1915, № 82.

[4] Baku, 6 may 1915, № 99.

göstərirdilər.[1] Qars vilayətində ərazinin sahəsinə görə hər əraziyə bir və ya iki nəfər nümayəndə təyin edilmişdi.

1915-ci ilin avqustunda qaçqın və müharibədən zərər çəkən əhaliyə kömək göstərmək üzrə Qars Vilayət Komitəsinin iclasında komitə üzvü, səlahiyyətli vəkil Xosrov Paşa bəy Sultanov vilayət üzrə qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin vəziyyəti barədə, həmçinin bu sahədə görülən işlər barədə çıxış etmişdi. Xosrov Paşa bəy Sultanov, Qars Vilayət Komitəsinin iclasından sonra Tiflisə gedərək Baş Qafqaz Komitəsi rəhbərliyinə əhalinin ehtiyacı barədə, həmçinin Qars vilayətində fəaliyyət göstərən azərbaycanlı nümayəndə heyətinin apardığı işlər barədə məlumat vermişdi. Tiflisdə aparılan danışıqlardan sonra Xosrov Paşa bəy Sultanov Baş Qafqaz Komitəsinin tərkibinə nümayəndə seçilmişdi.[2] 7 ay Qars vilayətində çalışan Xosrov Paşa bəy Sultanov, Baş Qafqaz Komitəsinə üzv seçildikdən sonra Batum vilayətinin üç ərazisində qaçqınların hüquqlarının müdafiəsi və onlara yardım işinin təşkilini həyata keçirirdi. Qars vilayətində fəaliyyət göstərən bütün dəstələrə rəhbərliyi isə Xosrov Paşa bəy Sultanovun müavini Əilxan Qantəmirov yerinə yetirirdi.



### 8.5. Sarıqamış ərazisində yardım işinin təşkili

Qafqaz cəbhəsində hərbi əməliyyatların aparıldığı ən qaynar nöqtə Sarıqamış ərazisi idi. Məhz bu ərazidə – Sariqamış hərbi əməliyyatında minlərlə türk əsgəri şəhid olmuş, kəndlər dağıdılmış, yerli əhali qətliamlara məruz qalmış, döyüşdən sonra öz yurd-yuvalarına dönən insanlar xarabalıqlar üzərində köməksiz yaşamağa məhkum

[1] Kaspi, 10 aprel 1915, № 78.

[2] Kaspi, 22 avqust 1915, № 187.

olmuşdular. Həmin insanlara kömək məqsədilə yerli dövlət və hökumət orqanları tərəfindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə müraciətlər edilirdi.

1915-ci ilin fevralında Sarıqamış komendantı general Voronov tərəfindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə əhaliyə kömək barədə müraciət ünvanlanmışdı.[1] Həmin müraciətdə əraziyə cəmiyyətin nümayəndələrinin göndərilməsi xahiş olunurdu.[2]

1915-ci ilin fevralında Sarıqamışda qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin vəziyyəti barədə məlumat toplamaq üçün Ağabala Quliyev və Məmmədrza Vəkilov həmin ərazidə olmuşdular.[3] Sarıqamış bölgəsində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin vəziyyətini aydınlaşdırdıqdan sonra bu ərazidə olan nümayəndələr tərəfindən cəmiyyətin idarə heyətinə teleqram göndərilmişdi. Teleqramda deyilirdi: "...müharibədən zərər çəkən müsəlmanlara güclü kömək lazımdır... un və digər ərzaq məhsulları, isti əşyalar təcili təşkil olunmalıdır".[4]

1915-ci il martın 24-də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin bölməsinə Qars vilayəti üzrə səlahiyyətli nümayəndələr Xosrov Paşa bəy Sultanov və Abbas bəy Səfikürdskidən Sarıqamışda sığınacaq tapmış türk-müsəlman qaçqınlarının vəziyyəti barədə məlumatı daxil olmuşdu. Həmin məlumatda bu ərazidə olan qaçqınlara ilkin yardım üçün 100-150 min pud taxıl lazım olduğu bildirilirdi.[5] Məlumatda həmçinin bildirilirdi ki, artıq görülən tədbirlər nəticəsində Axalkələki və

---

[1] Kaspi, 12 fevral 1915, № 33.

[2] Kaspi, 12 fevral 1915, № 33.

[3] Kaspi, 12 fevral 1915, № 33; Baku 20 fevral 1915, № 40.

[4] Kaspi, 20 fevral 1915, № 40.

[5] Baku, 8 aprel 1915, № 76.

Axalsıxda sığınacaq tapmış türk-müsəlman qaçqınları kifayət qədər taxıl ehtiyatı ilə təmin olunmuşlar.[1]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili məqsədilə bütün bölgələrdə, o cümlədən Sarıqamış ərazisində kömək dəstələri fəaliyyət göstərirdi. Daxil olan bütün yardımlar kömək dəstələri vasitəsilə əhaliyə çatdırılırdı.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən Sarıqamışda olan türk-müsəlman əhalisinə zəruri ehtiyaclarının ödənilməsi üçün ilkin yardım olaraq 2 vaqon un, bir vaqon qənd, çay və isti əşyalar göndərilmişdi.[2] Bundan əlavə, cəmiyyətin "Müharibədə yaralı və xəstə hərbçilərə kömək üzrə bölməsi" Sarıqamışa göndərmək üçün 10 ədəd tepluşka[*] sifariş etmiş, "Müharibədən zərər çəkən müsəlmanlara yardım üzrə bölmə" isə ərzaq və geyim əşyalarının göndərilməsi üçün hazırlıq işlərinə, o cümlədən vaqonların hazırlanmasına qərar vermişdi. Cəmi bir neçə gün ərzində cəmiyyətin idarə heyəti tərəfindən Sarıqamış ərazisinə 10 ədəd tepluşka, 5 vaqon un və digər ərzaq məhsulları, həmçinin isti geyim əşyaları göndərilmişdi.[3]



---

[1] Baku, 8 aprel 1915, № 76.

[2] Kaspi, 12 fevral 1915, № 33; Baku 20 fevral 1915, № 40.

[*] isidilən yük vaqonu.

[3] Kaspi, 11 mart 1915, № 56; 14 mart 1915, № 59.

## 8.6. Ərdahan ərazisində yardım işinin təşkili

Qafqaz cəbhəsində hərbi əməliyyatların aparıldığı qaynar nöqtələrdən biri də Ərdahan ərazisi idi. Qars vilayətinin digər ərazilərində olduğu kimi, Ərdahan dairəsində də türk qaçqınları və müharibədən zərər çəkən türk-müsəlman əhalisi barədə məlumat toplamaq, onların zəruri ehtiyaclarını ödəmək məqsədilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nümayəndəliyi fəaliyyət göstərirdi. Nümayəndəliyə verilən məlumatlar Qars vilayəti üzrə Komitənin sədri Xosrov Paşa bəy Sultanov vasitəsilə cəmiyyətin idarə heyətinə göndərilirdi. Ərdahandan daxil olan xəbərlər Bakı mətbuatında da dərc olunurdu. "İqbal" qəzeti səhifələrində dərc olunan məlumatda yazılırdı: "...Ərdahan kəndlərinin heç birində yaşayış yoxdur. İnsanlar canlarını qurtara bilmək üçün qaça bildikləri yerlərə getmişlər. Yalnız bir-iki yerdə 500-600 qadın-uşaq var".[1]

Ərdahanda qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisi ilə iş aparmaq üçün Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə xüsusi dəstələr təşkil olunmuş, eyni zamanda bu əraziyə yardımların çatdırılması üçün Bakıya müraciət edilmişdi. Müraciətdə bildirilirdi ki, Ərdahanda qaçqın və zərər çəkən türk müsəlman əhalisinə ilk olaraq 150.000 pud ərzaq, o cümlədən taxıl çatdırılmalıdır. Müraciətdə həmçinin qeyd olunurdu ki, yerlərə taxılın daşınması və çatdırılması üçün nəqliyyat vasitələrinə ehtiyac hiss edildiyindən hökumət qüvvələrilə nümayəndəlik bu sahədə də danışıqlar aparır.[2]

---

[1] İqbal qəzeti, 19 aprel 1915, № 916; Ömər Faiq Nemanzadə, Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1992, s. 226.

[2] Baku, 8 aprel 1915, № 76.

## 8.7. Posxov ərazisində yardım işinin təşkili

Ərdahan və Axıska arasında yerləşən Posxov ərazisi Qars vilayətinin tərkibinə daxil idi. Görkəmli yazıçı Ömər Faiq Nemanzadə buranın əhalisi barədə yazırdı: "...camaatı (Posxov əhalisi-N.M.) tamamilə müsəlmandır. Yeri meşəlik, qayalar, dağlıq və şəhərlərdən uzaq olduğuna görə camaatı çox fəqirdir. Onlar hər il bahar vaxtında özləri üçün ayrı yerlərdən yeyəcək tədarük etmək məcburiyyətindədirlər". [1]

Qafqaz cəbhəsində hərbi əməliyyatların gedişində baş verən hadisələr, yüz minlərlə insanın yurd-yuvasından didərgin düşməsi Posxov ərazisində də yerli əhalinin onsuz da ağır olan vəziyyətini bir qədər də ağırlaşdırdı. Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin müəyyən bir hissəsi bu ərazidə yerləşdirilmişdi.

Qars vilayəti üzrə komitə rəhbəri Xosrov Paşa bəy Sultanov qeyd edirdi ki, "Ərdahan tərəflərdə kimsə qalmamış, onlar canlarını qurtarmaq üçün qaça bildikləri yerə getmişdilər" Bunu təsdiq edərək, görkəmli ziyalı Ömər Faiq Nemanzadə yazırdı: "...O bədbəxtlərin çoxu canlarını bu cür əziyyətdən qurtarmaq üçün dərələr boylarında, kəndlər ətrafında, torpaqlarda düzülüb uzanmışlar, rahətə varmışlardır. Ancaq azı, çox azı yəni iki minə yaxın arvad-uşaq canlarını qurtarıb və özlərini Posxov tərəfə atmışlar...İştə böylə bir fəqir camaat 4-5 aydan artıqdır ki, özlərinə can atan minlərcə din qardaşlarını evlərində saxlayıb yeyəcəklərini yarı bölürlər". [2]

1915-ci ilin fevralında Posxov yaşayış ərazisinin fəxri nümayəndələri "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə

---

[1] İqbal qəzeti, 19 aprel 1915, № 916; Ömər Faiq Nemanzadə, Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1992, s. 226.

[2] İqbal qəzeti, 19 aprel 1915, № 916; Ömər Faiq Nemanzadə, Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1992, s. 226.

müraciət edərək, müharibə zamanı öz yurd-yuvalarından qaçqın düşmüş, hazırda maddi köməyə ehtiyacı olan çoxlu sayda türk-müsəlman əhalisinin Posxovda yerləşdiyini bildirmişdilər. Müraciətdə həmin qaçqınlara maddi kömək göstərilməsi xahiş olunurdu. [1]

Qars vilayətinin Ərdahan dairəsinin Posxov yaşayış sahəsində yerləşən qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili ilə əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara yardım üzrə bölməsi"nin iclası keçirilmişdi. İclasın qərarı ilə həmin ərazidəki qaçqın türk-müsəlman əhalisinə yardım məsələlərinin aydınlaşdırılması üçün 2 nəfər nümayəndə və ilkin yardım olaraq pul vəsaiti göndərilmişdir. Lakin buraya gedib çatmağın çətin olduğunu bildirən Posxov nümayəndələri bu əraziyə yalnız Borjom yolu vasitəsilə getməyin mümkün olduğunu bildirmişlər.[2]

1915-ci ilin fevralında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən çoxlu sayda türk qaçqınlarının sığınacaq tapdığı Posxov sahəsinə un və digər ərzaq məhsulları, həmçinin geyim əşyaları göndərilmişdir. Ərzaqların paylanılması üçün cəmiyyət üzvlərindən nümayəndələr təyin olunmuşdur.[3]



### 8.8. Van ərazisində yardım işinin təşkili

Müharibənin dəhşətləri bütün Qars vilayətini bürümüşdü. Vilayətin digər əraziləri kimi Vanda da əhalinin vəziyyəti olduqca ağır idi. 1915-ci ilin iyun ayında Vanda olan vəziyyətlə bağlı "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə teleqram daxil olmuşdur. Bu teleqram Ümumrusiya Zemstvo İttifaqının

[1] Kaspi, 25 fevral 1915, № 44; 21 aprel 1915, № 87.

[2] Kaspi, 25 fevral 1915, № 44; 21 aprel 1915, № 87.

[3] Kaspi 17 fevral 1915, № 37.

Qars vilayəti üzrə müvəkkili Aleksandr Tolstoy tərəfindən göndərilmişdi. [1] Həmin teleqramda Vanda türk-müsəlman əhalinin ağır vəziyyətdə olduğu bildirilirdi. [2]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nümayəndələri Vanda müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım etmək istəsə də, hərbi döyüş əməliyyatlarının getdiyi bir vaxtda Van şəhərinə daxil olmaq çox çətin idi. Şəhərə daxil olmaq üçün cəmiyyətin idarə heyəti tərəfindən Van hərbi komendantına müraciət olunmuşdu. Müraciətdə bildirilirdi ki, Van şəhərinə daxil olmaqda əsas məqsəd müharibədən zərər çəkən əhaliyə kömək göstərməkdir. [3]

Cəmiyyətin müraciətindən sonra Van hərbi qarnizon rəisi cəmiyyət nümayəndələrinin şəhərə daxil olması üçün rəsmi icazə vermişdi. Verilən icazə əsasında cəmiyyətin idarə heyətinin qərarı ilə həmin əraziyə cəmiyyətin iki nümayəndəsi göndərilmişdi.[4] Qeyd edək ki, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyətin"nin nümayəndə heyəti ilə birlikdə "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin nümayəndəsinin də həmin əraziyə getməsi nəzərdə tutulurdu. [5]



### 8.9. Batum ərazisində yardım işinin təşkili

Batum bölgəsi ərazisinə Artvin, Ardanuc, Şəvşət-İmerhev, Yuxarı Acar, Aşağı Acar, Borçka əraziləri daxil idi.

Birinci Dünya müharibəsi başlandıqdan sonra türk-müsəlman əhalisinin yaşadığı bir çox ərazilər kimi Batum

[1] Kaspi, 1 iyul, 1915, № 144.

[2] Kaspi, 1 iyul, 1915, № 144.

[3] Kaspi, 1 iyul, 1915, № 144.

[4] Kaspi, 1 iyul, 1915, № 144.

[5] Kaspi, 3 iyul, 1915, № 146.

bölgəsi də müharibənin ağır dəhşətləri ilə üz-üzə gəldi. Bu vəziyyətdə Azərbaycan milli-ictimai təşkilatları, xüsusilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" qaçqın və müharibədə zərər çəkən türk-müsəlman əhalisinə yardım etmək, müharibədə valideynlərini itirmiş kimsəsiz uşaqların himayəyə alınmasını təşkil etmək məqsədilə digər ərazilərdə olduğu kimi, Batum vilayəti üzrə də fəaliyyətini müəyyənləşdirmişdi. Bütün bunlarla yanaşı, Bakıda nəşr olunan istər milli mətbuat, istərsə də rusdilli mətbuat orqanları səhifələrində türk qaçqınlarına və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım çağırışlı müraciətlər olunur, kömək üçün bütün müsəlmanlar səfərbərliyə çağırılırdı.

1915-ci ilin mayında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkənlərə kömək üzrə komitə"sinin iclasında Batumda qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalinin vəziyyəti müzakirə olundu. Həmin iclasda bu ərazidə vəziyyəti aydınlaşdırmaq, zərər çəkənlərin və qaçqınların lazımi ehtiyaclarını ödəmək məqsədilə xüsusi hazırlanmış dəstə göndərilməsi barədə qərar qəbul olundu.[1] Yardım dəstələrinin Batum vilayətinə göndərilməsi üçün dövlət və hökumət orqanlarının rəsmi icazəsinin olması vacib şərtlərdən biri idi.



Bundan əvvəlki bölmələrdə bəhs etdiyimiz kimi, qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili zamanı hökumət orqanları ilə danışıqların aparılmasında Rusiya Dövlət Dumasının müsəlman deputatlarının böyük rolu olmuşdur. Müsəlman nümayəndələrinin yüksək, ali kürsülərdən çıxışları, həmçinin dövlət və hökumət rəsmiləri ilə aparılan danışıqlar bir çox məsələlərin həllində, o cümlədən komitələrin təşkilinə və dəstələrin göndərilməsinə

[1] Kaspi, 17 may 1915, № 107.

icazə alınması, həmçinin qaçqın və müharibədə zərər çəkən türk-müsəlman əhalisinə, müharibədə öz valideynlərini itirmiş kimsəsiz uşaqlara yardım olunması və bir çox məsələlərin həlli baxımından öz müsbət nəticəsini verirdi.

1915-ci ilin avqustunda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin üzvü, Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov Batum vilayəti general-qubernatoru Lyaxova Batumda qaçqın və müharibədən zərər çəkən müsəlmanlara yardım və xeyriyyə işlərinin həyata keçirilməsinə icazə verilməsi barədə müraciət etdi .[1] Bu məsələ ilə bağlı digər müraciəti isə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin sədri Mirzə Əsədullayev yenə də general Lyaxova ünvanladı.[2] Beləliklə, bir neçə müraciətdən sonra Batum general-qubernatoru Lyaxov Batum vilayətində zərər çəkənlərə kömək üçün dəstələrin təşkili ilə bağlı rəsmi razılıq verdi.[3] General Lyaxovun bu razılığı Məmməd Yusif Cəfərova göndərdiyi teleqramda da əksini tapıb.[4]



Razılaşmadan sonra "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" idarə heyətinin sədri Mirzə Əsədullayev, Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov, cəmiyyətin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanov və digər şəxslərdən ibarət nümayəndə heyəti Batuma yola düşüblər.[5] Nümayəndə heyətinin Batuma getməsində əsas məqsəd qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək üzrə Batum komitəsinin

---

[1] Kaspi, 26 avqust 1915, № 190.

[2] Yeni İqbal, 22 sentyabr 1915, № 124.

[3] ARDTA, Fond 1, siyahı 1, iş 1497, 3 (arx.).

[4] Yeni İqbal, 22 sentyabr 1915, № 124; Kaspi, 19 sentyabr 1915, № 208.

[5] Yeni İqbal, 22 sentyabr 1915, № 124.

yaradılması, həmçinin komitənin nəzdində kömək dəstələrinin təşkili olub.[1] Çox qısa bir vaxt ərzində nümayəndələrin rəhbərliyi ilə nəzərdə tutulan təşkilati tədbirlər həyata keçirilib.

Qars vilayəti üzrə səlahiyyətli nümayəndə Xosrov Paşa bəy Sultanov, eyni zamanda Batum Komitəsinin də rəhbəri idi. Onun rəhbərliyi ilə Batumda qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisi ilə iş üzrə dəstələr fəaliyyət göstərirdi.[2] Yerlərə gedərkən, dəstələri hərbi qubernatorun köməkçisi müşayiət edirdi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin dəstələri Batum vilayətinin müxtəlif ərazilərində yerləşən qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım edir və onlar üçün lazımi tədbirlərin görülməsi barədə məlumatlar yayırdılar.[3] Lakin texniki çətinliklər, xüsusilə payız-qış aylarında yollarda olan problemlər bir çox ərazilərə yardım aparılması işini çətinləşdirirdi. Belə çətinliklər daha çox vilayətin Artvin dairəsində mövcud idi. Digər kəndlərdə, o cümlədən Ardanuç, Satler, Çivereb, İmerzev kəndlərində də eyni vəziyyət hökm sürürdü.[4] Bütün bu çətinliklərə baxmayaraq, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən təşkil olunan xüsusi dəstələr müxtəlif vasitələrlə bu ərazilərə gedir, lazımi tapşırıqları yerinə yetirirdilər.



1915-ci ilin noyabrında Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə cəmiyyətin kömək dəstələri Batum vilayətinin Artvin dairəsində fəaliyyət göstərirdilər. Artvin dairəsindəki müharibə nəticəsində öz evlərindən, yurd-yuvalarından

[1] Kaspi, 13 oktyabr 1915, № 227; 29 oktyabr 1915, № 241.

[2] Kaspi, 19 dekabr 1915, № 284.

[3] Kaspi, 19 dekabr 1915, № 284.

[4] Kaspi, 19 dekabr 1915, № 284.

didərgin düşmüş türk-müsəlman əhalisinə 85.000 rubl, hər nəfərə ilkin olaraq 9 rubl, aylıq isə 4 rubl 50 qəpik olmaqla pul vəsaiti paylanılmışdı. [1]

Batum vilayətinin Ardanuç sahəsi üzrə iş aparan "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" dəstələrinin topladığı məlumatda bildirilirdi ki, müharibəyə qədər bu ərazidə 103 kənd olub və bu kəndlərdə 40.000 nəfərdən çox əhali yaşayıb.[2] Lakin müharibənin ağır dəhşətləri nəticəsində bu kəndlərin böyük əksəriyyəti tamamilə dağıdılmış, əhali isə öz yurd-yuvalarından didərgin düşmüşdür. Türk-müsəlman əhalisinin Ardanuç sahəsində yaşadığı 14 kənd, Şavşed-İmerxev sahəsində yaşadığı 42 kənd də müharibənin törətdiyi dağıntılara məruz qalmışdı.[3] Dağıntılara baxmayaraq, doğma torpağını tərk etmək istəməyən, belə şəraitsiz, yandırılmış, qaranlıq, soyuq yerdə qalmağı üstün tutan yerli əhali də vardır. 1915-ci ilin noyabrına olan məlumata görə, müharibə zamanı bu ərazilərdə yaşayan əhalidən – Ardanuç sahəsinin Bihnə kəndində 655 nəfərdən 10 nəfər, Tanzot kəndində 1.932 nəfərdən 44 nəfər və s. qalmışdı. [4] Kəndlərdə qalmış bu azsaylı əhali isə yalnız qadınlardan və uşaqlardan ibarət idi. Ardanuç sahəsində olduqca ağır şəraitdə yaşayan insanlara Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin dəstələri mütəmadi olaraq baş çəkir, onlar ərzaq və geyim əşyaları ilə təmin olunurdular. Hər bir nəfərə olunan yardım aşağıdakı qaydada müəyyənləşdi-

[1] Kaspi, 1 dekabr 1915, № 268.

[2] Kaspi, 1 dekabr 1915, № 268; 19 dekabr 1915, № 284.

[3] Kaspi, 1 dekabr 1915, № 268.

[4] Kaspi, 19 dekabr 1915, № 284.

rilmişdi: un, qənd, çay, sabun, 15 arşın parça və 13 rubl 50 qəpik pul. [1]

Batum vilayətinin Ardanuç sahəsi, qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalinin ən çox məskunlaşdığı ərazilərdən biri idi. Bu ərazi daima "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nəzarəti altında idi. 1915-ci il noyabrın 20-də cəmiyyətin səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanov və komitənin əməkdaşı Yusifxanovun təşkilatçılığı ilə ərazidə yardım tədbirləri təşkil olunmuşdu. Onların rəhbərliyi altında müharibədən zərər çəkənlərə kömək edən dəstələr tərəfindən Kutaisidən və Batumdan ərzaq, isti əşyalar, o cümlədən 2.000 pud un, 200 pud qənd, 200 pud sabun, 4 pud çay və 8.000 arşın parça alınmışdı. [2] Bütün bunlar Ardanuç sahəsinin 10 kəndində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə paylanılmışdı.[3]

Yuxarıda qeyd olunanlardan əlavə, Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə cəmiyyətin dəstələri qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə Barivanda 22.024 rubl, Samsxorda 9.487 rubl, İmerxeviyada 18 kəndə 30.000 rubl, Şavşet sahəsində 25.000 rubl pul yardımı paylamışdılar.[4] Pul yardımından əlavə hər bir nəfərə isti əşyalar və parçalar verilmişdi. [5]

1915-ci ilin mart ayına olan məlumatda bildirirlərdi ki, dövlət və hökumət orqanları tərəfindən icazə verilmədiyi üçün Batumda qaçqınlar qeydiyyata alınmamışdı. Lakin

---

[1] Kaspi, 19 dekabr 1915, № 284.

[2] Kaspi, 1 dekabr 1915, № 268.

[3] Kaspi, 1 dekabr 1915, № 268.

[4] Kaspi, 19 dekabr 1915, № 284.

[5] Kaspi, 19 dekabr 1915, № 284.

sonralar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin topladığı məlumatda bildirilir ki, Batumda 25 minə yaxın türk qaçqını vardı.[1] Bu son rəqəm deyildi. Buraya gələn qaçqınların sayı durmadan artırdı.

1915-ci ilin sentyabrında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Batum vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə vilayət üzrə siyahıyaalma zamanı məlum olmuşdu ki, burada 40.000 -dən çox qaçqın və zərər çəkmiş türk-müsəlman əhalisi vardır:[2] Kutaisidə 15.000, Aşağı Acarda 13.000, Batumda 2.000, Şavşed-İmerxev sahəsində 800, Ardanuçda 60, Axıskada 3.000, Axalkələkidə 4.000 və s. türk qaçqını məskunlaşmışdı.[3]

Əhalinin siyahıya alınması başa çatdıqdan sonra Xosrov Paşa bəy Sultanov "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə teleqramla müraciət edərək, göstərilən sayda əhaliyə böyük məbləğdə vəsait ayrılmasının vacib olduğunu bildirmişdi. Bu müraciətdən sonra cəmiyyətin idarə heyəti tərəfindən Bakıdan yeni dəstələr təşkil olunaraq, ərzaq və geyim əşyaları ilə birlikdə Batum vilayətinə göndərilmişdi. Qışın gəlməsi ilə əlaqədar isti əşyalara ehtiyac olduğundan göndərilən əşyaların böyük əksəriyyətini yarımşubalar (kürklər) təşkil edirdi.[4]



---

[1] Kaspi, 15 oktyabr 1915, № 229.

[2] Kaspi, 14 noyabr 1915, № 255.

[3] Açıq söz, 22 oktyabr, 1915, № 17.

[4] Kaspi, 14 noyabr 1915, № 255.

# IX FƏSİL
# QARS VİLAYƏTİNDƏ MƏNTƏQƏLƏRİN TƏŞKİLİ: TİBBİ VƏ ƏRZAQ MƏNTƏQƏLƏRİ

## 9.1. Tibbi məntəqələrin təşkili

Müharibənin törətdiyi ağır fəsadlar insanların həyat tərzinə, onların sağlamlığına öz mənfi təsirini göstərir, problemlər yaradırdı. Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində hərbi əməliyyatlar nəticəsində yüzlərlə kənd və yaşayış yerləri xarabalığa çevrilmiş, evi dağıdılan, minlərlə insan öz yurd-yuvasından didərgin düşmüş, onlardan bəziləri heç bir şəraiti olmayan, uçulmuş xarabalıqlar üzərində özlərinə şərait qurmağa çalışmış, bir çoxları isə müxtəlif ərazilərdə, şəraitsiz yerlərdə yaşamaq məcburiyyətində qalmışdı. Həm aclıq, həm də soyuqdan əziyyət çəkən bu insanların ağır və dözülməz həyat şəraiti onların sağlamlıqlarında da ciddi problemlər yaradırdı. Havalar istiləşdikdə isə bu xəstəliklər, xüsusilə yoluxucu xəstəliklər daha da yayılmağa başlayırdı.

Qars vilayətinin müxtəlif ərazilərində yayılmış xəstəliklərlə bağlı "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə komitəsinə və cəmiyyətin idarə heyətinə də müraciətlər daxil olurdu. Cəmiyyət digər fəaliyyət sahələri ilə yanaşı, yaranmış vəziyyətlə əlaqədar insanların sağlamlıqları ilə bağlı problemlərin həlli məqsədilə də bir sıra mühüm əhəmiyyətli tədbirlər həyata keçirirdi.

1915-ci ilin aprelində Qars Vilayət Komitəsinin iclasında Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə tibbi və ərzaq yardımı ilə bağlı məsələ qaldırmışdı.[1]

[1] Kaspi, 5 may 1915, № 98.

Qars Komitəsinə Sarıqamış sahəsindəki əhaliyədə təcili tibbi yardım edilməsi barədə müraciətlər daxil olurdu. Müraciətlərin birində qeyd olunurdu ki, Sarıqamışda çoxlu sayda xəstə insan var və onların böyük əksəriyyətini qadınlar təşkil edir.[1] Məlumatda həmin əraziyə qadın tibbi heyətin göndərilməsinin vacib olduğu bildirilirdi. Bununla əlaqədar olaraq, cəmiyyətin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanov idarə heyətinə qadın həkim və tibb bacılarının göndərilməsi barədə müraciət etmişdi. [2]





***Qars vilayətinə göndərilən tibbi yardım heyətlərindən bir qrupu***

[1] Kaspi, 19 may 1915, № 108.

[2] Kaspi, 19 may 1915, № 108.

İsti yay aylarında xəstəliklərin yayılaraq kütləvi hal alması təhlükəsi yaranmışdı. 1915-ci ilin iyun ayında vəziyyətlə tanış olmaq üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri Mirzə Əsədullayev Qars vilayətinə yola düşmüşdü. Həmin ilin iyun ayının 10-da cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölmə"sinin keçirdiyi iclasda, idarə heyətinin sədri Mirzə Əsədullayev Qars vilayətinin kənd yerlərinə etdiyi səfərin təəssüratlarını bildirmişdi:[1] "Böyük və təxirəsalınmaz kömək lazımdır, xüsusilə tibbi kömək. Əhalini epidemiyalardan qorumaq lazımdır". Belə bir şəraitdə, xəstəliklərin gündən-günə artması təxirə salınmaz tədbirlərin həyata keçirilməsini şərtləndirirdi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanov tibbi məntəqələrin təşkilinin vacibliyini bildirmişdi. Əhaliyə olunan maddi yardımla yanaşı, tibbi məntəqələrin təşkili vacib şərtlərdən biri idi. [2]

1915-ci ilin iyun ayında cəmiyyətin dəstələri tərəfindən, demək olar ki, Qars vilayətinin bütün kəndləri yoxlanılmışdı. Xəstəlikdən əziyyət çəkənlərin, tibbi yardıma ehtiyacı olanların siyahısı tərtib edilmişdi. Cəmiyyətin Qars Komitəsindən idarə heyətinə olunan müraciətdə bildirilirdi ki, "..hazırda tibbi heyətlə və çarpayılarla təchiz edilmiş tibbi məntəqələr açmaq lazımdır". [3]

Qars vilayətində tibbi məntəqələrin təşkili üçün ali orqanların, xüsusilə Baş Qafqaz Komitəsinin bu layihənin həyata keçirilməsinə rəsmi icazəsi lazım idi. Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərovun bu komitənin

[1] Kaspi, 12 iyun 1915, № 129.

[2] Kaspi, 12 iyun 1915, № 129.

[3] Kaspi, 12 iyun 1915, № 129.

üzvlüyünə nümayəndə qəbul olunması, [1] eyni zamanda Qars vilayəti üzrə komitənin sədr müavini Əlixan Kantəmirovun Şəhərlər İttifaqına üzv qəbul edilməsi[2] bu problemin həllini, tibbi məntəqələrin açılması işini nisbətən asanlaşdırdı. Beləliklə, ilk addım olaraq Ərdahanda həkim Bahadur bəy Əliverdibəyovun rəhbərləyi ilə bir müalicəxana açıldı. [3] Bahadur bəy Əliverdibəyov eyni zamanda Dəyirmanköydə, Qarahəmzədə, Pənahda və Digerdə açılan tibbi məntəqələrə nəzarət edirdi.[4]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" Qars vilayətinin 8 rayonunda tibbi məntəqə açılmasını nəzərdə tuturdu. Nəzərdə tutulan layihəyə görə, hər bir məntəqədə feldşer, tibb bacısı və iki sanitar olmalı idi. Hər bir ərazinin mərkəzindəki həkim-müdir bütün məntəqələrə nəzarət etməli idi. [5] Cəmiyyət belə hesab edirdi ki, yalnız bu yolla əhaliyə daha çox tibbi kömək oluna bilər.

Tibbi məntəqələrin təşkil olunması ilə bağlı "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" qərara almışdı ki, "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti" komitəsi ilə birlikdə xüsusi



---

[1] Kaspi, 12 iyun 1915, № 129.

[2] Xosrov Paşa bəy Sultanov "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", "Qardaş köməyi" 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[3] Xosrov Paşa bəy Sultanov "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", "Qardaş köməyi" 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[4] Xosrov Paşa bəy Sultanov "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", "Qardaş köməyi" 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[5] Kaspi, 12 iyun 1915, № 129.

komissiya yaradılsın.[1] Cəmiyyətin Qars Komitəsinin rəhbəri Xosrov Paşa bəy Sultanova bir nəfər həkim köməkçi təyin edilsin.[2]

Göründüyü kimi, əhali arasında xəstəliklərin qarşısının alınması, insanlara tibbi yardım göstərilməsi işinin təşkili vacib bir şərt kimi irəli sürülürdü. Cəmiyyət çox qısa bir vaxt ərzində bu tədbirlərin həyata keçirilməsini reallaşdırdı.

Qars vilayətinin 8 rayonunda tibbi məntəqələrin açılması ilə bağlı Qars Vilayət Komissiyasının və müharibədən zərər çəkənlərə kömək göstərmək üzrə Qars Vilayət Komitəsinin birləşmiş iclası keçirildi. İclasda vilayət komitəsinin üzvü və "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin səlahiyyətli müvəkkili Xosrov Paşa bəy Sultanov cəmiyyətin Qars vilayətində 8 tibbi məntəqənin açılması barədə tədbirlər planını təqdim etdi.[3] O, 1915-ci ilin iyununda keçirilən bu iclasda məruzə edərək, 8 rayonda tibbi məntəqələrin təşkil olunmasının vacibliyini və bu barədə cəmiyyətin qərarını bildirdi.[4] Həmçinin tibbi məntəqələrin açılmasına sərf olunacaq vəsaiti, ştatları və smetanı təqdim etdi.[5]



Məruzədə bildirilirdi ki, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən tibbi məntəqələrin açılması ilə yanaşı, digər tədbirlər də həyata keçirilmişdir. Belə ki, cəmiyyətin yeni təşkil olunmuş dəstələri xəstəliklərin daha geniş yayıldığı ərazilərdə olmuş və əhalini xəstəliklərlə bağlı maarifləndirmiş.

---

[1] Kaspi, 12 iyun 1915, № 129.

[2] Kaspi, 12 iyun 1915, № 129.

[3] Kaspi, 17 iyun 1915, № 133; 18 iyun 1915, № 134; 26 iyun 1915, № 141.

[4] Kaspi, 17 iyun 1915, № 133; 18 iyun 1915, № 134; 26 iyun 1915, № 141.

[5] Kaspi, 18 iyun 1915, № 134.

İclas yekdilliklə cəmiyyətin nümayəndəliyinə tibbi məntəqələrin açılması, həmçinin tibbi dəstələrin təşkil olunması barədə rəsmi icazə verdi və bütün tibbi məntəqələrin vilayət üçün lazım olduğu qeyd olundu.[1]

Beləliklə, 1915-ci ilin iyulunda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin təşkilatçılığı ilə bir neçə tibbi dəstə təşkil olundu. Lakin dəstələrin Qars vilayətinə göndərilməsi üçün hökumət orqanları rəsmi icazə verməli idi. Bununla əlaqədar Xosrov Paşa bəy Sultanov Tiflisə gedərək Bakıdan tibbi dəstələrin Qars vilayətinə göndərilməsi üçün icazə barədə danışıqlar aparmışdır. Danışıqlardan sonra Xosrov Paşa bəy Sultanov cəmiyyətin idarə heyətinə verdiyi məlumatda bildirmişdi ki, Tiflisdəki Qafqaz Ordu Ştabı tərəfindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin tibbi dəstələrinin Qarsa getməsinə icazə verildi.[2]



Açılacaq məntəqələrin tibbi kadrlarla təmin olunması vacib şərtlərdən biri idi. Bu iş də cəmiyyətin təşkilatçılığı ilə həyata keçirilirdi.

1915-ci ilin iyun ayında cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara kömək göstərilməsi üzrə bölməsi"nin qərarı ilə həkim Firuz bəy Ordubadski Qars vilayətinə ezam olunmuş və tibbi məntəqələrə rəhbər təyin edilmişdi. Firuz bəy Ordubadski ilə birlikdə onun həyat yoldaşı, həkim Gülsüm xanım Ordubadskaya və 2 nəfər tibb işçisi də göndərilmişdi.[3]

Bakıdan Qarsa bir-birinin ardınca tibbi dəstələr göndərilirdi. Tiflisdəki Qafqaz Ordu Ştabının rəsmi icazəsindən

---

[1] Kaspi, 17 iyun 1915, № 133; 18 iyun 1915, № 134; 26 iyun 1915, № 141.

[2] Kaspi, 28 iyul 1915, № 167.

[3] Kaspi, 20 iyun 1915, № 136; 3 iyul 1915, № 146.

sonra 1915-ci ilin iyul ayında Qars ərazisinə ilk tibbi dəstə göndərildi. Cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölməsi"nin qərarı ilə Əlixan Kantəmirov cəmiyyətin Qars vilayəti üzrə müvəkkilnin köməkçisi təyin olunmuşdu. O, eyni zamanda Qarsa göndərilən ilk tibbi dəstəyə rəhbərlik edirdi.[1]

Cəmiyyətin təşkilatçılığı ilə Bakıdan Qarsa ikinci tibbi dəstə də göndərildi. Bu dəstə 1915-ci il avqustun 7-də yola salındı. Dəstənin tərkibi 9 nəfər tibb işçisindən – 4 tibb bacısı, bir feldşer, 2 akuşerka və 2 sanitardan ibarət idi. [2]

Yayın gəlməsi ilə əlaqədar kütləvi epidemiyaların yayılması Qars vilayəti ərazisində tibbi dəstələrin işini daha da artırmışdı. Yayılan xəstəliklərin qarşısını almaq üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" bir-birinin ardınca tibbi dəstələr təşkil edir və Qarsda əhalinin daha sıx məskunlaşdığı ərazilərə göndərirdi. Cəmiyyət tərəfindən bir ay ərzində Qarsa 3 tibbi dəstə göndərilmişdi. Üçüncü tibbi dəstə avqust ayının sonlarına yaxın yola salınmışdı. Həmin dəstənin tərkibi 3 feldşer, 3 tibb bacısı və 3 sanitardan ibarət idi.[3]

Göndərilən dəstələrin yerləşdirilməsi "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin vilayət üzrə nümayəndəliyi tərəfindən həyata keçirilirdi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə müxtəlif rayonlarda tibbi məntəqələr təşkil olunurdu. Bu məntəqələr xüsusilə məktəb binalarında yerləşdirilmişdi. Cəmiyyət tərəfindən ilk tibbi məntəqə Ərdahan dairəsinin Dəyirmanköy və Xanar kəndlərinin məktəb binasında açılmışdı. Həmin məntəqəyə cəmiyyətin

[1] Kaspi, 28 iyul 1915, № 167.

[2] Kaspi, 12 avqust 1915, № 179.

[3] Kaspi, 26 avqust 1915, № 190.

baş müvəkkili Xosrov Paşa bəy Sultanovun köməkçisi Firuz bəy Ordubadskinin həyat yoldaşı Gülsüm xanım Ordubadskaya rəhbərlik edirdi. Məktəb binasında açılan ilk tibbi məntəqə 10 çarpayılıq idi.[1]

Bakidan Qars vilayətinə göndərilən tibbi dəstələr açılan məntəqələrə yerləşdirilirdi. Yeni tibb məntəqələri əhalinin tibbi köməyə daha çox ehtiyacı olan yerlərdə açılırdı. Açılan tibbi məntəqələr həm ambulator, həm də yataq rejimində təşkil olunaraq fəaliyyət göstərirdi. Məntəqələrin təşkil olunmasında başlıca problem əlverişli binaların olmaması idi. Hansı kənddə məktəb binası var idisə, o kənddə az vaxt ərzində məntəqə təşkil olunurdu. Məktəb binası olmayan kəndlərdə isə tibbi məntəqələrin açılması böyük çətinliklərlə başa gəlirdi. Belə ki, burada daxmalar düzəldilirdi. Bu çətin tapşırıq Xosrov Paşa bəy Sultanov və Firuz bəy Ordubadskinin böyük səyi ilə həyata keçirilirdi. [2]



1915-ci ilin sentyabrında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanovun verdiyi məlumatda bildirilirdi ki, "...Ərdahan dairəsinə kifayət qədər kömək göstərilir... Tibbi məntəqələrin təşkili və ərzaq məntəqələrinin sayının artırılması əhaliyə kömək işini tamamlayır".[3]

1915-ci ilin sentyabrında yeni tibbi dəstə təşkil olunaraq Bakıdan Qarsa göndərilmişdi. Bu dəstənin tərkibinə 3 tibb bacısı, 2 feldşer, 3 sanitar daxil idi.[4] Dəstələrin Qars vilayətinə çatması yeni tibbi məntəqələrin açılması demək idi. Yeni tibbi məntəqələrin açılması əhali tərəfindən böyük sevinclə

---

[1] Kaspi, 12 sentyabr 1915, № 203.

[2] Kaspi, 18 sentyabr 1915, № 207.

[3] Kaspi, 18 sentyabr 1915, № 207.

[4] Kaspi, 12 sentyabr 1915, № 203.

qarşılanırdı. "Kaspi" qəzeti yazırdı: "...Dəyirmanköydə məntəqənin açılışı zamanı hər kəs sevinc içərisində idi. Qadınlar isə göz yaşları içərisində Ordubadskayanı (Gülsüm xanım Ordubadskaya –N.M) ana qızını qucaqladığı kimi qarşılayır, ona sarılırdılar. Hər kəs yeni işə sevinirdi və danışırdılar ki, hansı bir xəstəlik olarsa, bu barədə xəbər verəcəklər. Daha iki, üç məntəqə açılacaq və vilayət epidemiyadan qorunacaq".[1]

Ağır və olduqca gərgin iş şəraiti dəstə rəhbərlərinin də səhhətində müəyyən problemlər yaradırdı. Cəmiyyətin Qars vilayəti üzrə tibbi dəstələrinin rəhbəri Firuz bəy Ordubadski səhhətində yaranmış problemlə əlaqədar 1915-ci ilin noyabrında vəzifəsindən istefa vermək məcburiyyətində qalmışdı.[2] Cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölmə"sinin qərarı ilə Bakı sanitar həkimi Bahadur Əliverdibəyov Qars vilayəti üzrə tibbi dəstələrə rəhbər təyin olunmuş və yeni təşkil olunmuş tibbi dəstə ilə birlikdə Qarsa göndərilmişdi.[3]

Lakin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin tibbi məntəqələrin təşkili sahəsində həyata keçirdiyi uğurlu tədbirlər, o cümlədən Qars vilayətinə mütəmadi olaraq göndərilən tibbi dəstələr mövcud tibbi ehtiyacı lazımi səviyyədə ödəyə bilmirdi. Xüsusilə müharibə bölgələrində kütləvi epidemiyaların yayıldığı bir şəraitdə tibb işçilərinə böyük ehtiyac hiss olunurdu. Cəmiyyət tərəfindən göndərilən tibbi dəstələr isə kifayət etmirdi.

Vilayət üzrə tibb işçilərinin çatışmazlığı bu tədbirlərin həyata keçirilməsini, tibbi məntəqələrin açılmasını çətinləşdirirdi. Yaranmış vəziyyətlə əlaqədar cəmiyyətin Qars vilayəti

[1] Kaspi, 12 sentyabr 1915, № 203.

[2] Kaspi, 15 sentyabr 1915, № 256.

[3] Kaspi, 26 noyabr 1915, № 264; 18 dekabr 1915, № 283.

üzrə səlahiyyəti nümayəndəsi Xosrov Paşa bəy Sultanov Bakıya – "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin idarə heyətinə həkim və feldşer kadrlarının axtarılması ilə əlaqədar müraciət etdi. Müraciətdə bildirilirdi ki, əgər tibbi heyət tapılarsa, vilayətin müxtəlif yerlərində tibbi məntəqələrin açılması mümkündür.[1]

1915-ci ilin noyabrında cəmiyyətin "Müharibədə zərər çəkən müsəlmanlara kömək üzrə bölməsi" tibb işçilərinin qəbulu barədə qəzet səhifələrində elan verilmişdi. "Kaspi" qəzeti səhifələrində verilən elanda yazılırdı: "Qars və Batum vilayətlərinə epidemiyalara qarşı mübarizə üçün 2 həkim və 4 feldşer lazımdır. Həkimlər həmçinin komitənin sanitar dəstələrinə rəhbərlik edəçəklər. Həkimlərə aylıq 600 rubl, feldşerlərə 200 rubl veriləcək. Xidmət müddəti 6 aydan az olmayacaq".[2] Cəmiyyət tərəfindən ödəniləcək bu aylıq maaş kifayət qədər böyük məbləğ idi. Belə ki, bir ayda verilməsi nəzərdə tutulan bu məbləğ həmin dövrdə orta birillik əmək haqqına bərabər idi.



Batum ərazisində də tibbi vəziyyət eynilik təşkil edirdi. Müharibə bölgələrində bir tərəfdən ərzaq qıtlığı, digər tərəfdən isti, sonra isə soyuq hava şəraiti, antisanitar vəziyyət əhali arasında bir çox xəstəliklərin yayılmasına şərait yaradırdı. 1915-ci ilin noyabrında cəmiyyətin Qars vilayəti üzrə müvəkkili Xosrov Paşa bəy Sultanov Batum şəhəri başçısı ilə birlikdə əhalinin vəziyyəti ilə yaxından tanış olmaq məqsədilə həmin ərazilərdə olmuşdu. Məlum olmuşdu ki, bu kəndlərdə, xüsusilə Aşağı Acarda qarın yatalağı xəstəliyi sürətlə yayılmaqdadır. Tibb işçilərinin olmaması bu vəziyyəti daha da ağırlaşdırır, əhali arasında xəstəliyin

---

[1] Kaspi, 19 noyabr 1915, № 259.

[2] Kaspi, 25 noyabr 1915, № 263.

daha da geniş yayılmasına imkan yaradırdı. Xosrov Paşa bəy Sultanov vilayət komitəsinin iclasında çıxış edərək əhalinin vəziyyəti barədə məlumat vermiş və təcili tibbi məntəqələrin açılması məsələsini qaldırmışdı.[1]

Beləliklə, Qars vilayətində tibb məntəqələrinin açılması ilə bağlı həyata keçirilən tədbirlər böyük çətinliklərlə də olsa təşkil olunurdu. Təşkil onunan tibb məntəqələrinin fəaliyyəti nəticəsində Qars vilayətində müharibədən zərər çəkən türk-müsəlman əhalisi arasında yayılmaqda olan xəstəliklərin qarşısı nisbətən alınmış, bu məntəqələr əhalinin sağlamlığının bərpasında müəyyən rol oynamışdı.

## 9.2. Ərzaq məntəqələrinin təşkili

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım edilməsi sahəsində ərzaq məntəqələrinin təşkili "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin bu sahədə apardığı işlərin mühüm tərkib hissələrindən biri idi.

Bundan öncəki bölmələrdə bəhs etdiyimiz kimi, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən Qars vilayətində həyata keçirilən hər bir layihə dövlət və hökumət orqanlarının rəsmi icazəsi ilə reallaşırdı. Ərzaq məntəqələrinin də təşkili bu qaydaya müvafiq olaraq, icazə ilə həyata keçirilirdi.

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin ərzaq və geyim əşyaları ilə mütəmadi olaraq təminatı üçün ərzaq məntəqələrinin açılması vacib şərtlərdən biri idi. Bununla bağlı, Azərbaycanın görkəmli ziyalıları, türk-müsəlman əhalisinin qaçqınlıq taleyini düşünən xalqın nümayəndələri ərzaq məntəqələrinin təşkili ilə

[1] Kaspi, 19 noyabr 1915, № 259.




***"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsinin Türkiyə sərhədlərində ərzaq paylayarkən görüntüsü***



əlaqədar dövlət və hökumət orqanları qarşısında məsələ qaldırır, müraciətlər edirdilər.

1915-ci ilin fevralında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi və Qars Vilayət Komitəsinin üzvü Xosrov Paşa bəy Sultanov ərzaq məntəqələrinin açılması ilə bağlı Qars Vilayət Komitəsinin iclasında məsələ qaldırmışdı. [1]

Ərzaq və tibbi məntəqələrin təşkili ilə bağlı Məmməd Yusif Cəfərov Tiflisdə, Baş Qafqaz Komitəsinin iclasında çıxış etmişdi. Həmin iclasda o, Qarsda və Ərdahanda qaçqın və müharibədən zərər çəkən müsəlmanlara tibbi və ərzaq yardımı edilməsi sahəsində dəstələrin fəaliyyəti barədə

---

[1] Kaspi, 19 fevral 1915, № 86.

məlumat vermişdi.[1] Məmməd Yusif Cəfərov qaçqın və müharibədən zərər çəkənlərə yardım məqsədilə tibbi və ərzaq məntəqələrinin təşkil olunması barədə məsələ qaldırmışdı.[2] Bütün bu təşəbbüslərdən sonra "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə Qars vilayətində tibbi məntəqələrlə yanaşı, ərzaq məntəqələrinin də təşkilinə icazə verilmişdi.

Qars vilayətində ərzaq məntəqələri qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin daha sıx olduğu ərazilərdə təşkil olunurdu. Təşkil olunan məntəqələrə Bakıdan, eləcə də Azərbaycanın digər bölgələrindən yardımlar göndərilirdi. Yardımların Qars vilayətinə çatdırılması üçün cəmiyyətin səlahiyyətli müvəkkili Xosrov Paşa bəy Sultanovun müraciəti əsasında hökumət tərəfindən 5 vaqon verilmişdi.[3]



***Türk-müsəlman qaçqınlarına yardımçı dəstələrdən bir qrup***

---

[1] Kaspi, 24 aprel 1915, № 90.

[2] Kaspi, 5 may 1915, № 98.

[3] Kaspi, 19 fevral 1915, № 86.

Baş müvəkkil Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə yardım dəstələri qaçqınların yerləşdiyi ərazilərdə olur və burada əhalinin ehtiyaclarını öyrənirdilər. İlk növbədə əhalinin daha sıx yerləşdiyi yerlərdə ərzaq məntəqələri təşkil olunurdu.

Qars vilayəti üzrə Əixan Kantəmirovun rəhbərliyi ilə Qara Həmzə kəndində, İsmayıl Nəzərəliyevin rəhbərliyi ilə Xaxafi kəndində, Saleh Sultanovun rəhbərliyi ilə Oltuda, İlyasovun rəhbərliyi ilə Pənahkənddə ərzaq məntəqələri açılmışdı.[1]

1915-ci ilin mayında Xosrov Paşa bəy Sultanov qaçqınların daha çox məskunlaşdığı Ərdahan dairəsində, Axalkələki qəzasında və Posxov sahəsində ərzaq məntəqələrinin təşkil olunması, həmçinin ərzaq paylanması üçün dəstələrin yaradılması barədə göstəriş vermişdi.[2]



Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə yardımçı dəstələrin siyahıya almaları nəticəsində məlum olmuşdu ki, qaçqın və müharibədən zərər çəkən müsəlmanların sıx məskunlaşdığı yerlərdən biri də Acar və Ərdanuç sahələridir. Cəmiyyət tərəfindən ərzaq məntəqələrinin açılması bu ərazilərdə də həyata keçirilmişdir. 1915-ci ilin noyabrında Aşağı Acarda ərzaq məntəqəsi açılmışdı. [3] Həmin məntəqədə dükanlardan alınan ərzaq məhsulları, həmçinin Bakıdan, Gəncədən, İrəvandan və digər ərazilərdən göndərilən yardımlar saxlanılır və buradan Aşağı Acar və digər yaxın kəndlərdəki qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə paylanılırdı.[4]

---

[1] Xosrov Paşa bəy Sultanov "Bakı müsəlman cəmiyyəti xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", "Qardaş köməyi" 1917-ci il, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[2] Kaspi, 3 may 1915, № 97.

[3] Kaspi, 3 noyabr 1915, № 245.

[4] Kaspi, 3 noyabr 1915, № 245.

Batum vilayəti üzrə qaçqın müsəlmanların yerləşdirilməsində, onlara ilkin və davamlı olaraq yardım göstərilməsində cəmiyyətin səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanovun böyük xidmətləri olmuşdur. Qeyd edək ki, Xosrov Paşa bəy Sultanovun dövlət və hökumət nümayəndələri ilə olan şəxsi münasibəti cəmiyyətin bu ərazidə apardığı işə də öz müsbət təsirini göstərirdi. Belə ki, ərzaq qıtlığının yarandığı bir vaxtda bu ərazilərdə ərzaq məhsullarının alınması işinin təşkilində Qars Vilayət Komitəsinin də müəyyən xidmətləri olmuşdu.[1]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə səlahiyyətli nümayəndələri, həmçinin cəmiyyətin dəstələri daxil olan pul yardımlarından ərzaq və sənaye mallarının alınmasında olduqca səmərəli istifadə etməyə çalışırdılar. İlk olaraq, nümayəndələr və dəstələr tərəfindən bütün ərazilərdə satış qiymətləri nəzərdən keçirilir, sonra daha ucuz satış yerlərindən ərzaq və sənaye malları alınırdı. Nağd pulla ticarət Kutaisidən edilirdi. Buradan alınan mallar Batuma nisbətən 40 faiz ucuz başa gəlirdi.[2] Cəmiyyətin dəstələri tərəfindən Kutaisidən alınan un, çörək və digər ərzaq məhsulları cəmiyyətin Acarda açılmış ərzaq məntəqəsinə yığılırdı.[3] 1915-ci ilin oktyabr ayı üçün yardımçı dəstələr tərəfindən 200 pud qənd, 3 pud çay, 500 pud un və 100 pud düyü alınaraq "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Aşağı Acarda olan məntəqəsinə göndərilmişdi ki, bu məntəqədən də Aşağı və Yuxarı Acar kəndlərində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə paylanılırdı.[4] Bununla

[1] Kaspi, 3 noyabr 1915, № 245.

[2] Kaspi, 10 noyabr 1915, № 251.

[3] Kaspi, 10 noyabr 1915, № 251.

[4] Kaspi, 10 noyabr 1915, № 251.

yanaşı Aşağı Acar, Yuxarı Acar və Ardanuç kəndlərində hər nəfərə 4 rubl 50 qəpik məbləğində pul paylanılmışdı.[1] Yardım paylanmasından sonra 10 gün müddətində Xosrov Paşa bəy Sultanov yardımçı dəstə üzvləri ilə bilikdə müharibədə zərər çəkmiş digər kəndlərə də baxış keçirmişdi. Bu kəndlərdəki əhalinin ehtiyacı aydınlaşdırıldıqdan sonra həmin kəndlərə cəmiyyətin əməkdaşları tərəfindən lazım olan ərzaq və isti əşyalar göndərilmişdi. [2]

Qars vilayətində həyata keçirilən tədbirlər, o cümlədən ərzaq məntəqələrinin təşkili, yardımçı dəstələrin fəaliyyəti,




*"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayətində geyim anbarı*

[1] Kaspi, 10 noyabr 1915, № 251.

[2] Kaspi, 10 noyabr 1915, № 251.

yardımların paylanması və s. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" idarə heyətinin daima nəzarəti altında aparılırdı. 1915-ci ilin mayında cəmiyyətin baş müvəkkili, Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov və cəmiyyətin sədri Mirzə Əsədullayev Qars vilayətində göstərilən köməyin nizamlı qaydada təşkili ilə tanış olmaq üçün ərazilərdə olmuşdular.[1] Onlar vilayətin müxtəlif yerlərində sığınacaq tapmış türk qaçqınlarının vəziyyəti ilə tanış olduqdan sonra qaçqınların daha sıx yerləşdirildiyi ərazilərdə ərzaq məntəqələrinin təşkil olunması barədə göstəriş vermişdilər. Cəmiyyətin nümayəndəsi Aslan bəy Səfikürdski Sarıqamış rayonu üzrə ərzaq dəstələrini təşkil etmişdi.[2]

1915-ci ilin sentyabrında Ərdahan dairəsinin Xanar məktəb binasında cəmiyyətin Qars vilayəti üzrə nümayəndəsinin köməkçisi Firuz bəy Ordubadskinin həyat yoldaşı Gülsüm xanım Ordubadskayanın rəhbərliyi ilə ərzaq məntəqəsi açılmışdı.[3] Qeyd edək ki, Gülsüm xanım Ordubadskayanın rəhbərliyi ilə tibbi məntəqədə fəaliyyət göstərirdi.

Beləliklə, Azərbaycanın görkəmli ziyalılarının təşkilatçılığı ilə Qars vilayəti ərazisində açılan ərzaq məntəqələri qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin ərzaq tələbatının nisbətən yaxşılaşmasında müəyyən rol oynadı.

[1] Kaspi, 26 may 1915, № 114.

[2] Kaspi, 3 may 1915, № 97.

[3] Kaspi, 12 sentyabr 1915, № 203.

### 9.3. Ərzaq kooperativləri

Birinci Dünya müharibəsi illərində yaranmış iqtisadi böhran Rusiya imperiyası ərazisində olduğu kimi, Azərbaycanda da öz təsirini göstərirdi. Ərzaq və sənaye məhsullarının qiymətləri bahalaşmış, əhalinin iqtisadi durumu ağırlaşmışdı. Bakıda 1914-cü ilin iyul ayından 1917-ci ilin yanvar ayına qədər olan zaman kəsiyində çörəyin qiyməti 100%, qəndin qiyməti 51%, südün qiyməti 205%, yumurtanın qiyməti 292% və s. artmışdı. Ümumilikdə isə ərzaq məhsullarının ortalama artımı 256,3% olduğu halda, əmək haqlarında orta artım 218% qalmışdı. Qiymətlərin ən çox 1916-cı ildə artdığı müşahidə olunurdu.[1] 1916-cı ilin əvvəlində ərzaq məhsullarının qiyməti xeyli bahalaşmışdı. Un, düyü, çörək, ət, toyuq, yumurta, göyərti və başqa ərzaq məhsullarının qiyməti gündən-günə artırdı.[2]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" ağır bahalaşma şəraitində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin ərzaq və sənaye məhsulları ilə təmin olunmaları üçün müəyyən tədbirlər həyata keçirirdi. Qars vilayətində ərzaq məntəqələri ilə yanaşı, ərzaq kooperativləri də təşkil edilirdi. Vilayətdə ərzaq kooperativlərinin təşkilinə cəmiyyətin nümayəndəsi Əlixan Kantəmirov rəhbərlik edirdi. 1917-ci ilin yanvarına olan məlumata görə kooperativlərin təşkili məqsədilə 60.000 rubl ianə yığılmışdı.[3] Ərzaq kooperativlərinin təşkili ilə əlaqədar Bakıdan Qars vilayətinə mütəxəssislər dəvət olunmuşdu.[4]

[1] Halil Bal, Azerbayca Cümhuriyyətinin kurtuluş mücadilesi ve Kafqas İslam Ordusu, İstanbul, 2010, s. 47.

[2] Manaf Süleymanov Eşitdiklərim, oxuduqlarım, gördüklərim, B., 1989, s. 210.

[3] Kaspi, 28 yanvar 1917, № 23.

[4] Kaspi, 28 yanvar 1917, № 23.

Ümumrusiya Şəhərlər İttifaqının Qars vilayəti üzrə nümayəndəliyi kooperativlərə kömək üçün 10 vaqon qənd təhvil vermişdi. Ərzaq kooperativlərinin təşkili ilə əlaqədar "Kaspi" qəzeti yazırdı: "...bu ilk kooperativdir ki, müsəlman əhalisi tərəfindən təşkil olunur. Kooperativin təşkil olunması təşəbbüsü "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə aiddir və bunun təşkili üçün maddi dəstək verir".[1]

Qars vilayətində ərzaq kooperativlərinin təşkili ilə əlaqədar Əlixan Kantəmirovun rəhbərliyi ilə hazırlanmış layihəyə görə, mərkəzi idarənin Qarsda olması, Kağızmanda, Ərdəhanda və Oltuda, həmçinin iri kəndlərdə bölmələrinin yaradılması nəzərdə tutulurdu. [2]

1917-ci ilin fevralında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars bölməsinin müvəkkili Əlixan Qantəmirovun rəhbərliyi ilə bütün vilayət üzrə müsəlman kooperativ dükanlarının təşkilinə başlanılmışdı.[3]



### 9.4. Əhalinin iqtisadi durumunun yaxşılaşdırılması sahəsində görülən tədbirlər

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işi planlı şəkildə həyata keçirilirdi. Əhaliyə bir tərəfdən ərzaq, geyim əşyaları, yataq dəstləri, pul yardımı olunurdusa, digər tərəfdən onların məşğuliyyəti də nəzərə alınırdı. Əhalinin daima qida məhsulları ilə təminatı üçün mal-qaranın alınması mühüm əhəmiyyət kəsb edirdi.

---

[1] Kaspu, 28 yanvar 1917, № 23.

[2] Kaspi, 2 fevral 1917, № 27.

[3] Kaspi, 21 fevral 1917, № 41.

“Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”nin Qars vilayəti üzrə Komitəsi qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin mal-qara ilə təminatı layihəsini Qars Vilayət Komitəsi ilə birgə həyata keçirirdi. 1915-ci ilin iyulunda Qars vilayət qubernatoru, polkovnik Podqurskinin sədrliyi ilə Ərdahan komitəsinin iclası keçirildi.[1] Cəmiyyətin səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanovun iştirak etdiyi həmin iclasda Ərdahan dairəsində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məsələsinin müzakirəsi zamanı qərara alınmışdı ki, onlara mal-qara alınıb paylanılsın.[2]

Həmin qərara müvafir olaraq, “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”nin Qars vilayəti üzrə nümayəndəliyi və onun rəhbərliyi altında cəmiyyətin dəstələrinin fəaliyyəti daha da genişləndi. Cəmiyyətin dəstələri səfərbər olunaraq, qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə mal-qara alınıb paylanılması ilə əlaqədar nəzərdə tutulan bütün tədbirləri həyata keçirirdilər.[3]



Qars vilayəti üzrə səlahiyyətli nümayəndə Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə digər ərazilərdən mal-qara alınaraq Ərdahana gətirilirdi. Alınan mal-qara cəmiyyətin yardımçı dəstələri tərərfindən qaçqın və müharibədən zərər çəkənlərə paylanılırdı. Əhalinin mal-qara ilə təmin olunması ilk olaraq Ərdahan dairəsinin bir neçə sahəsində həyata keçirilmişdi. Sonralar isə bu iş daha sistemli təşkil olunmuşdu. Belə ki, Xosrov Paşa bəy Sultanovun göstərişi ilə cəmiyyətin dəstələri tərəfindən əhalinin qeydiyyatı aparılmışdı ki, bu siyahı əsasında da mal-qaranın paylanılması işi kəndbəkənd həyata keçirilirdi.[4]

---

[1] Kaspi, 8 iyul 1915, № 150.

[2] Kaspi, 8 iyul 1915, № 150.

[3] Kaspi, 8 iyul 1915, № 150.

[4] Kaspi, 22 iyul 1915, № 162.

1915-ci ilin avqustunda Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə mal-qara alınmsı üçün xüsusi komissiya təşkil olunmuşdu. Komissiyanın tərkibinə vilayət üzrə baytarlıq müfəttişi Livşitsa, Qars Vilayəti Xalq Məktəbləri üzrə müfəttiş Razumovski və "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin müvəkkili Xosrov Paşa bəy Sultanov daxil idilər.[1] Komissiya üzvləri tam tərkibdə Qars vilayətinin Çaldıq sahəsinə getmiş, buradan mümkün qədər ucuz və yaxşı mal-qara almaq üçün sahənin müxtəlif yerlərinə yardımçı dəstələr göndərmişdilər. Yardımçı dəstə üzvləri mal-qaranın qiyməti ilə tanış olmaq üçün Şurayel və Ağbaba sahələrinə getmişdilər.[2] Komissiya tərəfindən Ağbaba sahəsindən 109 baş mal-qara, inəklər hər biri 42 rubldan, öküzlər isə hər biri 72 rubldan alınmışdı.[3]

Qars vilayəti üzrə satın almaq üçün çoxlu sayda mal-qara olmadığına görə, komissiya qərara almışdı ki, mal-qara alınması işi Tiflis quberniyasının Axalkələki qəzasında həyata keçirilsin.[4] Buradan alınan mal-qara Qars vilayətinə, o cümlədən Ərdahan sahəsində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhaliyə paylanılırdı.

Cəmiyyətin Qars vilayəti üzrə həyata keçirdiyi iqtisadi layihəyə digər təşkilatlar tərəfindən də maddi dəstək olunurdu. 1915-ci ilin sentyabrında Ümumrusiya Zemstvo İttifaqı tərəfindən cəmiyyətin Qars vilayəti üzrə nümayəndəliyinə 11.000 rubl yardım edilmişdi. Cəmiyyətin nümayəndəliyi tərəfindən həmin vəsaitlə mal-qara alınaraq 5 müsəlman kəndinə paylanılmışdı.[5]

---

[1] Kaspi, 15 avqust 1915, № 182.

[2] Kaspi, 15 avqust 1915, № 182.

[3] Kaspi, 15 avqust 1915, № 182.

[4] Kaspi, 15 avqust 1915, № 182.

[5] Kaspi, 11 sentyabr 1915, № 202.

## 9.5. Aya-Sofi məscidinin bərpası

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" Qars vilayəti üzrə göstərdiyi fəaliyyətdə öz imkanları daxilində əhaliyə hər bir sahədə kömək göstərməyə çalışırdı. 1915-ci ilin yayında Aya-Sofi kəndinin sakinləri cəmiyyətin müvəkkili Xosrov Paşa bəy Sultanova Aya-Soyi məscidinin təmir olunmasına kömək barədə müraciət etmişdilər. Xosrov Paşa bəy Sultanovun göstərişi ilə cəmiyyətin dəstə üzvləri qısa müddət ərzində – 5 günə bu tapşırığı yerinə yetirərək Aya Sofi kəndinin vəkili ilə birgə Qarsa gəlmişdir. Kənddə tələb olunan köməyin dərəcəsi aydınlaşdırılmış və "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin vəsaiti hesabına məscidin təmirinə başlanılmışdı.[1] Əlavə olaraq kənd vəkilinə 100 rubl verilmişdi ki, məscidin təmirini başa çatdırsın.[2] Bu fakt cəmiyyətin dini-mənəvi dəyərlərə göstərdiyi ehtiramın bariz nümunəsi idi.



Beləliklə, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin qaçqın və müharibədən zərər çəkənlərə kömək üzrə Qars Komitəsi böyük maddi potensiala malik olmadığı halda, maddi ehtiyacları ödəmək üçün əlində olan bütün qüvvələrdən istifadə edərək Qars vilayətində, Ərzurumda, Xınısda, Muş ətrafında, Diyadində, Bəyaziddə, Batumda, Suxumi dairəsində, Milos ətrafında, Axiskada, Tiflisdə, Tortumda və digər ərazilərdə türk qaçqınlarına yardım işinin həyata keçirilməsinə nail olmuşdu.

---

[1] Kaspi, 26 avqust 1915, № 190.

[2] Kaspi, 5 sentyabr 1915, № 198.

# X FƏSİL
# TÜRK QAÇQIN UŞAQLARI İLƏ BAĞLI TƏDBİRLƏRİN HƏYATA KEÇİRİLMƏSİ

## 10.1. Müharibə bölgələrindən yığılan türk qaçqın uşaqlarının yerləşdirilməsi

Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində hərbi əməliyyatlar zamanı, müharibənin dəhşətləri nəticəsində minlərlə ev dağıdılmış, kəndlər xarabalığa çevrilmiş, saysız-hesabsız türk-müsəlman əhalisi, rus qoşun hissələri, həmçinin yerlərdə silahlandırılmış erməni silahlı dəstələri tərəfindən qətliam edilmiş, evləri dağıdılmış ailələr qaçaraq pərən-pərən düşmüş, valideynlərini itirmiş, minlərlə uşaq tənha, yaxud anasına sarılaraq çöldə-düzdə qaranlıq yollarda, xarabalıqlarda baxımsız qalmışdı. Tarixin çətin sınaqları qarşısında olan köməksiz körpələrə, analara yardım göstərmək, onları himayə etmək Tanrının imkanı olan şəxslərə bəxş etdiyi ən böyük şans idi. Bu baxımdan Azərbaycanın görkəmli ziyalılarının və sahibkarlarının rəhbərlik etdikləri Azərbaycan milli-ictimai təşkilatları, o cümlədən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti", "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti" və digərlərinin fəaliyyəti mühüm tarixi əhəmiyyətə malik olmaqla yanaşı, bütün bəşəriyyətə, insanlığa bir örnəkdir.

Müharibənin ilk günlərindən etibarən, Qars vilayətində azərbaycanlı nümayəndələri tərəfindən təşkil olunmuş yardımçı dəstələrlə yanaşı, hərbi dəstələr və digər qeyri-müsəlman təşkilatları da fəaliyyət göstərirdi.

Qafqaz cəbhəsində dağıdılmış kənd xarabalıqları üzərində qalmış kimsəsiz türk uşaqları və qadınları sərhəddəki rus əsgərləri, həmçinin burada fəaliyyət göstərən digər təşkilatlar

tərəfindən vaqonlara yığılaraq, Rusiya şəhərlərinə göndərilirdilər. Bu isə türk-müsəlman əhalisinin, o cümlədən Azərbaycan ziyalılarının etirazına səbəb olmuşdu. Bununla əlaqədar, ziyalılar tərəfindən mətbuatda mütamadi çıxışlar edilir və Qars vilayətindən alınan məlumatlar dərc olunurdu. "Kaspi" qəzetinin 1915-ci ilə aid saylarının birində yazılıb: "...Rusiyaya göndərilmiş müsəlman uşaq bir xristian ailəsi tərəfindən himayəyə alınmışdır. Müsəlman uşaqları öz dinindən və xalqından ayrı ruhda tərbiyə olunacaqlar..." [1] Qəzet səhifələrində verilən məlumatlardan sonra "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən Rusiya ərazisində olan bütün ictimai təşkilatlara müraciət qəbul olunmuşdu. Müraciətdə hər bir ərazi üzrə türk qaçqınları, o cümlədən türk qaçqın uşaqları barədə məlumatların verilməsi xahiş olunurdu. [2]



Yuxarıda qeyd olunanlarla yanaşı, Qars vilayətində kimsəsiz türk uşaqlarının və qaçqınların toplanaraq təhvil verilməsi ilə bağlı Qars vilayəti üzrə səlahiyyətli nümayəndə Xosrov Paşa bəy Sultanov xüsusi müraciət etmişdi. Bu müraciət müharibə ilə əlaqədar vilayətdə iş aparan bütün dövlət və ictimai təşkilatlara ünvanlanırdı. Müraciətdə türk qaçqınları, o cümlədən kimsəsiz türk uşaqları ilə rastlaşdıqları zaman xəbər verilməsi və ya onların müsəlman komitəsinə təhvil verilməsi xahiş olunurdu. [3]

Müraciətlər müsbət nəticə verirdi. Rusiyanın müxtəlif ərazilərinə göndərilən müsəlman qaçqınları və kimsəsiz uşaqlar barədə məlumatlar cəmiyyətə çatdırılırdı. 1916-cı ilin sentyabrında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti", Aleksadrapol mərkəzi komitəsinin sədrinə yazdığı məktubda

---

[1] Kaspi, 19 mart 1915, № 63.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 79.

[3] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 21.

98 türk qaçqın uşağını cəmiyyətin əməkdaşı Əfəndiyevə verdiyinə görə minnətdarlıq etmişdi. Həmin uşaqlar Tiflis uşaq evinə yerləşdirilmişdi.[1]

Bakı Polis İdarəsi rəisinin 7 oktyabr 1915-ci il tarixli telefonoqramında qaçqınların, o cümlədən uşaqların sayı haqqında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qafqaz cəbhəsində hərbi əməliyyatlar nəticəsində zərər çəkənlərə və qaçqınlara yardım üzrə komitəsinə məlumat verilirdi. [2] Məlumatda bildirilirdi ki, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayətində olan yardımçı dəstələr bu ilin 1 aprelindən 30 sentyabrınadək Qars vilayətində 33.141 nəfər qaçqını himayəyə alaraq yerləşdirmişdir. [3] Onlardan 10 yaşdan yuxarı olanların sayı 21.641 nəfər, 10 yaşa qədər olan uşaqlar 11.500 nəfərdir. [4] Quberniyanın müxtəlif dairələrindən olan 14.870 nəfər qaçqın yerləşdirilməmişdir. [5] İrəvan quberniyasında qeydiyyata alınmış 1.100 nəfərdən hər iki valideynini itirmiş 100 uşaq, Tiflis quberniyasında qeydiyyata alınmış 525 nəfərdən hər iki valideynini itirmiş 87 uşaq, Yelizavetpol quberniyasında qeydiyyata alınmış 243 nəfərdən hər iki valideynini itirmiş 116 uşaq, Bakı şəhərində qeydiyyata alınmış 58 nəfərdən hər iki valideynini itirmiş 50 uşaq cəmiyyətin qeydiyyatına alınmamışdır. [6]

Uşaqların qeydiyyata alınması üçün onların yerləşdirilə biləcəyi yerlərin olması vacib şərtlərdən biri idi. Uşaq evləri

[1] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 79.

[2] ARDTA, Fond 1, siyahı 1, iş 1497, v. 3, 3 (arx.).

[3] ARDTA, Fond 1, siyahı 1, iş 1497, v. 3, 3 (arx.).

[4] ARDTA, Fond 1, siyahı 1, iş 1497, v. 3, 3 (arx.).

[5] ARDTA, Fond 1, siyahı 1, iş 1497, v. 3, 3 (arx.).

[6] ARDTA, Fond 1, siyahı 1, iş 1497, v. 3, 3 (arx.).

açılandan sonra həmin uşaqlar cəmiyyət tərəfindən qeydiyyata alınır və yeni açılmış uşaq evlərində yerləşdirilirdi.

Arxiv sənədlərində əmək qabliyyəti olan uşaqların adları xüsusilə qeyd olunur. Bu sənədlər içərisində əmək qabiliyyəti olan, həddi-büluğa çatmış oğlan uşaqlarının siyahısı da var.

**Əmək qabiliyyəti olan türk qaçqın oğlan uşaqlarının SİYAHISI:** [1]

| | Uşaqların adı və soyadı | Yaşı |
|---|---|---|
| 1 | Şamil Tahiroğlu | 16 yaş |
| 2 | Şahbəndiyar Əmrahoğlu | 16 yaş |
| 3 | Zeyni Muradoğlu | 16 yaş |
| 4 | Abanca Şamiloğlu | 14 yaş |
| 5 | Saleh Öməroğlu | 14 yaş |
| 6 | İsmayıl Yunusoğlu | 14 yaş |
| 7 | Osman Əlioğlu | 15 yaş |
| 8 | İsa Şükrüoğlu | 15 yaş |
| 9 | Yusuf Rizaoğlu | 14 yaş |
| 10 | Fəxri İbrahimoğlu | 15 yaş |
| 11 | Bədir Dəvrişoğlu | 13 yaş |
| 12 | Dursun Sultanoğlu | 13 yaş |
| 13 | İbrahim Qədiroğlu | 13 yaş |
| 14 | Məmməd Hüsnüoğlu | 17 yaş |
| 15 | Süleyman Zülfüoğlu | 15 yaş |
| 16 | Süleyman Öməroğlu | 14 yaş |
| 17 | İsmayıl Abdulsunaoğlu | 15 yaş |
| 18 | Kamal Mustafaoğlu | 13 yaş |

1916-cı il iyulun 17-də Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilin "Bakı Müsəlman Xey-

[1] ARDTA, Fond 335, siyahı 1, iş 1, v.83.

riyyə Cəmiyyəti"nin bütün dəstələr üzrə baş müvəkkili Məmməd Yusif Cəfərova yazdığı məktubda bildirilirdi ki, Qars vilayətində müharibə bölgələrindən tapılmış 40 nəfər kimsəsiz müsəlman-türk uşağı cəmiyyətin Tiflis uşaq evinə göndərilmişdir.[1]

1916-cı ildə İspirdən yığılaraq Azərbaycan ərazisinə göndərilən qaçqınlar arasında uşaqlarla yanaşı, yaşlı kişilər və qadınlar da var idi.

**İspirdən yığılaraq göndərilən türk qaçqınlarının SİYAHISI:[2]**

***Cədvəl 15***

| | Adı və soyadı | Gəldikləri yer |
|---|---|---|
| | **QADINLAR** | |
| 1. | İsmi Məmmədqızı | Artvin dairəsi, Sinkot kəndi |
| 2 | Faizə Ömərqızı | Oltu dairəsi, Karaşkən kəndi |
| 3 | Zanura Zəkəriyəqızı | Oltu dairəsi, Çatax kəndi |
| 4 | Firdovs Yusifqızı | Oltu dairəsi, Tortom kəndi |
| | **QIZLAR** | |
| 5 | Fatma İsmayılqızı | Oltu dairəsi, Kixsa kəndi |
| 6 | Fatma Yusifqızı | Ardanuç |
| 7 | Səhər Mustafaqızı | Artvin dairəsi, Xzor kəndi |
| 8 | Fatma Mustafaqızı | Artvin dairəsi, Xzor kəndi |
| 9 | Sabirə Dursunqızı | Davuskar kəndi |
| 10 | Əsmər Məmmədqızı | Tortomqala kəndi |
| 11 | Züleyxa Məmmədqızı | Tortomqala kəndi |
| 12 | Lalə Həsənqızı | Tortomqala kəndi |
| 13 | İnci Tanrıverdiqızı | Dəlibaba kəndi |



[1] ARDTA, f.335, siy.1, iş 1, v. 62.

[2] ARDTA, fond 335, siyahı 1, iş 1, v. 86, 86 (arx.).

| | | |
|---|---|---|
| 14 | Gülbəyaz Naxışqızı | Məlum deyil |
| 15 | Nəzri Əbdüləzizqızı | Dutax kəndi |
| 16 | Kövri Əbdüləzizqızı | Dutax kəndi |
| 17 | Zeytun Rizkiqızı | Həsənkora kəndi |
| 18 | Güllü Şamilqızı | Qarakilsə kəndi |
| **OĞLANLAR** | | |
| 19 | Fəzli Fövzioğlu | Ardanuc |
| 20 | İsmayıl Əlioğlu | Ardanuc |
| 21 | Şevket Mustafaoğlu | Ardanuc |
| 22 | Məmməd İsmayılğolu | Ardanuc |
| 23 | Rəcəb Abdulla oğlu | Ardanuc |
| 24 | Yusif Dəvrişoğlu | Ardanuc |
| 25 | Molut Əhmədoğlu | İspir |
| 26 | Həsən Mustafaoğlu | Artvin dairəsi |
| 27 | Mustafa Baharoğlu | Küçükdara kəndi |
| 28 | Muşir Naxışoğlu | Məlum deyil |
| 29 | Fatma Suhanoğlu | Məlәzkərd kəndi |



1916-cı il iyunun 23-də Ümumrusiya Zemstvo İttifaqı 7-ci səhra dəstəsinin rəhbərliyi tərəfindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanova yazılan məktubda İttifaqın həkim-qida dəstəsinin müharibənin getdiyi ön xətt rayonundan əsgərlərin göndərdikləri 5 türk uşağını qəbul etdikləri barədə məlumat verilmişdi. Məktubda həmçinin bildirilirdi ki: "...7-ci səhra dəstəsi əsgərləri ön xətdən valideynlərini itirmiş 5 türk uşağını qəbul etmişdir. ...bu uşaqların valideynlərinin yerləşdikləri yer məlum deyildir. Hazırda uşaqlar 7-ci dəstənin Qars hissəsində yerləşirlər.[1] Müraciətdə cəmiyyət tərəfindən uşaqların himayəyə alınması, onların yerləşdirilməsi xahiş olunurdu. [2] Həmin uşaqlar

[1] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 21.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 21.



Списокъ
сиротъ приведенныхъ изъ испирскаго направленія.

Женщины:
[illegible] Мамедъ кызы изъ сел. Синкотъ Артв. ок.
[illegible] Омаръ кызы " Карашкенъ Олтин. ок.
[illegible] Юсифъ кызы " Тортомъ-Кала
[illegible] Закаръ кызы " Чатахъ.

Дѣвочки:
Фатьма Исмаилъ кызы изъ сел. Кихса
Фатьма Юсифъ кызы " Ардануча
Сахаръ } Мустафа кызы " Узоръ Артв. окр.
Фатьма }
Сабира Дурсунъ кызы " Давусъ-каръ
Демаръ Мамедъ кызы } Тортомъ-Кала
[illegible] Мамедъ кызы }
Лала Гасанъ кызы "
[illegible] Танрверди кызы " Делибаба
[illegible] Насоъ кызы [illegible]
Кызри Абдулъ Азизъ кызы } " Дутахъ
Кабри — — — }
[illegible] Ризки кызы " Гасанъ-Кара
[illegible] Шамиль кызы " Кара-клиса

Мальчики:
Фарисъ Фовзи оглы изъ Ардануча
Исмаилъ Али оглы — "
Шевкетъ Мустафа оглы " "
Мамедъ Исмаилъ оглы " "
Раджабъ Абдулла оглы " "
Насиръ Дарвишъ оглы " "
Мелукъ Ахмедъ оглы изъ Испира
Гасанъ Мустафа оглы " Артв. окр.

*Türkiyənin İspir əyalətindən olan türk qaçqınlarının siyahısı – arxiv sənədi nümunəsi*

komitə tərəfindən götürülərək Bakıya göndərilmişdi. Bakıdakı uşaq evlərində yerləşdirilən uşaqlara zəruri qayğı göstərilməklə yanaşı təhsil də verilirdi.

1916-cı ilin avqustunda Eçmiədzin dayanacağından Tiflis uşaq evinə 82 türk qaçqın uşağı göndərilmişdir.

1917-ci ilin avqustunda Qars vilayətindən cəmiyyətin Tiflisdə yerləşən uşaq evlərinə 846 türk qaçqın uşağı göndərilmişdir.[1] Həmin uşaqlar cəmiyyətin uşaq evlərinə paylanmışdı.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə nümayəndəliyinə kimsəsiz uşaqların olduğu müxtəlif yerlərdən məlumatlar daxil olurdu. Qars vilayətinin Qaraqurd sahəsindən verilən məlumatda bildirilirdi ki, "...yeni işğalla əlaqədar türk-müsəlman əhalisi qaçqın düşmüşdür. 89 nəfərdən ibarət qadın və uşaqlar heç bir vəsait olmadığından köməksizdirlər". [2] Bu müraciətlə əlaqədar cəmiyyətin Qars vilayəti üzrə nümayəndəsi Xosrov Paşa bəy Sultanov bu hissəyə öz əməkdaşlarını göndərmişdi. Nümayəndəlik tərəfindən həmin qaçqınlar Qarsa, oradan isə Bakıya göndərilmişdilər. Tovuz dayanacağında cəmiyyətin Yelizavetpol Komitəsi tərəfindən qaçqınlara 45 rubl 40 qəpik yardım olunmuşdu.[3]

1916-cı il 14 sentyabr tarixində Qars Vilayət Komitəsi tərəfindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin müvəkkili Xosrov Paşa bəy Sultanova yazılan məktubda bildirilirdi ki, cəmiyyətin uşaq evində yerləşdirmək üçün 72 nəfər göndərilmişdir.[4]

---

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 11.

[2] Kaspi, 5 sentyabr 1915, № 198.

[3] Kaspi, 5 sentyabr 1915, № 198.

[4] ARDTA, Fond 335, siyahı 1, iş1, v. 81.



87

Списокъ призрѣнныхъ втораго мусульманскаго прiюта въ Тифлисѣ.

| Имена и отчества | Лѣтъ | Національность | Мѣсто рожденія |
| --- | --- | --- | --- |
| Гамина Мирза кызы | 7. | курдинка | сел. [illegible] |
| 1. Мовлудъ Махмудъ оглы | 7. | турокъ | сел. [illegible] |
| 2. Вели Махмудъ оглы | 9. | тоже. | тоже. |
| 3. Хатунъ Мамедъ кызы | 9 | тоже | Ведза. |
| 5. Кёримъ Мирза оглы | 7. | тоже | [illegible] |
| 6. Мхо [illegible] оглы | 8. | курдъ. | [illegible] |
| 7. Сео Омаръ оглы | 14. | тоже | [illegible] |
| 8. Мато Аво оглы | 10. | тоже | тоже. |
| 9. [illegible] Мазо кызы | 8. | тоже | Карахана |
| 10. Загро Тамо оглы | 8. | тоже. | тоже. |
| 11. Баля Гамидъ кызы | 14. | тоже | [illegible] |
| 12. Гюльзаръ Гамидъ кызы | 3. | тоже. | тоже. |
| 13. Шамиль Магомедъ оглы | 7. | турокъ | [illegible] |
| 14. Айша Авонъ кызы | 12. | курдъ. | Ченчи |
| 15. [illegible] Авонъ кызы | 5. | тоже. | тоже. |
| 16. Машха Бахиръ кызы | 10. | тоже | [illegible] |
| 17. Магомедъ Бекиръ оглы | 8. | тоже | тоже. |
| 18. Наза Али кызы | 12. | тоже | тоже |
| 19. [illegible] Али кызы. | 14. | тоже. | тоже |
| 20. Омаръ Али оглы | 6. | тоже | тоже. |
| 21. [illegible] Али оглы | 4. | тоже. | [illegible] |
| 22. Бакиръ Мазо кызы | 12. | тоже | |

*Tiflis uşaq evində saxlanılan türk qaçqınlarının siyahısı – arxiv sənədi nümunəsi*

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars nümayəndəliyinə digər məlumat vilayətin Yalsuz Cam kəndindən daxil olmuşdu. Həmin məlumatda bildirilirdi ki, Yalsuz Cam kəndində kimsəsiz uşaqlar, Bozat kəndində isə 23 türk qaçqını vardır. Cəmiyyətin nümayəndəliyi tərəfindən uşaq və qadınlar Qarsa, oradan isə Bakıya göndərilmişdi.[1]

Yuxarıda qeyd olunanlardan əlavə, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" müharibə zamanı valideynlərini itirmiş kimsəsiz uşaqların toplanması üçün Qars vilayətinə xüsusi dəstə göndərmişdi. Cəmiyyətin səlahiyyətli nümayəndələrinin rəhbərliyi ilə göndərilən dəstə tərəfindən həmin uşaqlar yığılaraq Azərbaycana –Bakıya və Yelizavetpola gətirilmişdi. Onlar cəmiyyətin nəzarəti altında burada olan uşaq evlərində yerləşdirilmişdi. Cəmiyyət xüsusilə diqqət yetirirdi ki, bu uşaqlar müsəlmanlar tərəfindən milli ruhda tərbiyə olunsunlar, sağlamlıqları qayğısına qalınsın, təhsil alsınlar.[2]



Qars vilayətindən gətirilən kimsəsiz uşaqların himayəyə alınması, övladlığa götürülməsi üçün Rusiyanın, həmçinin Azərbaycanın müxtəlif bölgələrindən cəmiyyətə müraciətlər olunurdu. Bu kimi müraciətlərlə bağlı 1915-ci il avqustun 10-da A.A.Əmircanovun sədrliyi ilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara kömək bölməsi"nin iclası keçirilmişdi. İclasda uşaqların himayəyə götürülməsi arzusu ilə daxil olan ərizələrə baxılmışdı. Belə qərara alınmışdı ki, "...bu məsələdə ehtiyatlı olmaq lazımdır. Yalnız Bakı rayonları üzrə ərizə verənlərin

[1] Kaspi, 5 sentyabr 1915, № 198.

[2] Kaspi, 19 mart 1915, № 63.

şəxsiyyəti və maddi imkanları araşdırılsın. Hələ ki, başqa ərizələrə baxılmasın". [1]

Kimsəsiz uşaqların yerləşdirilməsinə Bakının imkanlı şəxsləri də fərdi olaraq köməklik göstərirdilər. 1915-ci ildə Bakının imkanlı şəxslərindən olan neft sahibkarı Ağabala Quliyev Qars vilayətindən gətirilmiş 48 türk uşağının Bakının Keşlə kəndində – öz evində yerləşdirilməsini və saxlanılmasını öhdəsinə götürmüşdü. Qəzetlər yazırdı ki, "...burada uşaqlar çox razı yaşayırlar".[2]

Qaçqın düşmüş kimsəsiz türk uşaqlarının taleyi digər müsəlman xalqlarını da narahat edirdi. Bununla əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə teleqram daxil olmuşdu. Mühiddinlər Məclisinin sədri Hüseyn Yenikiyevin göndərdiyi teleqramda yazılırdı: "...Türküstan Ordu Korpusunda taleyin ixtiyarına atılmış kimsəsiz türk uşaqlarının vəziyyəti müzakirə olunmuşdur. Mənə tapşırılmışdır ki, həmin uşaqların himayəyə alınması xahişi ilə Sizə müraciət edim".[3]

Beləliklə, Birinci Dünya müharibəsi zamanı Qafqaz cəbhəsində hərbi əməliyyatlar vaxtı müharibənin dəhşətləri nəticəsində valideynlərini itirib kimsəsiz qalmış türk qaçqın uşaqları "Bakı Müsəlman Xeyriyyə Cəmiyytəti"nin nümayəndələri tərəfindən yığılaraq Azərbaycana gətirilmiş, cəmiyyət bu uşaqlara valideynlik borcunu öz üzərinə götürmüş və bu borcu layiqincə yerinə yetirməyə çalışmışdı.

[1] Kaspi, 12 avqust 1915, № 179.

[2] Kaspi, 12 avqust 1915, № 179.

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 79, 63.

## 10.2. Uşaq evlərinin təşkili sahəsində həyata keçirilən tədbirlər

Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində baş verən döyüşlər nəticəsində Qars vilayətindən, xarabazarlığa çevrilmiş sərhəd bölgələrində valideynlərini itirmiş minlərlə kimsəsiz türk-müsəlman uşağı yığılaraq Cənubi Qafqaz ərazisinə, o cümlədən Tiflisə, Bakıya, Yelizavetpola, Şamaxıya, Şuşaya və digər ərazilərə göndərilir və burada həmin uşaqlar üçün uşaq evləri açılırdı. Lakin bütün bunlarla yanaşı, yüzlərlə kimsəsiz türk uşağı, sərhəddə olan rus əsgərləri, həmçinin döyüş bölgələrində fəaliyyət göstərən qeyri-müsəlman təşkilatlar tərəfindən vaqonlara yığılaraq Rusiyanın mərkəzi şəhərlərinə göndərilirdi. Sonralar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" həmin uşaqların müsəlman təşkilatlarına verilməsi barədə bəyanat versə də və nəticədə müəyyən sayda uşaq qaytarılsa da, Rusiya şəhərlərində türk qaçqın uşaqlarının saxlanılması faktları istisna deyil.



Birinci Dünya müharibəsi illərində Qars vilayətindən gətirilən uşaqlara qayğı göstərmək, onlar üçün xüsusi uşaq evləri açmaq və digər layihələr həyata keçirməklə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" həmin dövrdə tarixə yazılmış humanist bir missiyanın daşıyıcısına çevrildi.

1915-ci ilin martında Bakıya 331 türk qaçqın uşaq gətirilmişdi. [1] Bu uşaqlar üçün Bakıda, Yelizavetpolda, Şuşada, Tiflisdə və digər ərazilərdə uşaq evləri açılmışdı.[2] Bundan

---

[1] Xosrov Paşa bəy Sultanov "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", "Qardaş köməyi" 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[2] Xosrov Paşa bəy Sultanov "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", "Qardaş köməyi" 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

əlavə, Türkiyə sərhəd bölgələrindən yığılan kimsəsiz uşaqlar Trabzona aparılaraq, buradakı azərbaycanlı nümayəndələr tərəfindən Batuma gətirilirdi. 1915-ci ildə Batumda türk uşaqları üçün 100 nəfərlik uşaq evi açılmişdı. [1]

1915-ci ilin mart ayında Qars vilayəti üzrə komitənin sədri Xosrov Paşa bəy Sultanov Qaçqınların Yerləşdirilməsi üzrə baş müvəkkilə, uşaq evinin açılması ilə bağlı müraciət etmişdi. Həmin müraciətdə smetaya əsasən bəzi ərazilərdə uşaq evlərinin açılmasına yardım edilməsi xahiş olunurdu. Müraciətdə Kağızmanda 100 nəfərlik, Ərdahanda 50 nəfərlik, Axalsıxda 100 nəfərlik, Şəkidə 100 nəfərlik uşaq evlərinin açılmasına böyük ehtiyac olduğu bildirilirdi. [2]

Qars vilayəti üzrə komitənin sədri Xosrov Paşa bəy Sultanovun məlumatında bildirilirdi ki, "...Xınıs, Muş ətrafında saysız-hesabsız kimsəsiz uşaqlar vardır. Soyuqdan dolayı, aprel ayınadək onları kənara aparmaq mümkün deyil. Hazırda mövcud olan və açılması hazırlanan darülyetimlər kifayət etməyəcəkdir. Bəlkə 10 darülyetim daha açmaq lazımdır". [3]



Həmin dövrdı cəmiyyətin qarşısında duran ən vacib məsələlərdən biri müharibə şəraitində valideynlərini itirmiş minlərlə kimsəsiz uşağın zəruri ehtiyaclarının ödənilməsi, onların gələcəyə sağlam bir nəsil olaraq hazırlanması

[1] Xosrov Paşa bəy Sultanov "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", "Qardaş köməyi" 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[2] Xosrov Paşa bəy Sultanov "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", "Qardaş köməyi" 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

[3] Xosrov Paşa bəy Sultanov "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti", "Qardaş köməyi" 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi.

idi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" müharibənin qurbanı olan bu kimsəsiz uşaqlara valideynlik borcunu öz üzərinə götürmüşdü.[1]

Cəmiyyət kimsəsiz uşaqların gələcəyi üçün – onların sağlam səraitdə böyüməsi, düzgün qidalanması, təhsil alması, düzgün tərbiyə olunmaları məqsədilə ən əvvəl onların yerləşdirilməsi üçün uşaq evlərinin açılması ilə bağlı tədbirlər həyata keçirirdi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" uşaq evlərinin açılması layihəsinin həyata keçirilməsində dövlət tərəfindən uşaq evlərinin açılması ilə bağlı xəzinədən ayrılan vəsaitə, həmçinin Azərbaycan sahibkarlarının dəstəyinə və ictimai ianələrə arxalanırdı.

1915-ci ildə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin məlumatına görə, Bakı şəhərində ictimai köməyə ehtiyacı olan uşaqların sayı 6.000 nəfərə qədər idi.[2] Cəmiyyətin idarə heyətinə aid sənədlərdə qeyd olunurdu ki, "...bu uşaqlara müvəqqəti yox, həmişəlik, sistemli şəkildə kömək etmək lazımdır. Buna görə də uşaq evindən əlavə, cəmiyyət uşaqların gələcək həyatı üçün lazım olan xəstəxana, məscid, məktəb və emalatxanaların təşkilini də nəzərdə tutur..."[3]

Kimsəsiz uşaqlar üçün uşaq evinin tikintisinə Bakıda fəaliyyət göstərən milli- ictimai təşkilatlar da öz dəstəklərini bildirirdilər.[4] 1915-ci il sentyabrın 9-da "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri Mirzə Əsədullayevin rəhbərliyi ilə Bakıda olan bütün milli-ictimai təşkilatların iclası keçirildi. Bu iclasda qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məsələsi və bu məsələnin



---

[1] ARDTA, f.389, siy.1, iş 288, v. 1, 1 (arx.).

[2] ARDTA, f.389, siy.2, iş 288, v. 7, 7 (arx.).

[3] ARDTA, f.389, siy.2, iş 288, v. 7, 7 (arx.).

[4] Kaspi, 16 iyul 1915, № 157.

tərkib hissəsi olaraq, uşaq evlərinin təşkili məsələsi müzakirə olundu. İclasda Bakıda uşaq evinin açılması və təşkili ilə bağlı xüsusi komissiya təşkil olundu. Komissiyanın tərkibinə Bakıda olan hər bir milli-ictimai təşkilatdan nümayəndə seçilmişdi. Bakı şəhərində açılması nəzərdə tutulan uşaq evinin "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin nəzdində fəaliyyət göstərməsi nəzərdə tutulurdu. [1]

Həmin iclasda həmçinin uşaqlar üçün sənət məktəbinin açılması da qərara alındı. Açılacaq məktəbdə uşaqların, elmin müxtəlif sahələri üzrə təhsil almaları, dərzi və çəkməçi sənətlərini öyrənmələri nəzərdə tutulurdu. İclasda bu məsələlərin həlli ilə bağlı milli-ictimai təşkilatların nümayəndələrindən ibarət xüsusi komissiya təşkil olunmuş, yeni seçilmiş komissiyaya uşaq evinin təşkili və təchizi barədə proqram işləməsi tapşırılmışdı.[2]

Qeyd edək ki, uşaq evlərinin açılması proqramı dövlət və hökumət orqanları tərəfindən dəstəklənir və bu proqramın həyata keçirilməsi üçün xəzinədən müəyyən qədər vəsait ayrılırdı. 1915-ci ildə Daxili İşlər Nazirliyinin xüsusi müşavirəsində uşaq evlərinin açılması üçün avans olaraq 60.000 rubl ayrılmışdı.[3] Lakin bu məbləğ nəzərdə tutulan layihənin həyata keçirilməsi üçün kifayət etmirdi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" açılacaq uşaq evlərinin təşkilində ictimai köməyə ehtiyac olduğunu bildirirdi. Bu məqsədlə cəmiyyət uşaq evinin tikilməsi üçün yardım yığımı, həmçinin müxtəlif rautlar təşkil edirdi.[4]

Yuxarıda qeyd olunan layihələrin həyata keçirilməsi, yəni uşaqların yaşayış yeri ilə təmin olunmaları ilə yanaşı,

[1] Kaspi, 11 sentyabr 1915, № 202.

[2] Kaspi, 11 sentyabr 1915, № 202.

[3] Kaspi, 27 noyabr 1915, № 265.

[4] Kaspi, 27 noyabr 1915, № 265.

uşaq evləri nəzdində xəstəxana, məscid, məktəb və emalatxanaların tikintisi üçün torpaq sahəsinin ayrılması nəzərdə tutulurdu. Bu layıhənin həyata keçirilməsi üçün 1915-ci ildə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti Bakı Şəhər İdarəsinə müraciət etdi. Müraciətdə nəzərdə tutulan layihənin həyata keçirilməsi məqsədilə 3.600 kv.sajen ölçüdə torpaq sahəsinin ayrılması xahiş olunurdu. Müraciətdə həmçinin bildirilirdi ki, cəmiyyət uşaq evinin tikintisinə başlamağı və 3 ildən gec olmayaraq qurtarmağı nəzərdə tutur. Tikiləcək uşaq evinə ilk olaraq türk qaçqın uşaqların yerləşdirilməsi, sonrakı illərdə isə Bakıda doğulmuş kimsəsiz uşaqların da qəbulu nəzərdə tutulurdu.[1] Layihələşdirilmiş uşaq evi üçün torpaq sahəsinin seçilməsi məsələsinə Bakı Şəhər İdarəsinin torpaq komissiyasında baxılmış, məqsədə müvafiq olaraq 59-cu kvartal seçilmişdi.[2] Bu yer Salyansk polku kazarmasının ətrafı idi.[3]



1915-ci il dekabrın 8-də Bakı Şəhər Dumasının iclasında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə uşaq evinin tikilməsi üçün torpaq sahəsinin ayrılması məsələsi müzakirə olundu.[4] Bakı Şəhər Duması bu işin təşkilinin və inkişafının böyük əhəmiyyəti olduğunu qeyd edərək, qərara aldı ki, Bakı Şəhər İdarəsinə tapşırılsın ki, bu məqsədlə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə əvvəlcədən müəyyən olunmuş şərtlər əsasında torpaq sahəsi ayrılsın.[5]

---

[1] ARDTA, Fond 389, siyahı 2, iş 288, v. 7, 7 (arx.).

[2] ARDTA, Fond 389, siyahı2, iş 288, v. 7, 7 (arx.).

[3] ARDTA, Fond 288, siyahı 2, iş 288, v. 1 (arx.).

[4] ARDTA, Fond 389, siyahı 2, iş 288, v. 2.

[5] ARDTA, Fond 389, siyahı 2, iş 288, v. 3-4.

1916-cı il avqustun 12-də Bakı şəhər rəisinin Bakı Şəhər İdarəsinə yazdığı 505 saylı məktubunda bildirilir ki, 1915-ci il 8 dekabr tarixli Bakı  Şəhər Dumasının qərarına əsasən "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nə uşaq evinin tikilməsi üçün torpaq sahəsi aşağıdakı şərtlər əsasında ayrılmışdır: [1]

1".Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə yalnız uşaq evinin təşkili və bununla bağlı müəssisələrin təşkili üçün, kimsəsiz və qaçqın müsəlman uşaqları, həmçinin bu kimi Bakı şəhərində doğulmuş uşaqlar üçün Bakı şəhəri 59-cu kvartalda 4.400 kv.sajen ölçüdə torpaq sahəsi ayrılmışdır.

2. Uşaq evi və müəssisələrin təşkili 3 il müddətində tamamlanmalıdır.

3.Əgər hər hansı bir səbəbdən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" fəaliyyətini dayandırarsa, onda uşaq evi özünün bütün müəssisələri ilə birlikdə Bakı Şəhər Dumasının razılığı ilə Bakı şəhərində fəaliyyət göstərən digər müsəlman xeyriyyə cəmiyyətlərinə keçir.

Yuxarıda qeyd olunan 3-cü bəndə alternativ olaraq, 4-cü bənd də əlavə olunmuşdu. Həmin bənddə isə qeyd olunurdu ki, "... Əgər uşaq evi öz fəaliyyətini dayandırarsa, onda bütün mülkiyyət Şəhər İdarəsinin hesabına keçir".[2]

1915-cı il dekabrın 10-da "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" idarə heyətinin və "Müharibədən zərər çəkənlərə kömək üzrə bölməsi"nin birgə iclasında cəmiyyətin idarə heyətinin sədr müavini Məmmədhəsən Hacınskiyə uşaq evi binasının layihəsinin və planının, həmçinin smetasının hazırlanması tapşırılmışdı.[3] Məmmədhəsən Hacınski

[1] ARDTA, Fond 389, siyahı 2, iş 288, v. 7, 7 (arx.), 32.

[2] ARDTA, Fond 389, siyahı 2, iş 288, v. 7, 7 (arx.), 32.

[3] Kaspi, 12 dekabr 1915, № 278.

çox qısa vaxt ərzində uşaq evinin tikintisi ilə bağlı bütün lazım olan sənədləri təqdim etdi.

1916-cı il fevralın 3-də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin iclasında tikiləcək uşaq evi binasının planı və layihəsinə, həmçinin komitənin katibi Məmmədhəsən Hacınskinin tərtib etdiyi smetaya baxıldı.[1] Həmin iclasda uşaq evinin tikintisinə başlanılması qərara alındı. [2]

Bakı uşaq evinin tkintisi üçün növbəti – 1917-ci il üzrə smetaya "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin həmin il yanvarın 29-da keçirilən iclasında baxıldı. Hazırlanmış smetaya görə, 300 uşaq üçün nəzərdə tutulan binaya 300.000 rubl ayrılması hesablandı. Cəmiyyətin qərarı ilə materialların bahalığına, eyni zamanda iqtisadi vəziyyətin ağır olmasına baxmayaraq, uşaq evi binasının tikilməsinə pul ayrıldı.[3]



Müharibədə valideynlərini itirmiş kimsəsiz türk-müsəlman uşaqları üçün uşaq evlərinin açılması "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin başlıca vəzifələrindən biri idi. Cəmiyyət uşaq evlərinin təkcə Bakı şəhərində deyil, ehtiyac olan digər ərazilərdə də açılmasını nəzərdə tuturdu.

Digər ərazilərdə uşaq evlərinin açılması ilə əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" 1916-cı ilin iyun ayında Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilə müraciət etmişdi. [4] Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə yazdığı 14 avqust 1916-cı il

---

[1] Baku, 5 fevral 1916, № 28; Bəsirət, 6 fevral 1916, № 79.

[2] Bəsirət, 6 fevral 1916, № 79.

[3] Kaspi, 31 yanvar 1917, № 25.

[4] ARDTA, Fond 335, siy.1, iş 1, v. 36.

tarixli məktubunda yazılırdı ki, "...Qafqaz canişinin əmrinə əsasən qaçqın və yetim uşaqlar üçün uşaq evinin açılmasına icazə verilir".[1]

Bir faktı da qeyd edək ki, uşaq evlərinin açılması, yaxud bir rayondan digərinə keçirilməsi zamanı Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə baş müvəkkildən icazə alınması vacib şərt idi.[2]

Cəmiyyətin baş müvəkkili Xosrov Paşa bəy Sultanov yeni uşaq evlərinin açılması üçün 1917-ci il fevralın 2-də Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə baş müvəkkilə müraciət etdi. Həmin müraciətdə cəmiyyət tərəfindən Nuxada, Kağızmanda, Axalsıxda, Ərdəhanda uşaq evlərinin açılması xahiş olunurdu.[3] Məktuba cavab olaraq, Qafqaz Cəbhəsində Qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkillik bildirmişdi ki, bu uşaq evlərinin açılmasına heç bir maneə görmür. Həmçinin qeyd edilirdi ki, uşaq evlərinin təchizatı üçün lazım olan 8.750 rubl Bakı şəhər rəisinə göndərilir.[4] Lakin bu məbləğ uşaq evlərinin açılması, onların lazımi avadanlıqlarla təçhizatı üçün kifayət deyildi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" 1917-ci ildə 3 uşaq evinin - Bakı, Tiflis və Yelizavetpol müsəlman uşaq evinin təchizatı üçün 21.943 rubl vəsait sərf etmişdi.[5]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" bütün çətinliklərə baxmayaraq, türk qaçqın uşaqlar üçün az müddət ərzində 8 rayonda uşaq evi açılmasına nail oldu. Bu uşaq evləri daha

---

[1] ARDTA, Fond 335, siy.1, iş 1, v. 54.

[2] ARDTA, Fond 335, siy.1, iş 1, v. 36.

[3] ARDTA, Fond 335, siy.1, iş 2, v. 4.

[4] ARDTA, Fond 335, siy.1, iş 2, v. 4. 8.

[5] ARDTA, Fond 335, s.1, iş 2, v. 3.

çox türk qaçqın uşaqlarının sıx məskunlaşdığı aşağıdakı ərazilərdə açılmışdı: [1]

1. Bakı uşaq evi
2. Yelizavetpol uşaq evi;
3. Şuşa uşaq evi;
4. İrəvan uşaq evi;
5. Batum uşaq evi;
6. Ərdəhan uşaq evi;
7. Oltu uşaq evi;
8. Kağızman uşaq evi

Hər bir ərazidə bir deyil, bir neçə uşaq evi fəaliyyət göstərirdi.



### 10.3. Uşaq evləri haqqında "Qaydalar"

Qafqaz cəbhəsində hərbi əməliyyatlar zamanı valideynlərini itirmiş qaçqın və kimsəsiz uşaqlar üçün açılan uşaq evləri barədə xüsusi qaydalar tərtib olunmuşdu. 1916-cı il iyulun 7-də çarın Qafqazdakı canişini, general-adyutant Nikolay Nikolayeviç tərəfindən "Qaçqın və kimsəsiz uşaqlar üçün uşaq evləri haqqinda qaydalar" təsdiq edilmişdi. [2]

[1] ARDTA, Fond 335, siy.1, iş 2, v. 93.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 42, 42 (arx.).

## QAÇQIN VƏ KİMSƏSİZ UŞAQLAR ÜÇÜN UŞAQ EVLƏRİ HAQQINDA QAYDALAR[1]

1. Bütün ictimai, xeyriyyə və xüsusi təşkilatlar, həmçinin ayrı-ayrı şəxslər, sayından asılı olmayaraq qaçqın kimsəsiz uşaq götürmək arzusunda olan hər bir şəxs yazılı şəkildə qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilə məlumat verirlər. Bu məqsədlə uşaq evlərində dəqiq qeydiyyat aparılır.
2. Göstərilən təşkilatlar və şəxslər, həmçinin açılmış uşaq evləri hər ay Qaçqınların Yerləşdirilməsi üzrə Baş müvəkkilə uşaq evinin əsasının qoyulmasının vaxtı ay ərzində uşaqların sayı, o cümlədən yeni daxil olanların sayı barədə, daxil olan vəsaitin kim tərəfindən göndərilməsi məxaric və son dəyişikliklər haqqında məlumat verməlidirlər.
3. Hər bir uşaq evində bir nəfər olmalıdır ki, o, uşaq evinin bütün işlərinə – kitabda qeydiyyatların aparılması, hesab və hesabat işlərinə nəzarət etsin.
4. Uşaq evi rəhbərinin xüsusi kitabı olmalıdır; uşaq evinin əsasının qoyulması barədə, uşaqların uşaq evinə daxil olduqları vaxt barədə, hər bir şagirdın adı və soyadı, atasının adı, doğulduğu yer və şagirdin yaşı qeyd edilməlidir.
5. Uşaq evi rəhbərinin mədaxil və məxaric barədə aylıq hesabatı, daxil olan yardımın hansı təşkilat, müəssisə və ya şəxs tərəfindən göndərilməsi barədə Baş müvəkkilə məlumat verilməlidir.
6. Uşaq evində xəstələnən və ölən uşaqlar barədə, həmçinin tibbi yardım və həkimin baş çəkməsi barədə qeydiyyat aparılmalıdır.



[1] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 42, 42 (arx.).

7. Hər bir uşaq evində qayda-qanun olmalıdır, şagirdlər üçün rejim tutulmalıdır, dərs üçün, məşğələ, oyun və istirahət üçün vaxt ayrılmalıdır.
8. Rahatlıq və qənaət baxımından bir neçə uşaq evi bir eyni məktəbin hissəsindən istifadə edə bilər. Bunun üçün dərslər böyük şagirdlərlə kiçik şagirdlər arasında növbəli şəkildə təşkil olunmalıdır.
9. Uşaqları tədricən əməyə alışdırmaq məqsədilə uşaq evlərində mütləq sənət, əl işləri (oğlanlar üçün qaynaqçı, dülgər, çəkməçi və s., qızlar üçün tikişçi, toxuma və s.) öyrədilməlidir.
10. Kəndlərdə yerləşən uşaq evlərində daha çox bağçılıq və bostançılıq tədris edilməlidir.
11. Sənət dərslərinin öyrədilməsi üçün müəllim və ustalar dəvət olunmalıdır.[1]



Qafqazdakı canişin, general-adyutant Nikolay Nikolayeviçin göstərişinə görə, "Qaçqin kimsəsiz uşaqlar üçün uşaq evləri haqqinda Qaydalar"a əsasən hər hansı bir təşkilat və ya fiziki şəxs tərəfindən uşaq evlərindən uşaq himayəyə götürməyə icazə verilirdi. Bu "Qayda" üzrə yeganə maddə idi ki, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən qəbul olunmurdu. Belə ki, cəmiyyətin bu iş üzrə öz daxili qanunları var idi. Hər hansı türk uşağı istənilən təşkilat və ya şəxs tərəfindən himayəyə götürülə bilməzdi. Bunun üçün cəmiyyət araşdırma aparırdı. Ən vacib şərt isə ailənin müsəlman ailəsi olması idi.

[1] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 42, 42 (arx.).

## "BAKI MÜSƏLMAN XEYRİYYƏ CƏMİYYƏTİ"NİN UŞAQ EVLƏRİ ÜÇÜN TƏLİMATI[1]

1. Cəmiyyət müsəlman əhalisinin yerləşdiyi yerlərdə kimsəsiz qaçqınlar üçün xəzinədən buraxılan vəsait hesabına uşaq evi açır;
2. Uşaq evləri cəmiyyətin müvəkkili tərəfindən açılır və bu barədə Qafqaz Cəbhəsində Qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilə məlumat verilir;
3. Məlumatda uşaq evinin təchizatı və hər uşaq evi üçün sərf olunacaq məbləğ barədə smeta göndərilir;
4. Uşaq evi açıldıqdan sonra uşaqların siyahısı və idarə heyəti haqqında məlumat verilir;
5. Uşaq evinin işçi heyəti bir nəfər müdir, yaxud tərbiyəçi nəzərdə tutulur. Bu 50 nəfərə qədər sakini olan uşaq evlərinə aiddir. Müdir təyin olunan şəxs həm uşaq evinə rəhbərlik edir, həm də uşaq evinin təsərrüfat işlərinə baxır;
6. 60-100 nəfər və daha artıq sakini olan uşaq evlərində hər 30 uşaq üçün bir nəfər nəzarətçi ayrılır;
7. 100 nəfərdən yuxarı hər 40 nəfər üçün bir nəzarətçinin ilk əvvəl uşaqlara dayəlik edəcəyi, daha sonra bu şəxsin uşaq evində olan böyük qızlarla əvəz olunacağı nəzərdə tutulur. Bir aşbaz və onun köməkçisi, müəllim (qadın və yaxud kişi), olan əl işləri üzrə türk dilində savadı qadın müəllim, emalatxanalarda dərs keçmək üçün sənət müəllimi, uşaqların sayına görə bir və ya 2 xidmətçi, paltaryuyan;
8. Məktəbyaşlı uşaqların siyahısı üzrə smeta tərtib olunur;

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 60, 60 (arx.), 61, 61 (arx.).

9. Uşaq evi və məktəb üçün smeta ayrılıqda tərtib edilir;
10. Yeni gəlmiş uşaq barədə təcili baş müvəkkilliyə məlumat verilir, uşağın adı qeyd olunur, uşaq evi və məktəb üçün smetası tərtib edilir;
11. İlin hər rübünün sonunda uşaqların siyahısı ətraflı məlumat verilməklə təqdim olunur;
12. Hər rübün sonunda uşaq evinin rəhbəri uşaq evinə daxil olan gəlir barədə ətraflı məlumat təqdim edir;
13. Uşaq evi üçün ərzaq anbarlarda saxlanılır;
14. İlin hər rübünün sonunda məxaric olunan pulun hesabatı təsdiqləndirici sənədlərlə birlikdə Tiflisdəki Baş müvəkkilliyə göndərilir;
15. 3 rubldan az olmayaraq bütün xərclər təsdiqedici sənədlərlə göndərilir.

**Uşaq evində işçi heyəti [1]**

***Cədvəl 16***

| | Vəzifəsi | Əmək haqqı |
|---|---|---|
| 1 | Müdir | 50-100 rubl |
| 2 | Uşaqlara baxan (dayə) | 50-75 rubl |
| 3 | Müəllim | 50-75 rubl |
| 4 | Əl işləri müəllimi | 25-30 rubl |

Təlimatda həmçinin işçilərin də uşaq evində yaşadığı, onların da ərzaqla təmin olunduğu qeyd olunur.[2]

## 10.4. Uşaq evlərinin saxlanması

Qafqaz cəbhəsində hərbi əməliyyatlar nəticəsində valideynlərini itirmiş kimsəsiz qaçqın uşaqlar Bakı, Yelizavetpol, Şuşa, İrəvan, Batum, Ərdəhan, Oltu, Kağızman və digər ərazilərdə açılan uşaq evlərində yerləşdirilmişdilər.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" uşaq evlərinin saxlanmasını ictimai köməklə yanaşı, dövlət xəzinəsindən ayrılan vəsait hesabına həyata keçirirdi. Bu sahədə cəmiyyətin hazırladığı bir sıra tədbirlər, o cümlədən ianə toplantısı, müxtəlif rautlar və və s. mühüm əhəmiyyət kəsb edirdi.

Cəmiyyətin təşkil etdiyi müxtəlif tədbirlərdən, o cümlədən "Qardaş köməyi" layihəsindən əldə olunan gəlirin müəyyən hissəsi məhz bu istiqamətə yönəldilirdi. Bu layihə çərçivəsində cəmiyyətin "Qardaş köməyi" adlı müəssisəsi də fəaliyyət

---

1 ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 60, 60 (arx.), 61, 61 (arx.).

2 ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 60, 60 (arx.), 61, 61 (arx.).

göstərirdi. 1915-ci ilin oktyabrında, "İsmailiyyə" binasında açılan "Qardaş köməyi" adlı çayxanadan daxil olan bütün gəlir uşaq evlərinin istifadəsinə sərf olunmuşdu.[1]

Digər milli-ictimai təşkilatlar da türk qaçqın uşaqlarına diqqət və qayğı göstərirdilər. 1915-ci ilin oktyabrında "Qurban bayramı"nın birinci günündə "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin üzvləri tam tərkibdə "İsmailiyyə" uşaq evində olmuş, uşaqların həyat tərzi, təhsilləri ilə bağlı baxış keçirmişdilər. Həmin gün Hacı İsrafil Aydəmirov tərəfindən türk qaçqın uşaqları üçün qurban kəsilmişdi. Uşaqlar qadın komitəsinin üzvlərinin apardıqları şirniyyata qonaq olmuşdular.[2]



Uşaq evlərinə yardım etmək məqsədilə "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti" müxtəlif tədbirlər həyata keçirirdi. 1915-ci ilin oktyabrında Azərbaycanın kübar, ziyalı xanımları tərəfindən türk qaçqın uşaqlarına kömək məqsədilə "İsmailiyyə" binasında "Qardaş köməyi" adlı çay satışı təşkil olunmuşdu. Çay satışından daxil olan bütün gəlir uşaq evinin istifadəsinə yönəldilmişdi.[3]

"Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin Liza xanım Muxtarovanın sədrliyi ilə keçirilən 1915-ci il 2 oktyabr tarixli iclasında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" ilə birgə görüləcək işlər müzakirə olunmuşdu. İclasda həmçinin qadın cəmiyyəti nümayəndələrinin kimsəsiz uşaq evində qəyyumluq etməsinin vacibliyi bildirilmişdi. Qadın komitəsinin iclasında qərara alınmışdı ki, uşaqlara diqqət və qayğı göstərmək məqsədilə uşaq evində hər gün bir nəfər növ-

[1] Kaspi, 17 oktyabr 1915, № 231.

[2] Kaspi, 10 oktyabr 1915, № 215.

[3] Kaspi, 17 oktyabr 1915, № 231.

bətçilik etsin.[1] Həmçinin uşaqlar üçün qış paltarları hazırlanması qərara alınmışdı. [2]



***"Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin geyim əşyaları üzrə tikiş sexi***

Uşaq evlərinin saxlanması üçün müxtəlif mədəni tədbirlər təşkil olunurdu. 1915-ci ilin noyabr ayında "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti üzvləri tərəfindən Məhəmməd peyğəmbərin mövludu günü münasibətilə türk dilində tamaşa təşkil olunmuşdu. Bu işin təşkili üçün komitə xüsusi komissiya təşkil etmişdi.[3] Daxil olan bütün vəsait uşaq evinin saxlanılmasına yönəldilmişdi.[4]

[1] Kaspi, 5 noyabr 1915, № 247.

[2] Kaspi, 4 oktyabr 1915, № 220.

[3] Kaspi, 15 noyabr 1915, № 256.

[4] Baku, 17 noyabr 1915, № 257.

Bütün bunlarla, yanaşı türk qaçqın uşaqların məskunlaşdığı bir sıra ərazilər vardı ki, həmin ərazilərdə azsaylı uşaqlar üçün uşaq evinin açılması maddi baxımdan mümkün deyildi. Bu uşaqların ehtiyaclarının ödənilməsi məqsədilə dövlət və hökumət orqanları tərəfindən ictimai qurumlara müraciətlər olunurdu. 1916-cı il avqustun 7-də Ərzurum Şəhər İdarəsi rəisinin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə göndərdiyi məktubda yazılırdı: "Son vaxtlarda şəhərdə kimsəsiz uşaqların kütləsi müşahidə olunur, onları Şəhər İdarəsinə gətirirlər. Şəhər İdarəsi onları evlərə verir. Onların saxlanması üçün 10 rubldan verilməlidir. Xahiş edirəm bu məbləğin verilməsini təmin edəsiniz".[1] Cəmiyyətin idarə heyətinin qərarı ilə həmin ərazidəki uşaqlar himayəyə alınmış, onlara yardım olunaraq uşaq evlərində yerləşdirilmişdi.



"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" nəzdində olan uşaq evlərinin saxlanılması üçün dövlət xəzinəsindən müəyyən məbləğdə vəsait ayrılırdı. Bu məbləğ hər uşağın saxlanılmasına 25 rubl olaraq müəyyənləşdirilmişdi.[2] Lakin bu vəsaitlə bir ay müddətində bir uşağın tələbatını ödəmək mümkün deyildi. Hər uşağın lazımi ərzaqla, həmçinin geyim əşyaları ilə təmin olunması, eyni zamanda uşaq evlərinin istilik, işıq və s. təchizatı cəmiyyətin idarə heyəti tərəfindən həyata keçirilirdi. Təkcə uşaqların geyim ehtiyacları ilə bağlı "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkili Xosrov Paşa bəy Sultanova olunan müraciətdə bildirilirdi ki, 200 nəfərlik komplekt üçün aşağıdakılar lazımdır: yun yorğan – 750 ədəd; yataq dəsti – 200 dəst; alt paltarı – 200 ədəd; ayaqqabı – 200 cüt;. Corab – 400 cüt.[3]

Müxtəlif ərazilərdə açılan uşaq evlərinin saxlanılmasına dövlət xəzinəsindən və hökumət orqanları tərəfindən də müəyyən vəsaitlər ayrılırdı.

---

[1] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 77, 78.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 105.

[3] ARDTA, Fond 335, siy.1, iş 1, v. 83.

Dövlət xəzinəsindən qaçqınlar və müharibədən zərər çəkənlər üçün ayrılan vəsait dairələr üzrə bölünürdü. Qafqazda müharibədən zərər çəkənlər və qaçqınlar üçün ayrılan vəsait Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə Baş Müvəkkilliyə göndərilirdi. Uşaq evlərinin saxlanması üçün də həmin qurumdan müəyyən yardım olunurdu.

1916-cı il avqustun 18-də Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə Baş müvəkkilin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə yazdığı məktubda bildirilirdi ki, cəmiyyətin nəzdində olan qaçqın müsəlman uşaqlarının yerləşdirirldiyi 7 uşaq evinin saxlanılmaslna görə ilkin olaraq 20.000 rubl ayrılmışdır. Bir faktı qeyd edək ki, ümumi qəbul ounmuş qaydaya görə uşaq evləri üçün ayrılan vəsaitin hesabatı hazırlanaraq, Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə Baş Müvəkkilliyə göndərilirdi.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən uşaq evlərinin saxlanılması üçün ayrılan 20.000 rubl vəsaitin hesabatı 26 noyabr 1916-cı il 184 saylı məktubla təqdim olunmuşdu. Bu hesabat uşaq evlərinin hər biri üçün ayrılan vəsait barədə hesabat idi. Bunula yanaşı, ayrı-ayrı uşaq evləri, o cümlədən Bakı, Yelizavetpol və Tiflisdə fəaliyyət göstərən uşaq evləri də öz hesabatlarını həm "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkilinə, həm də vilayət və quberniya komitələri vasitəsilə Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə Baş müvəkkilə göndərirdilər.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkilinin Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə baş müvəkkilinə yazdığı 2 fevral 1917-ci il tarixli məktubda bildirilirdi ki, Bakı, Tiflis və Yelizavetpol müsəlman uşaq evinin təchizatı üçün 21.943 rubl məxaric olunmuşdur.

1917-ci il 8 fevral tarixdə Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə Baş Müvəkkil dəftərxanası tərəfindən Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-

müsəlman əhalisinə kömək göstərmək üzrə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" müvəkkilinə yazılan məktubda bildirilirdi ki, "...qaçqınların təşkili üzrə Baş müvəkkillik Nuxada, Kağızmanda, Axalsıxda, Ərdahanda uşaq evlərinin açılması üçün heç bir maneə görmür". Bununla əlaqədar olaraq, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə uşaq evlərinin saxlanması üçün hər uşağa aylıq 25 rubl hesabı ilə 8.750 rubl pul köçürülməsi barədə sərəncam verilmişdi. Bu uşaq evləri, Nuxada və Axalsıxda ilk uşaq evləri, Kağızmanda və Ərdahanda ikinci uşaq evləri idi.

1917-ci il 28 aprel tarixdə Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə Baş müvəkkilin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkili Xosrov Paşa bəy Sultanova yazdığı 1949 saylı məktubda bildirilirdi ki, Bakı, Yelizavetpol və Tiflisdə yerləşən müsəlman uşaq evlərinə, həmin ilin aprel ayı və may ayının birinci yarısı üçün hər uşağa ayda 15 rubl hesabı ilə 400 uşaq üçün 9.000 rubl ayrılması barədə sərəncam verilmişdir.[1] Həmin məktubda həmçinin bildirilirdi ki, Şuşa uşaq evi üçün kredit Şuşa Komitəsinin sədri D.B.Mehmandarova göndərilmişdir.[2] Qafqaz cəbhəsində qaçqınların təşkili üzrə İcraiyyə Komitəsi Şurasının "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Baş müvəkkili Xosrov Paşa bəy Sultanova yazdığı 17 iyul 1917-ci il tarixli 3034 saylı məktubda bildirilirdi ki, həmin ilin may ayının ikinci yarısı və iyun ayı üçün 130 uşağın saxlanılmasından ötrü hər uşağa 30 rubl hesabı ilə 11.700 rubl göndərilməsi barədə sərəncam verilmişdir.[3]

Arxiv sənədlərində, həmçinin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin uşaq evlərinin saxlanması ilə bağlı 1916-cı



[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 109.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 109.

[3] ARDTA, Fond 335, sihayı 1, iş 2, v. 125.

ilin dekabr ayına olan məlumatda bildirilirdi ki, cəmiyyətin uşaq evlərinin saxlanılmasına oktyabr, noyabr və dekabr ayları üçün xəzinədən 14.835 rubl yardım olunmuşdur.[1]

Lakin ağır müharibə şəraitində iqtisadi böhranın daha da dərinləşməsi, ərzaq məhsullarının bahalaşması cəmiyyətin fəaliyyətinə, o cümlədən uşaq evlərinin saxlanılmasına öz mənfi təsirini göstərirdi. Əgər 1916-cı ildə üç ay müddətində uşaq evi üçün ayrılan 15.000 rubl vəsait kifayət edirdisə, 1917-ci ildə bu məbləğlə minimal tələbatı ödəmək mümkün deyildi. Bununla əlaqədar 1917-ci il noyabrın 5-də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti tərəfindən cəmiyyətin bütün dəstələri üzrə baş müvəkkil olan Xosrov Paşa bəy Sultanova edilən müraciətdə bildirlirdi ki, "...öz sərəncamınızda olan mənbələrdən cəmiyyətin uşaq evlərinin saxlanmasına vaxtaşırı yardım etmənizi xahiş edirik".[2]

Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə İcraedici Komitə Şurasının "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkilinə yazdığı məktubda bildirilirdi ki, "...hazırkı dövrdə bahalaşma ilə əlaqədar olaraq, İcraedici Komitənin qərarı ilə uşaq evlərində bir uşağın saxlanılması üçün ərzağın dəyəri 15 rubl artırılmışdır". Məktubda həmçinin qeyd olunurdu ki, bu barədə müsəlman xeyriyyə cəmiyyətinin uşaq evlərinə də məlumat verilsin.[3] Belə ki, əgər həmin vaxta qədər hər uşağın saxlanılması üçün ayda 25 rubl ayrılırdısa, sonrakı mərhələlərdə 15 rubl əlavə olunaraq 40 rubl ayrılmasına ehtiyac yaranırdı.[4]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədə zərər çəkənlərə yardım komitəsi"nin 1916-cı ilin iyununda



---

[1] ARDTA, Fond 335, siy.1, iş 1, v. 107.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 105.

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 90, 90 (arx.).

[4] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 90, 90 (arx.).

keçirilən iclasında Bakıya yeni gətirilmiş 35 nəfər türk qaçqın uşağına geyim əşyalarının alınması üçün 2.000 rubl ayrılması barədə qərar qəbul olunmuşdu.[1]

Yuxarıda qeyd olunanlarla yanaşı, Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə Baş müvəkkilnin, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin müvəkkili Xosrov Paşa bəy Sultanova 28 aprel 1917-ci il tarixdə 1949 saylı məktub göndərilmişdi. Baş müvəkkilin yazdığı məktubda bildirilirdi ki, "...mənə sərəncam verilib ki, Bakıda, Yelizavetpolda va Tiflisdə yerləşən uşaq evlərindəki 400 uşağın aprel və may ayları saxlanılması üçün sizə 9.000 rubl ayrılsın. Hər uşağa ayda 15 rubl hesabı ilə nəzərdə tutulurdu. Bununla bağlı məlumat verirəm ki, Şuşada yerləşən uşaq evlərində hər uşağın saxlanılması üçün kredit Şuşa Komitəsinin sədri D.B.Mehmandarova göndərilmişdir..."[2] Qeyd edək ki, bu, əlavə yardım idi.



Lakin əlavə yardım olunmasına baxmayaraq, bu məbləğ də uşaqların minimal tələbatının ödənilməsi üçün kifayət etmirdi. 1917-ci il dekabrın 15-də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" idarə heyəti tərəfindən cəmiyyətin Tiflisdəki baş müvəkkili Xosrov Paşa bəy Sultanova yazılan məktubda bildirilirdi ki, "...hazırda Bakıda bir uşağı ancaq ərzaqla təmin etmək üçün ayda 50 rubldan az olmayaraq vəsait tələb olunur".[3] Bu, Rusiya imperiyası ərazisində gündən-günə dərinləşməkdə olan iqtisadi böhranla bağlı idi.

Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə İcraedici Komitənin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkilinə yazdığı 17 iyul 1917-ci il tarixli məktubda bildirilirdi ki, komitə tərəfindən cəmiyyətin uşaq evlərinin saxlanması üçün aşağıdakı məbləğdə vəsait ayrılmışdır: 1917-ci ilin may ayının ikinci yarısı və iyun ayı üçün – 2.925

---

[1] ARDTA, Fond 335, siyahl 1, iş 1, v. 32.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 8.

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 126.

rubl, iyul, avqust, sentyabr ayları üçün – 11.700 rubl, cəmi: 14.625 rubl.[1]

Beləliklə, Birinci Dünya müharibəsi illərində türk qaçqın uşaqlarının saxlanılması Azərbaycan milli-ictimai təşkilatlarının həyata keçirdikləri layihələr – mədəni tədbirlər, bayram günlərində rautlar, ianələr və s. daxil olan gəlirlərlə yanaşı, dövlət xəzinəsindən ayrılan müəyyən məbləğdə vəsaitlə də təşkil olunurdu.

### *Bakı uşaq evi*

Birinci Dünya müharibəsi illərində Bakıya türk qaçqın uşaqlarının gətirilməsi yerli əhali arasında böyük hüzn, eyni zamanda sevgi ilə qarşılandı. Bu uşaqları himayəyə almaq, övladlığa götürmək üçün bir çox insanlar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə müraciət edirdilər. Lakin uşaqların qəyyumluğa verilməsinə böyük məsuliyyətlə yanaşan idarə heyətinin bu məsələyə münasibəti birmənalı idi. Belə ki, idarə heyəti tərəfindən müraciət edən şəxslərə bildirilirdi ki, onlar uşaq götürməkdə məqsədləri barədə ətraflı məlumat verməli, yaşadıqları ünvanları qeyd etməlidirlər. Yalnız bundan sonra həmin şəxslərin ərizələrinə baxılırdı.[2]



1914-cü ilin sonlarından başlayaraq, Azərbaycana, o cümlədən Bakıya ardı-arası kəsilmədən türk qaçqın uşaqları gətirilirdi. Lakin həmin vaxtda bu uşaqların yerləşdirilməsi üçün yer olmadığına görə, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti Bakı şəhərinin "yuxarı dağlıq hissəsi"ndə xüsusi evlər icarəyə götürmüşdü.[3]

Həmin dövr üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin ən başlıca məqsədlərindən biri türk qaçqın uşaqları yerləş-

---

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 34 (arx.).

[2] Kaspi, 25 iyun 1915, № 140.

[3] Kaspi, 25 iyun 1915, № 140.

dirmək üçün bir neçə yerdə uşaq evi açmaq idi. Monoqrafiyanın əvvəlki bölmələrində uşaq evi üçün Bakı şəhərində torpaq sahəsinin ayrılması və bu məqsədlə tikinti layihəsi barədə bəhs etmişdik. Bu bina hazır olana qədər isə cəmiyyət türk qaçqın uşaqlarını kirayə götürdüyü evlərlə yanaşı, öz iqamətgahında – "İsmailiyyə" binasında yerləşdirmişdi.

1915-ci ilin aprelində "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin qərarı ilə "İsmailiyyə" binasında müharibədə valideynlərini itirmiş türk qaçqın uşaqları üçün ilk uşaq evi açılmışdı.[1]

1915-ci ilin oktyabrında Rusiya daxili işlər nazirinin müavini qofmeystr Plevenin tapşırığı ilə Bakı şəhərində kimsəsiz müsəlman qaçqın uşaqları üçün uşaq evinin tikilməsindən ötrü Qafqaz Cəbhəsində qaçqın və müharibədən zərər çəkənlərə kömək üzrə "Bakı Müsəlman Xeyriyyə Cə-





***Türk qaçqın uşaqları üçün açılan ilk uşaq evi İsmailiyyə binasında***

[1] Kaspi, 10 aprel 1915, № 78.

miyyəti"nin sədri Mirzə Şəmsi oğlu Əsədullayevə 60.000 rubl pul köçürülmüşdü.[1] Bu barədə məlumat Qafqaz canişini yanında xüsusi tapşırıqlar üzrə məmurun 19 oktyabr 1915-ci il tarixli arayışında öz əksini tapmışdı. [2]

**"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Bakı uşaq evində yerləşdirilmiş türk qaçqın uşaqlarının siyahısı[3]**

***Cədvəl 17***

| | Adı və soyadı | Yaşı | Doğulduğu yer |
|---|---|---|---|
| Oğlanlar | | | |
| | Güləzim Xəliloğlu | 11 yaş | Qars vilayəti |
| | Mira Məmmədoğlu | 11 yaş | Qars vilayəti |
| | İbrahim Xəliloğlu | 9 yaş | Ərzrum |
| | Mutalib Muselim oğlu | 4 yaş | Ərzrum |
| | Beşim Muselim oğlu | 6 yaş | Ərzrum |
| | Cəfər Muselim oğlu | 14 yaş | Ərzrum |
| | Həsən Murad oğlu | 11 yaş | Ərzrum |
| | İsmayıl Əhməd oğlu | 13 yaş | Ərzrum |
| | Yusuf Əli oğlu | 9 yaş | Ərzrum |
| | Nadir Yusuf oğlu | 13 yaş | Ərzrum |

1915-ci ilin iyun ayında cəmiyyətin Qars vilayəti üzrə nümayəndəsi Xosrov Paşa bəy Sultanov tərəfindən Bakıya

---

[1] ARDTA, fond 1, siyahı 1, iş 1497, v. 2, 2 (arx.).

[2] ARDTA, fond 1, siyahı 1, iş 1497, v. 2, 2 (arx.).

[3] ARDTA, fond 495, siy.1, iş 124, v. 98-99.

| | | | |
|---|---|---|---|
| | Mövlud Həsən oğlu | 6 yaş | Ərzurum |
| | Sabri Bədir oğlu | 5 yaş | Yuxarı Acar |
| | Şövqi Hüseyn oğlu | 5 yaş | Ərzurum |
| | Hacı Ağa Əbdül Rəhman oğlu | 6 yaş | Qars vilayəti |
| | Jazo Əhməd oğlu | 5 yaş | Qars vilayəti |
| | Bilari Dəvriş oğlu | 9 yaş | Qars vilayəti |
| | Məmməd Mədətov | 14 yaş | Ərzurum |
| | Həmzə Əli oğlu | 10 yaş | Qars vilayəti |
| | Məmməd İsmayıl oğlu | 15 yaş | Qars vilayəti |
| | Əhməd Yusif oğlu | 15 yaş | Qars vilayəti |
| | Kazım bəy | 8 yaş | Qars vilayəti |
| | **QIZLAR** | | |
| | İsmət Əli qızı | 9 yaş | Ərzurum |
| | Qiymət Əli qızı | 10 yaş | Ərzurum |
| | Sultan Mustafa qızı | 10 yaş | Ərzurum |
| | Cavahir Mustafa qızı | 6 yaş | Ərzurum |
| | Cavahir Əli qızı | 7 yaş | Ərzurum |
| | Sona Osman qızı | 6 yaş | Ərzurum |
| | Xanı Əli qızı | 10 yaş | Qars vilayəti |
| | Arxıv sənədində adı bilinmir | 12 yaş | Qars vilayəti |
| | Arxıv sənədində adı bilinmir | 9 yaş | Qars vilayəti |
| | Arxıv sənədində adı bilinmir | 8 yaş | Qars vilayəti |
| | Arxıv sənədində adı bilinmir | 10 yaş | Qars vilayəti |
| | Həvva Əli qızı | 5 yaş | Qars vilayəti |
| | Altun İamayıl qızı | 10 yaş | Qars vilayəti |
| | Fatma Əhməd qızı | 6 yaş | Qars vilayəti |
| | Gülü Xəlil qızı | 11 yaş | Qars vilayəti |
| | Ziba Əhməd qızı | 12 yaş | Qars vilayəti |
| | Barfo İbo qızı | 10 yaş | Qars vilayəti |

| | | | |
|---|---|---|---|
| | Firuzə Abid qızı | 12 yaş | Ərzurum |
| | Hənifə Bədir qızı | 6 yaş | Qars vilayəti |
| | Bambuk Xəlil qızı | 5 yaş | Yuxarı Acar |
| | Fatma Hüseyn qızı | 11 yaş | Qars vilayəti |
| | Züleyxa Hüseyn qızı | 8 yaş | Ərzurum |
| | Saniyət Sumelin qızı | 10 yaş | Ərzurum |
| | Şəfiqə Yusif qızı | 10 yaş | Ərzurum |
| | Sundus Yusif qızı | 8 yaş | Qars vilayəti |
| | Rəfiqə Yusif qızı | 3 yaş | Qars vilayəti |
| | Xoxima Abdul Rəhman qızı | 12 yaş | Qars vilayəti |
| | Fatma Abdul Rəhman qızı | 6 yaş | Qars vilayəti |
| | Çilli Osman qızı | 16 yaş | Qars vilayəti |
| | Gülü Osman qızı | 8 yaş | Qars vilayəti |
| | Socidə Osman qızı | 8 yaş | Qars vilayəti |
| | Hazar Mustafa qızı | 8 yaş | Qars vilayəti |

göndərilən 34 türk qaçqın uşağı "İsmailiyyə" binasında açılan uşaq evində yerləşdirilmişdi. [1]

1915-ci ilin avqustunda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin yardımçı dəstələri tərəfindən Bakıya yaşı 1 yaş yarımdan – 15 yaşadək olan 23 qaçqın uşaq gətirilmişdir. Bu uşaqlar açılması nəzərdə tutulan uşaq evinin pansionunda yerləşdirilmişdir. [2]

Həmin il 19 dekabr tarixində isə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars bölməsi əməkdaşlarının müşayiəti ilə Bakıya 14 kimsəsiz qaçqın türk uşağı gətirilmişdi. Uşaqların hamısı "İsmailiyyə" binasında uşaq evində yerləşdirilmişdi.[3]

1915-ci ilin dekabrına olan məlumata görə, cəmiyyətin "İsmailiyyə" uşaq evində 44 uşaq yerləşdirilmişdi. Bu uşaqlar-

---

[1] Kaspi, 25 iyun 1915, № 140.

[2] Kaspi, 8 avqust 1915, № 176.

[3] Kaspi, 20 dekabr 1915, № 285.



*Türk qaçqın uşaqlarının saxlanıldığı Bakı uşaq evinin yataq otağı*



dan 26 nəfərini qızlar, 18 nəfərini oğlanlar təşkil edirdi. Uşaqlar 4 yaşdan 14 yaşadək olan yaş hədlərində idilər. Onlar Qars vilayəti Ərzurum dairəsindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nümayəndəliyi tərəfindən göndərilən türk uşaqları idilər.[1]

"İsmailiyyə" uşaq evində uşaqların sayı artmaqda idi. 12 sentyabr 1916-cı il tarixə olan məlumata görə, döyüş düşərgələrindən yığılmış 72 uşaq "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin uşaq evində yerləşdirilmişdi.[2]

Azərbaycan ərazisindəki türk qaçqın uşaqlarının yerləşdirildiyi bütün uşaq evlərində olduğu kimi, "İsmailiyyə" uşaq evində də uşaqların sağlamlıqlarının qorunması, onlara qayğı göstərilməsi başlıca vəzifələrdən biri idi. "Bakı Mü-

[1] ARDTA, Fond  335, siyahı 1, iş 2, v. 62, 63.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 81.




***Türk qaçqın uşaqlarının saxlanıldığı Bakı uşaq evinin yeməkxanası***



səlman Xeyriyyə Cəmiyyəti" bu məqsədlə uşaq evlərində işləməyə həkimlər cəlb etmişdi. "İsmailiyyə" uşaq evində könüllü həkim fəaliyyət göstərirdi. Bakı şəhərində xəstəxanaların birində çalışan həkim İlyas Cəfərov uşaq evində təmənnasız həkimlik etməyi öz üzərinə götürmüşdü.[1]

"İsmailiyyə" uşaq evi "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin öz vəsaiti hesabına saxlanılırdı. Bununla yanaşı, uşaq evinə müxtəlif mənbələrdən yardımlar olunurdu. Müharibədə valideynlərini itirmiş türk qaçqın uşaqlarına kömək işinin təşkilində ümummilli, eyni zamanda islami çağırışların mühüm rolu olurdu. 1915-ci ilin iyul ayında Qafqazın Şeyxülislamı və müftisi bütün Qafqaz müsəlmanlarına Orucluq bayramı münasibətilə edilən ianələrin 31 iyulda uşaq evlərinə yönəldilməsi barədə müraciət etmişdi.

[1] Kaspi, 3 noyabr 1915, № 245.

Müraciətdə bildirilirdi ki, "...Şəriət qanununa görə hər müsəlman həmin gündə öz ailə üzvlərinin sayına görə müəyyən məbləği kasıblara paylayır... bu vəsait "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" nin uşaq evinə ayrılsın. Məlumdur ki, müharibə böyük itki gətirdi Bu uşaq evində müharibədən zərər çəkən müsəlman uşaqlar saxlanılır..." [1]

1915-ci ilin dekabrında Bakı taciri Abdulla Mehdiyev uşaq evinə 21 cüt isti corab, 12 cüt əlcək, 12 ədəd isti alt paltarı, 10 ədəd toxunma isti köynək bağışlamışdı.[2] Olunan bu və bu kimi yardımlar uşaqların ehtiyaclarını nisbətən təmin edirdi. Ümumilikdə isə Bakı uşaq evi ianələrlə yanaşı, dövlət xəzinəsindən ayrılan vəsaitlə saxlanılırdı.

### *Yelizavetpol uşaq evi*



Qars vilayətindəki müharibə bölgələrindən gətirilən qaçqın türk-müsəlman əhalisi Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Yelizavetpolda yerləşdirilirdi.

1915-ci ilin dekabrında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsi tərəfindən cəmiyyətin Yelizavetpol Komitəsinə Qafqaz cəbhəsində hərbi əməliyyatların həyata keçirildiyi dağıdılmış yerlərdən 85 türk qaçqını göndərilmişdi. Onların 41 nəfərini valideynlərini itirmiş azyaşlı uşaqlar təşkil edirdi. [3] Türk qaçqınları üçün xüsusi himayə evi olmadığına görə anlar ayrı-ayrı yerlərdə yerləşdirilmişdi. Bu barədə "Kaspi" qəzetində səhifələrində yazılırdı: "...şəhərdə (Yelizavetpolda-N.M) qaçqınların yerləşdirilməsi üçün müvafiq yer olmadığına görə, onlar müvəqqəti olaraq müxtəlif yerlərdə yerləşdirilmişdi.[4]

---

[1] Kaspi, 18 iyul 1915, № 159.

[2] Kaspi, 6 dekabr 1915, № 273.

[3] Kaspi, 20 dekabr 1915, № 285.

[4] Kaspi, 20 dekabr 1915, № 285.

Qars vilayətindən ardı-arası kəsilməyən türk qaşqınlarının, o cümlədən uşaqların gətirildiyi bir vaxtda – 1915-ci ilin dekabrında Yelizavetpol Komitəsinin fövqəladə iclası keçirildi. İclasda Qars vilayətindən gətirilmiş kimsəsiz türk-müsəlman uşaqları üçün uşaq evinin açılması məsələsi müzakirə olundu. Həmin iclasda uşaq evinin açılması üçün xüsusi yerin – pulsuz torpaq sahəsinin ayrılması barədə Yelizavetpol Şəhər Duması qarşısında vəsadət qaldırılması haqqında qərar qəbul olundu.[1] Uşaq evləri üçün bina tikintisi layıhəsinin həyata keçirilməsi ilə bağlı "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə komitəsi"nə müraciət qəbul olundu. Müraciətdə uşaq evi binasının tikilməsinə 20.000 rubl yardım ayrılması xahiş edildi.[2]

Yelizavetpol Komitəsi tərəfindən uşaqların saxlanılması üçün yararlı yerlər icarəyə götürülürdü. 1916-cı ildə komitənin icarəyə aldığı yerlərdə bir neçə uşaq evi fəaliyyət göstərirdi. Uşaq evlərinin saxlanılmasına ictimai ianələrlə yanaşı, dövlət xəzinəsindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin müvəkkilliyi vasitəsilə yardım olunurdu. Yardımlar pul vəsaiti və müxtəlif geyim əşyalarından ibarət idi. Cəmiyyətin müvəkkili Xosrov Paşa bəy Sultanovun Yelizavetpol Komitəsinə yazdığı məktubda bildirilirdi ki, "...Yelizavetpoldakı uşaq evinə lazım olan çəkisi 40 pud, 10.000 arşın olan 10 kip manufaktura malları göndərilmişdir".[3]

Yelizavetpol uşaq evində uşaqların sağlamlıqlarına xüsusi diqqət və qayğı ilə yanaşılırdı. 1917-ci ildə cəmiyyətin baş müvəkkili Xosrov Paşa bəy Sultanov tərəfindən uşaqların sağlamlıqlarının yoxlanılması, həmçinin təlim-tərbiyə işlərinə

[1] Kaspi, 20 dekabr 1915, № 285.

[2] Kaspi, 20 dekabr 1915, № 285.

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 125.

nəzarət üçün tibb bacısı göndərilmişdi. Xosrov Paşa bəy Sultanovun Yelizavetpol Milli Müsəlman Komitəsinə göndərdiyi 22 noyabr 1917-ci il tarixli məktubda yazılırdı: "...təqdim olunan Xayya Maiseyeva tibb bacısı kimi Yelizavetpola Sizin sərəncamınıza göndərilir. Xahiş edirəm ondan uşaq evi üçün lazımi şəkildə istifadə edəsiniz, ya tibb bacısı, yaxud uşaq evinin müdiri kimi".[1]

Yelizavetpol uşaq evində xəstə uşaqların müalicəsi Yelizavetpol şəhər xəstəxanalarında aparılırdı. Lakin istisna hallar da olurdu. Belə ki, uşaqlar ağır xəstəliklər keçirdiyi vaxtda, xüsusi tibbi avadanlıqlar, mütəxəssislər olmadığından onların Yelizavetpolda müalicəsi mümkün olmurdu. Buna görə də digər şəhərlərə müraciətlər olunurdu. 1917-ci il avqustun 26-da Yelizavetpol Milli Müsəlman Komitəsi tərəfindən Tiflisdə yerləşən uşaq evinə Yelizavetpol 4-cü uşaq evinin 4 xəstə uşağının müalicəsi ilə əlaqədar müraciət olunmuşdu. Məktubda bildirilirdi ki, "...bu uşaqların müalicəsi üçün Yelizavetpolda xüsusi müalicə müəssisəsi yoxdur".[2]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin bütün uşaq evlərinə, o cümlədən Yelizavetpol uşaq evinə işçiləri bir çox hallarda Baş müvəkkillik tərəfindən göndərilirdi. 1917-ci il noyabrın 14-də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkilinin Yelizavetpol Milli Müsəlman Komitəsinə yazdığı məktubda bildirilirdi ki, "...Qr. Anna İvanovna Lebedyeva Yelizavetpolda müsəlman uşaq evinə nəzarətçi göndərilir. Xahiş edirəm vəzifəsini yerinə yetirməyə icazə verəsiniz".[3]

Bütün bunlarla yanaşı, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin bütün uşaq evlərinə işçilər, xüsusilə müəllimlər qəbul

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 113.

[2] ARDTA, Fond 335, siyahı, 1, iş 2, v. 50.

[3] ARDTA, Fond 335, siyahı, 1, iş 2, v. 110.

olunarkən onların Azərbaycan-türk dilini bilmələri vacib şərt idi. Belə ki, Azərbaycan-türk dilini bilməyən müəllimlər uşaq evində uşaqlarla ünsiyyət yarada bilmədiklərinə, ana dilində dərsləri tədris etməkdə çətinlik çəkdiklərinə görə müdiriyyət tərərfindən iş yerindən uzaqlaşdırılırdı. Yelizavetpol Milli Müsəlman Komitəsi tərəfindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkili Xosrov Paşa bəy Sultanova yazılan 28 noyabr 1917-ci il 52 saylı məktubda bildirilirdi ki, "...qaçqın müsəlman uşaqları üçün uşaq evində yerli dili bilməyən Lebedyevi komitə geri qaytarır".[1]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin digər uşaq evləri kimi Yelizavetpol uşaq evinin saxlanılmasına da Qafqaz Cəbhəsində Müharibədən Zərər Çəkənlərə və Qaçqınlara Kömək üzrə Baş Müvəkkilliyi tərəfindən lazımi vəsait ayrılırdı. Cəmiyyətin baş müvəkkili Xosrov Paşa bəy Sultanovun Yelizavetpol Milli Müsəlman Komitəsinin səlahiyyətli nümayəndəsi Əli Əkbər bəy Rəfibəyova yazdığı 1 oktyabr 1917-ci il tarixli məktubunda Yelizavetpol uşaq evinin saxlanılması üçün 7.140 rubl vəsait ayrıldığı bildirilirdi. Bu vəsaitin 2.100 rubl məbləği hər uşağa 25 rubl hesabı ilə, 5.040 rubl isə hər uşağa 30 rubl hesabı ilə 2 ay üçün ayrıldığı qeyd olunurdu.[2]



1917-ci il dekabrın 2-də cəmiyyətin baş müvəkkili Xosrov Paşa bəy Sultanov tərəfindən Yelizavetpol Müsəlman Komitəsinin sədri Adilxan Ziyadxanovun ünvanına Yelizavetpol uşaq evinin təchizatı üçün 10.000 rubl göndərilmişdi. Bu vəsait uşaq evində saxlanılan 55 uşaq üçün nəzərdə tutulurdu.[3]

Yelizavetpol uşaq evində müharibədə valideynlərini itirmiş uşaqlarla yanaşı, qaçqın düşmüş qadınlar, qocalar

---

[1] ARDTA, Fond 335, siyahı, 1, iş 2, v. 114.

[2] ARDTA, Fond 335, siyahı 1, iş1, v. 48, 96.

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 121.

da yerləşdirilmişdi. Qaçqınların saxlanılması üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən illik, yaxud ilin hər rübü üçün vəsait ayrılır, onlar ərzaq, geyim və digər lazımi əşyalarla təmin olunurdular. 1917-ci ilin dördüncü rübü üçün uşaq evinin ərzaqla təmin olunmasına 3.052 rubl ödənilmişdi. [1]

Uşaq evində uşaqların və böyüklərin geyim, həmçinin digər əşyalarla təmin olunmasına gəldikdə, bu tədbirlər də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Baş Müvəkkiliyi tərəfindən həyata keçirilirdi. 1917-ci il dekabrın 15-də Qafqaz cəbhəsində müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə Yelizavetpol Quberniya Komitəsinin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkilinə müraciətində bildirilirdi ki, "...Yelizavetpol şəhərində manufaktura yoxdur, buna görə də xahiş edirik qaçqınlar üçün hazır paltarlar göndərəsiniz..."[2]

1917-ci il dekabrın 21-də cəmiyyətin baş müvəkkili Xosrov Paşa bəy Sultanovun göstərişi ilə Yelizavetpol Milli Müsəlman Komitəsinə müsəlman uşaq evi üçün 10 kip hazır geyim əşyaları, 49 pud çəkisində 10.000 arşın manufaktura malları göndərilmişdi.[3]

1917-ci ilin sonlarında Yelizavetpolda uşaq evilərinin sayı artmaqda idi. Yelizavetpol Komitəsinin sədri Adilxan Ziyadxanovun "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin müvəkkilinə yazdığı 25 noyabr 1917-ci il tarixli məktubda yeni açılmış 5-ci uşaq evinin təchizatı üçün, manufaktura və digər əşyaların alınmasından ötrü 10.000 rubl yardım olunması xahiş edilirdi.[4]

---

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 122, 122 (arx.).

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 122, 122 (arx.).

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 125.

[4] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 116.

### *Şuşa uşaq evi*

Birinci Dünya müharibəsi illərində Qars vilayətindən gətirilmiş qaçqın türk-müsəlman əhalinin müəyyən bir qismi Azərbaycanın qədim şəhərlərindən biri olan Şuşada yerləşdirilmişdi. Həmin illərdə Şuşada yerləşdirilən qaçqınlarla iş üzrə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Şuşa Komitəsi fəaliyyət göstərirdi.

Şuşa uşaq evinin saxlanması müəyyən olunmuş qayda üzrə həyata keçirilirdi. Belə ki, uşaq evinin rəhbərliyi tərəfindən hər uşağın saxlanılması və digər zəruri ehtiyacları üçün tələb olunan vəsait hesablanaraq "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərilirdi. Bu xərclər cəmiyyətin vəsaiti ilə yanaşı, Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə Baş Müvəkkillik tərəfindən ayrılan vəsaitlə ödənilirdi. Ayrılan vəsait cəmiyyətin müvəkkilliyi vasitəsilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nəzdində olan bütün uşaq evlərinə paylanılırdı.



1917-ci il fevralın 2-də Şuşa uşaq evi müdirinin məlumatına görə, uşaq evinin həmin ilin birinci rübündə saxlanılması üçün 2.319 rubl məbləğində smeta tutularaq cəmiyyətin baş müvəkkilliyinə göndərilmişdi.[1]

Bəzi hallarda Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə baş müvəkkillik tərəfindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin müvəkkilliyinə ayrılan yardımlar gecikdirilirdi. Bu isə öz növbəsində uşaq evlərinə vasait ayrılmasını da ləngidirdi. 26 mart 1917-ci il 1465 saylı əmrlə həmin ilin yanvar və fevralın birinci yarısı üçün Şuşa uşaq evinə nəzərdə tutulan vəsait ayrılmışdı.[2] Digər uşaq

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 3.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 42, 42 (arx.).

evləri üçün isə ilin birinci rübünə nəzərdə tutulan pul vəsaitinin ayrılması 10 aprel 1917-ci il tarixli 1664 saylı əmrinə əsasən qərarlaşmış və uşaqların saxlanılması üçün yerli komitələrə göndərilməsi nəzərdə tutulurdu.[1]

Ayrılmış vəsaitin alınması da müəyyən vaxt aparırdı. Uşaq evləri onlar üçün ayrılmış məbləğin alınmasında da gözləmək məcburiyyətində qalırdılar. Şuşada yerləşdirilmiş türk qaçqınlarına kömək üzrə Şuşa Komitəsinin sədrinin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkili Xosrov Paşa bəy Sultanova 4 iyun 1917-ci il tarixli 155 saylı məktubunda yazılırdı: "...Şuşa uşaq evinə bu ilin yanvar ayı və fevral ayının birinci yarısı üçün 26 mart 1465 saylı əmri ilə pul ayrılmışdır. Bu vaxta kimi pulu ala bilməmişik. Xahış edirəm uşaq evinin saxlanılmasına pul buraxılması barədə sərəncam verəsiniz. Göndərilmə mənim adıma və yaxud Qarabağ İcraiyyə Komitəsinin adına ola bilər".[2]



"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin uşaq evlərinə vasait ayrılması ilə bağlı yaranmış çətinliklər qış aylarında bir qədər də ağırlaşırdı. Belə ki, həmin vaxtlarda uşaqlar ərzaqdan əlavə isti geyim əşyaları ilə də təmin olunmalı idilər. Bunun üçün isə əlavə vəsait ayrılmalıydı. Ölkədə yaranmış ağır iqtisadi durum, bahalaşma, ərzaq qıtlığı isə bu məsələlərin həllini bir qədər də çətinləşdirirdi.

Qafqaz cəbhəsində türk qaçqınlarına kömək üzrə Şuşa Komitəsinin sədrinin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkili Xosrov Paşa bəy Sultanova göndərdiyi 4 sentyabr 1917-ci il tarixli məktubda yazılırdı: "...Bahalaşma, ərzaq qıtlığı qaçqınların saxlanılmasına çətinlik yaradır. Qışın yaxınlaşması isti geyimlərlə təmin etmək məsələsini

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 42, 42 (arx.).

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 42, 42 (arx.).

ortaya çıxarır. Uşaq evinin saxlanılması üçün buraxılan vəsait kifayət etmir..."[1]

1917-ci ilin sentyabr ayına olan məlumata görə, Şuşa uşaq evində 48 nəfər türk qaçqını saxlanılırdı ki, onlardan 31 nəfəri uşaqlar idi. Müqayisədə uşaqların saxlanılmasına daha çox vəsait sərf olunurdu. Belə ki, əgər bir uşağın saxlanılması üçün bir ay ərzində 30 rubl vəsait tələb olunurdusa, böyüklərə bir nəfərə 6 rubl hesablanırdı. [2]

Şuşada yerləşdirilmiş türk qaçqınlarına kömək üzrə Şuşa Komitəsi uşaqların təhsil almalarına xüsusi diqqət və qayğı göstərirdi. 1917-ci ilin sentyabr ayına olan məlumata görə, 8 məktəbyaşlı uşağın təhsil almasına görə təhsil haqqı olaraq, hər uşağa 2 rubl 50 qəpik vəsait ayrılmışdı. [3]



[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 79, 79 (arx.).

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 78, 78 (arx.).

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 78, 78 (arx.).

**Şuşa uşaq evinin 1917-ci ilin sentyabr, oktyabr, noyabr və dekabr aylarında saxlanılması üçün SMETA XƏRCLƏRİ** [1]

***Cədvəl 17***

| | MƏXARİC | 1 AY | 3AY |
|---|---|---|---|
| | 31 uşağın saxlanılması, aylıq hər uşağa 30 rubl hesabı ilə | 930 rubl | 2.790 rubl |
| | 17 nəfərə aylıq hər nəfərə 6 rubl hesabı ilə | 102 rubl | 306 rubl |
| | 17 nəfərin mənzil təminatı, 9 ay hər nəfərə 1 rubl 10 qəpik hesabı ilə | ---- | 18 rubl 70 qəpik |
| | Məktəb üçün 8 şagirdə, hər nəfərə 2 rubl 50 qəpik hesabı ilə | 20 rubl | 60 rubl |
| | Hər bir nəfərə 20 qəpik hesabı ilə 3 aylıq hər nəfərə 25 qəpik hesabı ilə müalicə haqqı | ------- | 27 rubl 80 qəpik |
| | İstilik, işıq, mətbəx və s. xərclər | ------- | 12 rubl |
| | | ---------- | 375 rubl 20 qəpik |
| | | | CƏMİ: 3.589 rubl 70 qəpik |



"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkili Xosrov Paşa bəy Sultanovun Şuşa Komitəsinin sədri Kərim bəy Mehmandarova göndərdiyi 2 oktyabr 1917-ci il tarixli məktubda yazılır: "...Sizə uşaq evinin 4-cü rübdə saxlanılması üçün 1.860 rubl köçürülüb, 31 nəfər üçün, hər birinə 30 rubldan".[2]

1917-ci ildə Şuşa uşaq evində yerləşdirilmiş 33 türk qaçqın uşağın saxlanılması üçün Qarabağ İcraiyyə Komitəsi

---

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 78, 78 (arx.).

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 95.

tərəfindən 2.910 rubl göndərilmişdir.[1] Şuşa Komitəsinin sədrinin cəmiyyətin baş müvəkkilinə verdiyi məlumatda bildirilirdi ki, yaşlı əlillərin saxlanılması üçün nəzərdə tutulan 808 rubl komitəyə göndərilməmişdir.[2]

1917-ci ilin dekabr ayına olan məlumata görə, Şuşa uşaq evində 48 nəfər türk-müsəlman qaçqın yerləşdirilmişdi. Bunlardan 31 nəfərini uşaqlar, 3 nəfərini yaşlı kişilər, 14 nəfərini isə yaşlı qadınlar təşkil edirdi".[3]

### *Şamaxı uşaq evi*

Birinci Dünya müharibəsi illərində Qars vilayətindən gətirilən türk qaçqınlarının, o cümlədən qaçqın türk uşaqlarının bir qismi Şamaxıda yerləşdirilmişdi. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin digər komitələrində olduğu kimi, Şamaxıda da qaçqınlarla iş üzrə tədbirlər Şamaxı Komitəsinin təşkilatçılığı ilə həyata keçirilirdi. Komitənin təşkilatçılıq işində "Nicat" Bakı Müsəlman Maarif Cəmiyyətinin Şamaxı şöbəsi fəal iştirak edirdi.

Şamaxı Komitəsinin və "Nicat" Bakı Müsəlman Maarif Cəmiyyətinin Şamaxı şöbəsi üzvlərinin ümumi iclasında 1915-ci ilin iyul ayında Şamaxıda türk qaçqın uşaqlarının yerləşdirilməsi üçün uşaq evinin açılması işinin müzakirəsi keçirilmişdi. Həmin iclasda Şamaxı Komitəsinin üzvü, quberniya qazısı Mustafa Əfəndi çıxış edərək Qarsdan gətirilmiş və gətirilməsi gözlənilən türk qaçqın uşaqları üçün uşaq evinin açılması barədə məruzə etmişdi. İclasda qərara alınmışdı ki, Qars vilayətindən gətirilən müharibədə valideynlərini itirmiş kimsəsiz uşaqlar üçün uşaq evi açılsın.[4]

---

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 79, 79 (arx.).

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 79, 79 (arx.).

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 79, 79 (arx.).

[4] Kaspi, 16 iyul 1915, № 157.

### *Batum –Çakve uşaq evi*

Birinci Dünya müharibəsi illərində qaçqın və müraribədən zərər çəkən türk- müsəlman əhalisinin ən sıx yerləşdirildiyi yerlərdən biri də Batum ərazisi idi. 1916-cı ildə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək üzrə baş müvəkkili Xosrov Paşa bəy Sultanovun təşkilatçılığı ilə Batumda – Çakve yaşayış sahəsində yeni uşaq evi açılmışdı. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkilinin 2 aprel 1917-ci il tarixli məlumatında qeyd olunurdu ki, "...Batumda 100 nəfərlik uşaq evinin açılması üçün Çakvedə yer hazırlanıb. Bu uşaq evinin açılması üçün nəzərdə tutulan smeta vilayət komitəsi vasitəsilə təqdim olunacaq".[1]



Çakve uşaq evinin açılması ilə əlaqədar, Qafqaz Cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin müvəkkilliyinə yazdığı 26 noyabr 1916-cı il tarixli 184 saylı məktubunda bildirilirdi ki, Batum uşaq evi üçün ilkin olaraq 1.000 rubl pul göndərilmişdir.[2]

Batum uşaq evində, əsasən, bu ərazidə olan, müharibədə valideynlərini itirmiş türk qaçqın uşaqları saxlanılırdı. Müharibə şəraitində cəmiyyətin digər uşaq evlərində olduğu kimi, Batum uşaq evinə gətirilən uşaqların da sayı gündən-günə artırdı. 1917-ci il iyul ayının 7-nə olan məlumata görə, uşaq evində 50 nəfər uşaq var idisə, həmin il sentyabr ayının 3-nə olan məlumatda bildirilirdi ki, uşaqların sayı 60 nəfər olmuşdur.[3]

---

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 80.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 88, 88 (arx.).

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 78.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin digər uşaq evləri kimi, Batum uşaq evi də cəmiyyətin vəsaiti ilə yanaşı, Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə İcraedici Şura tərəfindən ayrılan vəsait hesabına saxlanılırdı. İcraedici Şura tərəfindən ayrılan vəsait hər uşağın saxlanılması üçün ayda 30 rubl hesabı ilə müəyyənləşirdirilmişdi. [1] Uşaq evində uşaqların sayının gündən-günə artması İcraedici Şura ilə uşaq evi müdiriyyəti arasında anlaşılmazlıq yaradırdı. Belə ki, İcaraedici Şura tərəfindən ayrılan vəsait uşaqların sayı artdıqdan sonra uşaq evlərinin saxlanılması üçün kifayət etmirdi.

Batum uşaq evinin müdirinin 3 sentyabr 1917-ci il 48 saylı məktubunda bildirilirdi ki, "...uşaq evində 50 uşağın saxlanılması üçün hər uşağa 30 rubl hesabı ilə 4.500 rubl ayrılmışdır. ... hazırda uşaq evində 60 uşaq var. Bu hesabla göndərilməsi xahiş olunur".[2]

Lakin bir tərəfdən müharibə, digər tərəfdən ölkədəki gərgin ictimai-siyasi vəziyyət, hökm sürən ağır iqtisadi durğunluq bütün sahələrdə olduğu kimi, uşaq evlərinin saxlanılmasında da çətinliklər yaradırdı. Uşaq evlərində uşaqların ərzaqla, geyimlə təmin olunması, onlara təhsil verilməsi və tərbiyələndirilməsi bu sahəyə ayrılan vəsait hesabına təşkil olunurdu. Vəsait çatışmazlığı bu kimi müəssisələrin bağlanmasına gətirib çıxarırdı.[3] Batum uşaq evinin müdirinin cəmiyyətin baş müvəkkilinə yazdığı 23 dekabr 1917-ci il tarixli məktubunda bildirilirdi ki, "...hər uşağa 30 rubl kifayət etmir. Bahalaşma ilə əlaqədar olaraq hər uşaq üçün 42-46 rubldan az olmayaraq aylıq xərc tələb olunur".[4]

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 78.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 78.

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 76, 76 (arx.).

[4] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 73.

Batum vilayəti üzrə qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək üzrə baş müvəkkil Xosrov Paşa bəy Sultanovun Qafqaz Cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilə yazdığı 8 sentyabr 1917-ci il tarixli məktubunda yazılırdı: "Çakve uşaq evinin vəziyyəti acınacaqlı haldadır. Uşaq evində yaranmış bu ağır vəziyyəti nəzərə alaraq xahiş edirəm ki, aprel, may ayları üçün məxaric 1.976 rubl olmaqla (bunun 800 rublu məktəbin təchizatı üçün) göndərəsiniz. Uşaq evində yataq dəsti və geyim əşyalarının çatışmazlığı çətinlik yaradır".[1]

### *Kağızman uşaq evi*



Qars vilayətində müharibə gedən döyüş bölgələrinə yaxın olan ərazilərdə də uşaq evləri açılmışdı. Belə ərazilərdən birində – Kağızmanda açılan uşaq evi "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən təşkil edilmişdi. Digər uşaq evləri ilə müqayisədə burada uşaqların sayı daha çox idi və günbəgün artırdı. Təkcə bir gün ərzində bura Ərzrumun Xnıs ərazisindən 300 türk qaçqın uşağı gətirilmişdi. Bu uşaqların zəruri ehtiyaclarının ödənilməsi, onların ərzaq və geyim əşyaları ilə təmin olunması vacib şərt idi. Bu məqsədlə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə Baş müvəkkilinin köməkçisi Əlixan Kantəmirovun Tiflisə, cəmiyyətin baş müvəkkili Xosrov Paşa bəy Sultanova yazdığı teleqramda bildirilirdi ki, uşaq evlərinin təchizatı üçün "...Kağızman uşaq evinin müdiri İdris Axundzadəyə 10.000 rubl pul keçirilməsini xahiş edirik".[2]

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 76, 76 (arx.).

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 12.

Kağızman uşaq evində də uşaqların hərtərəfli qayğısına qalınır, onlara böyük diqqət göstərilirdi. Belə ki, uşaqların təkcə ərzaq və geyim əşyaları ilə təminatı məsələlərinə deyil, onların təhsilinə, o cümlədən sənət sahəsində ibtidai biliklərinin olmasına diqqət yetirilirdi. Uşaqlara ibtidai təhsilin verilməsi üçün isə müəllimlər dəvət olunurdular.

Kağızman uşaq evinin müdiri İdris Axundzadə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə baş müvəkkili Xosrov Paşa bəy Sultanova göndərdiyi 3 sentyabr 1917-ci il tarixli teleqramda uşaq evinə əl işləri üzrə təcrübəçi müəllim dəvət olunması barədə müraciət etmişdi.[1] Bildirilirdi ki, müəllim üçün əmək haqqı 150 rubl nəzərdə tutulur. Həmin teleqramda həmçinin 80 çarpayılıq uşaq evinin saxlanılması üçün 5.000 rubl vəsaitin ayrılması xahiş





***Qafqaz Cəbhəsində türk-müsəlman qaçqınlarına yardım üzrə Qars komitəsini sədri Xosrov Paşa bəy Sultanov türk-müsəlman qaçqınları ilə görüntüsü***

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 68.

olunurdu.[1] Bu müraciətə cavab olaraq, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkili tərəfindən uşaq evinə ilkin olaraq 5.000 rubl pul göndərilmişdi.[2]

### Oltu uşaq evində yerləşdirilən türk qaçqın uşaqlarının siyahısı

| Sıra sayı | Adı və soyadı | Doğulduğu yer |
|---|---|---|
| 1 | Şevket Mustafaoğlu | Ərdanuc |
| 2 | Rəcəb Abdullaoğlu | Ərdanuc |
| 3 | Səbrə Tursunqızı | Tauskira |
| 4 | Fatima Mustafaqızı | Ərdanuc |
| 5 | Fazı Fezuloğlu | Ərdanuc |
| 6 | Hasan Mustafaoğlu | Xıdırlı |
| 7 | Səhər Mustafaqızı | Xıdırlı |
| 8 | Fatima Yusifqızı | Ərdanuc |
| 9 | Şeuf Dervişoğlu | Ərdanuc |
| 10 | Mavlud Eyunoğlu | İspir |
| 11 | İsmayıl Əlioğlu | Ərdanuc |
| 12 | Aslı Məmmədqızı | Artvin |
| 13 | Məmməd İsmayıloğlu | Ərdanuc |



***Cədvəl 18***

Yuxarıda qeyd olunanlar yeni gətirilən uşaqlar barədə məlumatlar idi. Ümumilikdə isə Oltu uşaq evində uşaqların sayı digər uşaq evləri ilə müqayisədə çoxluq təşkil edirdi. Uşaq evində işçi heyətinin çoxluğu bu faktı təsdiq edir. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin uşaq evləri üçün təlimata[3] görə hər uşaq evində 50 nəfərə qədər uşaq olardısa,

---

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 40.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 104.

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 60, 60 (arx.), 61, 61 (arx.).

uşaq evinin işçi heyətinə bir nəfər müdir, yaxud tərbiyəçi rəhbərlik edirdi. Bu şəxs həm rəhbərlik edir, həm də təsərrüfat işlərinə baxırdı. Uşaq evində 100 nəfərdən yuxarı uşaq olduğu halda, hər 40 uşaq üçün bir nəzarətçi, bir aşpaz və onun köməkçisi, bir müəllim (qadın, yaxud kişi), türk dilində savadlı olan, əl işləri üzrə qadın müəllim, emalatxanalarda dərs keçən sənət müəllimi, 1-2 xidmətçi və paltaryuyan nəzərdə tutulurdu. [1] Oltu uşaq evinin müdirinin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkilinə yazdığı 26 avqust 1917-ci il tarixli məktubda Oltu uşaq evinin işçi heyəti barədə məlumat əksini tapmışdı.[2]

| Sıra sayı | Adı, soyadı | Vəzifəsi | Aylıq əmək haqqı |
|---|---|---|---|
| 1. | Səməd Hacıyev | müdir | 100 rubl |
| 2. | Sara Tağıyeva | nəzarətçi | 100 rubl |
| 3. | Venera Yaseneva | İqtisadçı | 75 rubl |
| 4. | Zembi Korkiyev | gözətçi | 90 rubl |
| 5. | Yeva Əhməd qızı | | 40 rubl |
| 6. | Fəxri İbrahim oğlu | | 40 rubl |
| 7. | Sürəyya Abdulla qızı | | 30 rubl |
| 8. | Qafar Hüseyn oğlu | | 30 rubl |
| 9. | Ayşə Əhməd qızı | | 15 rubl |

**Oltu uşaq evinin işçi heyəti:[3]**

***Cədvəl 18***

Birinci Dünya müharibəsi illərində Rusiya imperiyasını bürümüş iqtisadi durğunluq, ölkə daxilindəki gərgin ictimai-

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 60, 60 (arx.), 61, 61 (arx.).

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 58, 58 (arx.).

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 58, 58 (arx.).

siyasi vəziyyət bütün sahələrdə olduğu kimi, uşaq evlərinin də saxlanılmasına öz təsirini göstərirdi. Belə bir çətin şəraitdə – 1917-ci ilin avqustunda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkili Xosrov Paşa bəy Sultanov Oltu uşaq evinin əşyalarla təchizatı üçün vəsait ayrılmasına nail olmuşdu. [1]

Digər uşaq evlərində olduğu kimi, Oltu uşaq evinin də saxlanılmasında maliyyə problemləri, xüsusilə 1917-ci ilin ikinci yarısında daha da kəskinləşmişdi.

Türkiyənin Çaldır sahəsinin komissarı T.Hüseynov 1917-ci il 12 sentyabr tarixdə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkili Xosrov Paşa bəy Sultanova Oltu uşaq evindəki vəziyyətlə bağlı müraciət etmişdi. Müraciətdə bildirilirdi ki, "...Oltu uşaq evində vəziyyət olduqca ağırdır. Yaranmış vəziyyət barədə bir ölçü götürülməsi lazımdır... Artıq qış yaxınlaşır, uşaqların isə nəinki isti geyimləri, hətta ərzaqları da yoxdur. Ümumiyyətlə, uşaq evi qışa hazır deyil".[2] Komissar T.Hüseynovun Xosrov Paşa bəy Sultanova müraciətində Oltu uşaq evində vəziyyətlə bağlı məsələ kəskin qoyulurdu. Müraciətdə bildirilirdi ki, "...ya bu müəssisəyə uşaq evi kimi baxılsın, ya da Tiflis, Bakı və Yelizavetpola köçürülsün".[3]



Türkiyənin Çaldır sahəsinin komissarı T.Hüseynovun bu müraciətindən sonra 1917-ci ilin noyabrında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə baş müvəkkili Xosrov Paşa bəy Sultanov tərəfindən Oltu uşaq evinin Yelizavetpol şəhərinə köçürülməsi barədə sərəncam verildi. [4]

---

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 58, 58 (arx.).

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 81, 81 (arx.), 82, 82 (arx.).

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 81, 81 (arx.), 82, 82 (arx.).

[4] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 114.

Sərancamda köçürülmə səbəbi kimi Oltuda manufakturanın olmaması və ərzaq qıtlığı qeyd olunurdu.

Beləliklə, yuxarıda qeyd olunan səbəblərə görə Oltu uşaq evi türk qaçqın uşaqlar və işçi heyəti ilə birlikdə Yelizavetpol şəhərinə köçürüldü. [1] Oltu uşaq evinin müdiri Hacıyevin Qars vilayəti üzrə baş müvəkkil Xosrov Paşa bəy Sultanova yazdığı 19 noyabr 1917-ci il tarixli məktubda uşaqların yola çıxması üçün isti geyim əşyalarının göndərilməsi xahiş olunurdu.[2]

***Küm-Kümə uşaq evi***

Müharibədə valideynlərini itirmiş türk qaçqın uşaqlarının müəyyən hissəsi Qars vilayətinin Küm-Kümədə açılan uşaq evində yerləşdirilmişdi. Küm-Kümə uşaq evi 1916-cı ildən fəaliyyət göstərirdi. 1917-ci ilə olan məlumata görə, uşaq evində 30 türk qaçqın uşağı saxlanılırdı. [3] Ölkə həyatında baş verən ağır iqtisadi böhran, bahalaşma uşaq evlərinin ərzaq və digər zəruri ehtiyaclarının təmin olunmasında çətinliklər yaradırdı.

Küm-Kümədə ərzaq məntəqəsinin rəhbəri Kipianinin Xosrov Paşa bəy Sultanova uşaq evinin durumu barədə məktub göndərmişdi. 5 may 1917-ci il tarixli məktubda uşaq evinin vəziyyətinin son dərəcədə ağır olması barədə məlumat verilirdi. Həmçinin xahiş olunurdu ki, "...təcili uşaq evindəki uşaqlar köçürülsün və Tiflisdəki uşaq evlərinə qəbul olunsunlar".[4]

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 114.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 114.

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 11.

[4] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 11.

Yaranmış gərgin vəziyyətlə əlaqədar olaraq, Qars vilayəti üzrə baş müvəkkil Xosrov Paşa bəy Sultanov tərəfindən Küm-kümə uşaq evində olan uşaqların Tiflis uşaq evinə köçürülməsi barədə danışıqlar aparılmış və şərait yaradılmışdı. Cəmiyyətin Küm-Kümə şöbəsinin ərzaq məntəqəsinin rəhbəri Kipianinin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkilinə yazdığı məktubda bildirirdi ki, "...Mən onları Tiflisdəki uşaq evlərində yerləşdirmək üçün yola salıram. Xahiş edirəm ki, onlar üçün yer hazırlanmasına göstəriş verəsiniz. Uşaqların sayı 30-dan yuxarı deyil..."[1]

***Ərdahan uşaq evi***



1916-cı ildə Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə baş müvəkkil Xosrov Paşa bəy Sultanov ehtiyacı olan ərazilərdə yeni uşaq evlərinin açılması ilə əlaqədar Qafqazda Qaçqınların Yerləşləşdirilməsi üzrə Baş Müvəkkil, general-mayor Tamamşevə müraciət etmişdi. Bu müraciətə cavab olaraq 1917-ci ilin fevralında general-mayor Tamamşev Nuxada, Kağızmanda, Axalsıxda, o cümlədən Ərdahanda uşaq evlərinin açılması barədə razılıq verilmişdi. General-mayor həmçinin bildirirdi ki, bu uşaq evlərinin təchizatı üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə müəyyən məbləğdə yardım olunacaq.[2]

Qafqazda Qaçqınların Yerləşləşdirilməsi üzrə Baş Müvəkkil, general-mayor Tamamşevin rəsmi icazəsindən sonra "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin Qars Komitəsi tərəfindən Ərdahanda 60 qaçqın uşaq üçün uşaq evi açılmışdı. 100 çarpayılıq uşaq evinin təchizatı üçün lazım olan avadanlıqların Bakıdan, Tiflisdən gətirilməsi nəzərdə tutulurdu.[3]

---

[1] ARDTA, Fond 335 siyahı 1, v. 2; 8.

[2] Kaspi, 21 fevral 1917, № 41.

[3] Kaspi, 2 fevral 1917, № 27.

***Ərzurum uşaq evi***

1916-cı il avqustun 7-də Ərzrum Şəhər İdarəsi rəisinin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə göndərdiyi məktubda yazılırdı: "Son vaxtlar şəhərdə kimsəsiz uşaqlar müşahidə olunur, onları şəhər özünüidarəsinə gətirirlər. Şəhər özünüidarəsi onları evlərə verir. Onların saxlanılması üçün 10 rubldan verilməlidir. Xahiş edirəm bu məbləğin verilməsini təmin edəsiniz".[1] "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" bu uşaqları himayəyə alaraq, burada uşaq evi açmışdır.

***Qars uşaq evi***

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars şəhərində bir neçə uşaq evi fəaliyyət göstərirdi. Burada uşaqların sayı digər uşaq evləri ilə müqayisədə bir qədər çox idi. Uşaq evinin müdiri Kantəmirovun "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkili Xosrov Paşa bəy Sultanova yazdığı məktubda uşaq evi üçün 250 çarpayılıq ehtiyat yataq dəsti göndərilməsi xahiş olunurdu.[2]



***Tiflis uşaq evi***

1915-ci ilin iyulunda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qafqaz Komitəsinin təşkilatçılığı ilə Tiflisdə uşaq evi açılmışdı. Bu uşaq evi, əsasən, Qars vilayətində müharibə zamanı valideynlərini itirmiş türk qaçqın uşaqları üçün nəzərdə tutulurdu. Burada uşaqların yerləşdirilməsi üçün əlverişli şərait olduğundan Qafqaz Komitəsi belə bir müraciət

[1] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 77, 78.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 5.

etmişdi ki, Qarsdan gətirilmiş kimsəsiz uşaqlar Tiflisə göndərilsinlər.[1]



***Türk qaçqınlarının siyahısı: arxiv sənədi nümunəsi***

[1] Kaspi, 15 iyul 1915, № 156.

Birinci Dünya müharibəsində qaçqın və müharibədən zərər çəkən türk- müsəlman əhalisinə kömək üzrə Qafqaz Komitəsi nəzdində Tiflisdə yeni açılmış uşaq evinin təchizatı ilə bağlı "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin bütün dəstələr üzrə baş müvəkkili, Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov Qafqaz Komitəsinin sədri İbrahim bəy Vəkilova teleqramla müraciət etmişdi. Müraciətdə bildirilirdi ki, Qarsdan gətirilən türk qaçqınları üçün Tiflis uşaq evinin smetası tərtib olunsun və bu barədə ətraflı məlumat verilsin.[1]

Qafqaz Komitəsinin rəhbəri İbrahim bəy Vəkilovun Məmməd Yusif Cəfərova göndərdiyi məlumatda uşaq evində 55 nəfər türk qaçqın uşağın olduğu bildirilirdi. Həmçinin qeyd olunurdu ki, həmin vaxtda komitə üzvlərinini apardığı siyahıyaalmaya görə, Tiflisdə türk qaçqınları əsasən Axalsıx və Axalkələki qəzalarında yerləşdirmişdilər. İbrahim bəy Vəkilovun verdiyi məlumatda həmçinin qeyd olunurdu ki, "...onların (qaçqınların-N.M.) dəqiq sayının müəyyənləşdirilməsi üçün göstəriş verilmişdir. Bu barədə bütün şəxslərə və müəssisələrə qaçqın müsəlmanlar haqqında məlumat toplanılması barədə müraciət olunmuşdur".[2]



"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qafqaz Komitəsinin sədri İbrahim bəy Vəkilovun verdiyi məlimatda bildirilirdi ki, uşaq evinin təchiz olunması 7.000 rubla başa gəlir, aylıq sərf olunan məbləğ isə 1.500 rubldır. Aylıq məbləğə mənzil, istilik, işıq, geyim və işçi personalına, o cümlədən müdir, 2 qadın müəllim və xidmətçilərə ödənilən xərclər daxil idi. İbrahim bəy Vəkilov həmçinin bildirirdi ki,

[1] Kaspi, 23 sentyabr 1915, № 211.

[2] Kaspi, 23 sentyabr 1915, № 211.

Tiflisdə komitəyə məxsus torpaq sahəsi vardır ki, burada məktəb binasının tikilməsi nəzərdə tutulur.[1]

Qafqaz Komitəsi həmin dövrdə ağır müharibə şəraitinin, həmçinin ağır maddi çətinliklərin olmasına baxmayaraq, uşaqların təhsil almalarına xüsusi qayğı ilə yanaşırdı.





***Türk-müsəlman qaçqın uşaqları üçün açılan Tiflis uşaq evinin işçi heyəti***

1915-ci ilin sentyabrında Tiflis uşaq evində 55 uşaq tərbiyə olunurdu. Həmin ilin oktyabrına olan məlumata görə 20 nəfər məktəbyaşlı uşaq Tiflis ibtidai məktəblərində təhsil alırdılar.[2]

Məlum olduğu kimi, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardımların, o cümlədən pul

---

[1] Kaspi, 29 oktyabr 1915, № 241.

[2] Kaspi, 29 oktyabr 1915, № 241.

yardımlarının paylanması üçün yardımçı dəstələri fəaliyyət göstərirdi. Yardımların paylanması zamanı onlar Qarsdan olan, amma digər ərazilərdə sığınacaq tapmış qaçqın və kimsəsiz uşaqları da diqqətdən kənarda qoymurdular. 1915-ci ilin avqustunda Qars vilayətindəki birinci dəstə heyəti Qars vilayətindən gətirilmiş türk qaçqın uşaqlar üçün açılmış Tiflis uşaq evinə 53 rubl yardım etmişdi.[1]

Tiflis uşaq evinin saxlanılması konkret mənbədən ayrılan vəsaitlə tamamlanmırdı. Uşaq evinə müxtəlif mənbələrdən ianələr daxil olurdu. 1915-ci ilin iyulunda Zaqafqaziya şeyxül-islamı bütün ruhanilərə Qafqaz Komitəsinin uşaq evindəki kimsəsizlər üçün fitrə yığılması üçün müraciət etmişdi.[2] Bu müraciətə cavab olaraq, Azərbaycanın bir çox ərazilərində ianələr toplanmış, fitrələr yığılmışdı. 1915-ci ilin avqustunda Ramazan bayramı münasibətilə İrəvan məscidində türk qaçqın uşaqlarına yardım məqsədillə Mirzə Hüseyn Həsənzadə tərəfindən yığılmış 200 rubl Tiflis uşaq evinə verilmişdi. [3]

Tiflis uşaq evinin saxlanılması üçün Qafqaz Komitəsi tərəfindən müxtəlif rautlar təşkil olunur, həmçinin müxtəlif yerlərdən ianələr daxil olurdu. 1915-ci ildə Ramazan bayramı münasibətilə təşkil olunana rautdan 598 rubl 77 qəpik daxil olmuşdu. Bütövlükdə isə həmin gün uşaq evinə 798 rubl 77 qəpik ianə ödənilmişdi.[4]

1915-ci ilin avqustunda "Kaspi" qəzetində Qafqaz Komitəsinin belə bir məlumatı dərc olunmuşdu: "... komitə nəzdində fəaliyyət göstərən uşaq evinin fəaliyyət dairəsinin genişləndirilməsini nəzərdə tutur. Bunun üçün uşaq evinə

[1] Kaspi, 12 avqust 1915, № 179.

[2] Kaspi, 17 iyul 1915, № 158.

[3] Kaspi, 11 avqust 1915, № 178.

[4] Kaspi, 11 avqust 1915, № 178.

nəzərdə tutulan smetanı artırmaq lazımdır. ... müsəlmanların köməyinə ehtiyac vardır”.[1]

Qəzetdə verilən bu məlumatdan sonra Qafqaz Komitəsinə müxtəlif yerlərdən ianələr daxil olurdu. 1915-ci ilin sentyabrına olan məlumatda bildirilirdi ki, Qafqaz Komitəsi uşaq evinin istifadəsi üçün 14.000 rubl ianə toplamışdır. [2] Bu məbləğin 8.000 rublu ianə qutularından, 6.000 rubl isə mayın 25-də Orucluq bayramı münasibətilə təşkil olunmuş fitrə yığımından toplanmışdı. [3] Yığılan bu məbləğin 1.000 rublu Bakıya – “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”nə göndərilmiş, 2.000 rublu Tiflis uşaq evinin saxlanılması üçün ayrılmış, qalan pullar isə Tiflis bankında “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”nin hesabına keçirilmişdi.[4]



**Tiflis 2-ci müsəlman uşaq evində saxlanılan türk-müsəlman qaçqın uşaqlarının siyahısı: (1915-ci il) [5]**

***Cədvəl 18***

| Sıra sayı | Adı, soyadı | Yaşı | Doğulduğu |
|---|---|---|---|
| 1. | Həlimə Mirzəqızı | 7 yaş | Vastan kəndi |
| 2 | Mövlud Məcidoğlu | 7 yaş | Alfalı kəndi |
| 3 | Vəli Məcidoğlu | 9 yaş | Alfalı kəndi |
| 4 | Xanım Məmmədqızı | 9 yaş | Riza kəndi |

[1] Kaspi, 28 avqust 1915, № 192.

[2] Kaspi, 6 sentyabr 1915, № 199.

[3] Kaspi, 6 sentyabr 1915, № 199.

[4] Kaspi, 6 sentyabr 1915, № 199.

[5] ARDTA Fond 335, siyahı 1, iş 1, v. 58, 60, 61, 89, 89 (arx.), 90.

| | | | |
|---|---|---|---|
| 5 | Kərim Mirzəoğlu | 7 yaş | Tuka kəndi |
| 6 | Mxo Faimoğlu | 8 yaş | Anla kəndi |
| 7 | Slo Öməroğlu | 14 yaş | Gilat kəndi |
| 8 | Moto Abooğlu | 10 yaş | Gilat kəndi |
| 9 | Kilik Mazoqızı | 8 yaş | Karxana kəndi |
| 10 | Zarqo Tamooğlu | 6 yaş | Karxana kəndi |
| 11 | Ballı Həmid qızı | 14 yaş | Katxa kəndi |
| 12 | Gülzar Həmid qızı | 3 yaş | Katxa kəndi |
| 13 | Şamil Məhəmmədoğlu | 7 yaş | Alcavaz kəndi |
| 14 | Ayna Avanıqızı | 12 yaş | İnnı kəndi |
| 15 | Dojanı Avanıqızı | 5 yaş | İnnı kəndi |
| 16 | Məleykə Bəkirqızı | 10 yaş | Gülotu kəndi |
| 17 | Məhmməd Bağıroğlu | 10 yaş | Gülotu kəndi |
| 18 | Naz Əliqızı | 12 yaş | Gülotu kəndi |
| 19 | Rəndi Əliqızı | 14 yaş | Gülotu kəndi |
| 20 | Ömər Əlioğlu | 6 yaş | Gülotu kəndi |
| 21 | Malik Əlioğlu | 4 yaş | Gülotu kəndi |
| 22 | Bəyaz Mazoqızı | 12 yaş | Gülotu kəndi |
| 23 | Bənövşə Sonaqızı | 7 yaş | Gülotu kəndi |
| 24 | Amin Boqarooğlu | 6 yaş | Gülotu kəndi |
| 25 | Əziz Sinooğlu | 9 yaş | İnna kəndi |
| 26 | Mərcan Mustafaqızı | 10 yaş | Bitlis kəndi |
| 27 | Əminə Musaqızı | 6 yaş | Məlum deyil |
| 28 | Misli Abdullaqızı | 8 yaş | Şxanlı kəndi |
| 29 | Sənifə Abdullaqızı | 7 yaş | Şxanlı kəndi |
| 30 | Xosrov Həmidoğlu | 4 yaş | Məlum deyil |
| 31 | Abdulbaqi Əlioğlu | 7 yaş | Diadin kəndi |
| 32 | Süleyman Zinfioğlu | 14 yaş | Ulukənd |
| 33 | Əyub Əlioğlu | 8 yaş | Diadin kəndi |
| 34 | Zaro Mirzəqızı | 14 yaş | Diadin kəndi |
| 35 | Məhəmməd Yunisoğlu | 15 yaş | Diadin kəndi |
| 36 | İsmayıl Əbdülsalmanoğlu | 12 yaş | Davud kəndi |
| 37 | Şərifə Əliqızı | 15 yaş | Diadin kəndi |
| 38 | Ayna Əliqızı | 15 yaş | Diadin kəndi |

| | | | |
|---|---|---|---|
| 39 | Koroğlu Arifoğlu | 6 yaş | Roma kəndi |
| 40 | Dido Çaçoqızı | 8 yaş | Qaradərə kəndi |
| 41 | Bəsti Çaçoqızı | 6 yaş | Qaradərə kəndi |
| 42 | Əbdürrazi Sadıqoğlu | 5 yaş | Xanzah kəndi |
| 43 | Miribəy Teymurağaoğlu | 6 yaş | Mazalah kəndi |
| 44 | Manaf Abdullaoğlu | 9 yaş | Tila kəndi |
| 45 | Lütfiyyə Səfaqızı | 9 yaş | Kasa kəndi |
| 46 | Qüdrət Həmzəqızı | 10 yaş | Xasumanlı kəndi |
| 47 | Zarifan Həsənqızı | 8 yaş | Badilə kəndi |
| 48 | Heydər Həsənqızı | 8 yaş | Badilə kəndi |
| 49 | Gülçöhrə Əhmədqızı | 12 yaş | Malazqar kəndi |
| 50 | Cəvahir Nəzirqızı | 8 yaş | Gül-gül kəndi |
| 51 | Hava Çərkəzqızı | 8 yaş | Vartana kəndi |
| 52 | Zazo Çərkəzqızı | 5 yaş | Vartana kəndi |
| 53 | Gülxanım (atasının adı bilinmir) | 6 yaş | Bilinmir |
| 54 | Züleyxa Musaqızı | 7 yaş | Kananlalı kəndi |
| 55 | Maqsud Musaoğlu | 9 yaş | Kananlalı kəndi |
| 56 | Cəmilə Mollaqızı | 6 yaş | Bilinmir |
| 57 | Zahidə Feyziqızı | 6 yaş | Dambat kəndi |
| 58 | Xatun Adaqızı | 7 yaş | Kosar kəndi |
| 59 | Mayro Usubqızı | 14 yaş | Ağadağ kəndi |
| 60 | Siddin Abdullaoğlu | 7 yaş | Ərdanuc |
| 61 | Gözəl Əzizqızı | 9 yaş | Kotan kəndi |
| 62 | Aco Siddinoğlu | 5 yaş | Kotan kəndi |
| 63 | Amo Usooğlu | 9 yaş | Tanduman kəndi |
| 64 | Əli Allahverdioğlu | 4 yaş | Məlum deyil |
| 65 | Fatma Həsənqızı | 3 yaş | Məlum deyil |
| 66 | Bəsrə Əsədqızı | 3 yaş | Əhmən kəndi |
| 67 | Nado (atasının adı bilinmir) | 3 yaş | Məlum deyil |
| 68 | Sadıx Usooğlu | 7 yaş | Qarxas kəndi |
| 69 | Məryam (atasının adı bilinmir) | 3 yaş | Məlum deyil |
| 70 | Siranuş Yusifqızı | 5 yaş | Xudat kəndi |
| 71 | Nabat Xanlarqızı | 9 yaş | Kuxal kəndi |

Yuxarıda tərtib olunan cədvələ əsasən 1916-cı ildə Tiflisdə 2-ci müsəlman uşaq evində sayı 71 olmaqla, 8 yaşdan 14 yaşadək 31 oğlan və 40 qız türk qaçqın uşaq saxlanılırdı.[1]



***Türk qaçqın uşaqları üçün açılan Tiflis II uşaq evində saxlanılan uşaqların siyahısı – arxiv sənədi nümunəsi***

Bu uşaqların saxlanılması ilə əlaqədar 1916-cı il mayın 9-da Qafqaz Komitəsi "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin

idarə heyətinə məktubla müraciət etmişdi. Məktubda bildirilirdi ki, 71 türk qaçqın uşağın saxlanılması üçün Qaçqınların Yerləşdirilməsi üzrə Baş Qafqaz Komitəsindən vəsait buraxılması barədə müraciət edilsin.[1]

**1916-cı ildə Tiflis uşaq evindən Bakıya 51 türk qaçqını göndərilmişdi. Tiflis uşaq evindən Bakıya göndərilən türk qaçqınları [2]**

*Cədvəl 19*

| Sıra sayı | Adı və soyadı | Yaşı |
|---|---|---|
| 1 | Fatma Mustafaqızı | 25 yaş |
| 2 | Zahidə Musaqızı | 24 yaş |
| 3 | Hümmət Əbdüləzizqızı | 25 yaş |
| 4 | Xatun İbarahimqızı | 80 yaş |
| 5 | Tacı Əlioğlu | 40 yaş |
| 6 | Xanı Tacıqızı | 3 yaş |
| 7 | Maqsud Tacıoğlu | 7 yaş |
| 8 | Mustafa Əhmədoğlu | 13 yaş |
| 9 | Tamara Şakirqızı | 3 yaş |
| 10 | Cəbi Mahmudqızı | 7 yaş |
| 11 | Hüsnü Mahmudqızı | 5 yaş |
| 12 | Xazan Mahmudqızı | 10 yaş |
| 13 | Yusif Canoğlu | 13 yaş |
| 14 | Çilə Canoğlu | 8 yaş |
| 15 | Şəmsi Canqızı | 3 yaş |
| 16 | Seyran Müfiqızı | 10 yaş |
| 17 | Bədir Dəvrişoğlu | 10 yaş |

[1] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 5.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 1, v. 96.

| | | |
|---|---|---|
| 18 | İsmayıl Hüseynoğlu | 16 yaş |
| 19 | Nağı Şamiloğlu | 13 yaş |
| 20 | Müslüm Şamiloğlu | 10 yaş |
| 21 | İsmayıl Yunusoğlu | 13 yaş |
| 22 | Dursun Süleymanoğlu | 13 yaş |
| 23 | Şahbudaq Əşrəfoğlu | 15 yaş |
| 24 | Şafo Mədətoğlu | 10 yaş |
| 25 | Yusif Rzaoğlu | 14 yaş |
| 26 | Şamil Tahiroğlu | 15 yaş |
| 27 | Zehni Mədəroğlu | 16 yaş |
| 28 | İsa Şükrüoğlu | 15 yaş |
| 29 | Samih Öməroğlu | 14 yaş |
| 30 | Osman Əlioğlu | 14 yaş |
| 31 | Süleyman Öməroğlu | 16 yaş |
| 32 | Süleyman Zülfüoğlu | 17 yaş |
| 33 | Məmməd Hüsnüoğlu | 18 yaş |
| 34 | Həvva Xanoğlanqızı | 26 yaş |
| 35 | Həsən Hüseynoğlu | 5 yaş |
| 36 | Ruhgül Veysəlqızı | 26 yaş |
| 37 | Gülnaz Veysəlqızı | 7 yaş |
| 38 | Fidat Molla Yusifqızı | 27 yaş |
| 39 | Züleyxa İbrahimqızı | 7 yaş |
| 40 | Daştan Səfəroğlu | 10 yaş |
| 41 | Şevket Mustafaoğlu | 10 yaş |
| 42 | İsmi Məhmətqızı | 23 yaş |
| 43 | Sabirə Dursunqızı | 12 yaş |
| 44 | Mehbət Yunusqızı | 10 yaş |
| 45 | Ülkər Samirqızı | 14 yaş |
| 46 | Gülşən Əliqızı | 10 yaş |
| 47 | Naziyə Əliqızı | 7 yaş |
| 48 | Fəxri Yunusqızı | 15 yaş |
| 49 | Fidsi Şükrüqızı | 8 yaş |
| 50 | Fincan Əliqızı | 8 yaş |
| 51 | Ağa Sılooğlu | |

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin digər uşaq evlərində olduğu kimi, Tiflisdə də uşaq evləri üzrə təsərrüfat komissiyası yaradılmışdı. [1] Bu komissiya uşaqları lazım olan geyim əşyaları, həmçinin yataq dəstləri ilə təmin etmək və digər təşkilati məsələlərin yerinə yetirilməsi ilə məşğul olurdu. Bundan əlavə, komissiya tikmə və toxuma üzrə dərnəklər təşkil edirdi. Qafqaz Komitəsinin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkilinə yazdığı 7 avqust 1917-ci il məktubunda uşaq evlərinin corab və digər geyim əşyaları ilə təminatı üçün 6 ədəd tikiş maşınının alınmasına kömək edilməsi xahiş olunurdu.[2]

Beləliklə, Birinci Dünya müharibəsində Qafqaz cəbhəsinin müxtəlif bölgələrindən yığılaraq, uşaqların saxlanılması üçün açılan uşaq evləri, müharibədə öz valideynlərini itirmiş qaçqın türk uşaqları üçün gələcəyə açılan ümid qapısı idi. Bütün imkanlardan istifadə edərək uşaqların sağlam, təhsilli, milli ruhda yetişdirilməsi əsas məqsəd idi.



[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 9.

[2] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 9.

# XI FƏSİL
# RUSİYANIN ALİ TƏHSİL OCAQLARINDA TƏHSİL ALAN AZƏRBAYCANLI TƏLƏBƏLƏRİN TÜRK QAÇQINLARINA YARDIM İŞİNİN TƏŞKİLİNDƏ ROLU

## 11.1. Tələbə dəstələrinin təşkili və Qars vilayətinə göndərilməsi

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım etmək məqsədilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən vilayətin müxtəlif bölgələrində iş aparmaq üçün yardımçı dəstələr təşkil olunurdu. Dəstələrin əsas vəzifəsi qaçqın və müharibədən zərər çəkən türk müsəlman əhalisinin ehtiyaclarının öyrənilməsi, bu barədə məlumatların toplanılması, onların siyahıya alınması, dağıdılmış ərazilərdə kimsəsiz qalan insanların, o cümlədən kimsəsiz uşaqların yığılaraq "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsinə təhvil verilməsi, Qars vilayəti üzrə komitəyə daxil olan yardımların paylanması, tibbi yardım göstərilməsi və s. ibarət idi.

Dəstələrin təşkili və fəaliyyəti işinə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyti"nin üzvü, Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov, cəmiyyətin sədri Mirzə Əsədullayev və cəmiyyətin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanov rəhbərlik edirdilər. Dəstələr Azərbaycandan Qars vilayətinə gedən könüllülərdən, həmçinin Qars vilayətinin sakinlərindən təşkil olunurdu. Xüsusi dəstələr var idi ki, bu dəstələr ziyalılardan, müəllimlərdən və tələbələrdən təşkil olunmuşdu. Bütün təşkil olunan dəstələr könüllü-yardımçı dəstələr idilər.

1915-ci ilin martında Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım etmək məqsədilə, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin sədri Mirzə Əsədullayev azərbaycanlı tələbələrin təhsil aldıqları Rusiyanın bütün ali təhsil ocaqlarına müraciət etdi. 1915-ci ilin aprel ayında Moskva Universitetinə müraciət qəbul olundu. Həmin müraciətdə tibbi təhsili olan oğlan və qızlar cəmiyyətin Qars vilayətindəki dəstələrində xidmət etmək üçün dəvət olunurdular.[1] Bu müraciət həmçinin Kiyev, Xarkov, Peterburq və digər şəhərlərdə yerləşən ali təhsil müəssisələrinə də ünvanlandı. Müraciətdə Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək göstərmək üçün dəvət öz əksini tapmışdı.



"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin 1915-ci ilin aprelində keçirdiyi iclasda qərara alındı ki, imtahanlar qurtardıqdan sonra Rusiyanın ali təhsil müəssisələrində tibbi təhsil alan tələbələr arasında Qars vilayətinin müharibə bölgələrinə getmək istəyənlərlə sorğu keçirilsin və onlar qeydə alınsınlar.[2]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri Mirzə Əsədullayev tərəfindən göndərilən müraciət Rusiyanın bütün ali təhsil müəssisələrində əks-səda doğurdu. Universitetlərdə təhsil alan azərbaycanlı tələbələr Qars vilayətinin qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım komitəsinin işində iştirak etmək üçün öz razılıqlarını bildirirdilər. İlk olaraq Moskva Universitetində təhsil alan 6 nəfər azərbaycanlı tələbə və Moskvadan bir neçə müəllim

---

[1] Kaspi, 19 may 1915, № 108.

[2] Kaspi, 23 aprel 1915, № 89; 24 aprel 1915, № 90.

Bakıya gəldilər.[1] Bu barədə "Baku" qəzeti yazırdı: "...Moskvadan 6 nəfər gəlmişdir. Lakin bu göndərişdə iştirak etmək arzusunda olanlar daha çoxdur".[2] Bunun ardınca isə Peterburq və Kiyev universitetlərinin azərbaycanlı tələbələri komissiyanın işində iştirak etmək üçün öz razılıqlarını bildirdilər.[3]

1915-ci il martında Rusiyanın ali təhsil müəssisələrindən Bakıya gələn azərbaycanlı müəllim və tələbələrdən ibarət xüsusi yardımçı dəstə təşkil olundu. Bakıdan Qarsa göndərilən həmin dəstəyə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayəti üzrə nümayəndəsi Xosrov Paşa bəy Sultanov rəhbərlik edirdi.[4]

Əsasən Moskva Universitetinin azərbaycanlı tələbələrindən ibarət olan yardımçı dəstəyə Yelizavetpolda digər bir dəstə – Aslan bəy Səfikürdskinin rəhbərliyi ilə yerli müəllim və tələbələrdən təşkil olunmuş dəstə qoşulmuşdu. Yelizavetpolda dəstələrin birgə təntənəli görüşü təşkil olunmuşdu. Həmin görüşdə Xəlil bəy Xasməmmədovun başçılığı ilə bütün müsəlman ziyalıları iştirak edirdilər.[5] Göndərilən dəstələrin yerləşdiyi mərkəz Qars şəhəri idi. Onlar buradan dağıdılmış kəndlərə – xarabalıqlara çevrilmiş yerlərə və bu yerlərdə qalmış insanlara – türk-müsəlmanlara kömək göstərmək üçün göndərilirdilər.

Dəstələrin əhali arasında apardıqları iş zamanı Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalinin digər ehtiyaclarla yanaşı, tibbi müayinədən keçmələri zərurəti məlum olmuşdu. Tələbə yardımçı

[1] Baku, 19 mart 1915, № 63; Baku, 28 mart 1915, № 67.

[2] Baku, 19 mart 1915, № 63; Baku, 28 mart 1915, № 67.

[3] Baku, 28 mart 1915, № 67.

[4] Baku, 27 mart 1915, № 66.

[5] Baku, 27 mart 1915, № 66.

dəstələrin topladığı məlumatlardan aydın olurdu ki, bu insanlar arasında tibbi yardıma ehtiyacı olanların sayı gündən-günə artmaqdadır. Bir tərəfdən aclıq, digər tərəfdən soyuq keçən qış insanlar arasında müxtəlif xəstəliklərin yaranmasına səbəb olurdu. Yayın gəlməsi isə bu xəstəliklərin daha da yayılmasını sürətləndirirdi. Belə bir şəraitdə cəmiyyət həkimlərin, əsasən tibb fakültəsinin III və IV kurslarında təhsil alan tələbələrin bu işə cəlb olunmasının vacibliyini bildirirdi.

Tələbələrin yardım işinin təşkilinə rəhbərlik üçün Qars vilayətinə daha bir nümayəndə göndərilmişdi. Cəmiyyətin "Müharibədən zərər çəkənlərə kömək üzrə komitəsi" tərəfindən dəvət olunan Rəşid bəy Axundzadə Qars vilayəti üzrə baş müvəkkilin ikinci köməkçisi təyin olunmuşdu. O, 1915-ci ilin noyabr ayında müvəkkil köməkçisi kimi fəaliyyətinə başlamışdı.[1]



1915-ci ilin oktyabrında Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərov, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri Mirzə Əsədullayev və cəmiyyətin Qars vilayəti üzrə səlahiyyətli nümayəndəsi Xosrov Paşa bəy Sultanov Tiflisdə, sonra isə Batumda tələbə dəstələrinin işinə nəzarət və rəhbərlik edirdilər.[2]

### 11.2. Tələbələrin təşkil etdiyi mədəni tədbirlər

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin vəziyyəti bütün azərbaycanlıları, o cümlədən xaricdə təhsil alan azərbaycanlı tələbələri də narahat edirdi. Qars vilayətinə göndərilən azərbaycanlı

---

[1] Kaspi, 10 noyabr 1915, № 251.

[2] Kaspi, 13 oktyabr 1915, № 227.

könüllü tələbə dəstələri təhsil aldıqları ali məktəblərə döndükləri zaman, burada müxtəlif mədəni tədbirlər təşkil edir və daxil olan pul vəsaitini qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə göndərirdilər.

1915-ci ilin martında, Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk- müsəlman əhalisinə yardım məqsədilə Xarkov ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrin təşəbbüsü və təşkilatçılığı sayəsində "Novruz bayramı" keçirilmişdi. "Baku"qəzetinin verdiyi məlumatda yazılırdı ki, "...axşamda bütün Xarkov müsəlmanları və digər millətdən olan nümayəndələr iştirak edirdilər. Daxil olan bütün gəlir Qars vilayətində müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım etmək məqsədilə "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nə göndərilmişdir".[1]

Həmin ilin sentyabrında Xarkov universitetində təhsil alan azərbaycanlı tələbələr xeyriyyə tamaşası təşkil etmişdilər. Tamaşadan daxil olan 456 rubl Bakıya, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərilmişdi.[2]



1915-ci ilin noyabrında Moskvada təhsil alan azərbaycanlı tələbələr qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım etmək üçün "Şərq axşamı" təşkil etmişdilər. Tədbirdən daxil olan 1.500 rubl "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin Moskva Komitəsinə təhvil verilmişdi.[3]

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım etmək üçün təşkil olunan mədəni tədbirlər dövlət və hökumət orqanları tərəfindən araşdırıldıqdan sonra həyata keçirilməsinə icazə verilirdi. Dağıstan vilayəti hərbi qubernatorunun Bakı şəhər rəisinə

---

[1] Baku, 29 mart 1915, № 68.

[2] Kaspi, 20 sentyabr 1915, № 209.

[3] Baku, 27 noyabr 1915, № 265.

göndərdiyi 1917-ci il 23 fevral tarixli "məxfi" məktubunda yazılırdı: "Petrovsk şəhər sakinləri incəsənət həvəskarları Müzəffər Müzəffərov, Abdulla Şükrullayev və digərləri mənə müraciət edərək Petrovsk şəhərində Üzeyir bəy Hacıbəyovun 4 aktlı "Arşın mal alan" operettasının səhnədə nümayiş olunması barədə xahiş etdilər. Əldə olan bütün gəlir cəmiyyəti-xeyriyyəyə ("Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə-N.M.) müharibədən zərər çəkən müsəlmanlar üçün keçiriləcəkdir. Operanın qoyulması ilə əlaqədar xahiş edirəm məlumat verəsiniz: cəmiyyəti-xeyriyyənin qeyri-qanuni məqsədi yoxdur?"[1] Araşdırmalar aparıldıqdan sonra tamaşanın keçirilməsinə razılıq verilmişdi.

Beləliklə, bütün tədbirlər – ərzaq və tibbi dəstələrin təşkili, bayramların qeyd edilməsi, teatr tamaşalarının göstərilməsi türk qaçqınlarının zəruri ehtiyaclarını qarşılamaqla yanaşı, xaricdə yaşayan və təhsil alan azərbaycanlıların həmrəyliyi baxımından mühüm əhəmiyyət kəsb edirdi.



[1] ARDTA, Fond 46, siyahı 2, iş 395, v. 12, 12 (arx.).

# XII FƏSİL
# TÜRK QAÇQINLARINA YARDIM MƏQSƏDİLƏ MƏDƏNİ TƏDBİRLƏRİN HƏYATA KEÇİRİLMƏSİ

## 12.1. Yardım məqsədilə teatr tamaşalarının təşkili

Rusiyanın Birinci Dünya müharibəsinə qoşulması imperiyanın bütün ərazilərinə, o cümlədən, Azərbaycan ərazisinə də öz təsirini göstərirdi. Hər zaman milli adət-ənənəsində xeyriyyəçilik missiyası daşıyan Azərbaycan xalqı, eyni zamanda xalqın görkəmli ziyalılarını, sahibkarlarını öz ətrafında birləşdirən milli-ictimai təşkilatlar bu müqəddəs missiyanı yerinə yetirmək qarşısında qalmışdılar. Müharibənin ilk başlanğıcında əsas məqsəd müharibədə vuruşan hərbçi ailələrinə yardım etmək idi. Osmanlı dövlətinin müharibəyə qoşulmasından sonra bütün qüvvələr Qars vilayətinə, Türkiyə sərhədlərini aşıb gələn türk qaçqınlarına yönəldildi.

1914-cü il avqustun 27-də Qasım Qasımovun sədrliyi ilə "Nicat" Bakı Müsəlman Maarif Cəmiyyətinin idarə heyətinin iclası keçirildi. İclasda qərara alındı ki, hərbçı ailələrinə yardım etməkdən ötrü sentyabr ayının ortalarında Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" operası tamaşaya qoyulsun. Tamaşadan daxil olan məbləğin Rusiya qoşunlarında iştirak edən hərbçilərin ailələrinə verilməsi nəzərdə tutulurdu. İdarə heyətinin qərarı ilə cəmiyyətin teatr heyətinə "Leyli və Məcnun" operasını hazırlamaq tapşırığı verilmişdi.[1] Avqustun 29-da Mehdi bəy Hacıbababəyovun sədrliyi ilə "Nicat" teatr heyətində operanın tamaşaya qoyulması ilə əlaqədar işlərin icrasına başlanılmışdı.[2] Tamaşa sentyabrın 12-də nümayiş olunmuşdur.[3]

---

[1] Bəsirət, 30 avqust 1914, № 19.

[2] Bəsirət, 30 avqust 1914, № 19.

[3] Bəsirət, 6 sentyabr 1914, № 20.

“Nicat” cəmiyyəti tərəfindən müharibədə yaralanan hərbçilərin nəfinə hazırlanan tamaşaların qoyulması layihəsi davamlı olaraq həyata keçirilirdi. 1914-cü ilin oktyabrında Qasım Qasımovun sədrliyi ilə keçirilən “Nicat” cəmiyyətinin iclasında yaralı əsgərlərin nəfinə teatr tamaşasının hazırlanması üçün teatr heyətinə tapşırıq verilmişdi. Cəmiyyətin teatr heyətinin sədri Mehdi bəy Hacıbababəyovun sədrliyi ilə keçirilən teatr heyətinin iclasında qərara alındı ki, yaralıların nəfinə Üzeyir bəy Hacıbəyovun “Ər və arvad” operettası tamaşaya qoyulsun və daxil olan gəlirin 40%-i yaralı əsgərlərin nəfinə, 60%-i isə “Nicat” cəmiyyyətinin öz hesabına keçirilsin.[1]

1914-cü il sentyabrın 5-də “Səfa” cəmiyyətinin teatr heyəti tərəfindən Tağıyev teatrında Nəriman Nərimanovun 4 məclisli “Nadanlıq” dram-komediyası nümayiş olunmuşdu. “Bəsirət” qəzeti tamaşa barədə yazırdı: “Tamaşada Mirzağa Əliyevlə yanaşı digər artistlər də iştirak edirdilər. Müsəlman xanımlarına lojalar hazırlanmışdı. Tamaşada fasilələrdə tarzən və xanəndə də çıxış edirdilər”.[2] Qeyd edək ki, tamaşanın biletləri “İsmailiyyə” binasında, “Səfa” cəmiyyətinin idarəsində satılmışdır.[3] “Səfa” cəmiyyətinin yaralı və xəstə hərbçilərin istifadəsi üçün təşkil etdiyi xeyriyyə tamaşasından – bilet satışından 1.248 rubl 95 qəpik, proqram satışından 88 rubl 80 qəpik, Bakı şəhər rəisindən 10 rubl – cəmi 1.353 rubl 75 qəpik bu istiqamətə yönəldilmişdi.[4]

Yuxarıda qeyd olunanlardan əlavə, teatr təşkilatçıları tərəfindən Qafqaz müsəlman diviziyasına yardım məqsədilə

[1] Bəsirət, 11 sentyabr 1914, № 25.

[2] Bəsirət, 30 avqust 1914, № 19.

[3] Bəsirət, 30 avqust 1914, № 19.

[4] ARDTA, Fond 495, siyahı 1, iş 85, v. 21.

tamaşalar təşkil olunurdu. 1914-cü ilin dekabrında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin təşkilatçılığı ilə "Fenomen" teatrında tamaşa nümayişi təşkil olunmuşdu. Bu nümayişdən bütövlükdə 1.021 rubl 85 qəpik daxil olmuşdu. Cəmiyyətin idarə heyətinin qərarı ilə bu məbləğ müharibəyə – Qafqaz müsəlman diviziyası üçün isti geyimin təşkilinə sərf olunmuşdu.[1] Həmin tədbirdə ayrı-ayrı şəxslər də ianələr vermişdilər. Ağa Sadıq Tağıyev bu məqsədlə 50 rubl yardım etmişdi.[2]

Osmanlı dövlətinin Birinci Dünya müharibəsinə qoşulması Azərbaycanda böyük həyəcanla qarşılandı. Müharibə illərində Azərbaycan milli-ictimai təşkilatları, xüsusilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti", "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti", "Nicat", "Səfa" və digər ictimai təşkilatlar tərəfindən Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək məqsədilə müxtəlif mədəni tədbirlər, tamaşalar, həmçinin rautlar təşkil olunurdu. Nəzdində teatr truppaları olan ictimai təşkilatlar mütəmadi olaraq tamaşalar göstərir və daxil olan gəliri bu istiqamətə yönəldirdilər.



1915-ci ilin yanvarında Qasım Qasımovun sədrliyi ilə "Nicat" cəmiyyətinin iclasında Qars vilayətində yardıma ehtiyacı olan türk-müsəlman əhalisinin durumu müzakirə olundu. Qərara alındı ki, yanvarın 18-də oynanılması nəzərdə tutulan Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" operasından daxil olan gəlir Qars vilayətinə göndərilsin.[3] Tamaşada Məcnun rolunda Sarabski, Leyli rolunda isə Ağdamski oynamışdılar. Daxil olan 2.000 rubl pul Qars

[1] Kaspi, 17 dekabr 1914, № 282.

[2] Kaspi, 17 dekabr 1914, № 282.

[3] Bəsirət, 17 yanvar 1915, № 36.



**Hacı Zeynalabdin Tağıyev** (1823–1924) – Azərbaycan tarixində böyük rol oynamış şəxs, məşhur milyonçu, görkəmli mesenant, Rusiya imperiyasının Həqiqi Dövlət Müşaviri, müsəlman Şərqində ilk qızlar məktəbinin (Tağıyevin qız məktəbinin) yaradıcısı. Azərbaycan milli-ictimai təşkilatlarının – "Bakı Müsəlman Xeyriyyə cəmiyyəti"nin, "Nəşri-maarif" cəmiyyətinin yaradıcılarından biri olmuş, cəmiyyətlərin idarə heyətinə rəhbərlik etmişdir. Bakıda fəaliyyət göstərən rus, erməni, yəhudi və digər cəmiyyətlər onu özlərinə fəxri sədr seçmişdilər. "Bakı-Batum" neft səhmdar cəmiyyətinin yaradıcılarından olmuşdur. Onun vəsaiti ilə onlarla azərbaycanlı gənc Rusiyanın şəhərlərində və bir sıra Avropa ölkələrində təhsil almışdır.

vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə göndərilmişdi. Həmin tamaşanın nümayişində Hacı Zeynalabdin Tağıyev, Mirzə Əsədullayev, digər görkəmli ziyalılar və sahibkarlar iştirak edirdilər.[1]

Sarıqamış faciəsindən sonra, 1915-ci ilin fevralında Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin vəziyyəti ilə bağlı "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti" idarə heyənin iclası keçirilmişdi. İclasda Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə tamaşa təşkil olunması qərara alınmışdı. Bu məqsədlə Tağıyev teatrının opera truppası ilə danışıqlar aparılmış və qərara alınmışdı ki, Üzeyir bəy Hacıbəyovun "Əsli və Kərəm" operası tamaşaya qoyulsun. Bu tamaşa qısa vaxt ərzində hazırlanaraq nümayiş olunmuşdu. Kərəm rolunda

[1] Kaspi, 20 yanvar 1915, № 15.

Sarabski, Əsli rolunda isə Ağdamski oynamışdı. Tamaşada orkestrə Müslüm Maqomayev dirijorluq etmişdi. Tamaşada aktyorlar türk qaçqınlarına yardım məqsədilə pulsuz oynamışdılar. Tamaşadan yığılan 2.000 rubldan çox pul bütün vəsait türk qaçqınlarının istifadəsinə yönəldilmişdi.[1]

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili üçün “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti” bayram günlərində müxtəlif rautlar təşkil edirdi. Bu layihənin daha geniş formada həyata keçirilməsi məqsədilə 1915-ci ilin fevralında cəmiyyətin “İsmailiyyə” binasında milli-ictimai təşkilatların idarə heyəti üzvlərinin birləşmiş iclası keçirilmişdi. İclasda xüsusilə qeyd olunmuşdu ki, müsəlman xeyriyyə cəmiyyətlərinin köməyinə ehtiyacı olanların sayca çox olmasına baxmayaraq, daxil olan yardımlar azdır. Qərara alınmışdı ki, müsəlman rautlarının təşkili işi gücləndirilsin. Bu məqsədlə Novruz bayramı münasibətilə cəmiyyətin “İsmailiyyə” binasında raut təşkil edilsin.[2]



1915-ci il martın 9-da “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”nin təşkilatçılığı ilə “İsmailiyyə” binasında “Novruz bayramı” münasibətilə keçirilən rautda dövlət və hökumət orqanlarının nümayəndələri, ziyalılar, Bakının adlı-sanlı adamları, sahibkarlar iştirak edirdilər. Bakı şəhər rəisi, polkovnik P.İ.Martınov, Bakı qubernatoru V.V.Alışevski, şəhər başçısı D.D.Arutyunov, Bakı hərbi idarə rəisinin köməkçisi, podpolkovnik V.İ.Nazanski, həmçinin xəzinə idarələrinin rəisləri, təhsil müəssisələrinin direktorları, mətbuat nümayəndələri fəxri qonaqlar arasında idilər. Tədbirdə

---

[1] Kaspi, 14 fevral 19115, № 35; Kaspi, 17 fevral 1915, № 37; Kaspi, 22 fevral 1915, № 42.

[2] Kaspi, 21 fevral 1915, № 41; Baku, 25 fevral 1915, № 44; Kaspi, 6 mart 1915, № 52.

qonaqları qarşılamaq üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti üzvlərindən ibarət xüsusi komissiya təşkil olunmuşdu. Həmin komissiyaya Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev, İsmayıl bəy Səfərəliyev, Murtuza Muxtarov, Mirzə Əsədullayev və digər şəxslər daxil idilər. [1] Rautda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə Qars vilayətində qaçqın və müharibədən zərər çəkənlərə yardım məqsədilə 5.000 rubl ianə daxil olmuşdu.[2]

"Kaspi" qəzeti raut barədə yazırdı: "...İsmailiyyə" binasının böyük zalı Bakı əhalisinin bütün təbəqələrindən və müxtəlif millətlərdən olan nümayəndələrlə dolu idi". Tədbiri Bakı quberniya qazısı Ağa Mir Məhəmməd Kərim Mir Cəfərzadə açaraq Novruz bayramının əhəmiyyəti barədə məruzə etmişdi. Rautda çoxsaylı digər millətdən olan nümayəndələrin, rusdilli dövlət və hökumət orqanları nümayəndələrinin olduğunu nəzərə alıb qazının çıxışı R.Xan-Xoyski tərəfindən rus dilinə tərcümə olunmuşdu. [3]



Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə, həmçinin hərbçi ailələrinə yardım məqsədilə digər milli-ictimai təşkilatlar da tədbirlər həyata keçirirdilər. Bu baxımdan "Nicat" Bakı Müsəlman Maarif Cəmiyyətinin fəaliyyəti mühüm əhəmiyyətə malik idi.

1915-ci ilin aprelində Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə "Nicat" Bakı Müsəlman Maarif Cəmiyyətinin təşkil etdiyi tamaşadan daxil olan 790 rubl, "Səfa" Bakı Müsəlman Maarif Cəmiyyətinin tamaşasından daxil olan 600 rubl "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə keçirilmişdi.[4]

---

[1] Kaspi, 10 mart 1915, № 55.

[2] Kaspi, 10 mart 1915, № 55.

[3] Kaspi, 10 mart 1917, № 56.

[4] Kaspi, 26 aprel 1915, № 92.

Birnci Dünya müharibəsi illərində Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisnə yardım məqsədilə mədəni tədbirlərin təşkilində Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyətinin də mühüm xidmətləri olmuşdur. Qeyd edək ki, belə tədbirlərin təşkilində dövlət və hökumət orqanlarının səlahiyyətli nümayəndələri yaxından iştirak edirdilər. 1916-cı ilin yanvar ayında təşkil olunan "Gecə"nin fəxri sədrliyini Yelizavetpol Şəhər İdarəsinin rəisi Kovalyov üzərinə götürmüşdü.[1] "Gecə"də Gəncə Gənclik təşkilatının sədri Nağı bəy Şeyxzamanlının təşəbbüsü ilə düşərgədə olan əsir türk zabiti və həkimi də iştirak edirdi.[2] Tamaşa barədə Nağı bəy Şeyxzamanlı yazırdı: "...iki nəfər gənc xalq aşığı "Koroğlu"dan dastanlar söyləyirdi…Müsamirənin proqramına daxil olan folklor hissəsində azəri oyunlarının və musiqisinin incəliklərini göstərirdilər… Əsirlərdən məmnun qalıb-qalmadıqlarını soruşdum. Mənə cavab olaraq dedilər ki, əsarətdə bu qədər varlıq yarada bilmək böyük müvəffəqiyyətdir. Bu həqiqətən də belə idi. Əsarətdə olan bir xalqın bütün qadağalara, təpkilərə baxmayaraq, öz musiqisini, milli mədəniyyətini, mənəvi dəyərlərini qoruyub saxlaması və bunları nümayiş etdirməsi hər zaman xalqın öz iradəsi, var olmaq istəyi, daha sonrakı illər isə Azərbaycanın görkəmli ziyalılarının apardığı mübarizənin, ictimai təbliğatın, eyni zamanda bu sahədə həyata keirilən tədbirlərin nəticəsi idi.



[1] Nağı Keykurin, Nağı bəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fəadailəri, B., 2007.

[2] Nağı Keykurin, Nağı bəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fəadailəri, B., 2007.

## 12.2. Yardım məqsədilə tədbirlərin təşkili

Birinci Dünya müharibəsi illərində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə həyata keçirilən tədbirlər içərisində, bütün müsəlmanlar üçün müqəddəs bayram olan Qurban bayramının xüsusi qeyd edilməsi mühüm yer tuturdu. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" tərəfindən bu bayramın xeyriyyə məqsədilə bütün Azərbaycan ərazisində keçirilməsi ənənəvi hal almışdı.

1914-cü ilin dekabrında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin iclasında qərara alındı ki, Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə "Qurban bayramı" tədbirlərində kəsiləcək qoyun dərilərinin yığımı təşkil edilsin. Bununla əlaqədar rəsmi icazə üçün Bakı şəhər başçısına müraciət olundu. Rəsmi icazədən sonra bu layihənin həyata keçirilməsi reallaşdı.[1] "Qurban bayramı" günündə qurban kəsilmiş qoyun dərilərinin yığılması işinin təşkilində dıgər milli-ictimai təşkilatlar da fəal iştirak edirdilər.[2]



"Qurban bayramı" günündə kəsilən qoyun dəriləri yığılaraq satılırdı. Bu dəriləri alan dəri sexləri ondan müxtəlif sənaye məhsulları hazırlayırdılar. Yığılan qoyun dəriləri bu işlə məşğul olan mütəxəssislərə, həmçinin lazımı xüsusi müəssisələrə satılırdı. Satışdan daxil olan gəlir qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin istifadəsinə yönəldilirdi.[3]

Bakı şəhəri və kəndləri üzrə yığılan dərilərin satış məntəqələrindən biri "İsmailiyyə" binasında təşkil olun-

[1] Kaspi, 6 dekabr 1914, № 274.

[2] Kaspi, 6 dekabr 1914, № 274.

[3] Kaspi, 13 oktyabr 1915, № 227.

muşdu.[1] Digər satış mərkəzi isə Hacı İsrafil Aydəmirovun dəri zavodunda yerləşirdi.[2] 1914-cü ilin dekabrında cəmiyyətin "Müharibədən yaralananlara və xəstələrə kömək üzrə bölməsi"nin sədr müavini İsmayıl bəy Səfərəliyev tərəfindən Zabrat kəndindən yığılmış 103 qoyun dərisi Hacı İsrafil Aydəmirovun dəri zavoduna verilmişdi.[3]

1915-ci ilin oktyabrına olan məlumata görə, həmin ildə Bakıdan və Bakı rəisliyinin kəndlərindən yığılan qoyun dərilərinin sayı 3.400 ədəd idi. Bundan əlavə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin yerli komitələri tərəfindən qəza şəhərlərində də qoyun dərilərinin yığılması işi təşkil edilmişdi.[4]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti dəri istehsalı ilə məşğul olan müəssisələrə həmin dərilərdən Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisi üçün şubalar (kürklər) hazırlamağı sifariş etmişdir. Dəri istehsal edən ustalar bu dərilərdən şubaların hazırlanması üçün 3 ay vaxt lazım olduğunu bildirmişdilər. Lakin həmin vaxtda müharibədən zərər çəkən türk- müsəlman əhalisi üçün təcili isti əşyalar lazım olduğuna görə cəmiyyət bu sifarişdən imtina etmişdi. Cəmiyyətin bu iş üzrə komissiyasında belə qərara alınmışdı ki, qoyun dəriləri təcili olaraq satılsın və əldə olunan pulla isti əşyalar alınıb Qars vilayətinə göndərilsin.[5]

Beləliklə, Birinci Dünya müharibəsi illərində müsəlman dünyası üçün müqəddəs sayılan "Qurban bayramı" tədbirləri

[1] Kaspi, 13 oktyabr 1915, № 227.

[2] Kaspi, 10 dekabr 1914, № 276.

[3] Kaspi 13 dekabr 1914, № 279.

[4] Kaspi, 13 oktyabr 1915, № 227.

[5] Yeni İqbal 22 sentyabr 1915, №124; Kaspi, 6 dekabr 1914, №274.

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə keçirilmiş və görülən işlər bütün Azərbaycanı əhatə etmişdi.

# XIII FƏSİL
# RUSİYA İMPERİYASI ƏRAZİSİNDƏ QAÇQINLARA VƏ HƏRBÇİLƏRƏ YARDIM ÜZRƏ AZƏRBAYCAN MİLLİ KOMİTƏLƏRİNİN TƏŞKİLİ

## 13.1. Peterburq Komitəsi

Birinci Dünya müharibəsi illərində Azərbaycanla yanaşı, Rusiya imperiyası ərazisində də qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım komitələri yaradılmağa başlanıldı. Rusiya ərazisində fəaliyyətə başlayan ilk komitələrdən biri qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Peterburq Komitəsi idi.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Peterburq Komitəsi 1914-cü ilin sonlarından fəaliyyət göstərirdi. Komitə üzvləri arasında Rusiya Dövlət Dumasının azərbaycanlı deputatı Məmməd Yusif Cəfərovun fəaliyyəti xüsusilə seçilirdi.[1]

Müharibə başlanan kimi Peterburq Komitəsi tərəfindən həyata keçirilən ilk tədbir hərbi xəstəxanaların təşkili idi. Gündən-günə artan yaralı və xəstə hərbçiləri yerləşdirmək, onlara tibbi yardım göstərmək üçün hərbi xəstəxanaların olması olduqca vacib idi. Prterburq şəhərində hərbi xəstəxanaların təşkili ilə məqsədilə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Peterburq Komitəsinin rəhbəri Əlimərdan bəy Topçubaşov cəmiyyətin idarə heyətinə müraciət etmişdi.[2] Müraciətdə bildirilirdi ki, müharibədə yaralanan və xəstə

---

[1] Kaspi, 15 noyabr 1915, № 256.

[2] Bəsirət, 16 avqust 1914, № 17.

hərbçilərin yerləşdirilməsi üçün 50 çarpayılıq hərbi xəstəxananın açılmasına 32.000 rubl vəsait tələb olunur.[1] Müraciətlə əlaqədar cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara yardım komitəsi"nin iclası keçirilmiş və qərara alınmış ki, lazım olan pul toplanıldıqdan sonra Peterburqa göndərilsin.[2]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" Rusiya ərazisindəki digər komitələrlə yanaşı, Peterburq Komitəsi ilə də daima əlaqə saxlayırdı. 1915-ci ilin martında cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölməsi"nin sifarişi ilə Peterburqa göndərmək üçün Bakı şəhər mühəndisi Bayeva tərəfindən 10 ədəd çadır-tepluşka (isidici çadır) hazırlanmışdı. Bununla bağlı "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti Peterburq Komitəsinə teleqram göndərmişdi. Teleqramda qeyd olunurdu ki, göndərilən çadır-tepluşkalar hərbi xəstəxananın açılmasına qədər olduqca əlverişlidir.[3]



Bütün qeyd olunanlarla yanaşı, Peterburq Komitəsi Qars vilayətində qaçqın və müharibədən zərər çəkən müsəlman əhalisinə yardım məqsədilə mədəni tədbirlər də həyata keçirirdi. Komitə 1915-ci il martın 27-də Peterburq Şəhər Dumasının zalında konsert təşkil etmişdi. Konsertdə həmin dövrdə Avropanın bir çox yerlərində tanınan İmperator Teatrının artistləri iştirak edirdilər. Konsetrdən daxil olmuş 3.000 rubl vəsaitin Qars vilayətində qaçqın və müharibədən zərər çəkən müsəlmanların istifadəsi üçün sərf olunacağı nəzərdə tutulurdu.[4]

---

[1] Bəsirət, 16 avqust 1914, № 17.

[2] Bəsirət, 16 avqust 1914, № 17.

[3] Kaspi, 20 mart 1915, № 64.

[4] Kaspi, 11 aprel 1915, № 79.

Yuxarıda qeyd olunanlardan əlavə, Peterburq Komitəsi Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım etmək məqsədilə bütün imkanlardan istifadə edirdi. 1915-ci ilin aprelində komitə tərərfindən Peterburq şəhər başçısı İ.İ.Tolsta müraciət olunmuşdu. Müraciətdə "Petroqrad müsəlmanları" adı altında yardım yığılmasına icazə verilməsi xahiş olunurdu.[1]

Peterburq Komitəsi tərəfindən təşkil olunan tədbirlər nəticəsində daxil olan vəsait Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərilirdi. Təkcə 1915-ci ilin mayında cəmiyyətə 2.500 rubl göndərilmişdi.[2]

1915-ci ilin oktyabrında Peterburq Komitəsi tərəfindən Qurban bayramı münasibətilə yaralı və xəstə hərbçilər üçün bayram tədbiri keçirilmişdi. Həmin tədbirdə 2.000 nəfərə yaxın yaralı və xəstə hərbçi üçün bayram süfrəsi açılmışdı.[3]



### 13.2. Moskva Komitəsi

Birinci Dünya müharibəsi illərində Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Moskva Komitəsi 1914-cü ilin sonlarında fəaliyyətə başlamışdı. "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Rusiya ərazisində fəaliyyət göstərən digər komitələri kimi, Moskva Komitəsi də Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım etməklə yanaşı, müharibədə yaralanan və xəstə hərbçiləri də yaddan çıxarmırdı. Müharibə illərində döyüş bölgələrindən Moskvaya, o cümlədən burada təşkil olunan hərbi xəstəxanalara yaralı

[1] Kaspi, 11 aprel 1915, № 79.

[2] Kaspi, 5 may 1915, № 98.

[3] Kaspi, 27 oktyabr 1915, № 239.

və xəstə hərbçilər gətirilirdi. Moskva Komitəsi nəzdində də yaralı və xəstə müsəlman hərbçilərin yerləşdirilməsi üçün hərbi xəstəxana fəaliyyət göstərirdi. Həmin xəstəxana Mirzə Əsədullayevin Moskvada olan evində açılmışdı.[1]

Moskva Komitəsi üzvləri şəhərin bütün hərbi xəstəxanalarında yerləşdirilən yaralı müsəlman hərbçilərə baş çəkir, onlara dəstək olur, türk dilində qəzet və kitablar bağışlayırdılar.[2]

1915-ci ildə Moskva Komitəsinin illik ümumi iclasında 1914-cü ilin hesabatı təsdiq olunduqdan sonra, idarə heyətinin sədr müavini K.Y.Yaqubov Moskvada – Mirzə Əsədullayevin evində yerləşən hərbi xəstəxanasının fəaliyyəti, həmçinin Peterburqda keçirilən Ümumrusiya müsəlman qurultayının nəticələri barədə məruzə etmişdi.[3]



Moskva Komitəsi nəzdində fəaliyyət göstərən hərbi xəstəxanada müharibədə yaralanan və xəstə hərbçilərə yardım məqsədilə dərnəklər təşkil edilmişdi. Dərnək üzvləri türk dilində 3.000-dən çox kitab, həmçinin dini kitablar toplamışdılar. Bu kitablar hərbçilərə bağışlanır, yaxud mütaliə məqsədilə dərnək üzvləri tərəfindən onlar üçün oxunurdu. Bundan əlavə, dərnək üzvləri yaralı və xəstə hərbçilərin ailələrinə, yaxınlarına 4.000-dən artıq məktub yazmışdılar.[4] Bütün bunlar komitənin hərbçilərə böyük diqqət və qayğı ilə yanaşmasına bir nümunədir.

Moskva Komitəsinin nəzdində müsəlman qadınlarından ibarət dərnək fəaliyyət göstərirdi. Dərnək üzvləri yaralı hərbçilər üçün yataq dəstləri və paltarlar tikirdilər.[5]

---

[1] Kaspi, 15 fevral 1915, № 36.

[2] Kaspi, 5 noyabr 1914, № 248.

[3] Kaspi, 15 fevral 1915, № 36.

[4] Baku, 29 mart 1915, № 68.

[5] Baku, 29 mart 1915, № 68.

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Moskva Komitəsi qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım yığılması işinin təşkilini də həyata keçirirdi. Lakin Moskva şəhəri üzrə ianə yığımının təşkili üçün şəhərin dövlət və hökumət orqanlarının rəsmi icazəsi olmalı idi. 1915-ci ilin martında komitə Moskva şəhər rəisinə müraciət edərək, Moskva şəhər müsəlmanları arasından Qars vilayətində zərər çəkən müsəlman əhalisinin istifadəsi üçün yardım yığılmasına icazə verilməsini xahiş etmişdi.[1]

Qeyd edək ki, rəsmi icazə alınana qədər, Moskva Komitəsi bu layihəni "Qırmızı Xaç cəmiyyəti" nəzdində həyata keçirirdi. Komitə hər həftənin cümə günü Moskva məscidlərində Rusiya "Qırmızı xaç cəmiyyəti"nin istifadəsi üçün ianə yığımını təşkil edirdi. [2]

1915-ci ilin oktyabr ayında "Mətbuat günü " münasibətilə Moskva Komitəsinə 3.000 rubl pul vəsaiti ayrılmışdı. Ayrılmış bu məbləğin paylaşdırılması üçün komitənin iclası keçirilmişdi. Həmin iclasda iştirak edən Moskva Komitəsinin üzvü, tələbə, sonrakı illərdə isə Azərbaycan Demokratik Pespublikasının nazirlərindən biri olmuş Əhməd bəy Pepinov Qafqaz cəbhəsində müharibədən zərər çəkən müsəlmanların ağır vəziyyəti barədə çıxış etmişdi. Əhməd bəy Pepinov Qars Komitəsinin əməkdaşı olduğundan cəmiyyətin Qars Komitəsində görülən işlər barədə məlumat vermişdi. Onun çıxışından sonra idarə heyətinin qərarı ilə bu məbləğin yarısı Qafqaz cəbhəsində zərər çəkən müsəlmanların istifadəsi üçün Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərilmişdi.[3]

[1] Baku, 29 mart 1915, № 68.

[2] Baku, 29 mart 1915, № 68.

[3] Kaspi, 22 oktyabr 1915, № 235.

### 13.3. Orenburq Komitəsi

1914-cü ilin dekabrında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayətində qaçqın və müharibədə zərər çəkən müsəlmanlara kömək məqsədilə Orenburq Komitəsi yaradılmışdı.

Birinci Dünya müharibəsi illərində döyüş bölgələrindən gətirilmiş yaralı və xəstə hərbçilər Rusiyanın digər şəhərlərində olduğu kimi, Orenburq şəhərində də xəstəxanalarda yerləşdirilmişdi. Həmin illərdə dövlət tərəfindən açılan hərbi xəstəxanalarla yanaşı, ictimai təşkilatlar, həmçinin yerli əhali və imkanlı şəxslər tərəfindən də belə tibbi müəssisələr təşkil olunurdu.



1914-cü ildə Orenburq quberniyasının Karqala yaşayış sahəsində yerli müsəlmanların keçirdiyi iclasda müharibədə yaralanan və xəstə hərbçiləri yerləşdirmək üçün 20 çarpayılıq hərbi xəstəxana açmaq barədə qərar qəbul olunmuşdu. Lakin həmin ərazidə tibbi personal çatışmadığına və lazımi vəsait olmadığına görə hərbi xəstəxananın açılması mümkün olmamışdı. Orenburqun yerli müsəlmanları qərara almışdılar ki, açılması nəzərdə tutulan hərbi xəstəxana Karqala müsəlmanları adından "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Orenburq komitəsinin nəzdində açılsın. Yığılmış məbləğ hərbi xəstəxananın təchizatına yönəldilmişdi.[1] Yerli əhali tərəfindən qaldırılan bu təşəbbüs müsbət nəticəsini vermiş, həmin ildən Orenburq Komitənin nəzdində hərbi xəstəxana fəaliyyətə başlamışdı.

Orenburq Komitəsi nəzdindəki hərbi xəstəxanada yerləşdirilmiş hərbçilərə Komitə üzvləri tərəfindən böyük qayğı göstərilirdi. Tibbi yardımla yanaşı, onların maarifləndirilməsi, müharibədəki vəziyyət, ölkə həyatında baş verən hadisələr barədə məlumatlandırılmaları məqsədilə

[1] Kaspi, 15 noyabr 1914, № 257.

qiraətlər də təşkil olunurdu. Belə qiraətlər 1915-ci ilin əvvəllərindən etibarən komitənin hərbi xəstəxanasında təşkil edilirdi. Həmin ilin yanvarında Orenburq Komitəsinin iclasında belə qərara alınmışdı ki, hərbi xəstəxanada yaralı və xəstə hərbçilər üçün qiraətlərin təşkili ayda bir dəfədən gec olmayaraq həyata keçirilsin.[1]

Bütün bunlarla yanaşı, Orenburq Komitəsinin təşkilatçılığı ilə Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə Orenburq şəhəri üzrə ianələrin yığımı təşkil olunurdu. Əsasən burada yaşayan müsəlmanlar tərəfindən daxil olan ianələr Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərilirdi. 1915-ci ilin martında Orenburq müsəlmanları tərəfimdən yığılmış 4.000 rubl[2], həmin ilin aprelində ayrı-ayrılıqda 3.000 rubl[3] və 8.000 rubl[4], yenə də həmin ilin mayında Qars müsəlmanlarının istifadəsi üçün yığılmış 15.555 rubl Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyətin"ə göndərilmişdi.[5] Daxil olan vəsaitə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin təşkilatçılığı ilə ərzaq və geyim əşyaları alınır və Qars vilayətinə göndərilirdi.

Qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili sahəsində Orenburq Komitəsi müxtəlif mədəni tədbirlər də həyata keçirirdi.[6]

---

[1] Kaspi, 4 yanvar 1915, № 2.

[2] Kaspi, 14 mart 1915, № 59.

[3] Baku, 2 aprel 1915, № 71.

[4] Kaspi, 24 aprel 1915, № 90.

[5] Baku, 2 may 1915, № 96.

[6] Kaspi, 17 noyabr 1915, № 257.

### 13.4. Kazan Komitəsi

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək üzrə Kazan Komitəsi 1915-ci ilin yanvarından fəaliyyət göstərirdi. Komitə eyni zamanda yaralı və xəstə hərbçilərə kömək etmək missiyasını da öz üzərinə götürmüşdü. Kazan Komitəsinin rəsmi olaraq fəaliyyətə başlaması üçün rəsmi orqanlara müraciət olunmuşdu. Kazan dövlət və hökumət orqanları tərəfindən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Kazan Komitəsinə yardım yığmaq barədə rəsmi icazə verilmişdi.[1]

Ağır müharibə şəraitində Rusiyanın digər şəhərləri kimi, Kazan şəhərinə də döyüş bölgələrindən yaralı və xəstə hərbçilər gətirilirdi. Bu hərbçilərin qəbul edilməsi, yerləşdirilməsi, onlara qayğı göstərilməsi məqsədilə Kazan Komitəsi nəzdində hərbi xəstəxana fəaliyyət göstərirdi. Hərbi xəstəxanada olan yaralı və xəstə hərbçilər komitənin əməkdaşları tərəfindən hərtərəfli qayğı ilə əhatə olunurdular. Komitənin idarə heyəti tərəfindən qərara alınmışdı ki, hərbi xəstəxanada yaralı və xəstə hərbçilər üçün ən azı ayda bir dəfə qiraət təşkil olunsun.[2] Beləliklə hərbçilər cəbhədə olan vəziyyətlə, həmçinin ölkə həyatında baş verən siyasi, iqtisadi və mədəni proseslərlə tanış ola bilərdilər.

Birinci Dünya müharibəsi illərində Kazan şəhərində bir neçə hərbi xəstəxana fəaliyyət göstərirdi. Kazan Komitəsinin keçirdiyi iclasda digər müsəlman hərbi xəstəxanalarına da kömək məsələsi müzakirə olunmuşdu. Belə qərara alınmışdı ki, təkcə komitənin büdcəsində olan vəsait hesabına deyil, bütün şəhər müsəlmanlarından ianə toplanması ilə hərbi

---

[1] Baku, 22 fevral 1915, № 42.

[2] Kaspi, 4 yanvar 1915, № 2.

xəstəxanalara kömək göstərilməsi mümkündür. Bu məqsədlə yardımların toplanılması üzrə fəxri üzvlər vəkil təyin olunmuşdular. Komitənin öz büdcəsində toplanan ianələr hesabına isə nəzdində açılan hərbi xəstəxanada çarpayıların sayını 10 ədəd artırmaq mümkün olmuşdu.[1]

Kazan Komitəsi nəzdindəki hərbi xəstəxanada müsəlman yaralı və xəstə hərbçilərlə yanaşı, digər millətlərdən olan hərbçilər də var idi. Komitə həmin hərbçilərə də eyni diqqət və qayğı göstərir, xristian dinindən olan hərbçilər üçün onlara xas olan dini bayramlar keçirirdi.

1915-ci ilin aprel ayında hərbi xəstəxanada “Pasxa günü” münasibətilə bayram tədbirləri təşkil olunmuşdu. Tədbirdə müsəlman hərbçilərinin üstünlük təşkil etməsinə baxmayaraq, “Pasxa bayramı”nda xristian dini adət-ənənələrinə hörmət əlaməti olaraq rus dilində tamaşa göstərilmişdi. Burada Kazan Komitəsinin hərbi xəstəxana üzrə nümyəndələri hərbçiləri təbrik etmişdilər.[2]

Kazan Komitəsi tərəfindən Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə mütəmadi olaraq mədəni tədbirlər təşkil edilir, teatr tamaşaları nümayiş olunurdu. Bu tədbirlərdən daxil olan gəlir Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə Bakıya – “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”nin idarə heyətinə göndərilirdi.[3]

1915-ci ilin fevralında “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”nin Kazan Komitəsinin təşkilatçılığı ilə Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin

---

[1] Kaspi, 6 yanvar 1915. № 4.

[2] Kaspi, 3 aprel 1915, № 72.

[3] Baku, 22 fevral 1915, № 42.

istifadəsi üçün xeyriyyə tamaşaları da təşkil olunurdu. Tamaşanın nümayişində iştirak edən müsəlman ziyalıları və imkanlı şəxslər tərəfindən komitəyə ianələr edilmişdi. Tədbirdən daxil olan 2.675 rubl 85 qəpik Kazan qubernatoru vasitəsilə Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə göndərilmişdi.[1]

Həmin ilin fevralın 18-də Kazan Komitəsinin təşkilatçılığı ilə, eyni məqsədlə yeni bir tamaşa nümayiş olunmuşdu. Tamaşadan toplanmış 3.000 rubla qədər pul vəsaitinin 2.300 rublu Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərilmişdi.[2]

Qaçqın və müharibədən zərər çəkənlərə kömək məqsədilə Kazan Komitəsinə ayrı-ayrı şəxslərdən də ianələr daxil olurdu. 1915-ci ilin oktyabrında Kazanda yaşayan azərbaycanlı Sadıq Xəlilov komitəyə 500 rubl yardım etmişdir. Bu puldan 200 rubl türk qaçqınlarına 100 rublı isə bir müsəlman məktəbində oxuyanlara verilmişdir.[3]



### 13.5. Yekaterinburq Komitəsi

Birinci Dünya müharibəsi illərində Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Yekaterinburq Komitəsi 1915-ci ilin əvvəllərindən fəaliyyət göstərirdi. Komitənin fəaliyyətə başlaması və nəzərdə tutulan məqsədlərin həyata keçirilməsi üçün Yekaterinburq şəhər rəsmi orqanlarından icazə alınmışdı.

---

[1] Kaspi, 9 fevral 1915, № 77.

[2] Kaspi, 1 matr 1915, № 48.

[3] Baku, 21 oktyabr 1915, № 234.

1915-ci ildə komitənin təşkil etdiyi ianə yığımından daxil olan 700 rubl Sibir bankı vasitəsilə Bakıya – “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”nin idarə heyətinə göndərilmişdi.[1]

## 13.6. Xarkov Komitəsi

1915-ci ilin yanvarından “Baki Müsəlman Xeyriyyə Cəmiyyəti”nin Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım üzrə Xarkov Komitəsi fəaliyyət göstərirdı. Komitə bu məqsədlə bir sıra layihələr həyata keçirirdi.

1915-ci ilin yanvarında komitənin təşəbbüsü və təşkilatçılığı ilə Xarkov şəhərində “Mövlud günü” münasibətilə bayram tədbiri təşkil olunmuşdu. Tədbirin təşkilində müsəlman dini nümayəndələrinin iştirakının mühüm əhəmiyyəti var idi. Bu, xüsusilə həmin tədbirdə ianə yığımının təşkilində, eləcə də digər təşkilati məsələlərin həllində özünü göstərirdi. Xarkovda yaşayan müsəlman dini nümayəndələri şəhərdəki bütün hərbi xəstəxanalarda olan yaralı və xəstə müsəlman hərbçilərin Xarkov Komitəsinin binasına toplanması barədə müraciət etmişdilər. Burada hərbçilər üçün bayram süfrəsi açılmışdı. Bu barədə “Kaspi” qəzeti yazırdı ki, hərbçilərə müsəlmanlar xidmət göstərirdilər.[2]

Xarkov Komitəsi Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə ianələr toplayır, rautlar təşkil edirdi. Komitə 1915-ci ilin martında Novruz bayramı münasibətilə müsəlman axşamı təşkil etmişdi. “Baku” qəzetində yazılırdı ki, “...axşamda

[1] Baku, 24 aprel 1915, № 90.

[2] Kaspi, 25 yanvar 1915, № 20.

bütün Xarkov müsəlmanları və digər millətdən olan nümayəndələr iştirak edirdilər. Daxil olan bütün gəlir Bakıya - "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə göndərilmişdi".[1]

Xarkov Komitəsinin Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə, həmçinin müharibədə yaralanan və xəstə hərbçilərə yardım işinin həyata keçirilməsində Xarkov şəhərinin ali təhsil ocaqlarında təhsil alan azərbaycanlı tələbələr də yaxından iştirak edirdilər.

1915-ci ilin sentyabrında müsəlman hərbi xəstəxanalarında yerləşdirilən hərbçi müsəlmanlara kömək məqsədilə Xarkovda təhsil alan azərbaycanlı tələbələr tərəfindən müsamirə təşkil olunmuşdu. Bu tədbirdən daxil olan 452 rubl Xarkov qubernatoru və Bakı qubernatoru vasitəsilə Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə göndərilmişdi.[2]



Birinci Dünya müharibəsi illərində Xarkovda "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin Xarkov Komitəsi də fəaliyyət göstərirdi. 1915-ci ildə yaradılan Xarkov Müsəlman Qadın Komitəsi Qurban bayramı münasibətilə Xarkov hərbi xəstəxanalarında yaralı müsəlman əsgərlər üçün ziyafət təşkil etmişdi. Ziyafətdə 200-dən artıq yaralı hərbçi iştirak edirdi. Xarkov Müsəlman Qadın Komitəsi tərəfindən həmin ziyafətə Qars vilayətindən gətirilmiş 73 nəfər türk qaçqın müsəlman da dəvət edilmişdi.[3]

### 13.7. Həştərxan Komitəsi

1915-ci ildə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-

[1] Baku, 29 mart 1915, № 68.

[2] Yeni İqbal 22 sentyabr 1915, № 124.

[3] Baku, 21 oktyabr 1915, № 234.

müsəlman əhalisinə kömək üzrə Həştərxan Komitəsi yaradılmışdı. Həştərxan Komitəsinin 5 nəfər fəxri üzvü var idi. Komitə Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə kömək məqsədilə yardım yığılması işini təşkil edirdi. Komitənin üzvləri yerlərə gedərək bu layihəni həyata keçirirdilər. Komitəyə ilk olaraq 115 rubl yardım daxil olmuşdu.[1] Daxil olan yardım Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə göndərilmişdir.

### 13.8. Vladiqafqaz Komitəsi

Birinci Dünya müharibəsi illərində Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinin bir hissəsi, o cümlədən türk qaçqın uşaqları Rusiya imperiyasının bir çox ərazilərində olduğu kimi, Vladiqafqaz şəhərində də yerləşdirilmişdi. Onlar sərhəddə çalışan müxtəlif təşkilatlar vasitəsilə bu şəhərə gətirilmişdilər. Lakin digər yerlərdə olduğu kimi, türk qaçqınlarına himayəçiliyi həmin təşkilatlar deyil, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" və bu təşkilatın Vladiqafqaz Komitəsi öz üzərinə götürmüşdü.

1917-ci ildə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyəti tərəfindən qaçqın türk-müsəlman uşaqlarının yerləşdirilməsi üçün uşaq evinin təşkili ilə əlaqədar Şimali Qafqaz və Dağıstan dağlılarının Birləşmiş İttifaqı Mərkəzi Komitəsinə müraciət edilmişdi. Komitənin cavab olaraq "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin baş müvəkkilinə yazdığı 31 iyul 1917-ci il 368 saylı məktubunda bildirilirdi ki, "məktubunuza müvafiq olaraq sizə məlumat veririk ki, şəhər dolu olduğu üçün qaçqın yetimlərin yerləşdirilməsindən

[1] Kaspi, 25 fevral 1915, № 44.

ötrü yer axtarsaq da, nəticəsi olmadı".[1] Həmin uşaqlar yığılaraq "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin digər uşaq evlərinə yerləşdirilmişdir.

### 13.9. Tiflis Komitəsi

Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" digər ərazilərdə olduğu kimi, Tiflisdə də Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə Tiflis (Qafqaz) Komitəsini təşkil etmişdir. Komitəyə Azərbaycanın görkəmli ziyalılarından olan İbrahim bəy Vəkilov rəhbərlik edirdi. 1915-ci ilin avqustunda Tiflis Komitəsinin sədr köməkçisi general-mayor M.K.X.Talışınski seçilmişdi.[2]



Tiflis Komitəsi Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə bir sıra layihələr həyata keçirirdi. 1915-ci ilin martında komitə tərəfindən Novruz bayramı münasibətilə raut təşkil olunmuşdu. Rautdan yığılan 1.000 rubl, [3] həmçinin komitəyə ayrı-ayrı şəxslər tərəfindən daxil olan 1.000 rubl bank vasitəsilə Bakıya Bakıya – "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə göndərilmişdi.[4]

Tifis Komitəsi Qars vilayətində qaçqın və müharibədən zərər çəkər türk-müsəlman əhalisinə yardım yığılması məqsədilə şəhərin müxtəlif yerlərində ianə qutuları qoymuşdu. Qeyd edək ki, ianə toplanmasından ötrü bir gün

---

[1] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 53.

[2] Kaspi, 8 avqust 1915, № 176.

[3] Kaspi, 5 aprel 1915, № 74.

[4] Kaspi, 6 iyun 1915, № 124.

ərzində 500-dən çox qutu hazırlanmışdı. Qutulardan müxtəlif məbləğlərdə pul toplanmışdı. Bir qutudan 100 rubl, digər qutudan 200 rubl, bəzi qutulardan isə 7-8 rubl və s. çıxarılmışdı.[1]

1915-ci il mayın 17-də komitənin sahə rəhbərləri və Tiflisdə olan "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin nümayəndələri birlikdə mayın 16-da qutulardan toplanan ianəni hesablamışdılar. Qutulardan yığılan pulun ümumi məbləği 8.000 rubl olmuşdu. [2] İanə qutularından pul ilə yanaşı, xırda qızıl əşyalar, xarici (İran, türk) sikkələri də çıxarılmışdı.[3]

Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkilində, digər bölmələrdə də qeyd etdiyimiz kimi, Rusiya Dövlət Dumasının azərbaycanlı deputatı Məmməd Yusif Cəfərovun böyük xidmətləri olmuşdur. 1915-ci ilin sentyabrında Məmməd Yusif Cəfərov Qafqaz (Tiflis) Komitəsinin sədri İbrahim bəy Vəkilova aşağıdakı sorğularla teleqram ünvanlanmışdı: "Qarsdan Tiflisə gətirilmiş kimsəsiz uşaqlar üçün uşaq evinin açılmasının smetası; uşaqların sayı; uşaqların saxlanılması üçün aylıq xərc; Tiflis quberniyasında qaçqın türk-müsəlman əhalisinin sayı barədə məlumat verilməsini xahiş edirəm». [4]

1915-ci ilin sentyabrında Tiflis Komitəsinin sədri İbrahim bəy Vəkilov, Məmməd Yusif Cəfərovun göndərdiyi teleqramla bağlı sorğuya cavab vermişdir. Verilən məlumatdan aydın

[1] Kaspi, 21 may 1915, № 109.

[2] Kaspi, 21 may 1915, № 109.

[3] Kaspi, 21 may 1915, № 109.

[4] İbrahimov X. Bir daha qaçqınlar haqqında, Yeni İqbal 25 sentyabr 1915, № 127.

olur ki, həmin vaxt Tiflisdə 155 nəfər türk qaçqını olmuşdur. Onların 55 nəfərini kimsəsiz qaçqın uşaqlar təşkil etmişdir. İbrahim bəy Vəkilovun cavab məktubunda xüsusi uşaq evinin açılması üçün 5.500 rubl, saxlanılması üçün isə hər ay 1.000 rubl vəsait tələb olunduğu bildirilmişdir. [1]

Tiflis uşaq evinin işçi heyəti aşağıdakı şəxslərdən ibarət idi: müdir, 2 nəfər qadın müəllim və xidmətçilər. Tiflis uşaq evi fəaliyyətə başladıqdan sonra, yuxarıda qeyd olunan məbləğ bir qədər də artırılmışdır. Uşaq evinin təchizatı 7.000 rubla, aylıq xərc isə 1.500 rubla çatdırılmışdır. [2]

Tiflisdə türk qaçqınlarının sayı barədə yuxarıda göstərilən məlumat təkcə Tiflis Komitəsinin qeydə aldığı və himayədarlıq etdiyi qaçqınlar haqqındadır. Ümumiyyətlə isə quberniyada nə qədər türk qaçqınının olduğu barədə dəqiq məlumat əldə edilməmişdir. Yalnız o məlumdur ki, qaçqınların çoxu Axıska və Axalkələki qəzalarında yerləşdirilmişdilər.[3] Cəmiyyət tərəfindən onların sayının öyrənilməsi üçün dəstələr təşkil olunmuşdu. Bundan əlavə Qafqaz (Tiflis) Komitəsinin sədri, İbrahim bəy Vəkilov müəssisə və şəxslərə müraciət etmişdi ki, qaçqınlar haqqında məlumatı komitəyə çatdırsınlar.[4]



Birincü Dünya müharibəsi illərində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə, o cümlədən müharibədə valideynlərini itirmiş kimsəsiz uşaqlara yardım işinin təşkilində, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" maddi dəstək üçün dövlət orqanlarına da müraciət edirdi. Cəmiyyətə dövlət tərəfindən daxil olan hər hansı yardım, ehtiyacı olan

[1] İbrahimov X. Bir daha qaçqınlar haqqında, Yeni İqbal 25 sentyabr 1915, № 127.

[2] Kaspi, 29 oktyabr 1915, № 241.

[3] Kaspi, 23 sentyabr 1915, № 211.

[4] İbrahimov X. Bir daha qaçqınlar haqqında, Yeni İqbal 25 sentyabr 1915, № 127.

digər komitələrə də paylanılırdı. Dövlət xəzinəsindən yardımların ayrılmasında Azərbaycanın görkəmli ziyalısı, Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərovun böyük xidmətləri olmuşdur. Arxiv sənədlərində Məmməd Yusif Cəfərovun tez-tez Daxili İşlər Naziri, eləcə də digər yüksək rütbəli dövlət məmurları ilə Qars vilayətində müharibədən zərər çəkən müsəlmanlara kömək göstərilməsi barədə danışıqlarına dair faktlara rast gəlinir. Məhz bu danışıqların nəticəsi olaraq hökumət, dövlət xəzinəsindən Qafqaz şəhərlərində yerləşdirilmiş türk qaçqın uşaqlar üçün 60.000 rubl vəsait ayrılmışdır.[1]

Tiflis Komitəsi nəzdində fəaliyyət göstərən uşaq evində uşaqlara xüsusi qayğı göstərilir, türk qaçqın uşaqlarının digər zəruri ehtiyacları ilə yanaşı, onların təhsil almaları üçün də lazımi tədbirlər görülürdü. 1915-ci ilə olan məlumata görə Tiflis uşaq evində 20 nəfər məktəbyaşlı uşaq var idi. Komitə tərəfindən onların təhsil almaları təmin olunmuşdu. 1915-ci ilin oktyabrında komitə Tiflisdəki ona məxsus olan torpaq sahəsində məktəb binasının tikintisinə başlamışdı.[2]

1917-ci ildə Tiflis Komitəsinin nəzdində uşaq evi üzrə Təsərrüfat Komissiyası təşkil olunmuşdu. Komissiyaya uşaq evinin müxtəlif geyim əşyaları ilə təmin olunması üçün "Bakı Müsəlman Xeyriyyə Ccəmiyyəti" tərəfindən 6 ədəd tikiş maşını bağışlanmışdı.[3]

Tiflis Komitəsi həmçinin Tiflisdə olan türk qaçqınlarının siyahıya alınması işini də həyata keçirirdi.[4]

---

[1] Baku, 20 oktyabr 1915, № 233.

[2] Kaspi, 29 oktyabr 1915, № 241.

[3] ARDTA, Fond 335, siyahı 1, iş 2, v. 9.

[4] Kaspi, 23 sentyabr 1915, № 211.

Beləliklə, Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində hərbi əməliyyatlar nəticəsində qaçqın və müharibədən zərər çəkən türk müsəlman əhalisinə və hərbçilərə yardım məqsədilə, Rusiya imperiyasının məqkəzi şəhərlərində yaşayan müsəlmanlar səfərbər olunmuşdurlar. Azərbaycan ziyalılarının təşkilatçılığı ilə Rusiyanın mərkəzi şəhərlərində türk-müsəlmanları birləşdirən milli komitələr yaradıldı. Bu, milli bilik baxımından mühüm əhəmiyyət kəsb edirdi.

# XIV FƏSİL
# TÜRK HƏRBİ ƏSİRLƏRİ

## 14.1. Nargin adasında türk hərbi əsirləri

Birinci dünya müharibəsi bir çox cəhətdən unikaldır. Bu müharibə dünya tarixində ilk total müharibə, XX əsrin əvvəllərində isə ən qanlı müharibə idi. Bir çox xüsusiyyətləri ilə yanaşı, bu müharibədə əsirlərin sayı barədə faktlar xüsusi diqqət çəkir.

Birinci Dünya müharibəsində 8 milyon əsgər və zabit əsir götürülmüşdür. 1914-1917-ci illərdə təkcə rus ordusu tərəfindən iki milyona yaxın əsgər və zabit əsir alınıb ki, onlardan əlli-altmış mini türk ordusu əsirləri idi.[1] Türk ordusu əsirləri Rusiya imperiyasının müxtəlif ərazilərində, əsirlər üçün nəzərdə tutulmuş düşərgələrdə (Nargin adası, Sibir və s.) yerləşdirilirdi.

Rusiya ilə Türkiyə arasında hərbi əməliyyatların aparıldığı Qafqaz cəbhəsində türk ordusunun Sarıqamışdakı məğlubiyyətindən sonra Azərbaycana ilk Osmanlı əsirləri gətirildi. Qafqazda türk hərbi əsirləri əsasən Tiflisə göndərilir, oradan isə əsir düşərgələrinə yola salınırdı. Nargin adasına göndərilən hərbi əsirlər dəmiryolu vasitəsilə Bakıya gətirilir, burada yerli əhali arasından keçirilib Nargin adasına aparılırdı. Bu isə əhalinin böyük hüzn, eyni zamanda hiddətinə səbəb olurdu. Əhalinin türk hərbi əsirlərinə olan münasibəti jandarm idarələrinin məxfi yazışmalarında öz əksini tapırdı.

Tiflisdə Jandarm Korpus bölməsinin 08 yanvar 1915-ci il tarixli 49 saylı "gizli" məktubunda yazılır: "Agentlikdən aldığım məlumata görə, "İsmailiyyə" otaqlarının birində Qarsdan göndərilmiş İsgəndər bəy və Davo bəy Rüstəmbəyov-

[1] Пахалюк К.А. Лагер на острове Нарген (1915-1918 гг.).

lar yaşayırlar. Şübhəli xarakterlidilər.[1] Onlar dəmiryolu vağzalında çox vaxt keçirirlər və qatarda türk hərbi əsirləri ilə görüşürlər. Onlar axırıncı qəpiklərinə çörək alıb əsirlərə aparır və əsirlərlə nə barədəsə danışırlar. Xahiş edirəm həmin şəxsləri nəzarətə götürəsiniz".[2]

Çarizm türk hərbi əsirlərini əhalinin yaşadığı ərazidən uzaq yerdə saxlasa da, yenə də onlara kömək üçün müxtəlif yollar tapılırdı.Nargin adasında türk hərbi əsirlərinə yardım işinin təşkilində Azərbaycan xanımlarının da böyük xidmətləri olmuşdur. Onların türk hərbi əsirlərinə yardım işi rəsmi icazə ilə mümkün olurdu.

XX əsrin əvvəllərində Azərbaycanın maarifçi xanımlarından olan, xeyriyyəçi, "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin üzvü Sona xanım Hacıyeva Nargin adasının komendantı, polkovnik Poltorotskidən, adada saxlanılan türk hərbi əsirlərinə yardım etmək üçün icazə almışdı.[3] Bu barədə arxivlərdə saxlanılan materiallar arasında Bakı Quberniyası Jandarm İdarəsinin rəisinin 10 sentyabr 1915-ci il tarixli məktubunda qeyd olunur.[4] Məktubda "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin nümayəndəsi Sona xanım Hacıyevanın öz qohumları ilə birlikdə tez-tez qayıqla Nargin adasına gəlmələri barədə məlumatlar öz əksini tapmışdır. Məktubda həmçinin bildirilirdi ki, Sona xanım Hacıyeva özü ilə türk əsirlərinə yemək-içmək, geyim əşyaları aparır, burada olan xəstə türk hərbi əsirlərinə yardım edirdi. O və qohumları əsirlərlə olduğu vaxtda onlara heç bir nəzarət edilmirdi".[5]



---

[1] ARDTA, Fond 524, siyahı 1, iş 38, v. 52.

[2] ARDTA, Fond 524, siyahı 1, iş 38, v. 52.

[3] ARDTA, Fond 46, siyahı 1, iş 364.

[4] ARDTA, Fond 46, siyahı 1, iş 364.

[5] ARDTA, Fond 46, siyahı 1, iş 364 (v.19-19 ob.).



№ 73 № 1563

Канцелярия Бакин. Градоначальника.

~~О побеге пленных турецких офицеров с острова „Наргин"~~

Следственное дело по обвинению Исмаил Бека Сафаралиева, Музаффара Мухтарова, Ашраф Бека Демурбекова и Сона Ханум Гаджиевой в организации побега пленных турецких офицеров с острова „Наргин"

начато 7-го сентября 1918 г.
окончено 3-го февраля 1919 г.

На 93 листах

*Türk hərbi zabitlərinin qaçırılması ilə bağlı açılan cinayət işi*

Nargin adasında saxlanılan türk hərbi əsirləri Bakının imkanlı şəxsləri tərəfindən evlərə dəvət olunurdular. Əsirlərin adadan buraxılması rəsmi icazə əsasında mümkün olurdu. Nargin adasından hərbi əsirlərin buraxılması və onlara nəzarət qaydaları barədə komendantın məlumatında deyilir ki, hər gün 10 nəfər hərbi əsirin şəhərə buraxılmasına icazə verilirdi. Həmin əsirlər Nargin adası komendantıınn qeydiyyatı əsasında buraxılırdı. Buraxılış vərəqəsinin bir nüsxəsi komendantda saxlanılırdı. Həmçinin buraxılan şəxslərin adları qeydiyyat kitabında qeyd olunurdu. [1]

Göründüyü kimi, ümumi qayadalarda olduğu kimi, Nargin adasında da saxlanılan türk hərbi əsirlərinə olduqca ciddi nəzarət var idi. Lakin bu nəzarət azərbaycanlıları hər hansı bir addım atmaqdan, hətta olduqca təhlükəli addım atmaqdan çəkindirmirdi. Onlar adada saxlanılan türk hərbi əsirlərinə yardım etməklə yanaşı, əsirlərin ağır işgəncələrdən xilas olmaları üçün böyük risklər edirdilər. Məhz bu kimi böyük risklər hesabına azərbaycanlılar Nargin adası həbsxanasında saxlanılan türk əsirlərinin qaçırılmasına nail olmuşdular. Bu addım, onların özlərinin də əvvəlcədən göz altına aldıqları kimi, cinayət işinin açılması ilə nəticələnmişdi.

Nargin adasında saxlanılan türk hərbi əsir zabitlərinin qaçırılması faktı ilə bağlı Azərbaycan Respublikası Dövlət Tarix Arxivində 46-cı fondda aşağıda qeyd olunan adda iş saxlanılır: "Nargin" adasında əsir türk hərbi zabitlərinin qaçırılmasının təşkilində günahlandırılan İsmayıl bəy Səfərəliyev, Murtuza Muxtarov, Əjdər bəy Aşurbəyov və Sona xanım Hacıyeva barədə iş". [2]

Yuxarıda bəhs olunan işdə, "Nargin" adasında saxlanılan 15.000 türk əsiri içərisindən qaçırılan türk hərbi zabitlərinin adları qeyd olunur. Həmin əsirlər aşağıda adları qeyd olunan

[1] ARDTA, Fond 46, siyahı 1, iş 364 (v.19-19 ob.).

[2] ARDTA, Fond 46, siyahı 1, iş 364.

şəxslər idilər: kapitan – Suheyl İzzət, Fərhat Tursun və Şükrü Şaban bəy. Poruçik (leytenant) – Əsman Nuri Abdulla, Yusif Ziya, proporşiklər – Hüseyn Hilmə, Fikri Şakir və Yusif İbrahim, aşağı rütbəli hərbçilər – Behbud Cəfər oğlu və Foma Qiqoyev Mşbidobadze.

İlk olaraq əsirlərin qaçırılması inandırıcı görünməsə də, sonralar Nargin adasından türk hərbi əsirlərinin qaçırılması ilə bağlı fakt, Nargin adası həbsxanasının komendantı, polkovnik Poltoratski tərəfindən təsdiq olunmuşdur. Sonrakı günlərdə isə bu fakt komendantın dövlət oqranlarına göndərdiyi "gizli" rəsmi məktubla bir daha bəyan edilmişdir.[1]

Polkovnik Poltoratskinin 19 avqust 1915-ci il tarixdə Bakı Quberniyası Jandarm İdarəsinə raportunda səkkiz türk zabitinin adı çəkilirdi. Onun raportunda bildirilirdi ki, türk hərbi əsirlərinin qaçırılması barədə iyulun 30-da axşam məlumat almışdır. Ona bu məlumatı zabit Əlif Səlimov vermişdir. Zabit Əlif Səlim ona bildirmişdir ki, qaçış barədə telefonla məlumat versə də, türk dilində danışdığı üçün onu heç kim başa düşməmişdir. Komendantın raporunda həmçinin bildirilirdi ki, qaçırılan türk əsirləri bakılı Əlibala adlı bir nəfərlə görüşmüş və o da onlarla birlikdə yoxa çıxmışdır.[2] Qeyd edək ki, Əlibala adlı həmin şəxs, Azərbaycanın görkəmli mesenatı, iri neft sahibkarı Ağabala Quliyev idi.

Nargin adasından hərbi əsirlərin qaçırılması ilə bağlı olaraq, Bakı Quberniyası Jandarm İdarəsinin rəis köməkçisi Akopovun çarın Qafqazdakı canişininə yazdığı məktubunda faktla bağlı məlumatlar öz əksini tapmışdır.[3] Həmin məlumatda bildirilirdi ki, türk hərbi əsirlərinin Nargin adasından

[1] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 48-48 (arx.).

[2] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 48-48 (arx.).

[3] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 48-48 (arx.).

qaçırılması planı tam dəqiqliklə yerinə yetirilmişdir. Qaçış planının baş təşkilatçısı olaraq, Bakı şəhər sakini, milyonçu Ağabala Quliyevin adı qeyd olunurdu. Məlumatda bildirilirdi ki, Ağabala Quliyev Nargin adasından qaçırılan əsir türk zabitlərini "İsmailiyyə" mehmanxanasında qarşılamışdır. Burada türk zabitlərinin şərəfinə böyük ziyafət təşkil olunmuşdur. Ziyafətdə iştirak edənlər arasında Mirtağı Mirbabayev, Əliheydər Babayev, Qasım Qasımov və digər şəxslər var idi. [1]

Bakı Quberniyası Jandarm İdarəsinin rəis müavini Akopovun çarın Qafqazdakı canişininə yazdığı məktubunda bildirilirdi ki, "İsmailiyyə" mehmanxanasındakı ziyafətdən sonra əsir türk zabitləri orada gecələmişdilər. Səhər Ağabala Quliyev zabitlər üçün xüsusi forma – yerölçənlərin formasını gətirmişdir. Həmin geyimdə türk zabitləri Ağabala Quliyevin "Puta" neft mədən dayanacağına göndərilmişdir.[2]



Əsir türk zabitləri "Puta" neft mədən dayanacağında bir həftə qalmışlar. Qaldıqları zaman ərzində onlar geyindikləri yerölçən formalarından istifadə edərək, Yasamal dağlarına gedir, buradan bütün yol, nəqliyyat, dəmiryol xətlərinin, yaşayış məntəqələrinin çəkilişlərini edirmişlər. Türk zabitləri lazım olan planları həyata keçirdikdən sonra, onlar Ağabala Quliyev vasitəsilə İrana göndərilmişdilər. İran konsulluğu tərəfindən onlara müxtəlif adlarla pasportlar verilmişdir. [3]

Bakı Quberniyası Jandarm İdarəsinin rəis müavinin Qafqaz canişininə yazdığı məlumatda bildirilirdi ki, Osmanlı dövləti tərəfindən Ağabala Quliyev "hərbi" xidmətlərinə və çəkdiyi böyük xərclərə görə Osmanlı ordeni ilə təltif

[1] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 48-48 (arx.).

[2] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 48-48 (arx.).

[3] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 48-48 (arx.).

olunmuşdur. Həmçinin qeyd olunurdu ki, Ağabala Quliyev bu ordeni açıq geyinir, hətta öz firmasının blanklarında, yarlıqlarında Sultanın portreti ilə birlikdə açıq istifadə edirdi. [1]

Arxiv sənədlərində göstərilir ki, qaçırılan əsirlər Bakıdan Astaraya, oradan isə İran sərhədlərinə göndərilmişdilər. Bununla bağlı Lənkəran qəza rəisi Bakı qubernatoruna məktub ünvanlamışdır. Məktubda qeyd olunurdu ki, Lənkəran qəza rəisi avqustun 7-də öyrənmişdir ki, "İvan Kolesnikov" gəmisində əsir türk zabitləri qaçmışlar. Yalnız bundan sonra o bu məlumatı təcili olaraq Bakı qubernatoruna çatdırmışdır. Qubernator Təbrizdəki rus konsuluna teleqram göndərsə də, artıq heç nə etmək mümkün olmamışdır.[2]

Türk zabitlərinin Astaradan İran sərhədlərinə göndərilməsində iştirak edən aşağıdakı şəxslər həbs olunaraq, Lənkəran həbsxanasına salınmışlar: Hacıağa Həbibullayev, Əbdülhüseyn Kərim oğlu və Ələsgər Məmmədov. [3]

Dəniz Nazirliyi Xəzər dənizi "Araks" nəqliyyat komandiri, kapitan Antonovun Nargin adasından türk zabitlərinin qaçırılması ilə bağlı "Araşdırma"sında Nargin adasının komendantı, polkovnik Poltorotski təqsirləndirilirdi. O, qeyd edirdi ki, Poltorotski qaçış barədə dərhal xəbər tutub həmin gün məlumatı çatdırmamışdır. Məlumat vaxtında çatdırıldığı təqdirdə onları Bakıda olmasa da, Astarada saxlamaq mümkün olardı. [4]



Nargin adasından əsir türk zabitlərinin qaçırılması ilə bağlı Dəniz Nazirliyi Xəzər Dənizi "Araks" nəqliyyat koman-

[1] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 48-48 (arx.).

[2] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 15.

[3] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 15.

[4] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 17 (arx.).

dirinin 29 avqust 1915-ci il tarixli 1 saylı "Araşdırma"sı vardır. Bu araşdırma aşağıda qeyd olunan raportlar əsasında yazılmışdır: [1]

1. Qafqaz Hərbi Dairəsinin 14 avqust 1915-ci il tarixli izahatı;
2. Nargin adası komendantı polkovnik Poltorotskinin 19 avqust 1915-ci il tarixli yazılı ifadəsi;
3. Bakı Polis Rəisliyinin Port sahə rəisi, podpolkovnik Mesxiyevin 21 avqust 1915-ci il tarixli izahatı:
4. Bakı Quberniyası Jandarm İdarəsi rəisinin 20 avqust 1915-ci il tarixli izahatı;
5. Nargin adası müvəqqəti komendantının 22 avqust 1915-ci il tarixli izahatı;
6. Nargin adası sanitar həkimi Məlik Paşayevin 23 avqust 1915-ci il tarixli izahatı;
7. Nargin adası qarovul rotasının komandiriniin 23 avqust 1915-ci il tarixli izahatı;
8. "Bayılov" port komandiri şturman Fedinin 24 avqust 1915-ci il tarixli izahatı;
9. Bakı şəhər rəisinin 24 avqust 1915-ci il tarixli izahatı;
10. Astara gömrük zabitinin 25 avqust 1915-ci il tarixli izahatı;
11. 3 rota komandiri, kapitan Boqolyubovun 28 avqust 1915-ci il tarixli izahatı;
12. Kiçik rütbəli zabit, praporşik Kalabinin 28 avqust 1915-ci il tarixli izahatı.

Aparılan araşdırmalar bir daha təsdiq etmişdir ki, türk hərbi əsir zabitlərinin Nargindən qaçırılması planı tam dəqiqliklə yerinə yetirilmişdir. Türk əsirləri üçün göndərilən

[1] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 14-18.

qayıq adadan Bakıya, Bakıdan Astaraya, oradan isə İran sahillərinə çatmışdır. Bu əməliyyatın təşkilatçısı olaraq yerli sahibkar Ağabala Quliyevin adı təsdiq olunmuşdur. [1]

Beləliklə, Nargin adasından türk zabitlərinin qaçırılması faktı bütün imperiyada böyük əks-səda doğurmuş, bütün dövlət və hökumət orqanlarını ayağa qaldırmışdır. Dövlət və hökumət orqanlarının bu işin necə baş verməsi barədə apardıqları araşdırmalar nəticəsində təqsirli bilinən vəzifəli şəxslər tutduğu vəzifədən azad edilmiş, türk hərbi əsirləri ilə əlaqəsi olan şəxslər barədə ittihamlar qaldırılmışdır. Bu faktla bağlı Bakı quberniyası Jandarm İdarəsinin rəisinin 1915-ci il dekabrın 31-də yazdığı "Qətnamə"də bildirilirdi ki, şahidlərin verdikləri məlumata görə, qaçırılan türk hərbi əsirləri, Bakı şəhərində yaşayan sahibkarlar İsmayıl bəy Səfərəliyev, Murtuza Muxtarov, Əjdər bəy Aşurbəyov və Sona xanım Hacıyevanın evlərində tez-tez olurdular. Buna görə də həmin şəxslər istintaqa cəlb olunmuşlar.[2]

Arxiv sənədlərində fəhlə batalyonlarından türk hərbi əsirlərinin özlərinin qaçış planını təşkil etməsi və qaçması faktları da istisna deyildir.

Arxivdə 495-ci fondda 27-ci Qafqaz Fəhlə Batalyonundan qaçmış türk hərbi əsirləri haqqında tarixi sənədlər saxlanılmaqdadır. Həmin sənədlərdən aydın olur ki, bir ay ərzində iki dəfə qaçış planı həyata keçirilmişdir: 01 yanvar və 12 yanvar 1917-ci il tarixlərində.



[1] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 48-48 (arx.).

[2] ARDTA, Fond 46, siyahı 1, iş 364, v. 48-48 (arx.).



СПИСОКЪ

военно-плѣнныхъ турокъ, совершившихъ побѣгъ изъ 27 Кавказ... рабочаго батальона по состоянію къ 12 Января ...

| Званіе, имя и фамилія. | Срокъ службы | Когда Бѣжалъ | Откуда происход. | Примѣты. |
|---|---|---|---|---|
| Усейнъ Мустафа | 3 ротъ | 4 Января | Трапезондъ | Сред.рос.худ. чер.волос. |
| Измаилъ Хассанъ | 7 " | " | Кахтъ | Сред.рос.худ. чер.волос. |
| Магометъ Гассанъ | " | " | Керасиль | Сред.рос.худ. чер.бород.с... |
| Дурусунъ Ибрагимъ | "–" | –"– | "–"– | –"–"– |
| Ибрагимъ Эмиль | " | " | Стамбулъ | Сред.рос.худ. чер.волос. |
| Эзисъ Ахмедъ | " | " | Темель-ханъ. | Сред.рос.худ. чер.волос. |
| Мамедъ Али | " | " | Сюрмене | Сред.рос.худ. чер.волос. |
| Джемаля Мустафа | 5 ротъ | " | Трапезондъ | Сред.рос.худ. чер.волос. |
| Усейнъ Сулейманъ | 2 " | 2 Января | " | Сред.рос.худ. чер.волос. |
| Мамедъ Али | 7 " | 7 Января | Сюрмене | Сред.рос.худ. чер.волос. |
| Османъ Кисія | " | " | Машко | Сред.рос.худ. чер.волос. |
| Ахмедъ Ибрагимъ | " | " | Платанъ | Сред.рос.худ. чер.волос. |
| Мустафа Али | " | " | Сюрмене | Сред.рос.худ. чер.волос. |

***Türk hərbi əsirlərinin siyahısı (arxiv sənədi nümunəsi)***

## 27-ci Qafqaz Fəhlə Batalyonundan qaçmış türk hərbi əsirlərinin SİYAHISI [1]

*(01 yanvar 1917-ci il tarixə olan məlumata görə):*

***Cədvəl 18***

| Sıra sayı | Adı və soyadı | Hərbi xidmətə çağrıldığı yer | Qaçdığı tarix | Əlamətləri |
|---|---|---|---|---|
| | Abul Tufan | Traşevond | 6 noyabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Osman Əhməd | İzmir | 9 noyabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Dursun Əhməd | Ərzurum | 9 noyabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | İbrahim Məmməd | Traşevond | 10 noyabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Xəlil Hüseyn | Traşevond | 10 noyabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Hasan Əli | Ərzurum | 01 noyabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Xəlil Hasan | Ərzurum | 11 noyabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Tursun Hasan | Ərzurum | 11 noyabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Əli Abdulla | İzmir | 11 noyabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Əli Bəyburt | Van | 12 dekabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Əhməd Məmməd | Sivas | 13 dekabr 1916 | Orta boylu, arıq, qara saçlı |

[1]ARDTA, Fond 495, siyahı 1, iş 77.

| | | | | |
|---|---|---|---|---|
| | Əhməd Edgel | Traşevond | 15 dekabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Xəlil Məmməd | Ankara | 15 dekabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Abdul Rasul | Ərzrum | 30 dekabr 1916 | Orta boylu, arıq, qara saçlı |
| | Mustafa | 8-ci rota | 10 avqust | Orta boylu, arıq bədənli, qara, qısa saçlı |
| | Hacı | "--------" | "--------" | Orta boylu, arıq bədənli, qara, qısa saçlı |
| | İsax | "--------" | "--------" | Orta boylu, arıq bədənli, qara, qısa saçlı, bir neçə dişi yoxdur |
| | Dərviş | "--------" | "--------" | Hündür boylu, arıq bədənli, qara, qısa saçlı |
| | Hüseyn | "--------" | "--------" | Orta boylu, arıq bədənli, dolu sifətli, qara, qısa saçlı |
| | Vəli | "--------" | "--------" | Orta boylu, arıq bədənli, qara, qısa saçlı |

**27-ci Qafqaz Fəhlə Batalyonundan qaçmış**
**Türk hərbi əsirlərinin**
**SİYAHISI**

*(12 yanvar 1917-ci il tarixə olan məlumata görə):*[1]

***Cədvəl 19***

| Sıra sayı | Adı və soyadı | Xidmət müddəti | Hərbi xidmətə çağrıldığı yer | Qaçdığı tarix | Əlamətləri |
|---|---|---|---|---|---|
| | Hüseyn Mustafa | 3 il | Traşevond | 4 yanvar | Orta boylu, arıq, qara saçlı |
| | İzmail Hasan | 7 il | Kaxt | “--------“ | Orta boylu, arıq, qara saçlı |
| | Məhəmməd Həsən | 7 il | Kerasil | “---------“ | Orta boylu, arıq, qəhvəyi saçlı |
| | Dursun İbrahim | 7 il | Kerasil | “----------“ | Orta boylu, arıq, qara saçlı |
| | İbrahim Emil | 7 il | İstanbul | “----------“ | Orta boylu, arıq, qara saçlı |
| | Əziz Əhməd | 7 il | Temel-xan | “-----------“ | Orta boylu, arıq, qara saçlı |
| | Camal Mustafa | 5 il | Traşevond | “-----------“ | Orta boylu, arıq, qara saçlı |
| | Hüseyin Süleyman | 2 il | Traşevond | 2 yanvar | Orta boylu, arıq, qara saçlı |
| | Məmməd Əli | 7 il | Sürmənə | 7 yanvar | Orta boylu, arıq, qara saçlı |
| | Osman Kisə | 7 il | Maşko | “----------“ | Orta boylu, arıq, qara saçlı |
| | Əhməd İbrahim | 7 il | Platan | “-----------“ | Orta boylu, arıq, qara saçlı |
| | Mustafa Əli | 7 il | Sürmənə | “-----------“ | Orta boylu, arıq, qara saçlı |

[1] ARDTA, Fond 495, siyahı 1, iş 77, v. 33.

Qafqaz 27-ci fəhlə batalyonunun komandirinin Bakı şəhər polis rəisinə yazdığı 13 avqust 1917-ci il tarixli 4903 saylı məktubunda bildirilirdi ki, batalyondan bu ilin 01-12 avqust tarixlərində türk hərbi əsirləri qaçmışdır. Məktubda hərbi əsirlərlə bağlı ölçü götürülməsi və nəticələri barədə məlumat verilməsi xahiş olunur.[1]



СПИСОКЪ

военно-плѣнныхъ турокъ совершившихъ побѣгъ изъ 27 Кавказскаго ра[бочаго] батальона ~~по состоянію~~ къ 1 января 1917 года.

| Званіе, имя и фамилія | Срокъ службы. | Когда убѣжалъ. | Откуда происход. | Примѣч. |
|---|---|---|---|---|
| Абулъ Тауфанъ | | 5 ноября 1916 г. | Трапензондъ | Ср.рос.ху[illegible] чер.[illegible] |
| Османъ Ахмедъ | | 9 ноября 1916 г. | Измиръ | Ср.рос.ху[illegible] зцо чер.[illegible] |
| Дурсунъ Ахмедъ | | " " | Эрзерумъ | Ср:рос.ху[illegible] цо чер.[illegible] |
| Ибрагимъ Мамедъ | | 10 ноября 1916 г. | Трапензондъ | Сред.рос.ху[illegible] лицо чер.[illegible] |
| Халилъ Усейнъ | | " " " | " | " " " |
| Хассанъ Али | | " " " | Эзифие | Ср.рос.худ.[illegible] цо чер.[illegible] |
| Халилъ Хассанъ | | 1 ноября 1916 г. | Эрзерумъ | Ср.рос.худ.[illegible] цо чер.[illegible] |
| Турсунъ Хассанъ | | " " " | " | Ср.рос.худ.[illegible] цо чер.[illegible] |
| Али Абдула | | " " " | Измиръ | Ср.рос.ху[illegible] цо чер.[illegible] |
| Али Байбуртъ | | 12 дек. 1916 г. | Ванъ | Ср.рос.ху[illegible] цо чер.[illegible] |
| Ахмедъ Мамедъ | | 13 дек. 1916 г. | Сивасъ | Ср.рос.ху[illegible] цо чер.[illegible] |
| Мамедъ Эдгалъ | | 26 дек. 1916 г. | Трапензондъ | Ср.рос.ху[illegible] цо чер.[illegible] |
| Халилъ Мамедъ | | " " | Ангара | Ср.рос.ху[illegible] цо чер.[illegible] |
| Абдулъ Расула | | 30 дек. 1916 г. | Эрзерумъ | Ср.рос.ху[illegible] цо чер.[illegible] |

*Türk hərbi əsirlərinin siyahısı (arxiv sənədi nümunəsi)*

[1] ARDTA, Fond 495, siyahı 1, iş 77, v. 356.

Nargin adası türk hərbi əsirlərinin rəisi M.Qoqiçayşvilinin Bakı Şəhər Polis İdarəsinin rəisinə yazdığı 23 noyabr 1917-ci il tarixli 245 saylı məktubunda bildirilirdi ki, Bakı dəmiryolu vasitəsilə həmin gün – noyabrın 23-də səhər saat 4-də 10 türk hərbi əsiri qaçmışdır. Məktubda bildirilirdi ki, onların saxlanılmasına göstəriş verilmişdir.[1]

## NARGİN ADASINDAN TÜRK HƏRBİ ƏSİRLƏRİNİN QAÇMASI FAKTI (SİYAHI 23 noyabr 1917): [2]

***Cədvəl 19***

| Sıra sayı | Adı və soyadı | Yaşı | Hərbi vəziyyəti | Hərbi xidmətə çağrıldığı yer | Əsir götürüldüyü yer |
|---|---|---|---|---|---|
| | Abdi İzmayıloğlu | 19 yaş | Volnıy | Katavra | Rizə |
| | İsmayıl Ustafaoğlu | 42 yaş | Volnıy | Katavra | Batum |
| | Tefik Osmanoğlu | 48 yaş | Volnıy | Rizə | Trapezund |
| | Mustafa Məmmədoğlu | 20 yaş | Əsgər | Rizə | Trapezund |
| | Əhməd Çiposoğlu | 52 yaş | Volnıy | Rizə | Trapezund |
| | Harun Salioğlu | 41 yaş | Volnıy | Katavra | Trapezund |
| | Talaf Karaloğlu | 24 yaş | Volnıy | Of | Of |
| | Əhməd Sulakoğlu | 27 yaş | Volnıy | Rizə | Batum |
| | Əli Yusun Çeloğlu | 35 yaş | Volnıy | Rizə | Batum |
| | Rəcəb Kostaloğlu | 33 yaş | Volnıy | Trapezund | Batum |

[1]ARDTA, Fond 495, siyahı 1, iş 77, v. 436.

[2]ARDTA, Fond 495, siyahı 1, iş 77, v. 436.

Türk hərbi əsirləri bütün təhlükəni, ən başlıcası isə öz ölümlərini göz altına alaraq, qaçırdılar. Həkim A.Qratsanskinin 04 noyabr 1915-ci il tarixli raportunda qeyd olunur ki, türk əsirlərinin həkimi Poqosyan və Osipyan idi.[1] Bəzi mənbələrdə erməni həkimləri tərəfindən türk hərbi əsirlərinə işgəncə verildiyi bildirilir.

### 14.2. Türk hərbi əsirlərinə göstərilən yardım

Birinci Dünya müharibəsi illərində Qafqaz cəbhəsində, o cümlədən Sarıqamış hərbi əməliyyatlarında əsir düşən türk əsgər və zabitləri Nargin adasından əlavə digər ərazilərdə də saxlanılırdı. Qeyd etdiyimiz kimi, Qafqaz cəbhəsində əsir alınan bütün türk əsgər və zabitləri vaqonlara yığılaraq Tiflisə aparılır, buradan isə müxtəlif əsir düşərgələrinə göndərilirdi. Əsirləri daşıyan dəmiryolu xətti Yelizavetpol ərazisindən keçdiyindən burada vaqonlarda dünyasını dəyişmiş türk hərbi əsirləri götürülərək dəfn olunurdu. Bu işi yerli əhali ilə yanaşı, "Gəncə Gənclər Təşkilatı" həyata keçirirdi. Təşkilata görkəmli ziyalı Nağı bəy Şeyxzamanov rəhbərlik edirdi. Nağı bəy Şeyxzamanov "Gəncə Gənclər Təşkilatı" tərəfindən türk hərbi əsirlərinə göstərilən münasibət barədə yazırdı: "...Təşkilatımız əsgər qatarlarından boşaldılan cəsədlər üçün stansiyada növbətçilik təşkil etmişdi. Bir gün stansiyadan keçən qatardan 4 cəsəd boşaldığını xəbər aldıq. Tez yığışıb şəhidlərimizə cənazə mərasimi düzəltdik. Anadoluda doğulan türk əsgəri türkçülük uğrunda vuruşur, ölür və yenə türk torpağı olan Azərbaycanda torpağa verilirdi".[2] Türk hərbi əsirlərinin dəfnində, həmçinin onlara yardım göstərilməsində Gəncənin demək olar ki, bütün

[1] ARDTA, Fond 1, siyahı 1, iş 1496, v. 28.

[2] Nağı Keykurin, Nağıbəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri, Bakı, 2007.

əhalisi iştirak edirdi. Vaqonlarda sağ qalan əsirlərə əhali tərəfindən ərzaq aparılır, hədiyyələr hazırlanır, xəstələrin müalicəsi təşkil edilirdi.

Yaranmış vəziyyətlə əlaqədar "Gəncə Gənclər Təşkilatı"nın rəhbəri Nağı bəy Şeyxzamanov Gəncə bələdiyyə rəisi Xəlil bəy Xasməmmədova bu barədə məlumat verirdi. Xəlil bəy Xasməmmədovun mövcud vəziyyətlə bağlı qubernatorla danışıqlarından sonra qatar dayanacağında böyük bir bina boşaldılmış, həmin binada hərbi əsirlər üçün düşərgə və xəstəxana açılmışdı. Düşərgəyə və xəstəxanaya işləmək üçün digər xəstəxanalardan həkimlər göndərilirdi.

Tiflisdən hərəkət edəcək əsirlərlə dolu qatarların gəlməsi barədə əvvəlcədən Gəncəyə bildirilirdi. Həkimlər dəmiryolu dayanacağına gedərək əsirləri gözdən keçirir, xəstə olanların düşərgəyə göndərilməsi barədə göstəriş verirdilər.[1] Bütün bunlar türk hərbi əsirlərinin həyatlarının xilası üçün olduqca səmərəli tədbirlər planı idi. "Gəncə Gənclər Təşkilatı"nın sədri Nağı bəy Şeyxzamanovun həkimlərlə birlikdə heyətdə tərcüməçi olaraq iştirakı təmin edilmişdi. Beləliklə, Gəncədə türk əsirlərini qarşılayan heyət təşkil olunmuşdu. Bu heyətə 3 həkim, mərkəz komandirinin müavini və tərcüməçi olaraq Nağı bəy Şeyxzamanov daxil idilər.

Gəncə dəmiryol dayanacağında türk hərbi əsirlərinin qarşılanması ilə əlaqədar Nağı bəy Şeyxzamanov öz xatirələrində yazırdı: "...əsir daşıyan bir qatarın saat 14-də Gəncə stansiyasında olacağını xəbər verdilər. Hamımız birlikdə stansiyada olduq. Heyətimiz qatarlara girdikdə mən türkcə əsirlərdən xəstə olub-olmadıqlarını soruşdum... Onlar özlərini müayinə etdirmək istəmirdilər. Etimad etmədiklərini görüb danışmağa başladım: "Hal-hazırda olduğunuz stansiya Gəncə şəhərinin stansiyasıdır və bu şəhərin əhalisi

[1] Nağı Keykurin, Nağıbəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri, Bakı, 2007.

türkdür. Sizin öz qardaşlarınızdır. Stansiyada xəstəxanamız var. Xəstə olanları götürəcəyik, istirahət edib yaxşılaşdıqdan sonra yolunuza davam edəcəksiniz". Bu müraciətdən sonra 40-a qədər xəstə müalicəyə göndərilmiş, vaqonlarda qalan hərbçilərə xalq tərəfindən hazırlanmış hədiyyə qutuları paylanılmışdı.[1]

Hərbi əsirlər üçün ayrılmış xəstəxanada türk hərbi əsirlərinə xüsusi qayğı göstərilirdi. Onlar geyim, ərzaq və siqaretlə təmin olunurdular. Beləliklə, burada yerləşdirilən yüzlərlə xəstə müalicə alıb yaxşılaşdıqdan sonra əsir düşərgələrinə göndərilirdi.[2]

Türk hərbi əsirlərinə göstərilən qayğı Cənubi Qafqazın digər ərazilərində də həyata keçirilirdi. Qori şəhərində əsirlər üçün təşkil olunan xəstəxanada 300-dən çox xəstə türk hərbi əsiri var idi. Burada yaşayan, Azərbaycanın görkəmli ziyalısı Firudin bəy Köçərli türk hərbi əsirləri ilə görüşü barədə öz xatirələrində yazırdı: "Sakini olduğum Qori şəhərində Osmanlı xəstə əsirləri bir-bir yoluxurdum və hər dəfə də şəfqət bacılarından, təbiblərdən onlar haqqında iltifat və mərhəmət gördükdə ürəyim başqa hislərlə dolur və ümumi qardaşlığa etiqadım artırdı".[3]



Türk hərbi əsirlərinin müəyyən hissəsi Qars vilayətinin müxtəlif bölgələrində düşərgələr təşkil olunaraq saxlanılırdı. Türk hərbi əsirlərinin saxlandığı düşərgələrdən biri də Sarıqamışda təşkil olunmuşdu. Sarıqamışda saxlanılan türk hərbi əsirlərinə yardım işinin təşkili üçün "Bakı Müsəlman

---

[1] Nağı Keykurin. Nağıbəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri. Bakı, 2007.

[2] Nağı Keykurin. Nağıbəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri. Bakı, 2007.

[3] Firudin bəy Köçərli. Müharibə meydanında millətlərin birləşməsi. "Qardaş köməyi" 1917-ci il, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi. Qardaş köməyi dərgisi.

Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsi lazımi tədbirlər həyata keçirirdi.

1915-ci ilin fevralında Sarıqamışda saxlanılan türk hərbi əsirlərinə yardım etmək üçün "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinin müraciəti ilə Sarıqamış hərbi komendantı general Voronovdan rəsmi icazə alınmışdı.[1] Bu icazə əsasında cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara kömək bölməsi" tərəfindən hərbi əsirlərə yataq və isti geyim əşyaları çatdırılmış, onların vəziyyəti barədə məlumatlar əldə edilmişdi.[2] Cəmiyyətin Sarıqamışda fəaliyyət göstərən dəstələri tərəfindən Qars Komitəsinə verilən məlumatda bildirilirdi ki, Sarıqamışda saxlanılan türk hərbi əsirləri arasında yaralı və xəstə olanlar vardır. Qısa vaxt ərzində, cəmiyyət tərəfindən Bakıdan bu əraziyə, hərbi əsirlərə tibbi yardım məqsədilə bir həkim və iki tibb bacısı ezam olunmuşdu.[3] Qeyd edək ki, həmin həkim cəmiyyətin Sarıqamışda nümayəndəsi doktor Məmməd Rza bəy Vəkilov idi.[4]



"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsi tərəfindən Qars vilayətinin müxtəlif ərazilərində fəaliyyət göstərən dəstələrə xüsusi tapşırıq verilmişdi ki, ərazilərdə türk hərbi əsirlərinin olub-olmaması barədə məlumat versinlər.

1915-ci ilin aprelində Qars vilayəti üzrə Komitənin "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarə heyətinə verdiyi məlumatda bildirilirdi ki, Sarıqamışdan 12 vert kənarda Xaməlili kəndində türk hərbi əsirləri saxlanılır, həmin kənddən bir qədər kənardakı Bozaz kəndində isə türk qaçqınları

[1] Kaspi, 8 fevral 1915, № 30.

[2] Kaspi, 8 fevral 1915, № 30.

[3] Kaspi, 8 fevral 1915, № 30.

[4] Kaspi, 12 fevral 1915, № 33.

sığınacaq tapmışldar.[1] Bu məlumat əsasında cəmiyyətin "Müharibədən zərər çəkən müsəlmanlara kömək üzrə bölməsi" tərəfindən türk əsirlərinə və türk *qaçqınlarına* lazım olanları aydınlaşdırmaq, ilkin tədbirlərin görülməsi məqsədilə Qars nümayəndəliyinə xüsusi tapşırıq verilmişdi. [2]

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsi nümayəndələrinin mütəmadi olaraq türk hərbçiləri ilə görüşləri keçirilirdi. Bu görüşlər türk hərbi əsirlərinə böyük mənəvi dəstək idi. Belə görüşlərdən biri Batumda təşkil olunmuşdu. Qars Komitəsinin sədri Xosrov Paşa bəy Sultanovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti (qeyd edək ki, bu yalnız Qars vilayətində fəaliyyət göstərən yardımçı dəstə üzvlərindən ibarət idi) ilə türk hərbçilərinin görüşü keçirilmişdi.[3]



Xosrov Paşa bəy Sultanov türk hərbçilərinə yardım göstərilməsi məqsədilə lazımi qədər vəsait ayrılması üçün Rusiya Dövlət Dumasının deputatı Məmməd Yusif Cəfərova[4] müraciət etmişdi.[5] Bu səbəbdən Məmməd Yusif Cəfərov Qafqazda Qaçqınların Yerləşdirilməsi üzrə baş müvəkkil general Tamamşevə müraciət etmişdi. Müraciətdə həmçinin bildirilirdi ki, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" bu

---

[1] Baku, 4 aprel 1915, № 73.

[2] Baku, 4 aprel 1915, № 73.

[3] Yeni İqbal, 13 dekabr 1916, № 480.

[4] Cəfərov Məmməd Yusif (1885-1938) – Bakı Gimnaziyasının, daha sonra Moskva İmperator Universitetinin hüquq fakültəsinin məzunu olmuşdur (1912). Bakı, Yelizavetpol və İrəvan quberniyalarının müsəlman əhalisi üzrə IV Dövlət Dumasının üzvü olmuşdur. 1917-ci ilə qədər kadet, sonra müsavatçı olmuşdur. Zaqafqaziya Komissarlığının üzvü, Azərbaycan Demokratik Respublikasının Ticarət və Sənaye naziri olmuşdur. 1920-ci ildə Türkiyəyə mühacirət etmişdir.

[5] Yeni İqbal, 13 dekabr 1916, № 480.

məqsədlə ayrılan vəsaitin cəmiyyətin smetasına əlavə olunmasına etiraz etmir. [1]

Beləliklə, Rusiya imperiyasının tərkibində olduğu halda, müharibə aparılan Osmanlı dövlətinin hərbi əsirlərinə əsl qardaşlıq münasibəti göstərən, bunun göstəricisi olaraq, tərkibində bir nəfər azərbaycanlı xanım – Sona xanım Hacıyeva olmaqla Azərbaycanın bir qrup görkəmli ziyalı və iş adamları tərəfindən Nargin adasından türk hərbi əsir zabitlərinin qaçırılması faktı, azərbaycanlı gənclərin müraciəti ilə Yelizavetpol dəmiryolu dayanacağında hərbi əsirlər üçün xəstəxananın açılması, Qars vilayətində, Sarıqamışda türk hərbi əsirlərinin saxlandığı hərbi düşərgələrə yardım və s. böyük tarixi siyasi əhəmiyyətə malik idi.



[1] Yeni İqbal, 13 dekabr 1916, № 480.

# NƏTİCƏ

Üç qitədə hakimiyyəti altında yaşayan xalqları uzun əsrlər boyu ədalətlə idarə edən Osmanlı dövlətini parçalamaq, ərazilərini ələ keçirmək uğrunda böyük dövlətlərin apardığı mübarizədə Birinci Dünya müharibəsi xüsusi yer tutur. Tarixi sənədlər göstərir ki, bir çox Avropa, eləcə də dünya dövlətlərinin Osmanlı torpaqlarını ələ keçirməklə bağlı planları olmuşdur. Bu planların məhv edilməsi istəyi, müharibəyə tam hazır olmayan Osmanlı dövlətini Birinci Dünya müharibəsinə aparan başlıca səbəb oldu.

Qafqaz cəbhəsində aparılan hərbi əməliyyatlarda Rusiyanın və digər Avropa dövlətlərinin alətinə çevrilmiş erməni faktoru xüsusi bir cərəyan təşkil edirdi. İxtilaf dövlətləri həm imperiya daxilində, həm də xaricdəki erməniləri silahlandırıb, onlara müstəqillik vəd edərək, Osmanlı dövlətini qısa vaxt ərzində parçalamaq məqsədilə fəaliyyətini artırmışdılar.

Apardığımız araşdırmalar, Birinci Dünya müharibəsində Rusiya və digər ixtilaf dövlətləri ilə əməkdaşlıq, erməni silahlandırılmaları, rus qoşunları tərkibində könüllü erməni silahlı dəstələrinin yaradılması “erməni soyqırımı” iddialarının tamamilə əsassız olduğunu sübut edir.



Birinci Dünya müharibəsində Blok dövlətlərinin apardığı hərbi əməliyyatlar, xüsusilə Qafqaz cəbhəsində Rusiya və Türkiyə arasında hərbi əməliyyatlar Azərbaycanın ictimai-siyasi həyatına da öz təsirini göstərirdi. Bakı mətbuatında Türkiyəni dəstəkləyən yazılar dərc olunur, yerli əhali arasında türkçülük və islamçılıq ideyaları təbliğ olunur, Rusiya əleyhinə hərəkətlər artırdı. Türkiyəyə meyillilik gənclər arasında daha aydın şəkildə görünməkdə idi. Türkiyənin müharibəyə qoşulması ilə bir çox azərbaycanlı gənclər Türkiyə sərhədlərini keçərək rus ordusuna qarşı vuruşurdular. Rusiya xüsusi orqanları tərəfindən Qafqazda müsəlmanların yaşadıqları bütün ərazilər nəzarətə götürülmüşdü. Rusiya jandarm idarələrnin məxfi yazışmalarında, Azərbaycan ərazisinə Türkiyə tərəfindən çoxlu sayda silah sursat daxil olması barədə məlumatlar öz əksini tapırdı.

Qafqaz cəbhəsində baş verən hadisələr, rus qoşunları tərkibində erməni silahlı dəstələri tərəfindən törədilən qətliam faktları, on minlərlə türk-müsəlman əhalisinin qaçqın düşməsi və digər bununla bağlı məlumatlar, Rusiya Dövlət Dumasının azərbaycanlı deputatları tərəfindən ali rəsmi şəxslərə çatdırılır, türk-müsəlman əhalisinə kömək olunmasının vacibliyi bildirilirdi. Aparılan danışırların nəticəsi olaraq, Rusiya Dövlət Dumasının qərarı ilə müharibədə evləri dağıdılmış, qaçqın və müharibədən zərər çəkmiş bütün insanlara, o cümlədən türk-müsəlman əhalisinə yardım olunması barədə qərar qəbul olunmuşdur.

Rəsmi icazədən sonra Qars vilayətinə Azərbaycanın görkəmli ziyalıları və sahibkarlarından ibarət nümayəndə heyəti göndərilmişdir. Qars vilayətində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım işinin təşkili üzrə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars Komitəsi yaradılmışdır. Komitəyə fəaliyyət göstərdiyi 4 il müddətində sonralar Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri olmuş Xosrov Paşa bəy Sultanov rəhbərlik edirdi. Qars Komitəsindən sonra eyni məqsədlə Azərbaycanın bütün bölgələrində – İrəvan, Naxçıvan, Gəncə, Şuşa, Lənkəran, Dərbənd və digər ərazilərdə, həmçinin Rusiya imperiyasının mərkəzi şəhərlərində – Moskva, Peterburq, Kazan, Orenburq və digər şəhərlərində komitələr yaradıldı. Bütün komitələr eyni məqsədlə – qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə yaradılmışdır. Hər bir komitənin nəzdində türk qaçqın uşaqları üçün uşaq evləri fəaliyyət göstərirdi. Uşaq evlərində uşaqlara ana dilində təhsil verməklə yanaşı, onlara sənət təhsili öyrədilirdi.

Qafqaz cəbhəsində hərbi əməliyyatlar nəticəsində qaçqın və müharibədən zərər çəkən türk-müsəlman əhalisinə yardım məqsədilə Rusiya imperiyasının müxtəlif şəhərlərində ali təhsil ocaqlarında oxuyan azərbaycanlı tələbələr səfərbər olunaraq, döyüş bölgələrinə gedir, yardım üzrə səyyar tibbi dəstələrdə, həmçinin tibbi məntəqələrdə və ərzaq yardımlarının paylanması üzrə dəstələrdə çalışırdılar.

Beləliklə, Birinci Dünya müharibəsində Qafqaz cəbhəsi – Rusiya və Türkiyənin qarşı-qarşıya gəldiyi müharibə Osmanlı

dövlətini parçalamaq barədə planları açmaq, müharibə ərəfəsində yenicə müharibədən çıxmış bir dövlətin gücünün, o cümlədən siyasi, iqtisadi və hərbi gücünün zəifləmiş olduğu bir dönəmdə belə ona qarşı hazırlanmış planların iflasa uğradılması ilə yenilməzliyini sübut etdi. Digər tərəfdən, Birinci Dünya müharibəsəndə Qafqaz cəbhəsində hərbi türk millətinin məğlubedilməzliyinin, milli birliyinin sınağı idi və bu, millətin daha da möhkəmlənməsi, uğurlu gələcəyinin inkişafı üçün meydan açmış oldu.

## İSTİFADƏ OLUNAN MƏNBƏLƏR

### AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT TARİX ARXİVİ



**Fond 1 – Qafqaz Canişinin Dəftərxanası Fondu**
Fond 1 - siyahı 1, saxlama vahidi 1496
Fond 1 - siyahı 1, saxlama vahidi 1497
Fond 1 - siyahı 1, saxlama vahidi 1499
Fond 1 - siyahı 1, saxlama vahidi 1502
Fond 1 - siyahı 1, saxlama vahidi 1504
Fond 1 - siyahı 1, saxlama vahidi 1506

**Fond 46 – Bakı Şəhər İdarəsinin Dəftərxanası Fondu**
Fond 46 - siyahı 1, saxlama vahidi 364
Fond 46 - siyahı 2, saxlama vahidi 395
Fond 46 - siyahı 4, saxlama vahidi 465

**Fond 288 - Zaqafqaziya Şeyxülislamının Dəftərxanası Fondu**
Fond 288 - siyahı 2, saxlama vahidi 288

**Fond 334 – Müharibədən zərər çəkənlərə kömək üzrə Bakı Quberniya Komitəsi Fondu**
Fond 334 - siyahı 1, saxlama vahidi 1
Fond 334 - siyahı 1, saxlama vahidi 11

**Fond 335 - "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Müharibədə Zərər Çəkən və Qaçqın Müsəlmanlara Kömək üzrə Müvəkkilinin Fondu**
Fond 335 - siyahı 1, saxlama vahidi 1
Fond 335 - siyahı 1, saxlama vahidi 2
**Fond 389 - Bakı Şəhər İdarəsi Fondu (fond 389)**
Fond 389 - siyahı 2, saxlama vahidi 288

**Fond 421 - Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti Fondu**
Fond 421 - siyahı 1, saxlama vahidi 14
Fond 421 - siyahı 1, saxlama vahidi 17
Fond 421 - siyahı 1, saxlama vahidi 19
Fond 421 - siyahı 1, iş 28

**Fond 86 -**
Fond 86 - siyahı 1, saxlama vahidi 27 a

**Fond 495 - Bakı Polismeystrliyi Fondu**
Fond 495 - siyahı 1, saxlama vahidi 21
Fond 495 - siyahı 1, saxlama vahidi 77
Fond 495 - siyahı 1, saxlama vahidi 85
Fond 495 - siyahı 1, saxlama vahidi 124

**Fond 524 - Azərbaycanda inqilab əleyhinə müsavat hökumətinin Xarici İşlər Nazirliyi nəzdində müsəlmanlara aid Zaqafqaziyada rus siyasəti üzrə materialların toplanmasına dair xüsusi komissiyanın Fondu**
Fond 524 - siyahı 1, iş 5
Fond 524 - siyahı 1, iş 38
Fond 524 - siyahı 1, iş 39

**RUSİYA DÖVLƏT HƏRBİ DƏNİZ DONANMASI ARXİVİ**
Fond 2100 - siyahı 1, iş 681

## QƏZETLƏR

**Azərbaycan dilində**
Açıq söz, 22 Oktyabr, 1915, № 17
Bəsirət, 17 Yanvar, 1915, № 36
Bəsirət, 6 Fevral, 1916, № 79
Bəsirət, 16 Avqust 1914, № 17
Bəsirət, 30 Avqust 1914, №19
Bəsirət, 6 Sentyabr 1914, № 20
Bəsirət, 11 Sentyabr 1914, № 25
Bəsirət, 27 Sentyabr 1914, № 23
Qardaş köməyi №1, 1917
İqdam, 24 fevral 1915, № 54
İqdam, 6 Mart, 1915, № 63
İqdam, 8 Mart, 1915, № 64
İqdam, 9 Mart, 1915, № 65
Yeni İqbal, 22 Sentyabr 1915, № 124
Yeni İqbal, 25 Sentyabr 1915, № 127
Yeni İqbal, 13 Dekabr, 1916, № 480

**Rus dilində**
Baku, 9 Yanvar, 1916, № 6
Baku, 14 Yanvar, 1915, № 10
Baku, 15 Yanvar, 1915, № 11
Baku, 24 Yanvar, 1915, № 19
Baku, 30 Yanvar, 1915, № 24
Baku, 31 Yanvar 1915, № 25
Baku, 7 Fevral, 1915, № 29
Baku, 14 Fevral, 1915, № 35
Baku, 17 Fevral, 1915, № 37
Baku, 19 Fevral, 1915, № 39
Baku, 20 Fevral, 1915, № 40
Baku, 22 Fevral, 1915, № 42
Baku, 25 Fevral, 1915, № 44
Baku, 3 Mart, 1915, № 49
Baku, 5 Mart, 1915, № 51

Baku, 19 Mart, 1915, № 63
Baku, 20 Mart, 1915, № 64
Baku, 27 Mart, 1915, № 66
Baku, 28 Mart, 1915, № 67
Baku, 29 Mart, 1915, № 68
Baku, 2 Aprel, 1915, № 71
Baku, 4 Aprel, 1915, № 73
Baku, 8 Aprel, 1915, № 76
Baku, 15 Aprel, 1915, № 82
Baku, 21 Aprel, 1915, № 87
Baku, 24 Aprel, 1915, № 90
Baku, 27 Aprel, 1915, № 265
Baku, 2 May 1915, № 96
Baku, 6 May 1915, № 99
Baku, 8 May 1915, № 101
Baku, 23 May 1915, № 112
Baku, 5 İyun 1915, № 123
Baku, 17 Oktyabr 1915, № 231
Baku, 20 Oktyabr 1915, № 233
Baku, 21 Oktyabr 1915, № 234
Baku, 3 Noyabr 1915, № 245
Baku, 17 Noyabr 1915, № 257
Baku, 27 Noyabr 1915, № 265
Baku, 2 Dekabr, 1915, № 269
Baku, 8 Dekabr, 1915, № 274
Baku, 5 Fevral, 1916, № 28
Kaspi, 17 Sentyabr 1914, № 207
Kaspi, 6 Noyabr 1914, № 249
Kaspi, 7 Noyabr 1914, № 250
Kaspi, 8 Noyabr 1914, № 251
Kaspi, 11 Noyabr 1914, № 253
Kaspi, 26 Noyabr 1914, № 265
Kaspi, 2 dekabr 1914, № 270
Kaspi, 6 Dekabr 1914, № 274
Kaspi, 23 Dekabr, 1914, № 287
Kaspi, 4 Yanvar, 1915, № 2

Kaspi, 6 Yanvar, 1915, № 4
Kaspi, 10 Yanvar, 1915, № 7
Kaspi, 11 Yanvar, 1915, № 8
Kaspi, 13 Yanvar, 1915, № 9
Kaspi, 20 Yanvar, 1915, № 15
Kaspi, 25 Yanvar, 1915, № 20
Kaspi, 27 Yanvar, 1915, № 21
Kaspi, 30 Yanvar, 1915, № 24
Kaspi, 2 Fevral, 1917, № 27
Kaspi, 8 Fevral, 1915, № 30
Kaspi, 9 Fevral, 1915, № 77
Kaaspi, 10 Fevral, 1915, № 31
Kaspi, 11 Fevral, 1915, № 32
Kaspi, 12 Fevral, 1915, № 33
Kaspi, 13 Fevral, 1915, № 34
Kaspi, 14 Fevral, 19115, № 35
Kaspi, 15 Fevral, 1915, № 36
Kaspi 17 Fevral, 1915, № 37
Kaspi, 19 Fevral, 1915, № 86
Kaspi, 20 Fevral, 1915, № 40
Kaspi, 21 Fevral, 1917, № 41
Kaspi, 22 Fevral, 1915, № 42
Kaspi, 25 Fevral, 1915, № 44
Kaspi, 1 Mart, 1915, № 48
Kaspi, 5 Mart, 1915, № 51
Kaspi, 6 Mart, 1915, № 52
Kaspi, 7 Mart, 1915, № 53
Kaspi, 8  Mart, 1915, № 54
Kaspi, 9 Mart, 1917, № 55
Kaspi, 10 Mart, 1915, № 55
Kaspi, 11 Mart, 1915, № 56
Kaspi, 13 Mart, 1915, № 58
Kaspi, 14 Mart, 1915, № 59
Kaspi, 17 Mart, 1915, № 61
Kaspi, 19 Mart, 1915, № 63
Kaspi, 20 Mart, 1915, № 64

Kaspi, 1 Aprel, 1915, № 70
Kaspi, 3 Aprel, 1915, № 72
Kaspi, 5 Aprel, 1915, № 74
Kaspi, 8 Aprel, 1915, № 76
Kaspi, 10 Aprel, 1915, № 78
Kaspi, 11 Aprel, 1915, № 79
Kaspi, 17 Aprel, 1915, № 84
Kaspi, 19 Aprel, 1915, № 86
Kaspi, 21 Aprel, 1915, № 87
Kaspi, 23 Aprel, 1915, № 89
Kaspi, 24 Aprel, 1915, № 90
Kaspi, 25 Aprel, 1915, № 91
Kaspi, 26 Aprel, 1915, № 92
Kaspi, 30 Aprel, 1915, № 95
Kaspi, 3 May 1915, № 97
Kaspi, 5 May 1915, № 98
Kaspi, 6 May 1915, № 99
Kaspi, 16 May 1915, № 106
Kaspi, 17 May 1915, № 107
Kaspi, 19 May 1915, № 108
Kaspi, 21 May 1915, № 109
Kaspi, 26 May 1915, № 114
Kaspi, 28 May 1915, № 116
Kaspi, 6 İyun 1915, № 124
Kaspi, 12 İyun 1915, № 129
Kaspi, 17 İyun 915, № 133
Kaspi, 18 İyun 1915, № 134
Kaspi, 17 İyun 1915, № 133
Kaspi, 18 İyun 1915, № 134
Kaspi, 20 İyun 1915, № 136
Kaspi, 25 İyun 1915, № 105
Kaspi, 26 İyun 1915, № 141
Kaspi, 1 İyul, 1915, № 144
Kaspi, 3 İyul, 1915, № 146
Kaspi, 8 İyul, 1915, № 150
Kaspi, 15 İyul, 1915, № 156

Kaspi, 16 İyul, 1915, № 157
Kaspi, 17 İyul, 1915, № 158
Kaspi, 18 İyul, 1915, № 159
Kaspi, 22 İyul, 1915, № 162
Kaspi, 24 İyul 1915, № 164
Kaspi, 25 İyul 1915, № 165
Kaspi, 28 İyul 1915, № 167
Kaspi, 31 İyul 1915, № 170
Kaspi, 8 Avqust 1915, № 176
Kaspi, 11 Avqust 1915, № 178
Kaspi, 12 Avqust 1915, № 179
Kaspi, 15 Avqust 1915, № 182
Kaspi, 22 Avqust 1915, № 187
Kaspi, 26 Avqust 1915, № 190
Kaspi, 28 Avqust 1915, № 192
Kaspi, 1 Sentyabr 1915, № 194
Kaspi, 5 Sentyabr 1915, № 198
Kaspi, 6 Sentyabr 1915, № 199
Kaspi, 11 Sentyabr 1915, № 202
Kaspi, 12 Sentyabr 1915, № 203
Kaspi, 15 Sentyabr 1915, № 256
Kaspi, 16 Sentyabr 1915, № 205
Kaspi, 18 Sentyabr 1915, № 207
Kaspi, 19 Sentyabr 1915, № 208
Kaspi, 20 Sentyabr 1915, № 209
Kaspi, 23 Sentyabr 1915, № 211
Kaspi, 4 Oktyabr 1915, № 220
Kaspi, 10 Oktyabr 1915, № 215
Kaspi, 13 Oktyabr 1915, № 227
Kaspi, 15 Oktyabr 1915, № 229
Kaspi, 17 Oktyabr 1915, № 231
Kaspi, 21 Oktyabr 1915, № 234
Kaspi, 22 Oktyabr 1915, № 235
Kaspi, 25 Oktyabr 1915, № 238
Kaspi, 27 Oktyabr 1915, № 239
Kaspi, 29 Oktyabr 1915, № 241

Kaspi, 3 Noyabr 1915, № 245
Kaspi, 5 Noyabr 1915, № 247
Kaspi, 10 Noyabr 1915, № 251
Kaspi, 11 Noyabr 1915, № 252
Kaspi, 13 Noyabr 1915, № 254
Kaspi, 14 Noyabr 1915, № 255
Kaspi, 15 Noyabr 1915, № 256
Kaspi, 17 Noyabr 1915, № 257
Kaspi, 19 Noyabr 1915, № 259
Kaspi, 24 Noyabr 1915, № 262
Kaspi, 25 Noyabr 1915, № 263
Kaspi, 26 Noyabr 1915, № 264
Kaspi, 27 Noyabr 1915, № 265
Kaspi, 28 Noyabr 1915, № 266
Kaspi, 1 Dekabr, 1915, № 268
Kaspi, 2 Dekabr, 1914, № 270
Kaspi, 4 Dekabr, 1915, № 271
Kaspi, 6 Dekabr, 1915, № 273
Kaspi, 10 Dekabr, 1914, № 276
Kaspi, 11 Dekabr, 1915, № 277
Kaspi, 12 Dekabr, 1915, № 278
Kaspi, 13 Dekabr, 1915, № 279
Kaspi, 15 Dekabr, 1915, № 280
Kaspi, 17 Dekabr, 1914, № 282
Kaspi, 18 Dekabr, 1915, № 283
Kaspi, 19 Dekabr, 1915, № 284
Kaspi, 20 Dekabr, 1915, № 285
Kaspi, 30 Dekabr, 1915, № 291
Kaspi, 31 Dekabr, 1915, № 292
Kaspi, 13 Yanvar, 1917, № 10
Kaspi, 25 Yanvar, 1917, № 20
Kaspu, 28 Yanvar, 1917, № 23
Kaspi, 31 Yanvar, 1917, № 25
Kaspi, 2 Fevral, 1917, № 27
Kaspi, 21 Fevral, 1917, № 41

## Nəşr olunmuş mənbələr və ədəbiyyat


***Azərbaycan dilində***

Azərbaycan tarixi. 7 cildlik. V cild, B., 2004

İbrahimov X. Bir daha qaçqınlar haqqında. "Yeni İqbal" 25 sentyabr 1915, №127

Dilarə Seyidzadə. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, 2004

Kamil Muxtarov. Osmanlı İmperiyası Birinci Dünya müharibəsi ərəfəsində. Türkiyə Cümhuriyyətinin 75 illiyi və Mustafa Kamal Atatürkün xatirəsinə həsr edilmiş elmi konfransın (Bakı, 9 noyabr 1998-ci il və Osmanlı İmperiyasının 700 illiyinə həsr edilmiş elmi sessiyanın (Bakı, 7 may 1999-cu il) materialları,

Manaf Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. B., 1989

Məmməd Yusif Cəfərov. "Müsəlman hərbzadələrinə yardım işi və müsəlman vəkilləri". "Qardaş köməyi" dərgisi

Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, B., Nicat, 1992

Musa Qasımov. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. Bakı, 2000

Nağı Keykurin. Nağı bəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fəadailəri. B., 2007

Ömər Faiq Nemanzadə. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1992, s.211; "İqbal" qəzeti, 21 yanvar 1915, № 844

Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. B. Elm, 1990

Türkiyə Respublikası və Osmanlı dövləti, Bakı. Elm, 2000, s.226

Xosrov Paşa bəy Sultanov. "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi" hərbzadələrə yardım şöbəsinin fəaliyyəti, "Qardaş köməyi" dərgisi

***Türk dilində***

Arşiv belgelerine göre kafkaslarda ve Anadoluda Ermeni mezalimi, III, 1919-1920, T.C. Başbakanlıq Devlet Arşivleri Genel Müdürlüğü, Osmanlı Arşivi Daire Başqanlığı, Yayın Nu: 34, Ankara 1997

Azmi Süslü. Ermeniler ve 1915 Tehcir olayı, Ankara, 1990

Betül Aslan. Kardaş Kömeği (Yardımı) ve Bakü Müslüman Cemiyeti Hayriyesi, İstanbul, 2000

Burak Çınar. Birinci Dünya Savaşı'nda Osmanlı Jeopolitiğinin Rolü. Role of the Ottoman Geopolitics During the First World War, 2014
Birinci Dünya harbində türk harbi, Kavkaz cebhesi 3, Ankara, 1993, cild I-II
Cem-Ender Arslanoğlu, Kars Şehitliklerimiz ve Mehmetçiğimiz (16 Ağustos 1064 - 30 ekim 1920), Türkiye Anıtlar Derneği Yayınları, 2001
Ermeniler tarafından yapılan Katliam belgeleri (1919-1921), II, Dokuments on Massacre Perpetrated by Armenians, T.C. Başbakanlıq Devlet Arşivleri Genel Müdürlüğü, Osmanlı Arşivi Daire Başqanlığı, Yayın Nu: 50, Ankara, 2001
Halil Bal. Azerbayca Cümhuriyyətinin kurtuluş mücadilesi ve Kafqas İslam Ordusu. İstanbul, 2010
İsmet Binark. Ermenilərin türklərə yapdıqları mezalim və soykırımın arşıv belgeleri. Ankara, 2001
Pierre Renouvin. Birinci Dünya Savaşı Tarihi, (1914-1918), cild I, Ankara, 1969
Şerafettin Turan. Türk Devrim Tarihi (İmperatorluğun Göksündən Ulusal Direnişe.). Ankara, Bilgi yayım evi, 1991
Yusif Hikmet Bayur. Türk inqilabi tarihi. Cilt III, 1914-1918. Genel savaşı, Savaşın başından 1914-1915 kışına kadar, Ankara, Türk Tarih Kurumu Basımevi, 1983



***Rus dilində***

Готлиб В.В. Тайная дипломатия во время первой мировой войны. М., 1960
Джастин Маккарти, Каролин Маккарти. Тюрки и армяне, Руководство по армянскому вопросу. Перовод с английского, Азербайджанское государственное издательство, Баку – 1996
Документы по русской политике в Закавказьи, выпуск первый, Издание Особой Комиссии при Министерстве Иностранных Дель Азербайджанской Республики. Баку, 1920, с.94

Ключников Ю.В., Сабанин А. Международная политика новейщего времени в договлрах, нотах и декларациях. Ч.II, М., 1926, док. № 4
Ключников Юрий Вениаминович, Сабанин Андрей Владимирович. Международная политика новейшего времени в договорах, нотах и декларациях Ч.II, М., 1926, док. № 10
Корсун Н.Г. Кавказский фронт Первой Мировой войны. Москва, 2004
Лиддел.-Гарт. Правда о войне 1914-1918 гг., М., 1935
Лудщувейт Е.Ф. Турция в годы Первой Мировой Войны 1914-1918 гг. (Военно-политический очерк) Moskva, 1966
Маккарти Дж. Маккарти К. Тюрки и армяне. Руководство по армянскому вопросу. Б., Азернешр, 1996
Миллер А.Ф. Очерки новейшей истории Турции. М., Л., Наука, 1948
Сеидзаде Д.Б. Азербайджанские депутаты в Государственной Думе России. Баку, 1991
Пахалюк К.А. Лагер на острове Нарген (1915-1918 гг.)
Тейлор А.Дж. Борьба за господства в Европе, 1848-1918. М., 1958
Хаджар Вердиева. Первая мировая война и беженцы – мусульмане Кавказа, ”İrs” jurnalı, № 2 (44)

***İngilis dilində***

Taylor A.J.P. English History, 1914-1945, Oxford, New York, 19175
Wehler Hans Ulrish, The German Empire, 1871-1918, Translated from the German by Kim Traynor, Oxford, 1993

***İnternet səhifəsi***

http://www.ipolitics.ru/articles/exams/istoriia/mezhdunarodniie_otnosheniia_v_period_pervoij_mirov.shtml
http://www.ipolitics.ru/articles/exams/istoriia/mezhdunarodniie_otnosheniia_v_period_pervoij_mirov.shtml

**NÜŞABƏ MƏMMƏDOVA**

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ QAFQAZ CƏBHƏSİ

QAÇQINLAR VƏ HƏRBİ ƏSİRLƏR

Redaktoru ***Sevinc Nuruqızı***
Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Dizayneri ***Zahid Məmmədov***
Korrektoru ***Ülkər Hüseynova***



Çapa imzalanmışdır 12.10.2019. Kağız formatı 60x84$^{1}/_{16}$.
Fiziki çap vərəqi 26,5. Sifariş 63. Tiraj 500.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.
Bakı, AZ 1052, F.Xoyski küç., 149
Tel.: (+994 12) 567-81-28/29
e-mail: tahsil_az@yahoo.com